Yəhya Əbdülhəsən Duxi

İbn Teymiyyənin

TÖVHİD İNANCI

müqayisəli elmi-tənqidi araşdırma

313news

Yəhya Əbdülhəsən Duxi

İbn Teymiyyənin tövhid inancı

(müqayisəli elmi-tənqidi araşdırma)

Layihə rəhbəri: 313news.net

Tərcüməçi: Hacı Ramil Aslanlı

Bu kiçik əməyi haqq carçıları və həqiqət sorağında olan hər bir kəsə ithaf edirəm...
Allah-taaladan razı qalıb qəbul etməsini diləyirəm...

MÜNDƏRİCAT

Ön söz 7
Mövzunun əhəmiyyəti 11
Birinci bab: Müqəddimə mövzular 19
Birinci fəsil: İbn Teymiyyənin həyatından bəzi məqamlar 19
İbn Teymiyyənin tərcümeyi-halı 20
İbn Teymiyyə ləqəbi ilə adlandırılmasının səbəbi 20
Diskussiya edərkən sərt və kobud olması barədə 21
Peyğəmbər (s) barədə dedikləri 23
İmam Əli (ə) barədə dedikləri 24
Fatimeyi-Zəhra (əleyha salam) barədə sözləri 26
İmam Sadiqə (ə) qarşı cürəti 28
İmam Rzanı (ə) təhqir etməsi 30
İbn Teymiyyənin üzləşdiyi problemlər 32
İbn Teymiyyənin etirafı və tövbəsi 38
Alimlərin İbn Teymiyyə barəsində rəy və fətvaları 41
İkinci fəsil: İbn Teymiyyənin tövhid barəsində rəyi və sələfi təfəkküründə bunun təsiri 61
Zəhəbi zati enmə barədə söhbət etməkdən çəkinməyi tövsiyə edir. 64
Əbu Zöhrə İbn Teymiyyənin təcsimə inandığını sübuta yetirir. 66
Sələfi məsləyini heyrətə salan suallar. 69
Vəhhabilik İbn Teymiyyə təfəkkürünün varisidir 71
İkinci bab: İbn Teymiyyənin nəzərində tövhidin qisimləri və onun özünəməxsus əqidəsi 78
Birinci fəsil: Üluhiyyət və rübubiyyətdə tövhid 78
Üluhiyyət və rübubiyyətdə tövhid 78
İbn Teymiyyənin sözlərindən sitatlar 78
Rübubiyyət məfhumunun doğru mənası 89
Əzhərin bu bölgünü rədd etməsi 90
Tövhidin ikili bölgüsünün nəticəsi 94
İkinci fəsil: Adların və sifətlərin tövhidi 99
Sifətlər barədə ayələr və hədislər 100
İbn Teymiyyənin sözlərində təcsim 105

Üçüncü fəsil: Tövhid əqidəsi barədə İbn Teymiyyənin özünəməxsus rəyləri 142
Dəyişikliklərin Allah-taalanın zatı ilə baş verməsi barədə İbn Teymiyyənin əqidəsi 142
Sünni və şiə alimlərinin bu əqidəyə qarşı çıxmaları 148
Allah-taalada hadis olan bir şeyin əvvəlinin olmaması barədə İbn Teymiyyənin əqidəsi 152
İbn Teymiyyədən iqtibaslar 153
Bu əqidənin tənqidi 156
Allah-taalanın hərf və səslə danışması barədə İbn Teymiyyənin əqidəsi 163
Bu əqidənin tənqidi 166
Alimlərin bu əqidəni batil hesab etmələri 168
Üçüncü bab: İbn Teymiyyənin şübhələri 172
Birinci fəsil: İbn Teymiyyənin məcazi mənanın və təvili inkar etməsi şübhəsi 172
Həqiqi mənanın tərifi 176
Məcazi mənanın tərifi 176
Təfsir alimləri məcazi mənadan istifadə etmişlər 184
Şafeinin sözü həqiqi və məcazi mənaya bölməməsi iddiası yalandır 189
İmam Şafeinin məcazi məna barədə qeyd etdiyi nümunələr 190
Məzhəb imamları məcazi mənanı qəbul edirlər 197
Mütəşabih və təvil 203
Sələf və xələfin təvilinə aid nümunələr 208
Sələfi məsləyinin müasir alimlərinin sifətlərin təvili məsələsində çaşqınlıqları 214
Təvil ayələrinin araşdırılması 223
İkinci fəsil: Hişam bin Həkəmin təcsim əqidəsində olması şübhəsi 226
İbn Teymiyyə Hişam bin Həkəmi təcsim əqidəsinə inanmaqda ittiham edir 226
Şübhənin cavabı 227
Hişam bin Həkəm tərcümeyi-hal kitablarında 231
Üçüncü fəsil: Hişam bin Salimin təcsim əqidəsinə inanması böhtanı 252
İbn Teymiyyənin surət hədisinə görə Hişam bin Salimi ittiham etməsi 252
Birinci məsələ: Bu hədisin sənədinin zəif olması 252
İkinci məsələ: Tərcümeyi-hal kitablarının müəlliflərinin Hişam bin Salimə bəraət qazandırması 255

Hişam bin Salimin Tövhid barəsində rəyi 255
Üçüncü məsələ: Surət hədisi əhli-sünnə mənbələrində 256
Fətva Komitəsinin surət hədisinin səhih olması barədə fətvası 258
İbn Useymin Allah-taalanın maddi surətinin olduğunu isbat edir 261
Dördüncü bab: Şiə əqidə əsaslarında tövhid 265
Birinci fəsil: İlahi sifətlər barəsində islami təsəvvürə qısa baxış 265
İlahi sifətlər məfhumu barədə ideoloji məktəblərin rəyləri 265
İkinci fəsil: Peyğəmbər (s) və əhli-beyt (ə) həqiqi tövhidi izah etmişdir 272
İlahi sifətlərin tənzihi barədə İmam Əlinin (ə) buyurduqları 273
Allahı görməyin inkarı 273
Allah-taalanın şərikinin inkarı 274
Allah-taalanı bütün sifətlərdən münəzzəh olduğunu bildirən "Əşbah" xütbəsi 275
Tövhidin kamilliyi (nöqsanlı) sifətlərin inkar edilməsidir 278
İmam Sadiqin (ə) Allah-taalanın münəzzəh olması barədə kəlamları 279
İmam Kazimin (ə) Allah-taalanın münəzzəh olması barədə kəlamları 280
İmam Rzanın (ə) tövhid barədə rəyi 281
Üçüncü fəsil: Şiə alimlərinin tövhid əqidəsi barədə rəyləri 284
Şiələrin sübuti və səlbi sifətlər barədə etiqadı 288
Mövzunun sonu 292
İstifadə olunmuş ədəbiyyat 296

Ön söz

Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Peyğəmbərlərin sonuncusu Muhəmməd və onun pak Əhli-beytinə salam və salavat olsun!

Şübhəsiz ki, tövhid elmi ən böyük və ən yüksək elmdir. Bu elmə yiyələnmək Allahın adları və sifətlərini bilməkdən asılıdır. Bu elm bizi Allah-taalanın ibadətinə sövq edir. Allah-taalaya ibadət ən yüksək hədəf və məqsəddir. ***"Cin və insanları yalnız Mənə ibadət etmələri üçün yaratmışam".***[1] Bu hədəfə çatmaq üçün bir neçə müqəddimə şərtlər öz əksini tapmalıdır.

Məlumdur ki, insan fitrəti və vicdanı Allaha ibadət etməyin ən böyük vacib əməllərdən olduğunu təsdiqləyir. Məhz elə bu cəhətdən Allah-taalanın adları və sifətlərini dərk etməyin əhəmiyyəti aydın olur. Buna görə də İmam Əlinin (ə) kəlamlarında bu mövzunun əhəmiyyətini bildirən məqamlara rast gəlirik:

"Dinin əvvəli Allahı tanımaqdır. Onu tanımağın kamilliyi Onu təsdiqləməkdir. Onu təsdiqləməyin kamilliyi Ona ixlaslı (səmimi) olmaqdır. Ona ixlaslı olmağın kamilliyi nöqsan sifətləri ona nisbət verməməkdir. Çünki söylənilən hər bir sifət vəsf olunandan fərqlidir və hər bir vəsf olunanın həqiqəti söylənilən sifətdən ayrıdır. Kim Allahı (layiq olmayan xüsusiyyətlərlə) vəsf edərsə onu başqasına bənzədər. Kim onu başqasına bənzədərsə, onu iki bilər. Kim onu iki bilərsə hissələrə ayırmış olar. Onu hissələrə bölən Onu tanımamışdır. Onu tanımayan Ona işarə edər. Ona işarə edən Onu hüdudlandırar. Onu hüdudlandıran Onu sıraya daxil edər…"[2]

---

[1] Zariyat, 56

[2] Nəhcül-bəlağə, c. 1, s. 14

Bu kəlamda müvəhhidlərin ağası dinin əvvəlini Allahı tanımaq və Onu təsdiqləmək, yəni tövhid bilgisi olduğuna işarə edir. Tövhid elminə vaqif olmaq üçün Allah-taalanın sifətlərini başqa sifətlərə bənzətmədən dərk etmək lazımdır. Allahın sifətlərini başqa sifətlərə bənzətmək ikilikdir. İkiliyin həqiqəti isə Onun hissələrə ayrılmasıdır. Hissələrə ayrımaq isə cahilliyin və tanımamanın nəticəsidir. Allah-taalaya işarə etmək Onun məhdud olmasına dəlalət edir. Onu məhdud bilən (Onunla yanaşı müstəqil varlıq olduğuna inandığı üçün) artıq Onu sıralandırmış olur. Bununla da əhədiyyətin (təkliyin) həqiqətindən çıxaraq ədədi vahidliyə inanmış olur. Bütün bunlar isə batildir.

İbn Qəyyim belə deyir: "Bəndə Rəbbin sifətlərinə iman gətirməyincə nə mərifətin, nə də imanın pilləsində qədəmləri sabit qalmaz. Bu sifətləri elə səviyyədə bilməlidir ki, onu Rəbbi tanımamaq həddindən çıxartsın. Allahın sifətlərini dərk etmək və iman gətirmək İslamın əsası, imanın kökü və ehsan (yaxşılıq) ağacının səmərəsidir..."[3]

Əbulqasim İsfəhani belə deyir: "Bəzi alimlər deyirlər: "Allahın yaratdıqlarına ilk vacib etdiyi əməl Onu tanımaqdır. İnsanlar Onu tanısalar, Ona ibadət edərlər. Allah-taala buyurur: ***"Bil ki, Allahdan başqa heç bir ilah yoxdur".***[4] Müsəlmanlar Allahın adlarını və təfsirini bilməli, Allahı layiqincə böyük tutmalıdırlar. Əgər bir insan başqası ilə yoldaşlıq edərsə, onun adını, künyəsini, atasının, babasının adını, böyük və kiçik işləri barədə soruşur. Bizi yaradan və bizə ruzi verən Allahdır. Biz Onun rəhmətinə ümid bəsləyir və Onun qəzəbindən qorxuruq. Buna görə də Onun adlarını və adların mənasını bilməyimiz daha önəmlidir..."[5]

[3] Mədəricul-salikin, c. 3, s. 347

[4] Muhəmməd, 18

[5] əl-Huccə fi bəyanil-məhəccə, c. 1, s. 132, 133

Deməli, İslam Allahı, sifətlərini və adlarını tanımaq və iman gətirmək üzərində qurulub. Bu bilgi İbn Qəyyimin təbiri ilə desək insanı Rəbbini tanımamaq həddindən çıxardır.

Qeyd etdiklərimizdən sonra "İstiva (qərar tutmaq, oturmaq) məlumdur. Keyfiyyət məchuldur. Buna iman gətirmək vacibdir. Bu haqda soruşmaq bidətdir"[6] kəlamını İmam Malikə nisbət verən şəxs[7] nəyə əsaslanır? Əgər bu barədə soruşmaq bidət olarsa Onu necə tanıya bilərik? Tanımamaq həddindən necə çıxa bilərik? Yuxarıda İsfəhaninin belə dediyini qeyd etmişdik: "Əgər bir insan başqası ilə yoldaşlıq edərsə, onun adını, künyəsini, atasının, babasının adını, böyük və kiçik işləri barədə soruşur. Bizi yaradan və bizə ruzi verən Allahdır...." İbadət olunması vacib olan Rəbbimizi tanımadan Ona necə ibadət edək? Halbuki Onu tanımaq Ona ibadət etməyin əsasıdır.

Buna əsasən də İmam Beyhəqi belə deyir: "Mərifətin (Allah tanımanın) həqiqəti Onun qədim varlıq və əzəli olan, fəna olmayan, təsəvvürə sığmayan, hissələrə bölünməyən, cövhər, ərəz və cism olmayan, zatı özündən olan, başqasına möhtac olmayan, diri, qüdrətli, alim, iradə edən, eşidən, görən, danışan olmasını bilməkdir. Onun həyat, qüdrət, elm, iradə, eşitmək, görmək və danışmaq sifətləri var. O, əzəldən bu sifətlərə sahibdir. Heç bir yaranmış bu sifətlərdə ona bənzəməz. Bu sifətlər barəsində "Odur, başqası deyil" və ya "Bu sifətlər Ondan (zatından) ayrıdır, Ona müxalifdir, Ona müvafiqdir və ya Ona (sonradan) gəlmişdir deyilməz. Bu sifətlər elə vəsflərdir ki, əzəldən Ondadır. Sonradan olan, ayrı və ya üzvlər deyil.

[6] Səfdiyyə, c. 1, s. 289. Bu rəvayətin araşdırılmasını qeyd edəcəyik. İmam Malik belə deməmişdir. Bunun keyfiyyəti ağılasığmazdır". Siyəru əlamin-nubəla, c. 8, s. 106. "Keyfiyyəti ağlasığmazdır" və ya bəzi rəvayətlərdə "Keyfiyyəti ona nisbət verilməz" sözündən məqsəd budur: Onun barəsində təcsim (cisimlilik) ağılasığmaz və təsəvvür olunmazdır.

[7] İbn Teymiyyə və onun ardıcıllarını nəzərdə tuturuq.

Ağılla təsəvvür olunmaz və zehində ona surət vermək mümkün deyil. Onun qüdrəti bütün qüdrətlərdən, elmi bütün elmlərdən, iradəsi bütün iradələrdən üstündür. Onun istəmədiyindən başqa heç nə olmaz. O, olmayan bir şey istəməz. O, hüdudlardan, cəhətlərdən, məkan və zamandan ucadır, ehtiyacsızdır...”[8]

Rəbbani məslək Allah-taalanın vəhdaniyyətinin mütləq tənzihi (nöqsan sifətlərdən uzaq olması) üzərində qurulub. Gözlər Onu dərk etməz, O, gözləri dərk edər. Heç bir şey Ona bənzəməz. Çünki O, qədimdir, əzəlidir. Onun vahid, əhəd və ehtiyacsız olması da qədimdəndir. Tövhid Onu təsəvvür etməməyimiz, ədl (Allahın ədalətli olması) isə Onu ittiham etməməyimizdədir. Xəyal Ona çatmaz ki, Onu təxmin etsin. Ağıl Onu xəyal edə bilməz ki, təsəvvür eləsin. Hiss üzvləri Ona yetişə bilməz ki, Onu hiss etsin. Əllər Ona çatmaz ki, Ona toxunsun. Buna görə də Onu təsəvvür etməməli, yuxarı, aşağı, enmək, qalxmaq, cəhət, məkan, zaman kimi Ona nöqsan gətirəcək sifətlər Ona nisbət verilməməlidir.

Qeyd etdiklərimizə əsasən bu kitab maddi məna ifadə məfhumlardan təsirlənən, Quran və hədislərin mətnlərinin ehtiva etdiyi sifətlərin həqiqi mənada izah etməyən metodun olmasını bəyan etmək üçün yazılmışdır. Bu, İbn Teymiyyənin metodur. Güman edirik ki, tövhidin dərk olunmasında onun əldə etdiyi əks nəticələr onun doğru olmayan prinsiplərə inanmasından irəli gəlmişdir. Həmçinin O, tövhidin “Rübubiyyətdə tövhid”, “Üluhiyyətdə tövhid”, “Sifətlərdə tövhid” kimi qisimlərini doğru anlamamış, Allah-taalanın zatında dəyişikliklərin olmasına etiqad etmiş, məcazi və batini mənanı inkar etmiş və qeyd edəcəyimiz digər əqidə məsələlərində hamıdan fərqli olaraq özünəməxsus etiqada sahib olmuşdur.

[8] Şuəbul-iman, c. 1, s. 113

Mövzunun əhəmiyyəti

Bu mövzunun əhəmiyyəti aşağıdakıladan ibarətdir.

1. İbn Teymiyyənin Quran ayələri və hədislərin təfsir və izahında həll edə bilmədiyi, xüsusilə, təcsim (cisimlilik) məsələsində şübhələrə düşməsinə səbəb olan özünəməxsus anlayışının olması. Müsəlmanların böyük əksəriyyətini ixtilaflı olduğu bəzi dini mətinlərin (Quran ayələri və hədislər) izahı.

2. Tövhid məfhumunda səhv və xətanın izahı. İkiliyə, üçlüyə və hissələrə bölünmək kimi fərziyyələrin rədd edilməsi. Onun təşbihə (bənzətməyə) və təcsimə (cisimliliyə) gətirib çıxaran əqidəsinin batil olmasının bəyanı.

3. Əhli-sünnə fəqihlərinin və alimlərinin Tövhid əqidəsində İbn Teymiyyənin nəzəriyyəsinə zidd olan rəylərinin bəyan edilməsi. Onun tövhid əqidəsi barədəki fikirlərinin rədd edilməsi.

4. Dini mətinlərin təvil olunmasının (yozulmasının) mümkün olmaması barədə yaratdığı şübhənin batil olmasını izah etmək. “Dilçilikdə məcazi mənanın olmasını deyən heç bir kəs yoxdur. Söz yalnız öz həqiqi mənasında izah edilməlidir. Nə səhabələr, nə də dörd məzhəbin imamları bunu təsdiqləməmişdir. Bu, son əsrlərdə formalaşan bir fikirdir”. Bu rəyə əsasən İlahi zata təcsim və təşbih nisbət vermək olduqca təbiidir. Qələmə aldığımız bu araşdırmada bu rəyin düzgün olmadığını, həmçinin, şiə ravilərini təcsimdə ittiham etməsinin puç olduğunu izah edəcəyik.

5. İslam mütəfəkkiri Muhəmməd Baqir Sədrin təvil barədə nəzəriyyəsinin bəyan edilməsi. Bu nəzəriyyəyə əsasən təvil mənanı təfsir etməkdir, sözün dəlalətinin yozulmasıdır. Buna əsasən də zahirlə kifayətlənə bilmərik, mütəşabih ayələrin təvil olunması zəruridir.

6. Tövhid əqidəsinin anlaşılmasında şiə məzhəbinin etimad etdiyi doğru rəyin və əqidənin bəyan edilməsi. Qurani-kərimdən ayrılmayan

ikinci əmanətdən (Əhli-beytin) nəql olunan hədisləri və bu məzhəbin təcsim şübhəsindən münəzzəh olan alimlərinin rəylərini qeyd etməklə bu məsələni izah edəcəyik.

7. Ən sonda səsimizi İbn Teymiyyənin bütün ardıcıllarına çatdırmaq istəyirik. Müsəlmanların digər məzhəblərinə insafla, ağıl və məntiqlə yanaşsınlar. Həmin məzhəbləri, xüsusilə də Əhli-beyit məzhəbini şirk və küfrlə ittiham etməkdən əl çəksinlər. Bu məsələ ən təhlükəli məsələlərdəndir. Bu məsələdə ehtiyatlı olmaq lazımdır. İbn Teymiyyədən irs aldıqları etiqadlara müxalif olan alimlərinin dəlillərini və rəylərini araşdırsınlar və tədqiq etsinlər. Haqq insanlarla tanınmaz.

Bu mövzunun tədqiq olunmasında hədəf və metodumuz

Tövhid dinin və şəriətin dərk olunması üçün əsas prinsipdir. Bu əqidə barədə böyük ixtilaf baş vermişdir. İbn Teymiyyə düşüncə tərzinin ardıcılları onun təqdim etdiyi metodun tövhid əqidəsini nəzəri və əməli baxımdan dərk etməyin ən düzgün metodu hesab edirlər. Onların nəzərində digər müsəlmanlar istər nəzəri, istərsə də əməli cəhətdən səhvə yol vermişlər. Beləki, tövhid əqidəsini din və şəriətin məqsədlərinə uyğun olmayan formada tətbiq etmişlər. Nəticədə bu təfəkkürün ardıcılları islam məzhəblərini bidətə yol verməkdə ittiham etmişlər. Buna əsasən də başqa məzhəblərin tövhid əqidələrinin kamil olmamasını, İbn Teymiyyənin prinsiplərinə, düşüncələrinə və metoduna uyğun olmadığını deyirlər. Artıq bu metod müsəlmanları və başqalarını təkfir etmək və onların qanlarını halal bilməkdə meyarı olub. Nəticədə İslam aləmi bütövlükdə bu düşüncənin ağrı-acılarını çəkmək məcburiyyətində qalmış və terrorimz və radikalizm kimi ittihamlara məruz qalmışdır.

İslamın əsası mərhəmət, bağışlamaq və başqasını təkfir etməməkdir

Təkfir düşüncəsi İslamın metod və ruhundan, prinsiplərindən və ali dəyərlərindən olduqca uzaq düşüncə tərzidir. Müqəddəs şəriətimiz və saleh sələflər bu tendensiyanı və İslama yad olan bu metodu kəskin tənqid etmişlər. Təəssüflər olsun ki, bu gün İslam şəriətini və qanunlarını araşdırmadan, dəlillərə istinad etmədən aşkarcasına və ya sətraltı olaraq başqalarına küfr nisbəti verənlərə rast gəlirik. Belə şəxslər cəhalətin hakim olduğu və dini mətinləri anlamayan bir metoda kortəbii təqlid edirlər. Halbuki mənsub olduğumuz İslam dini tolerant, mötədil və mərhəmət dinidir. Allah-taala buyurur: "(Ey müsəlmanlar!) Beləliklə də, sizi (ədalətli və seçilmiş) bir ümmət etdik ki, insanların əməllərinə (qiyamətdə) şahid olasınız, Peyğəmbər də (Muhəmməd əleyhisəllam da) sizə şahid olsun..."[9] Həmçinin buyurur: "(Ey müsəlmanlar!) Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız..."[10] Peyğəmbər sünnəsi də heç bir şübhəyə yer qalmadan mütləq surətdə müsəlmanları təkfir etməyi qadağan edir. Müsəlmanların səhih və müsnəd hədis kitabları bu həqiqəti tamamilə ehtiva edir.

İmam Buxari əs-Səhih kitabında Abdullah bin Ömərin belə nəql etdiyini yazır: "Rəsulullah (s) buyurub: "Hər kim (din) qardaşına "Ey kafir" deyərsə, onlardan biri bu vəsfə layiq olar".[11]

Həmçinin İmam Müslim əs-Səhih kitabında İbn Ömərin belə nəql etdiyini yazır: "Rəsulullah (s) belə buyurub: "Hər kim qardaşını təkfir edərsə, onlardan biri bu vəsfə layiq olar".[12]

---

[9] Bəqərə, 143

[10] Ali-İmran, 110

[11] Səhih-Buxari, c. 7, s. 97

[12] Səhih-Müslim, c. 1, s. 57

İslam başqasına küfr nisbəti verməyi qadağan edir. Kim başqasına küfr nisbəti verərsə, bu vəsf ona aid olar. Hətta bundan böyük budur ki, kim müsəlman qardaşına küfr böhtanı atarsa onu qətlə yetirən şəxs kimidir.

Buxari və Tirmizi kitablarında Sabit bin Zəhhakdan belə nəql etmişlər: "Kim mömin birinə küfr böhtanı atarsa, onu qətlə yetirmiş şəxs kimidir və ya onun qatili kimidir".[13]

Hətta insanların niyyətləri və düşüncələrini araşdırmaq bizə vacib deyil. La ilahə illəllah və Muhəmmədun Rəsulullah (s) deyən hər kəsin qanı, namusu və malı qorunmalıdır. Qəlbləri və qəlblərdən keçən fikirləri araşdırmaq vacib deyil. Buxari Zilxuveysirənin Rəsulullahla (s) olan hadisəsini nəql etmişdir. O, Rəsulullaha (s) "Ədalətli ol!" dedikdə Xalid bin Vəlid başda olmaqla səhabələr ayağa qalxdılar. Xalid bin Vəlid belə dedi: "Ya Rəsulullah, onun boynunu vurummu?" (Rəsulullah) buyurdu: "Yox! Bəlkə də o, namaz qılandır". Xalid dedi: "Nə çox müsəlman var ki, dili ilə qəlbində olmayanı deyir". Rəsulullah (s) buyurdu: "Mənə insanların qəlblərini araşdırmaq və içlərini açmaq əmr olunmamışdır".[14]

Başqa bir hədisdə Rəsulullah (s) belə buyurur: "Onun da belə olduğunu bilmək üçün qəlbini yarmısanmı? Qiyamət günü La ilahə illəllahla gələrsə, sənə kim yardım edəcək?.."[15]

Alimləri öz rəyləri ilə bu təfəkkürün üstündən xətt çəkmiş və bu köhnə fikirləri alt-üst edən yeni düşəncə tərzi formalaşdırmışlar. Qazi İyci belə deyir: "Kəlam alimlərinin və fəqihlərin əksəriyyəti bu rəydədirlər ki, qiblə əhlindən heç kim təkfir edilməməlidir".[16]

---

[13] Səhih Buxari, c. 7, s. 84; Sünəni Tirmizi, c. 4, s. 132

[14] Səhih Buxari, c. 5, s. 111; Sünəni Tirmizi, c. 4, s. 132

[15] Sünəni Əbu Davud, c. 3, s. 45

[16] əl-Məvaqif, c. 3, s. 560

Nəvəvi belə deyir: “Qiblə əhlindən heç kim günaha görə təkfir edilməməlidir. Həmçinin həvayi-nəfsinə uyanlar və bidət əhli olanlar təkfir edilməz”.[17] Bu rəyə əsasən nəinki başqaları hətta həvayi-nəfsinə uyan və bidət əhli olan belə təkfir edilməməlidir.

İmam Qəzali belə deyir: “İmkan tapdıqca təkfirdən qorunmaq lazımdır. Qibləyə namaz qılıb “La ilahə illəllah Muhəmmədun Rəsulullah” deyən kəslərin mallarının və qanlarının tökülməsini mübah bilmək xətadır. Min kafiri sağ buraxmağın xətası müsəlmanın bir qaşıq qanını tökmək xətasından daha yüngüldür”.[18] Həmin insan xəta törətmiş ola bilər, lakin onun qanının tökülməsi və mübah bilinməsi vacib deyil.

İmam Təqiyyuddin Subkinin təkfiri pisləyən fətvası var. Ona “Şeyximiz, ağamız və mövlamız həvayi-nəfs və bidət əhlinin təkfiri barədə nə deyir? - deyə sual verildikdə belə demişdir: “Möminlərin təkfir olunmasına cürət etmək çox çətin məsələdir. Qəlbində iman olan hər kəs həvayi-nəfs və bidət əhli olanları La ilahə illəllah Muhəmmədun Rəsulullah demələri ilə yanaşı təkfir olunmalarını ağır hesab edər. Təkfir çox ağır və təhlükəli bir məsələdir”.[19]

Şeyx Təqiyyuddin Subki cavabında möminlər sözünü işlədir. Halbuki fətvanın həvayi-nəfs və bidət əhli barədə olduğunu bilir.

İmam Muhəmməd Əbdəh belə deyir: “Əgər bir kəsin dediyi sözün yüz cəhətdən küfr olduğu ehtimal olunarsa və yalnız bir cəhətdən iman olması ehtimal olunarsa, onun sözünü küfrə yozmaq caiz deyil. Bundan da böyük mərhəmət görmüsənmi?!”[20]

---

[17] Şərh Səhih Müslim, c. 1, s. 150

[18] əl-İqtisad fil-itiqad, c. 1, s. 270

[19] əl-Yəvaqit vəl-cəvahir, c. 2, s. 125

[20] İslam və xristianlıq, s. 55

Bu söz necədə gözəldir! Həqiqətən də bu sözü düşünmək və onun məzmununa diqqət yetirmək lazımdır. Hər hansı bir şəxsdən küfr sözü zahir olarsa, həmin sözdə yüz cəhətdən təkfir olunmaq ehtimalı olduğu halda bir cəhətdən iman olduğunu şəkk etsək belə, bu məqamda mömin şəxsin imanını əsas hesab edərək həmin sözü iman mənasında yozacayıq. Çünki şəhadət kəlməsi bunu tələb edir.

Məhz buna əsasən də İbn Teymiyyənin düşüncəsində tövhid əqidəsini obyektiv olaraq araşdırmaq, təəssübkeşlik olmadan onun etiqadını sərgiləmək və məşhur kitablarından ən əsas dəlillərini qeyd etmək qərarına gəldik. Sonra isə əhli-sünnənin əqidə və hədis elminə əsasən həmin əqidəni tənqid edəcəyik, bu düşüncəyə müxalif olan əhli-sünnə alimlərinin rəylərini qeyd edəcəyik və onların sözlərini dəstəkləyən alimlərimizin rəylərini və kitablarımızda nəql olunan hədisləri də qeyd edəcəyik ki, höccət kamil və tamam olsun. İbn Teymiyyəyə cavab verən alimlərin əksətiyyətinin tərcümeyi-halını qeyd etdim ki, onları tanıyaq, onların əhli-sünnə məzhəbindəki məqamları və elmi çəkiləri bəlli olsun və onların rəylərinin şübhə doğrumayacaq dərəcədə etibarlı olması bilinsin.

Ən sonda hər iki məktəbin tövhid əqidəsi barəsindəki nəzəriyyələrini müqayisə etdim. Məhz bu baxımdan bu araşdırma "İbn Teymiyyənin tövhid əqidəsi barədə metodu – müqayisəli elmi-tənqidi araşdırma" adı altında qələmə aldım. Biz İbn Teymiyyənin bütün fikirlərini deyil, ən əhəmiyyətlilərini və onun təcsim əqidəsinin əsasını təşkil edən dini mətinləri araşdırdıq, sonra isə şiə əqidə əsasları baxımından həmin fikirləri müqayisəli şəkildə müzakirə etdik.

Təəssüflər olsun ki, işıq üzü görmüş kitablarımızda bu mövzunu, yəni İbn Teymiyyənin fikir və metodu, xüsusilə də onun tövhid barəsində əqidəsini müstəqil surətdə araşdıran bir kəsə rast gəlmədim. Tövhid əqidəsinə diqqət etməyimin səbəbi bu əqidənin əhəmiyyətindən irəli gəlir.

Allah-taalaya cismlilik nisbət vermək tövhid əqidəsinin dəyərini aradan aparır. Tövhid əqidəsini araşdırıb onu təşbih və təmsil qarışılığından arındırdıqdan sonra təvəssül, şəfaət, qəbirlərin ziyarəti və başqa məsələləri müzakirə masasına qoya bilərik.

Bunu da əlavə etmək istəyirəm ki, bu təfəkkürün ardıcılları başqalarını şirk və küfrdə ittiham etmişdir. Belələri ilə tövhid prinsipi barədə müzakirə aparmadıqca onlar qarşı tərəfin fikrini dinləməyəcəklər. İbn Teymiyyənin tövhid əqidəsi barədə düşdüyü böyük xəta və ziddiyyətləri onlara bəyan etməliyik.

Əziz oxucumuz bu araşdırmanı oxuduqca bu əhəmiyyətli mövzu barəsində hansı yerlərdə xəta baş verdiyini və zəif nöqtələri görəcək.

Araşdırmanın planı.

Araşdırmamız dörd babdan ibarətdir:

Birinci bab: Müqəddimə mövzular

Bu bab iki fəsildən ibarətdir:

Birinci: İbn Teymiyyənin həyatından bəzi məqamlar.

İkinci: İbn Teymiyyənin tövhid barəsində əqidəsi və bu əqidənin sələfi təfəkkürünə təsiri.

İkinci bab: İbn Teymiyyənin nəzərində tövhidin qisimləri və onun bu barədə özünəməxsus əqidəsi

Bu bab üç fəsildən ibarətdir:

Birinci: Üluhiyyət və rübubiyyətdə tövhid.

İkinci: Adlar və sifətlərdə tövhid.

Üçüncü: İbn Teymiyyənin özünəməxsus əqidəsi.

Üçüncü bab: İbn Teymiyyənin məcazi məna və təvili inkarı barədə irəli sürdüyü şübhələr

Bu bab üç fəsildən ibarətdir:

Birinci: Məcazi məna və təvilin inkar olunması şübhəsi.

İkinci: Hişam bin Həkəmin təcsim əqidəsində olması şübhəsi.

Üçüncü: Hişam bin Salimin təcsim əqidəsində olması şübhəsi.

Dördüncü bab: Şiə əqidə əsaslarında tövhid əqidəsi

Bu bab üç fəsidən ibarətdir:

Birinci: İlahi sifətlər barədə islam təsəvvürünün müxtəsər təqdimatı.

İkinci: Əhli-beyt İmamları (ə) doğru tövhidi təqdim etmişlər.

Üçüncü: Şiə alimləri və onların tövhid əqidəsi barədə düşüncələri.

Birinci bab: Müqəddimə mövzular

Birinci fəsil: İbn Teymiyyənin həyatından bəzi məqamlar

İbn Teymiyyənin tövhid əqidəsi barədə fikirlərini sərgiləmədən əvvəl onun həyatı və keçdiyi mərhələlər barədə qısaca məlumatlar qeyd edək. Güman edirik ki, onun keçirdiyi həyat tərzi özünəməxsus fikirlərinin formalaşmasında əsas rol oynamışdır. Bu insanın həyatını oxuyan hər bir kəs onun aşırı həddə sevənlərə və eyni zamanda ifrat dərəcəsində nifrət edənlərə rast gəlir. Bu barədə onun ən yaxın tələbələrindən olan İmam Zəhəbinin bu sözləri bizim üçün kifayətdir. O, İbn Teymiyyə barəsində fikir söyləyən insanları beş sinifə bölmüş və belə demişdir: "Onun bəzi insanlar tərəfindən tərk olunmaq, təkfir edilmək kimi şəninin alçaldılmasına, düşmənləri tərəfindən dəccal, fitnəkar və kafir adlandırılmasına, başqa insanların nəzərində isə məharətli tədqiqatçı və yaradıcı hesab olunduğuna, avam ardıcılları tərəfindən isə İslam bayrağını ucaldan, dini qoruyan, sünnəni dirildən adlandırıldığına rast gəldim..."[21]

Məhz buna görə də bu şəxsin tərcümeyi-halına nəzər salmaq, onun keçdiyi həyat mərhələlərindən, Allah-taalaya təşbih və təmsil nisbət verməsi, əhli-sünnə əqidəsində Peyğəmbərin (s) ziyarəti, ondan şəfaət diləmək kimi məsələlərin qəbul olunmuş əqidə məsələlərindən olduğu halda inkar etməsi kimi fikirlərinin formalaşmasında, həmçinin, Peyğəmbər (s) və Əhli-beytinə qarşı bağışlanmaz səhvlərinin baş verməsində rol oynayan hadisələrdən xəbərdar olmaq istəyirik. Həmçinin onun fətvalarını tənqid edən və rədd edən alimlərin rəylərini də qeyd edəcəyik. Həmin rəylərin yazdıqlarımızın doğru olmasının ən aşkar

[21] Zəğlul-elm, s. 42, 43

göstəricisi olması ilə yanaşı əhli-sünnə alimlərinin əksəriyyətinin təcsim əqidəsi olan bu fikirlərin qəbul etmədiyini təsdiqləyir.

İbn Teymiyyənin tərcümeyi-halı

İbn Teymiyyə: Əbulabbas Əhməd bin Əbdülhəlim bin Əbdüssəlam bin Abdullah bin Muhəmməd bin Xızır bin Əli bin Abdullah bin Teymiyyə Hərrani Dəməşqi. Hicrətin 661-ci ildə Hərranda doğulmuşdur. Yeddi yaşı olduqda monqol-tatar hücümlarından qorunmaq üçün atası ilə birlikdə Dəməşq şəhərinə köçmüşdür. Hicrətin 728-ci ili zilqidə ayının 20-si bazar günü axşam vəfat etmişdir.

İbn Teymiyyə ləqəbi ilə adlandırılmasının səbəbi

Bu ləqəbin və ya adın ona verilməsinin iki səbəbi qeyd olunmuşdur.

Birinci: Ona oxşayan qız uşağı və ya kənizə görə belə adlandırılmışdır. Babası Fəxrəddin Muhəmməd bin Xızır bin Teymə Hənbəlidən Teymiyyə adının mənası barədə soruşduqda belə dediyi nəql edilir: "Atam və ya babam həcc ziyarətinə gedib. Zövcəsi isə hamilə imiş. Teymə məntəqəsində olduqda qarşılarına kiçik bir qız uşağı çıxmışdır. Hərrana qayıtdıqda zövcəsi bir qız uşağı dünyaya gətirmişdi. Həmin qız uşağını ona göstərməyə aprdıqda belə demişdir: "Ya teymə, ya teymə". Yəni Teymədə gördüyü qız uşağına oxşayır. Həmin ada nisbətən belə adlanmışdır".[22]

Teyma Təbuk çöllüyündə kiçik bir məntəqədir. Xeybərdən ora getdikdə Şam yolunun yarısında yerləşir. Teymiyyə sözü həmin məntəqəyə mənsub olmağı bildirir. Dilin qrammatik qanunlarına əsasən Teymaviyyə olmalı

[22] Vəfiyyatul-əyan, c. 4, s. 388; Tarixul-islam, c. 45, s. 134

idi. Çünki Teyma sözünün nisbi sifəti teymavi olmalıdır. Lakin babası belə dediyi üçün bu formada məşhur olmuşdur.[23]

Diskussiya edərkən sərt və kobud olması barədə

O, əqidə və düşüncədə ona müxalif olana qarşı ağır sözlər işlətməklə sərt və qaba olması ilə seçilirdi. Qarşı tərəfə ən ağır və təhqir edici sözlər deyirdi. Misal olaraq onun şagirdi Səfdi, Subki, Zəhəbi və başqalarının dediklərini qeyd edirik.

Səfdi deyir: "Onun Dəbiran Nəcmuddin Katibiyə dediklərini eşitdim. Katibi məntiq elmində nəfis kitabların müəllifidir. Onun adını çəkdikdə Dubeyran (ulaq) deyirdi. O, İbn Mutəhhər Hillini nəzərdə tutaraq İbn Munəccəs deyirdi.[24]

Həmçinin Səfdi deyir: "Ona müxalif olanı təhqir etməyi İbn Həzmin sözlərindən irəli gəldiyini düşünürəm. O, Muhyiddin İbn Ərəbini, Əfif Təlməsanini, İbn Səbini və onların yoluna müxalif olan başqalarını söyməyə təhrik edirdi. Bəlkə də Qəzalini aşkarcasına söymüş onun barəsində belə demişdir: "O, filosofların bələdçisidir".[25]

Yafii deyir: "Onun qəbul edilməyən qəribə rəyləri vardı. Əhli-sünnə məzhəbinə müxalif olduğu üçün həbs olunmuşdur. Peyğəmbərin qəbrini ziyarət etməyi qadağan etməsi, höccətul-islam Əbu Hamid Qəzali, Ustad İmam Əbulqasim Quşeyri, Şeyx İbn Ureyf, Şeyx Əbulhəsən Şazuli kimi təsəvvüf və irfan şeyxlərinə, həmçinin Allahın seçilmiş xeyirli dostlarına tənə vurması onun ən pis fikirləri idi..."[26]

---

[23] Tarixul-islam, c. 45, s. 134

[24] əl-Vafi bil-vəfiyyat, c. 7, s. 13. (İbn Mutəhhər hərfi mənada pak edilmişin oğlu deməkdir. İbn Teymiyyə onu İbn Munəccəs, yəni murdar olmuşun oğlu adlandırırdı).

[25] Həmin mənbə.

[26] Miratul-cinan, c. 4, s. 278

İmam Subki Təbəqatuş-şafeiyyə kitabında belə deyir: “Şeyx Kəmaləddin bin Zəmkəlaninin İbn Teymiyyəyə cavab olaraq dediyi sözlər çox xoşuma gəlir. O, belə deyir: “Əgər əşərilər, başda Qazi Əbu Bəkr Baqillani, Ustad Əbu İshaq İsfərayini, İmamul-hərəmeyn, Qəzali və beləcə İmam Fəxrəddinə kimi hamısı müxənnəs və yaltaqdırlarsa, deməli, peyğəmbərlər və səhabələrdən başqa alim yoxdur”. Mən deyirəm: “Əgər onlar hamısı ağlını itirmiş və Əşəri də onları ovsunlayandırsa, deməli, peyğəmbərlərdən və səhabələrdən sonra ağıl sahibi olan biri yoxdur”.[27]

Budur İbn Teymiyyə İbn Ərəbi, Nabulsi, Qəzali, Cuveyni, Baqillani kimi böyük alimlərə dil uzadır və onları çirkin sözlərlə söyür...

Buna görə də onun şagirdi Zəhəbi “Zəğlul-ilm” kitabında onun üzə çıxmaq, tanınmaq, böyük olmaq sevgisindən danışır. Zəhəbi bu sözlərilə yuxarıda qeyd etdiyimiz kimi İbn Teymiyyənin alimləri söymək və onların şənini alçaltmaq kimi məsələləri nəzərdə tuturdu.

Zəhəbi belə deyir: “Onun barəsində araşdırma aparmaqdan yoruldum. Uzun illər yoruldum. Misir və Şam əhlindən heç kim içindəki nifrəti saxlamamışdır. Hətta onu təkzib və təkfir etmişlər. Bütün bunlara təkəbbür və özünü bəyənmə şeyxlik məqamında başçılıq arzusu, özünü böyük saymaq səbəb olmuşdur. Bax gör iddialı olmağın vəbalı, öndə olmaq sevgisinin nəticəsi budur. Allah-taalanın onu bağışlamasını istəyirik”.[28]

Bundan başqa bir çox məsələləri qeyd edə bilərik... İbn Teymiyyənin kitablarını, xüsusilə də Minhacus-sunnə kitabını mütaliə edən hər kəs bu cür qəribəliklərlə rastlaşar. Bu tərz dialoqdan çəkinmək vacibdir. Çünki Qurani-kərim ədəb qaydalarına riayət edərək dialoq qurmağı tələb edir. Allah-taala Peyğəmbərə (s) xitab edərək belə buyurur: **“(Ya Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla yumşaq rəftar etdin. Əgər**

[27] Təbəqatuş-şafeiyyəl-kubra, c. 6, s. 135

[28] Zəğlul-ilm, s. 38

qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər...”[29] Rəsulullah (s) belə buyurur: “Mənə Rəbbim ədəb vermiş və gözəl tərzdə ədəbləndimişdir”.[30]

İbn Teymiyyənin Peyğəmbərin (s) pak Əhli-beyti(ə) haqqında yol verdiyi böyük xətalardan bəzi məqamlar

Qeyd etdiklərimizdən sonra İbn Teymiyyənin Peyğəmbərin (s) və onun Allah-taala tərəfindən pak edilən, hər cür çirkinliklərdən uzaqlaşdırılmış Əhli-beytinin şənini azaltmasından heç də təəccüblənmirik. Bu insanın həqiqətini anlamaq və ikinci əmanət olan Əhli-beytlə necə davrandığını bilmək üçün onun bəzi sözlərini müxtəsər olaraq qeyt etmək istəyirəm.

Peyğəmbər (s) barədə dedikləri

İbn Teymiyyə deyir: “Qiba məscidinə getməkdən fərqli olaraq onun (Peyğəmbərin) qəbrini ziyarət etməyin nə onlara, nə də ona heç bir faydası yoxdur. Onlar Peyğəmbəri (s) nümunə tutaraq hər şənbə gəlib orada namaz qılırlar. Orada namaz qılmaq ümrə yerinə yetirmək kimidir. Cümə günü onun məscidində bu işlə (namaz qılmaq) yanaşı (vacib) namaz da qılırlar. Çünki bu iki işin heç biri digərini əvəz etmir. Bunu etməklə əlavə savab qazanılmış olur. Həmçinin bir şəxs Bəqi və Ühüd qəbiristanlığına getdikdə Peyğəmbərin ora gedib onlara dua etməsi kimi

[29] Ali-İmran, 159

[30] Kənzul-ummal, c. 11, s. 406

edərsə bu, yaxşıdır. Çünki bu işdə mənfəət var, fəsad yoxdur. Onlar hər namazda onlara dua etmirlər ki, bu, obirini əvəz edir deyilsin".

İbn Teymiyyənin sözlərindən aydın olur ki, Peyğəmbəri (s) ziyarət etməyin heç bir faydası yoxdur. O, belə təsəvvür yaradır ki, Peyğəmbər vəfat etmiş və artıq bu məsələ bitmişdir. Halbuki Qurani-kərim şəhidləri uca tutur, onların Rəbləri yanında ruzi yediklərini buyurur. Belə olan halda Peyğəmbər barədə nə demək olar?!

Onun "bu işdə mənfəət var fəsad yoxdur" sözlərinə gəlincə, anlaşılan budur ki, Ühüd qəbiristanlığına getmək, orada onlara (şəhidlərə) dua etmək olar, amma Peyğəmbəri ziyarət etmək olmaz, bu işdə fəsad var.

Onun Peyğəmbərin (s) haqqında bundan başqa iddia etdiyi yalan və böhtanlar da var.

İmam Əli (ə) barədə dedikləri

İbn Teymiyyə Əbu Bəkr və Ömər arasında müqayisə edərkən belə deyir: "Səhabə Əlidən (ə) fərqli olaraq onları sevirlər. Amma səhəbələr ona (Əliyə) nifrət edir və onu söyürdülər". Həmçinin deyir: "Allah-taala səhabələrin, xüsusilə də xəlifələrin – Allah onlardan razı olsun – məxsusən, Əbu Bəkr və Ömərin sevgisini hər bir müsəlmanın qəlbində qərarlaşdırmışdır. Səhabələrin və tabeinlərin ümumu onları sevirdilər. Onlar ən xeyirli nəsil idilər. Əli isə belə olmamışdır. Səhabələrin və tabeinlərin əksəriyyəti ona nifrət edir, onu söyür və onunla vuruşurdular".[31]

Onun bu sözləri Əlinin (ə) şənini aşkarcasına alçaltmaqdır. O, səhabə haqqında belə təsəvvür yaratmaq istəyir ki, onlar Əliyə nifrət edir və onu söyürdülər. Əslində bu sözlər onun Əli barəsində öz rəyidir. O, əminliklə

[31] Minhacus-sunnə, c. 7, s. 137

bilir ki, Əliyə nifrət etmək nifaq, onu sevmək isə imandır. İbn Həcər Əsqəlani belə deyir: "Səhih Müslimdə Əlidən nəql olunur ki, Peyğəmbər (s) onun belə buyurub: "Səni yalnız mömin sevər və sənə yalnız münafiq nifrət edər".[32]

Həmçinin sərxoş halda namaz qılmaq barədə ayənin Əlinin (ə) barəsində nazil olduğunu iddia edərək belə demişdir: "Allah-taala Əlinin barəsində belə nazil etmişdir: **"Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər və cunub (murdar) olduğunuz zaman - yol ötən müsafirlər müstəsnadır - qüsl edənədək namaza (namaz qılınan yerə) yaxınlaşmayın".**[33] Əli namaz qılıb surə oxuduqda sözləri qarışdırdığı vaxt nazil olmuşdur".[34]

Hakim Nişapuri bu ayənin Əli barəsində nazil olmasını deyənlər barəsində belə demişdir: "Xəvaric sərxoşluğu və namazda sözlərin qarışdırılmasını başqasına deyil, möminlərin əmiri Əli bin Əbu Talibə nisbət vermişlər. Allah onu bu əməldən münəzzəh (pak) etmişdir".[35] Zəhəbi də bu rəydə onunla müvafiqdir.

Aydın olur ki, İbn Teymiyyə xavariclə eyni rəydədir. Bu məsələdə hökm çıxarmağı oxucunun öz ixtiyarına buraxıram.

Həmçinin o, İmam Əlinin (ə) müsəlmanlar üzərində hakim olduğu vaxt ərzində Osmanın hakimiyyəti dövründən daha çox fəsad baş verdiyini iddia etmişdir. İbn Teymiyyə Minhacus-sunnədə belə deyir: "Osmanın hakimiyyəti dövründə olan mənfəətləri və xeyirləri Allahdan başqa heç kim bilmir. Onun hakimiyyəti dövründə Bəni Üməyyədən olan bəzi şəxsləri vali təyin etməsi, bəzilərinə beytul-maldan verilməsi və bu kimi

[32] Fəthul-bari, c. 1, s. 60

[33] Nisa, 43

[34] Minhacus-sunnə, c. 7, s. 237

[35] əl-Mustədrək aləs-səhiheyn, c. 2, s. 307

xoşlamadıqları hallara gəlincə, onun hakimiyyətindən sonra daha böyük fəsadlar baş vermişdir. Osmanın hakimiyyəti dövründə olan mənfəətlər həmin dövrdə olmamışdır".[36]

Həmçinin belə deyir: "Əgər deyilsə ki, Əli bu məsələdə ictihad etmişdir. O, belə güman edirdi ki, savaşla itaət baş verəcək. Cavabında belə deyilər: Əgər minlərlə müsəlmanların qətlinə səbəb olduğu, fəsadın baş verdiyi və gözlənilən mənfəətin hasil olmadığı halda bu ictihad bağışlanırsa, bir nəfərin qətlə yetirilməsi ilə fəsadın qarşısının alınması nəticəsində müəyyən növ mənfəəti təmin edən ictihad bağışlanmırmı? Bununla yanaşı ki, onu qətlə yetirməmiş, bu niyyətdə olmuş və fikrindən əl çəkmişdir".[37]

Həmçinin İmam Əlini (ə) səhabələrin əməlləri müqabilində daha yaxşı əməlinin olmaması ilə ittiham etmiş və belə demişdir: "Əlinin İslamda elə bir yaxşı əməli yoxdur ki, səhabələrin də onun mislində yaxşı əməli olmasın. Hətta bəzilərinin əməlləri onun əməllərindən daha əzəmətlidir. Bu, nəql olunan səhih siräni (tarixi) bilən hər kəsə məlumdur". [38]

Buna görə də İbn Həcər belə deyir: "Rafizinin sözlərinə qarşı çıxmaqda o qədər mübaliğələr olmuşdur ki, bəzən bu, Əlinin – Allah ondan razı olsun – şəninin alçaldılmasına gətirib çıxartmışdır".[39]

Fatimeyi-Zəhra (əleyha salam) barədə sözləri

Onun pis sözləri Fatiməyə (əleyha salam) yönəlmişdir. O, Həzrət Fatimənin (əleyha salam) xəlifə Əbu Bəkrə qəzəbini münafiqlərin qəzəbinə bənzədərək belə demişdir: "Hər bir ağıl sahibinə məlumdur ki, o

[36] Minhacus-sunnə, c. 6, s. 156

[37] Minhacus-sunnə, c. 7, s. 48

[38] Minhacus-sunnə, c. 7, s. 99

[39] Lisanul-mizan, c. 6, s. 320.

qadın əmr sahibindən mal istəmiş, onun nəzərində haqqı çatmadığı üçün əmr sahibi həmin malı ona verməmişdi. Həmçinin özü və ya ailəsi üçün mənimsəməyib, əksinə bütün müsəlmanlara vermişdir. Əgər deyilsə ki, tələb edən hakimə qəzəblənmişdir. Bu qəzəb ona mal verilmədiyi üçün olmuşdur. Hakim ona: "Bu, sənin deyil, səndən başqalarınındır" demişdir. Bu qəzəbdə tələb edənin hansı mədh və fəzilətindən danışmaq olar? Əgər sırf məzlum olsa belə, onun qəzəbi yalnız dünya üçündür. Burada özü üçün malı götürməyən hakimə yönəlmiş ittiham, həmin malı özünə götürən tələbkara yönələcək ittihamdan uzaq ola bilər? Tələbkar: "Mənim payıma az mal düşdüyü üçün qəzəblənirəm". Fatimə barəsində bunu deyib, onun fəzilətlərindən hesab edən cahil deyilmi? Allah-taala münafiqləri danlayaraq onlar barəsində belə deməmişdirmi: **"Onlardan (münafiqlərdən) sədəqələr (onların bölünməsi) barəsində sənə eyib tutanlar da var. Əgər (sədəqədən) onlara bir şey verilsə, razı qalar, verilməsə, dərhal qəzəblənərlər".**[40] Allah-taala bir şey verildikdə razı qalan, verilmədikdə isə qəzəblənən qövmü pisləmişdir".[41]

İbn Teymiyyənin sözlərinin xülasəsi: Fatimeyi-Zəhra hakimdən (Əbu Bəkrdən) tələb etdiyi mala haqqı çatmırdı. Əbu Bəkr bu malı mənimsəməmiş, əksinə müsəlmanlara vermişlər. Burada tələb edənin (Fatimeyi-Zəhra) hansı mədhindən, fəzilətindən söhbət gedə bilər? Əgər həqiqətən də, məzlum olarsa – İbn Teymiyyənin fərz etdiyi kimi –onun qəzəbi dünya üçündür. Çünki tələb etdiyinə haqqı çatmırdı. Bundan sonra bir az da irəli gedərək xanımı bir şey verildikdə razı qalan, verilmədikdə isə qəzəblənən münafiqlərə bənzədir.

[40] Tövbə, 58

[41] Minhacus-sunnə, c. 4, s. 244, 245

Onun Fatimeyi-Zəhranın qəzəbi barədə rəyi budur. Halbuki Buxari möminlərin anası Aişənin belə dediyini yazır: “Rəsulullahın (s) qızı Fatimə qəzəbləndi, Əbu Bəkri tərk etdi və vəfat edənədək ondan üz döndərdi”.[42]

İmam Sadiqə (ə) qarşı cürəti

“Ümumiyyətlə, bu dörd imamdan heç biri Cəfərdən fiqhin qaydaları barədə bir şey öyrənməmişlər. Lakin başqasından rəvayət nəql etdikləri kimi ondan da rəvayət nəql etmişlər. Başqalarından nəql olunan rəvayətlər ondan nəql olunan rəvayətlərdən qat-qat çoxdur. Zührinin hədisi ilə onun hədislər arasında dəyər və say çoxluğu baxımından heç bir nisbət yoxdur. Buxari Yəhya bin səid Qəttanın onun barəsində dediklərini eşitdikdən sonra onun bəzi hədislərinə şübhə ilə yanaşmış və ondan hədis nəql etməmişdir”.[43]

O, bu sözləri ilə həqiqəti gizlətmişdir. Əhli-sünnə alimlərinin əksəriyyəti İmam Sadiqin (ə) elm xəzinəsindən istifadə etmişlər.

Alusi Bağdadi belə deyir: “Əbu Hənifə – Allah ondan razı olsun – əhli-sünnə içərisində fəxr edərək açkarcasına belə deyirdi: “İki il olmasaydı Numan həlak olardı”. O, iki il dedikdə İmam Cəfər Sadiqdən (ə) – Allah ondan razı olsun – elm öyrənmək üçün onunla birlikdə olduğu zamana işarə edirdi”.[44]

Zəhəbi Əbu Hənifənin belə dediyini nəql edir: “Cəfər bin Muhəmməddən daha çox fiqh bilən birini görmədim. Mənsur Hiyrə (şəhərinə) gəldikdə məni çağırtdırıb belə dedi: “Ey Əbu Hənifə, camaat Cəfər bin Muhəmmədə çox bağlanıb. Onun üçün ən çətin suallar hazırla”.

[42] Səhih Buxari, c. 4, s. 42

[43] Minhacus-sunnə, c. 7, s. 532

[44] Muxtəsəru ət-Tuhfəl-isna əşəriyyə, s. 8

Onun üçün qırx sual hazırladım. Sonra Əbu Cəfərin (Mənsurun) yanına gəldim. Cəfər (İmam Sadiq) onun sağ tərəfində oturmuşdu. Onlar gördükdə Əbu Cəfərin (Mənsurun) heybətindən fərqli olaraq Cəfərin (İmam Sadiqin) heybəti məni tutdu. Salam verdim. Mənə icazə verdilər və əyləşdim. Sonra Əbu Cəfər mənə baxıb dedi: "Ey Əbu Abdullah (İmam Sadiq), bunu tanıyırsan?" (İmam) dedi: "Bəli. Bu, Əbu Hənifədir". Sonra belə dedi: "Bizim yanımıza gəlmişdir". Sonra (Mənsur) belə dedi: "Ey Əbu Hənifə, suallarını de ki, Əbu Abdullahdan (İmam Sadiqdən) soruşaq. Başladım suallarımı ondan soruşmağa. Sualların cavabında belə deyirdi: "Siz belə deyirsiniz, Mədinə əhli (alimləri) belə deyir, biz isə belə deyirik". Bəzən bizim dediyimizlə, bəzən isə Mədinə əhlinin dediyi ilə müvafiq olurdu. Bəzən isə tamamilə bizə müxalif olurdu. Hətta qırx məsələnin hamısını ondan soruşdum. Cavab vermədiyi məsələ qalmadı". Sonra Əbu Hənifə belə dedi: "İnsanların ən biliklisi ixtilafları ən yaxşı bilən şəxs olduğunu nəql etmirikmi?!"[45]

Bu sözlərlə Əbu Hənifə İmam Sadiqin (ə) ən bilikli olduğunu etiraf edir. Çünki o, yalnız öz rəyindən xəbərdar olan şəxsdən fərqli olaraq bütün məktəblərin rəyindən xəbərdardır.

Şafeinin belə dediyi nəql edilir: "İnsanlar fiqhdə Əbu Hənifənin uşaqlarıdır".[46] Əbu Hənifə də İmam Sadiqə (ə) nisbətdə belədir. Bununla da bütün fəqihlər onun uşaqlarıdır.

[45] Siyəru əlamin-nubəla, c. 6, s. 257

[46] Təzkirətul-huffaz, c. 2, s. 168

İmam Rzanı (ə) təhqir etməsi

İbn Teymiyyə belə deyir: “İnsanlar bilirlər ki, onun zamanında Şafei, İshaq bin Rahaveyh, Əhməd bin Hənbəl, Əşhəb bin Əbdüləziz, Əbu Süleyman Darani, Məruf Kərxi kimi ondan da bilikli və ondan da zahid olanlar var. Bundan əlavə elm əhlindən heç kim ondan hədis götürməmiş və altı kitabda ondan hədis nəql edilməmişdir”.[47]

Bu sözlərlilə İbn Teymiyyə həyassızlıqla, ədəbsizliklə İmam Rzaya (ə) qarşı cürət edərək onu elminin az olması – iddia etdiyi kimi – ondan daha bilikli şəxslərin olmasını deyir. Hətta elm əhlinin ondan bir şey götürmədiyini, Buxari kimi altı kitab müəlliflərinin heç birinin ondan hədis nəql etmədiklərini deyir. Əgər İmam Rzanın (ə) həyatına nəzər salsaq Zəhəbi kimi əhli-sünnə alimlərinin onun barəsində yazdıqları tərcümeyi-hallara baxsaq, İbn Teymiyyənin sözlərinin batil olduğu məlum olar. Zəhəbi İmam Rza (ə) barəsində deyir: “İmam, seyid, Əbülhəsən Əli bin Rza bin Musa Kazim bin Cəfər Sadiq bin Muhəmməd Baqir bin Əli bin Hüseyn Haşimi Ələvi Mədəni. Onun elm, din və rəhbərlikdə xüsusi məqamı var. Deyilənə görə Malikin zamanında gənc olarkən fətva verərdi. Məmun onu Xorasana çağırtmışdır. Ona böyük hörmət nümayiş etdirmiş və onu vəliəhd təyin etmişdir... Əli ər-Rzanın böyük şəni var, xilafətə layiq idi”.[48]

O, imamdır, seyiddir, elm xəzinəsidir və xilafətə layiqdir. Bu vəsflər İbn Teymiyyənin İmam Rza (ə) ilə müqayisə etdikləri şəxslərin heç birinə şamil deyil. Hətta İmam Əhməd bin Hənbəlin İmam Rzanın da olduğu bir hədisin sənədi barədə belə dediyinə rast gəlirik: “Əgər bu sənədi (ravilərin adlarını) məcnun (dəli olmuş) birinin üzünə oxusan məcnunluğundan sağalar”.[49]

---

[47] Minhacus-sunnə, c. 4, s. 60, 62

[48] Siyəru əlamin-nubəla, c. 9, s. 387, 388-392

[49] İbn Həcər Heytəmi, “əs-Səvaiqul-muhriqə”, s. 310

Bu sözlər İmam Əhmədin bu insanın kim olduğunu yaxşı tanıdığına dəlildir. O, elmi incəliklərinə kimi bölüb parçalayan bir evdəndir. Sanki o, Əmirəlmöminin Əlinin (ə) sözlərini xatırladır: "Bizdən başqa yalan olaraq və haqqımıza təcavüz edərək elmdə sabit olduqlarını iddia edənlər hardadır?! Allah bizi ucaltmış onları alçaltmışdır. Bizə bəxş etmiş onlardan əsirgəmişdir. Bizi daxil etmiş onları kənarlaşdırmışdır. Qureyşdən olan imamlar Haşimin bu qolundandırlar".[50]

İmam İbn Xuzeymə İmam Rzanın (ə) qəbrinin astanasında dayanaraq başını aşağı dikmiş və yalvarışlarla təvəssül etmişdir. Onunla birlikdə olanların hamısı bunu müşahidə etmişlər. İbn Həcər Əsqəlani Əbu Bəkr bin Muəmməldən belə nəql edir:

"Hədis alimlərinin imamı Əbu Bəkr bin Xuzeymə, onun bacanağı Əbu Əli Səqəfi və camaatımızdan olan bir dəstə şeyxlə səfərə çıxdıq. Onlar Tusda Əli bin Musa ər-Rzanın qəbrini ziyarət etmək üçün yola çıxmışdılar". Sonra (Əbu Bəkr bin Muəmməl) belə deyir: "Onun, yəni İbn Xuzeymənin həmin məzara hörmətlə, təvazökarlıqla yanaşmasını və bizi heyrətə salacaq dərəcədə yalvarışla dua (təvəssül) etməsini gördüm".[51]

Həmçinin İbn Hibban da deyir: "Onun (İmam Rzanın) qəbri Nuqanın kənarında Sənabəzdədir. Harun ər-Rəşidin qəbrinin yanındadır, məşhurdur, ziyarət olunur. Dəfələrlə ziyarət etmişəm. Tusda olduğum zaman çətinliyə düşdükdə Əli bin Musa ər-Rzanın qəbrini – babasına və ona Allahın salamı və salavatı olsun – ziyarət edirdim. Çətinliyin aradan getməsi üçün Allaha dua edərdim. Duam qəbul olardı və həmin çətinlik aradan gedərdi. Bunu dəfələrlə təcrübə etmişəm və belə olduğuna şahid

[50] Nəhcül-bəlağə, c. 2, s. 27

[51] Təhzibut-təhzib, c. 7, s. 339

olmuşam. Allah bizi Mustafanın və Əhli-beytinin – ona və onların hamısına Allahın salamı olsun – məhəbbəti üzərində bu dünyadan aparsın”.[52]

Bu sözlər İmamın elm, nəsəb, paklıq baxımından əzəmət və cəlalına dəlalət edir. Bununla da Allahın pak yaratdığı, bütün pislikləri onlardan uzaqlaşdırdığı Əhli-beyt barəsində İbn Teymiyyənin cahilcəsinə dediyi sərt və ədəbdən uzaq dediyi bəzi sözləri qeyd etməklə kifayətlənirik. İndi isə onun həyatından bəzi əhəmiyyətli məqamları və üzləşdiyi problemləri nəzərinizə çatdıracayıq.

İbn Teymiyyənin üzləşdiyi problemlər

1. Həməviyyə[53] fətvasına görə hicri 698-ci ildə qarşılaşdığı problem.

İbn Teymiyyənin etiqadlarına görə qarşılaşdığı problemlərdən ən məşhuru Həmat əhalisinin soruşduqları suala cavab verilməsi ilə bağlıdır. Sual belə olmuşdur:

“Din imamları olan alimlərin ilahi sifətlərdən bəhs edən “Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur”.[54], “...sonra ərşi (və onun əhatə etdiyi hər şeyi) yaradıb hökmü altına alan...”[55], “Sonra Allah tüstü (duman, yerdən qalxan buxar) halında olan göyə üz tutdu (göyü yaratmaq qərarına gəldi)”[56] ayələr, həmçinin “Adəmin övladlarının qəlbləri Rəhmanın iki barmağı arasındadır”, “Cəbbar (Allah-taala) cəhənnəm oduna ayağın basacaq” və ilahi sifətlər barədə

[52] əs-Siqat, c. 8, s. 456, 457

[53] Bu fətvanın Həməviyyə adlanmasının səbəbi Suriyanın Həmat şəhərindən olan alimlərin ondan sual soruşduqlarına görədir.

[54] Taha, 5

[55] Əraf, 54

[56] Fussilət, 11

bəhs edən digər hədislər barədə rəyləri nədir? Alimlər bu barədə nə deyir? Bu barədə müfəssəl izah verin. Allahın izni ilə savab qazanarsınız”.[57]

İbn Teymiyyə bu suala verdiyi cavab onun İlahi Zat barədə təcsimə (cisimlilik) inanmasını inkar etməyəcək tərzdədir. O, Allah-taala barəsində bu sifətləri inkar etməyən səhabə və tabeinlərin sözlərinə etimad edərək cavab vermiş və belə demişdir: “Onlardan (səhabələrdən, tabeinlərdən və sələflərdən) heç kim Allah səmada deyil, O, ərşin üzərində deyil, zatı ilə hər yerdədir, bütün məkanlar Ona nisbətdə eynidir, bir şeyin daxilində və ya bir şeyin xaricində deyil, bir şeyə bitişik və ya bir şeydən ayrı deyil, Ona barmaqlarla və bu kimi şeylərlə işarə etmək caiz deyil kimi sözlər deməmişlər. Əksinə Səhih kitabda Cabir bin Abdullahdan nəql olunur ki, Peyğəmbər Ərafat günü onu əhatəyə almış böyük toplumun içində əzəmətli xütbəsini etdikdə belə deyirdi: “Sizlərə (dini) çatdırdımmı?”. Camaat: “Bəli” deyirdilər. (Peyğəmbər) barmağını səmaya qaldırıb sonra onlara tərəf uzadaraq belə dedi: “İlahi, şahid ol!” Bir neçə dəfə bunu təkrarladı. Bu məzmunda çoxlu rəvayətlər var.

Əgər Kitab və sünnədə aşkar mətn və ya zahiri məna anlamadan Kitabda və sünnədə sabit olan bu sifətləri inkar edənlərin dedikləri doğrudursa, daim mətn və zahiri məna ilə danışan Allah-taala, Peyğəmbəri və ümmətin xeyirlilərinin haqqa müxalif olmalarını necə qəbul etmək olar? Bundan başqa onlar etiqad edilməsi vacib olan haqqı aşkar etmirlər. Nə aşkar deyilən mətnlə, nə də zahiri məna ilə heç bir dəlil gətirmirlər. Sonda farsların və rumluların avamları, yəhudi və xristianların zəlilləri və filosofları gəlib ümmətə hər bir mükəlləfin və fəzilətli şəxsin etiqad bəsləməsi vacib olan doğru əqidəni bəyan edirlər...”[58]

---

[57] Məcmu əl-fətava, c. 5, s. 5

[58] Məcmu əl-fətəva, c. 5, s. 15, 16

Bu fətva səbəb olmuşdur ki, məclis təşkil olunmuş, fətva rədd edilmiş və həməvi əqidəsi batil olduğu sübuta yetirilmişdir. Onun şagirdi Səfdi həmin ilin hadisələrindən danışarkən belə deyir: "Şafeilərdən bir dəstə onun sifətlər barədə dediklərini inkar etdilər. Onun həməviyyə fətvasına cavab verdilər. Bir məclis təşkil etdilər. Əfrəm onu müdafiə etdi və onları arzularına çatmağa imkan vermədi. Həməviyyə əqidəsinin batil edilməsi üçün Dəməşqə çağırıldı".[59]

2. Allah ərşin üzərindədir dediyinə görə hicri 705-ci ildə qarşılaşdığı problem.

Həmin ili Allah ərşin üzərindədir, Allah hərif və səslə danışır əqidəsinə görə ona qarşı təzyiq oldu və Cubb həbsxanasına saldılar. Onunla dövrünün alimləri arasında diskussiyalar və yazışmalar olmuşdu. Həmin alimlərdən Şeyx Təqiyuddin Hindi, Şeyx Kəmaləddin Zəmləkanini qeyd etmək olar. Sonda İbn Məxluf Malikinin yanında onun həqiqətən Allah ərşin üzərindədir, Allah hərif və səslə danışır deməsilə onu ittiham etdilər. Onun barəsində fərman çıxarıldı və bir neçə gün qalada həbs olundu. Sonra bayram gecəsi Cubda məşhur olan həbsxanaya köçürülmüşdür.

İbn Həcər Əsqəlani belə deyir:

"Malikinin hüzurunda İbnTeymiyyənin əleyhinə iddia qaldırıldı. O, iddiaya cavab vermədi. İddia bir neçə dəfə təkrar olunsa da o, israr etdi. Maliki onun həbs olunmasına hökm çıxartdı. Onu qalada həbs etdilər. Sonra Malikiyə xəbər çatdı ki, insanlar onun yanına gedib gəlirlər. O, belə dedi: "Əgər qətlə yetirilməyəcəksə ona təzyiq etmək lazımdır. Baxmayaraq ki, küfrü sabit olmuşdur". Fitr bayramı axşamı onu Cubba köçürdülər. Şafei

[59] əl-Vafi bil-vafiyyat, c. 7, s. 15

məzhəbindən olan qazı məmləkətinə döndü. Dəməşqdə car çəkdilər ki, hər kim İbn Teymiyyənin əqidəsində olarsa, xüsusilə də, hənbəlilərin qanı və malı halaldır. Fərman oxundu. Fərmanı İbn Şəhab Mahmud məsciddə oxudu. Sonra Salihiyyədəki və başqa yerlərdəki hənbəliləri topladılar. Onlar şəhadət gətirdilər ki, İmam Şafeinin əqidəsindədirlər".[60]

Əbulfida Muxtəsər fi əxbaril-bəşər kitabında belə deyir:

"Həmin ili (yəni hicri 705-ci ildə) Təqiyuddin Əhməd bin Teymiyyə Dəməşqdən Misirə çağrıtdırıldı. Onun əleyhinə məclis quruldu. Əqidəsinə görə tutulub həbs olundu. O, təcsim əqidəsinə etiqad edirdi". Burada onun təcsim əqidəsi ilə ittiham olunmasına aşkarcasına işarə olunur.

İbn Teymiyyənin mühakiməsi Sultan Qəlavunun fərmanı[61]

Hisni Dəməşqi Sultanın fərmanının bir nüsxəsini nəql etmişdir. Dünya və dinin yardımçısı Muhəmməd bin Qəlavun hicri 705-ci ildə cümə günü, Dəməşq camisinin mənbərindən oxunan fərmanın nüsxəsi. Həmin fərmanın ən əhəmiyyətli məsələlərini qeyd edirəm.

Bənzərlikdən və oxşarlıqdan münəzzəh, mislinin olmasından uca olan Allaha həmd olsun! Allah-taala belə buyurur: "Ona bənzər heç bir şey yoxdur. O, (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!"[62] Sünnəyə və Kitaba əməl etməyi bizə ilham etdiyi üçün Ona həmd edirik... Sonra:

---

[60] əd-Durərul-kaminə, c. 1, s. 171

[61] Muhəmməd bin Qəlavun Sultani-əzəm məlik Nasir, Nasərəddin Əbulfəth Muhəmməd bin Sultan Məlik Mənsur Seyəddin Qəlavun Salihi. Hicri 741-ci ildə zilhiccə ayının 19 vəfat etmişdir. Əzəmətli şah idi. İnsanlar və ətraf krallıqlar ona itaət edərdi. Bax; əl-Vafi bil-vəfiyyat, c. 4. S. 251

[62] Şura, 11

Şəriət qaydaları və İslamın riayət olunan qanunları, imanın elmi sütunları və dinin bəyənilən məzhəbləri etimad olunan əsaslar hər kəsin müraciət edəcəyi sığınacaqdır... İbn Teymiyyə bu müddət ərzində qələminin dilini açmış, cahilliyi ilə hər söz söyləmiş, Zat və sifətlər məsələsi barədə danışmışdır. Batil sözlərində qəbul edilməz məsələlərdən danışmışdır. Səhabələrin və tabeinlərin sükut etdikləri məsələlərdən söhbət açmışdır. Saleh imamların çəkindiyi məsələləri söyləmişdir. İslam imamlarının inkar etdiyi, alimlərin və hakimlərin icmalarınına xilaf məsələləri ortaya çıxartmışdır. Avam adamların ağıllarını ələ salacaq fətvaları məşhurlaşmışdır. Həmin fətvalarla dövrünün fəqihlərinə, Şam və Misirin alimlərinə müxalif olmuşdur. Məktublarını hər tərəfə göndərmişdir. Allah-taalanın nazil etmədiyi elmə əsaslanaraq fətvalarını adlarla adlandırmışdır. Bütün bunlar, onun və müridlərinin məsləkləri, izhar etdikləri bu xəbis məslək, yaydıqları bu hallar barədə xəbərlər bizə yetişdikdə bildik ki, o, qövmünü ələ salmış və ona itaət etmişlər. Hətta onların Allah-taalanın barəsində hərif, səs, təcsim və təşbihə etiqad etdikləri bizə çatmışdır. Biz də bu böyük xəbərdən sonra Allahın (dininin) köməyinə qalxdıq. Onun nökərlərinin bu məsələni yaymaları bizə ağır gəldi. Batil əhlinin dediklərini qəbul etmədik və Allahın bu ayəsini tilavət etdik: “Sənin Rəbbin – yenilməz qüvvət sahibi (mülkündə hər şeyə qalib) olan Rəbbin (müşriklərin) Ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır!”[63] Allah-taala zatı və sifətlərində Ona bənzər və oxşarın olmasından özünü münəzzəh tutmuşdur. “Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cisimlikdən uzaqdır), (hər şeydən) xəbərdardır!”[64] Batil fətvaları Şamımız və Misirimizə sirayət etdikdə, fərmanımız adı çəkilən İbn Teymiyyəni qapımıza çağırtmaq üçün təqdim

[63] Saffat, 180

[64] Ənam, 103

olunmuşdur. Onun dediyi sözləri eşidən fəhm və ağıl sahibi yalnız "Doğrudan da, çox pis bir şey etdin (çox pis bir iş gördün)"[65] deyər. Söz sahibi olan alimlərin, tədqiqat və nəql əhlinin toplanması, İslam qazılarının, hakimlərinin, müsəlmanların alimlərinin, din və dünya imamlarının hüzurunda imamlardan və elm əhlindən ibarət bir cəmin şəriət məclisi qurulması xəbəri bizə çatmışdır.

Sözlərinə inanılan və etimad edilən şəxlərin şahidliyi, batil əqidəsinə dəlalət edən yazıları ona (İbn Teymiyyəyə) nisbət verilənlərin doğru olduğu hamının nəzərində sübuta yetirilmişdir. Həmin toplantı bitdikdə hamı onun xəbis əqidəsini inkar edərək, yazdıqlarını pisləyərək getmişdir.

Bütün bunlar hakim Malikinin məclisində sübuta yetdikdə şərəfli şəriət adı çəkilənin həbs olunmasına qərar verilmişdir... Həmçinin bu cür etiqad məsələsində təşbih edən, yüksəklik cəhəti nisbət verən, səs və həriflə danışmasını deyən, təcsim əqidəsini dilə gətirən, doğru yoldan uzaqlaşan, imamların rəyindən fərqli rəy söyləyən, Allah-taalanın hər hansı bir məkanda olmasını deyən, Ona cəhət nisbət verən, forma və ya keyfiyyətdən danışan hər bir kəs bu həddə dayanmalıdır. Əmr əvvəldə də, sonda da Allaha məxsusdur. Bütün hənbəlilər imamların inkar etdikləri bu əqidədən üz döndərməli, yayılmış şübhəli məsələlərdən qayıtmalı, Allah-taalanın əmr etdiklərinə əməl etməli, bəyənilən iman əhlinin məsləkinə qoşulmalıdırlar... Yeddi yüz beşinci il ramazan ayının iyirmi səkkizi yazılmışdır".[66]

Bu sözlər İbn Teymiyyənin dinin zəruri məsələlərindən kənara çıxmasına aşkar dəlalət edir. Bu fərman onu məhz bu metoddan çəkindirmək üçün verilmişdir. Çünki öz dəsti-xətti ilə yazılanlara əsasən onun elm sahibi olan imamların rəylərinə müxalif olduğu sübuta

[65] Kəhf, 74

[66] Dəfuş-şubhə ənir-Rəsul, s. 84,86

yetirilmişdir. O, Allah-taalaya cəhət, məkan və keyfiyyət nisbət vermişdir. Bu sənəd həmçinin, İbn Teymiyyənin ardınca gedən hənbəliləri imamların bu əqidənin qəbul etmədikləri məsələlərindən çəkindirmək, Allah-taalanın əmr etdiklərinə əməl etmələrinin vacibliyini və iman əhlinin məsləkində olmağın zəruriliyini bəyan edir. Deməli, bu fərmana əsasən İbn Teymiyyə şəriətin bütün hüdudlarını aşmışdır. Buna görə də onun müridləri bu sözlərə nəzər salmalı və diqqət etməlidirlər. Bu fərman bir çox öyüd-nəsihətləri və bir çox məsələləri doğru məcrasına qoymağı özündə ehtiva edir.

İbn Teymiyyənin etirafı və tövbəsi

İbn Teymiyyə hicrətin 707-ci ilində Məhna Əmir Ali Fəzl adlı şəxsin vasitəçiliyilə həbsdən çıxdı. Qalaya gətirildi və bəzi fəqihlərlə onun arasında söhbət oldu. Onun tövbə etməsi və xətalarını etiraf etməsi barədə sənəd yazıldı. Onun öz dəsti-xətti ilə belə yazılıb: "Etiqad edirəm ki, Quran Allahın zatına söykənən mənadır. O, (Allahın) qədim zatının sifətlərindən biridir. Xəlq olunmayıb, hərf və səs deyil. Allahın "Rəhman…." ayəsi zahiri mənada deyil. Burada mənanın həqiqətini bilmirəm. Hətta bunu Allahdan başqa heç kim bilmir. Nazil olma sözünün mənası (bu ayədəki) "istiva" sözündəki məna kimidir. Yazdı Əhməd bin Teymiyyə". Sonra onun müxalif çıxdığı məsələlərdən öz ixtiyarı ilə tövbə etməsinə şahid oldular. Bu, hicri 707-ci il, rəbil-əvvəl ayının iyirmi beşi baş vermişdir. Buna bir dəstə alim və başqaları şahid olmuşlar.[67]

[67] əd-Durərul-kaminə, c. 1, s. 173; Nihayətul-irb fi fununil-ədəbi, c. 32, s. 85

3. Hicri 709-cu ildə Həzrət Rəsulullaha (s) qarşı söylədiyi sözlərə görə yaşadığı problem

İbn Teymiyyə həbsdən çıxdıqdan sonra yenidən alimlərin məsləkinə müxalif çıxmağa başladı. Peyğəmbərə (s) istiğasə etməyin (yardım istəməyin) caiz olmadığına fətva verdi. İbn Həcər əd-Durərul-kaminə, İbn Kəsir əl-Bidayə vən-nihayə, İbn Rəcəb Hənbəli Zeylu təbəqatil-hənabilə kitabında (mətn birinciyə aiddir) belə nəql edirlər: "(İbn Teymiyyə): "Peyğəmbərdən (s) köməklik istənilməz" demişdi. Buna görə onu Şama apardılar. İbn Cəmaənin hüzurunda ona qarşı iddia qaldırıldı və Şərəfəddin Sabuni onun əleyhinə şahidlik etdi. Deyilənə görə Əlauddin Quni də onun əleyhinə şahidlik etmişdir. Şəvval ayının 18-i onu həbs edib Bəharətud-deyləm həbsxanasına saldılar. Hicri 709-cu ilin səfər ayına kimi orada qaldı. Sonra səfər ayında onu İskəndəriyyə şəhərinə apardılar. Onu Əmir Müqəddəmin müşayiətilə apardılar. Heç kimi yaxınına buraxmadılar. Nasir hakimiyyətə gələnədək orada qaldı. Sonra (Nasirin) yanında ona vasitəçilik etdilər. Onun hüzura gətirilməsini əmr etdi. Şəvval ayının 18-də hamı toplaşdı. (Nasir) onunla Qazı Maliki arasında barışıq etdi. Maliki onun bir daha belə fikirlərə dönməməsi şərtini qoydu. Sultan onun tövbə etdiyini söylədi. Bundan sonra o, (İbn Teymiyyə) Qahirədə məskunlaşdı".[68]

4. Talaq məsələsinə görə hicri 719-cu ildə qarşıladığı problem

Yuxarıda qeyd olunanlardan sonra onun əleyhinə olan məsələlər səngidi. Bunun səbəbi isə onun fətva verməkdən çəkinməsi olmuşdu. Bu müddət ərzində insanlar onun yanına gedib gəlirdilər. Hicri 712-ci ildə

[68] əd-Durərul-kaminə, c. 1, s. 173; əl-Bidayə vən-nihayə, c. 14, s. 45; Zeylu təbəqatil-hənabilə, c. 1, s. 343

şəvval ayında o, Nasir ilə Şama gəldi. Zilqidə ayında Şama çatdı. O, yeddi ildən çox idi ki, Şama gəlmirdi.

Hicri 719-cu ildə ramazan ayında talaq məsələsinə görə onun əleyhinə qalxdılar və ona bir daha fətva vermək qadağan edildi.[69]

5. Hicri 726-cı ildə Peyğəmbərin (s) qəbrini ziyarət etmək üçün səfərə çıxmaq məsələsinə görə qarşıladığı sonuncu problem

Bəlkə də İbn Teymiyyənin qarşıladığı sonuncu problem Peyğəmbərin (s) qəbirini ziyarət etməyi qadağan edən fətvasına görə olmuşdur. Hicri 726-cı ildə şəban ayında ziyarət məsələsi barədə olan fəvasına görə bir daha onu qalada həbs etdilər. Hicri 728-ci ilin zilqidə ayının 20-i, bazar günü öldü. Həmin vaxtadək həbsdə qaldı.[70]

Biz bu adamın qoyub getdiyi əqidələrə, izahlara və fikirlərə nəzər saldıqda onun əqidə və fikir irsində aşkar azğınlığın şahidi oluruq. O, xüsusilə də peyğəmbər hədisi və Quran təfsirinə dair yanaşma metodunda bir sıra ziddiyyətlər içində olmuşdur. Belə ki, o, təcsim əqidəsinə meylli idi. Məsələn,"Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur".[71] ayəsi barəsində sözlərin zahiri mənada olduğunu demiş və "istiva" sözünü maddi mənada təfsir etmişdi. Quranın xəlq olunması məsələsində də bu fikirdə olmuşdur. Bununla da o, icmadan və dövründə hakim olan dini etiqaddan kənara çıxmışdır. Hicri 698-ci ildə Allah-taalanın sifətləri barədə suallara cavab verdiyi həməviyyə məktubunda dövrünün kəlam alimlərinə müxalif olduğu üçün

[69] əl-Bədrut-tale, c. 1, s. 69

[70] əd-Durərul-kaminə, c. 1, s. 174

[71] Taha, 5

ona qarşı çıxmışlar. Hicri 705-ci ildə Sultanın fərmanı ilə məhkəmə məclisinə çağırılmış, qazilər və fəqihlər tərəfindən əqidəsinin doğruluğu yoxlanılmışdır. Bir neçə dəfə onun üçün məhkəmə qurulmuşdur. Qazı İbn Məxluf Malikinin ona qarşı xəbəri sifətləri təcsimə gətirib çıxaran zahiri mənada təfsir etməsi iddiası qaldırılmış və Misirə çağırılmışdır. Sonda isə həbs olunmuşdur. Hicri 720-ci ildə üç dəfə talaq vermək, heyz halında verilən talaq və mötəbər olmayan şərtə əsasən talaq vermək kimi məsələlərdə dörd məzhəbə müxalif çıxdığı üçün alimlər və fəqihlər tərəfindən mühakimə olunaraq həbs olunmuşdur. Hicri 728-ci ildə Dəməşq qalasında həbsdə ölənədək etiqad məsələlərində müxtəlif rəylər söyləmişdir.

Bəlkə də bu hallar Zəhəbinin onun əqidəsindən imtina etməsinə və ona müxalif çıxmasına səbəb olmuşdur. İbn Həcər Əsqəlani ondan nəql edərək belə deyir: “Mən onun günahsız olmasını güman etmirəm. Hətta mən bir çox usul və furu (etiqad və şəriət) məsələlərində ona müxalifəm”.[72]

İbn Teymiyyənin ölənədək həbsdə keçdiyi həyat mərhələləri və azğın fikirləri barədə yuxarıda qeyd etdiklərimizlə kifayətlənirik. Sonrakı səhifələrdə onun fikirlərini tənqid edən dövrünün və sonrakı alimlərin barəsində danışcayıq. Görəcəyik ki, onun fikirlərini qəti surətdə rədd etmişlər, iman gətirdiyi əhli-sünnə məzhəbinin elmi metoduna müxalif məsələləri tənqid etmişlər.

Alimlərin İbn Teymiyyə barəsində rəy və fətvaları

İbn Teymiyyənin qeyd etdiyimiz rəy və əqidəsi barədə əhli-sünnə alimlərinin əksəriyyəti fətva və tənqidi fikirlərini söyləmişlər. Onun ümumi rəyə qarşı yönəlmiş, şəriətin zəruri prinsiplərinə zidd

[72] əd-Durərul-kaminə, c. 1, s. 176

özünəməxsus fikirlərindən sonra bunun baş verməsi qəribə deyil. Əhəmiyyətli olduğunu düşündüyümüz üçün İbn Teymiyyənin etiqadları barədə bəzi alimlərin xəbərdarlıq etdiklər və çəkindirdikləri fətva və rəylərini qeyd edirik.

1. Əllamə Təqiyyuddin Subki (vəfat tarixi 756 h.)[73]

Əllamə Subki onu bidət etməkdə və icmaya müxalif çıxmaqda ittiham edir.

İbn Teymiyyənin şübhələrini təkzib etmək üçün Əllamə Subki böyük zəhmət çəkmişdir. Bu barədə misal olaraq onun bir neçə əsərlərini qeyd edirik: "Şifaus-siqam fi ziyarəti xeyril-ənam", "əl-İtibar fi bəqail-cənnəti vən-nar", "əd-Durrətul-muziyyə fir-rəddi alə İbn Teymiyyə", "Şənnul-ğarəti alə mən ənkərə səfərəz-ziyarə"' "ən-Nəzərul-muhəqqəq fil-hilfibit-təlaqil-muəlləq" və "Nəqdul-ictimai vəl-iftiraqi fi məsailil-imani vət-təlaq".

Subki "əd-Durrətul-muziyyə fir-rəddi alə İbn Teymiyyə" kitabında İbn Teymiyyə haqqında belə deyir: "İbn Teymiyyə Kitab və sünnə örtüyünə bürünərək haqqa dəvət, cənnətə hidayət etdiyini iddia etdikdən sonra əqidə əsasları barədə bidətlər etdikdə və İslamın sütunlarını yıxdıqda

[73] Zəhəbi onun tərcümeyi-halında belə deyir: "Əli bin Əbdülkai bin Əli bin Tamam bin Yusif bin Səlim qazı, imam, əllamə, fəqih, mühəddis, alimlərin fəxri Təqiyuddin Əbulhəsən Subki Misri Şafei. Altı yüz səksən üçüncü ildə dünyaya gəlmişdir. O, doğru danışan, xeyirli, dindar, təvazökar, elmdə yaxşı ad qazanmış şəxs idi. Fiqh bilir, təhlil edirdi. Hədis elmini bilir və yazırdı. Usul bilir və mühazirə söyləyirdi. Ərəb dilini bilir, tədqiq edirdi. Öz zamanında tədqiqat və fəzilət xüsusiyyətləri ilə tanınırdı. Zəhəbi, "əl-Mucəm", c. 1, s. 116; "Təbəqatuş-Şafeiyyəl-kubra", c. 10, s. 147

tabeçilikdən (İslama tabe olmaqdan) çıxaraq bidətə keçdi, icmaya müxalif olmaqla müsəlmanların dəstəsindən ayrıldı…”[74]

2. Əllamə Hisni (vəfat tarixi 829 h.)

İbn Teymiyyəni hiylə, məkr, saxtakarlıq və təkfir etməkdə ittiham edir.

Həmçinin Əllamə Hisninin onu saxtakarlıq, hiylə və məkrdə ittiham edərək belə deyir: “Onun ən birinci hiyləsi və yalançılığı İmam Əhmədin məzhəbinə mənsub olduğunu iddia etməsi olmuşdur. Elm öyrənib ibadətlə məşğul oldu. Şeyxlərin qəlbi ona meyl etdi. Ona hörmət və təzim göstərməyə başladılar. Özünü iffətli göstərməyə başladıqda ona daha çox rəğbət bəsləyib onun yanına gedib-gəlməyə başladılar. Sonra alimlərin sözlərinə nəzər salıb müəyyən qeydlər etdi. Hətta belə güman etdi ki, kitab yazmaq iqtidarındadır. Bundan sonra kitab yazmağa və filan məntəqədən fətva sualı gəldiyini iddia etməyə başladı. Halbuki bu, doğru deyildi. Sonra da həmin suala cavab yazırdı. Elə şeylər yazırdı ki, bəzən tənqid olunması mümkün, bəzən isə mümkün olmurdu. Lakin o, elə saxtakarlıqla məqsədinə işarə edirdi ki, onun məqsədindən yalnız zirək olan məharətli alim xəbərdar ola bilər. Onunla yalnız fövqəladə zəka sahibi olan alim mübahisə edərsə, ona qalib gələ bilər”.[75]

Həmçinin belə deyir: “Elm dəryası kimi vəsf olunan İbn Teymiyyə barəsində bəzi imamların onun mütləq zindiq olmasını demələri heç də qəribə deyil. Onların belə demələrinin səbəbi budur ki, onun sözlərini araşdırdıqda müəyyən bir etiqada rast gəlmək olmur. O, bir çox yerlərdə müəyyən bir firqəni təkfir edir, zəlalətdə olduğunu deyir, lakin başqa yerdə onların dediklərinə və ya bəzilərinə etiqad bəsləyir. Baxmayaraq ki,

[74] “əd-Durrətul-muziyyə fir-rəddi alə İbn Teymiyyə”, s. 3

[75] Dəfuuş-şubəhu ənir-Rəsul, s. 87

onun kitabları təcsim və təşbih ilə doludur. Peyğəmbərin (s) və iki şeyxin (Əbu Bəkr və Ömər) şənini kiçiltməsi, Abdullah bin Abbası təkfir etməsi, onu mulhid (dinsiz) hesab etməsi, Abdullah bin Öməri cinayətkarlardan, bidətçi və zəlalət əhli olduğunu hesab etməsinə işarələr var. Bu məsələləri "Siratul-mustəqim vər-rəddu aləl-cəhim" adlı kitabında yazmışdır. Onun sözlərində dörd imamı kafir hesab etdiyinə rast gəlmişəm".[76]

Burada şahid oluruq ki, Əllamə Hisni onu nəinki bəzi səhabələri, hətta dörd məzhəbin imamlarını belə təkfir etməkdə ittiham edir.

Həmçinin belə deyir: "Xülasə; O və ardıcılları təşbih və təcsim, Peyğəmbərin (s) şənini kiçiltmək, iki şeyxə nifrət, peyğəmbərlərin xələfləri olan abdalların (övliyaların) inkar olunması kimi məsələlərdə ğülatlardandırlar (həddi aşanlardandırlar). Onların elə müsibətləri var ki, insanlar xəbər tutsaydılar bir anda onları yandırarlar. Allahdan afiyət diləyirik..."[77]

3. İbn Həcər Əsqəlani (vəfat tarixi 852 h.)[78]
İbn Teymiyyənin əleyhinə aid olan fətvaları toplamışdır.

İbn Həcər Əsqəlani əd-Durərul-kaminə kitabında İbn Teymiyyənin fikirləri və rəyləri barədə fətva verən alimlərin adlarını təsnif etmişdir.

---

[76] Həmin mənbə, s. 126

[77] Həmin mənbə, s. 215

[78] İbn İmad Hənbəli onun tərcümeyi-halı barədə belə yazır: "İslamın şeyxi, biliklilərin biliklisi, hədisdə möminlərin əmiri, əsrin hafizi Şihabəddin Əbulfəzl Əhməd bin Əli bin Muhəmməd bin Muhəmməd bin Əli bin Əhməd. İbn Həcər adı ilə məşhurdur. Cərid məmləkətinin cənubunda yaşayan Ali Həcər qövmünə nisbətən belə adlanmışdır. Misirli olduğu orada doğulub böyüdüyü, yaşayıb vəfat etdiyi üçün Əsqəlani adlanmışdır. Şafei məzhəbində olmuşdur. Hicri 773-cü ildə şəban ayında dünyaya gəlmiş, hicri 852-ci ildə vəfat etmişdir". Şəzəratuz-zəhəb, c. 7, s. 270

O, belə deyir: “İnsanlar onun barəsində müxtəlif fikirdədirlər:

1. Bəziləri ona təcsim əqidəsini nisbət verirlər. Çünki o, həməviyyə və vasitiyyə əqidəsində, həmçinin digər yerlərdə “əl, ayaq, baldır və üz həqiqi sifətlərdir, O, (Allah) zatı ilə ərş üzərində oturur” demişdir.

2. Bəziləri “Peyğəmbərdən (s) köməklik istənilməz” sözünə görə onun zindiq olduğunu demişlər.

3. Bəzilər onun münafiq olduğunu demişlər. Çünki Əlinin barəsində belə deyirdi: “O, harada olsa uğursuz idi. Dəfələrlə xilafəti ələ keçirmək istədi, amma bacarmadı”. “O, din üçün deyil, rəyasət üçün vuruşmuşdur”. “O, rəyasəti, Osman isə malı sevirdi”. “Əli uşaq ikən İslamı qəbul etmişdir. Uşağın İslamı qəbul etməsi doğru deyil”. Həmçinin, Əbu Cəhlin qızının nişanı məsələsində dediklərinə görə onu münafiq hesab edirlər. Çünki Peyğəmbər (s) buyurmuşdu: “…Sənə yalnız münafiq nifrət edər”.

4. Bəziləri isə onun böyük imamlıq əldə etmək üçün səy etdiyini demişlər. O, İbn Tumerti xatırlayar və onu tərifləyərdi.[79]

4. İbn Həcər Heytəmi Məkki (vəfat tarixi 973 h.)[80]

Onu ən ağır sözlərlə ittiham etmişdir.

[79] əd-Durərul-kaminə, c. 1, s. 180, 181

[80] Əhməd bin Muhəmməd bin Əli bin Həcər Heytəmi. Misirdə yerləşən Həyatim kəndindəndir. Sədi qəbiləsindəndir, Məkkəlidir. Fəqih, mühəddis, bir neçə əsər müəllifidir. Hicaz, Yəmən və başqa ölkələrdə şafei məzhəbindən olanlar ona istinad edirlər. Şihab Xəfaci “ər-Reyhanə” kitabında onun barəsində belə deyir: “Zəmanənin, xüsusilə də Hicazın əllaməsi. Onun kəbəsinə nə qədər alimlər həcc etmiş, (elm) tələb edən üzlər onun qibləsinə yönəlmiş, qulaqlar onun söylədiyi qədim və yeni xəbərləri sırğatək asmışdır. O, məqamı ən uca və etimad olunandır”. Hicri 899-cu ildə dünyaya gəlmiş və hicri 974-cü ildə vəfat etmişdir. Fehrəsul-fəharisi vəl-isbat, c. 1, s. 337

İbn Həcər Heytəmi “əl-Fətəval-hədisiyyə” kitabında belə deyir: “İbn Teymiyyə Allahın xar, azğın, kar, kor və zəlil etdiyi bir quldur… Onun halının fasid, sözlərinin yalan olduğunu bəyan edən imamlar belə demişlər. Bunu bilmək istəyən kəs imamlığına və içtihad mərtəbəsinə çatmasına hamının müttəfiq olduğu İmam Əbulhəsən Subkinin, onun övladı Tacın, Şeyx İmam İzz bin Cəmaənin, şafei, hənbəli və hənəfi məzhəbinə mənsub olan zəmanəsinin alimlərinin sözlərini oxusun”.

Sonra o, belə deyir: “Xülasə budur ki, onun sözlərinə dəyər verilməməli və ayaq altına atılmalıdır. Onun bidətçi, azğın, azdırıcı ğülat olduğuna etiqad olunur. Allah Öz ədaləti ilə onunla davransın! Onun yolu, əqidəsi və əməlindən bizi qorusun! Amin!”[81]

5. Əllamə Muhəmməd Zahid Kövsəri (vəfat tarixi 1371 h.)[82]
Onu elminin nizamsız və düşüncəsinin anormal olmasında ittiham etmişdir.

Əllamə Kövsəri İbn Teymiyyəni vəsf edərək belə deyir: “Gənc yaşlarında sünnəyə və Müsnədi Əhmədə daha çox əhəmiyyət verərdi. Hətta (Müsnədi Əhmədin) mətnlərini əzbər bilirdi. Sonra isə başqa

[81] əl-Fətəval-hədisiyyə, s. 58

[82] Muhəmməd bin Zahid bin Həsən bin Əli əl-Kovsəri. Hənəfi məzhəbinə mənsub fəqih. Astanadakı Camil-fatihdə fiqh elmini öyrənmiş, təhsil almış və tədris məclisinin rəyasət məqamına çatmışdır. O, ərəb, türk və fars dillərini mükəmməl bilirdi. Qahirədə vəfat etmişdir. Onun əsərlərindən bunların adlarını qeyd edə bilərik: “Tənibul-xətib alə ma saqəhu fi tərcəməti Əbi Hənifə min əkazib”, “ən-Nukətut-tərifəti fit-təhəddusi ən rududu İbn Əbi Şeybə alə Əbi Hənifə”, “əl-İstibsar fit-təhəddusi ənil-cəbri vəl-ixtiyar”. Həmçinin İmam Zəfər, Əbu Yusif əl-Qazi, Muhəmməd bin Həsən Şeybani, Bədr Eyni, Həsən bin Ziyad, Muhəmməd bin Şuca, Tahavi barədə risalələr yazmışdır. Hamısı çap olunmuşdur. Bax: “Muqəddimətus-seyfis-səqil”, s. 3

elmlərlə və məzhəblərlə alimlərin yanında təhsil almadan mütaliə etmişdir. Elmlərdəki terminləri öz mənalarından fərqli mənada yozmuş, həmin fənlər barədə onun zehnində əks təsəvvürlər formalaşmışdır. Nə əvvəlki əzbəri yerində qalmış, nə də yeni işi fayda vermişdir. Hətta nizamsız elm və anormal düşüncəyə nümunə olmuşdur. Bu sözləri hissə qapılmadan sənə deyirəm. Elə zamanlar oldu ki, az qala onun kitablarına aldanmışdım. İnsan zay olmuş bu istedada təəssüf edir".[83]

İmam Zəhəbinin[84] məktubu və İbn Teymiyyənin məsləyinin xəta olmasını aşkar etməsi.

Bəlkə də "xəstəliyi" ən gözəl surətdə araşdırıb dərmanı tapan hədis alimi Zəhəbi (vəfat tarixi 748 h.) olmuşdur. O, İbn Teymiyyəyə məktub ünvanlamışdır. Həmin məktub öyüd-nəsihət, danlaq və xəbərdarlıq ehtiva edirdi. Zəhəbinin bu xitabı İbn Teymiyyənin və ardıcıllarının metod, əqidə, ədəb, əxlaq və başqa sahələrdə düşdükləri xətanın nə dərəcədə böyük olduğunun göstəricisidir. Bu məktubu oxuyarkən onun hər bir sözünə əhəmiyyət verib diqqətlə düşünməyə dəyər. Bu sözlər adi insan tərəfindən deyil, İbn Teymiyyəyə ən yaxın olan şəxslər tərəfindən söylənilmişdir. Ustadı üçün xeyir arzulayan imam, vəfalı şagird, səmimi və yaxşı mənada

[83] Səfəaatul-burhan alə səfəhatul-udvan, s. 34, 35

[84] Səfdi onun barəsində belə deyir: "… hədisi və raviləri mükəmməl bilən, zəif cəhətlərini araşdıran və dəyərləndirən şəxs idi. Alimlərin tərcümeyi-hallarını bilirdi. Onların tarixindəki qaranlıq məqamlarını aradan apardı… Mühədislərdəki durğunluğu onda görmədim. Əksinə o, fəqih təfəkkürünə sahib idi. İnsanların rəyləri, sələf imamların və söz sahiblərinin məzhəbləri barədə xüsusi araşdırma metodu vardı. Qeyd etdiyi elə bir hədis yoxdur ki, onun mətnindəki zəifliyi, sənədindəki qaranlığı və ya ravilərindəki nöqsanı bəyan etməsin…" əl-Vafi bil-vəfiyyat, c. 2, s. 114, 115

təəssübkeş birinin yazdığı məktub idi. Necə ki, Zəhəbi özünü belə hesab edərək deyir: “Qayğıkeş, məhəbbət bəsləyən biri kimi (deyirəm). Həqiqətən də belə birinin sözləri xüsusilə də, bu əsrdə qanun hesab olunmalı və unudulmamalıdır”. Bu məktubun məzmununda şəkk edilməməlidir. Biz Allah-taalanın izni ilə qəti dəlil və sübutlarla onun həqiqiliyini sübuta yetirəcəyik.

Məktubun mətni

Məktubun mətni Əllamə Təquyiddin Subkinin (vəfat tarixi 764 h.) nəql etdiyinə əsasən belədir. Bu məktub o qədər əhəmiyyətlilidir ki, həqiqəti başa düşmək istəyən hər kəs üçün dönüş nöqtəsi ola bilər.[85] Məhz buna görə həmin məktubun bütün cümlələrini və sözlərini qeyd edəcəyik.

Şeyx Şəmsəddin Əbu Abdullah Zəhəbi Şeyx Təqiyuddin İbn Teymiyyəyə yazdığı məktub. Bu məktubu Qazılar qazısı Burhanəddin bin Cəmaənin xəttindən (nüsxəsindən) yazmışam. O isə, Şeyx Hafiz Əbu Səid bin Əlainin xəttindən, o da məktubu göndərən Şeyx Şəmsəddinin xəttindən yazmışdır.

“Mütiliyimə görə Allaha həmd olsun! Ya Rəbbi, mənə rəhm et, günahlarımı bağışla və imanımı qoru! Az hüzünləndiyim üçün vay halıma! Sünnənin və sünnə əhlinin aradan getməsinə heyiflər olsun! Mənimlə birlikdə ağlayan mömin qardaşlarıma həsrətəm! Elm çıraqları, təqva əhli və xeyirlərin xəzinələri olanların köçüb getməsinə hüzünlənirəm! Ah! Halal bir dirhəm və həmdəm bir qardaş olaydı! Xoş o kəsin halına ki, başqalarının eybi ilə deyil, öz eybi ilə məşğuldur! Məhv olsun o kəs ki, insanların eybi ilə məşğul olmaq ona öz eybini unutdurdu! Nə vaxtadək qardaşının gözündə çöp axtaracaqsan, amma öz gözündə tiri

[85] Bu məktub təkcə İbn Teymiyyəyə deyil, özünü fətva məqamında görən, din işlərini icra edən hər bir müsəlmana ünvanlanmışdır.

görməyəcəksən?! Nə vaxtadək özünü, ağzından çıxan hər şeyi və sözlərini tərifləyib alimləri pisləyəcək və insanların eyblərini qurtalayacaqsan? Halbuki Rəsulullahın (s) bunu qadağan etdiyini bilirsən : “Ölülərinizi yalnız xeyirlə yad edin! Onlar önə göndərdiklərinə tərəf gediblər”. Şübhəsiz ki, özünü qorumaq üçün mənə belə deyəcəksən: “Müharibə İslamın iyini qoxulamayan, Muhəmmədin (s) gətirdiyini bilməyənlərə qarşıdır. Bu isə cihaddır”. Allaha and olsun ki, onlar bir qulun nicata çata biləcəyi qədər çox şeylər bilirlər. Onlar özlərinə aid olmayan çox şeyləri bilmirlər. “İnsanın ona aid olmayanı tərk etməsi müsəlmançılığının gözəlliyindəndir”.

Ey insan! Səni Allaha and veririk bizdən əl çək! Həqiqətən də sən mübahisə aparan, nə sükut edən, nə yatan dilli birisən. Dində səhv və xətalardan çəkinin. Sənin iman gətirdiyin Peyğəmbər(s) bir çox məsələləri bəyənməmiş və çox sual verməyi pisləmiş və belə demişdir: “Ümmətim üçün ən çox qorxduğum dilli (çox danışan elimli) münafiqdir”. Xətasız çox danışmaq belə insanın qəlbini daşlaşdırır. Bəs qəlbləri kor edən yunusiyyə (təriqəti) və fəlsəfənin küfr məsələlər barədə danışdıqda necə olar? Allaha and olsun ki, gülünc vəziyyətə düşmüşük. Nə vaxtadək fəlsəfi küfrlərin incəliklərini qazıb çıxaracaqsan və biz ağılımızla ona cavab verəcəyik?! Ey insan, dəfələrlər filosofların zəhərini içmisən, əsərlərini oxumusan. Çox zəhər içmək bədəni özünə aludə edər və Allaha and olsun ki, zəhər bədəndə yığılıb qalar. Hanı o məclislər ki, orada tilavət, düşüncə, zikr etməklə mütilik, susmaq və təfəkkür var?! Ah o məclislər ki, orada əməlisaleh insanlar xatırlanırdı! Əməlisalehləri xatırladıqda rəhmət nazil olar! Şübhəsiz ki, əməlisalehləri xatırladıqda onların şənini alçaltmaq və lənətlə xatırlayırlar. Həccacın qılıncı ilə İbn Həzmin dili iki qardaş idi. Onlarla Allaha xatir qardaşlıq etdim. Cümə axşamı bidətindən və dənləri (düyü, buğda) yeyib qurtardıqdan sonra zəlalətin kökü olan barəsində

danışdığımız bidətin sünnət olduğunu və tövhidin əsası hesab etdilər. Kim bunu bilmirsə kafir və ya ulaqdır. Kim təkfir etmirsə Firondan da kafirdir və bizim kimi xristian hesab olunur dedilər. Allaha and olsun ki, gətirdiyin iki şəhadətə bəslədiyin imanın düzgün olsa qəlblərdə sənə qarşı məmnunluq olar və xoşbəxt olarsan.

Ey uğursuz, sənin ardıcılların, xüsusilə də, elmi və dini az olanlar zindiqliyə və parçalanmaya düşür. Lakin sənə fayda verir, əli ilə, dili ilə sənin uğrunda cihad edər. Halbuki batində qəlbi və halı ilə sənə düşməndir. Sənin ardıcıllarının əksəriyyəti ağıldan kəm həmsöhbət, yalanaçı avam, sakit hiyləgər və ya anlayışı olmayan əməlisaleh insanlar deyilmi? Əgər mənə inanmırsansa özün araşdır və ədalətlə onları dəyərləndir. Ey müsəlman, şəhvətinin ulağı səni tərifləyir.

Nə vaxtadək şəhvətini təsdiqləyib xeyirli insanlara düşmənçilik edəcəksən?! Nə vaxtadək (şəhvətinin təlqin etdiyini) təsdiqləyib əməlisalehlərin şənini alçaldacaqsan? Nə vaxtadək şəhvətinə təzim edib bəndələri kiçildəcəksən? Nə vaxtadək nəfsinlə dostluq edib zahidlərə nifrət edəcəksən? Nə vaxtadək öz sözlərini – Allaha and olsun ki – səhiheyndəki (Səhih Buxari və Səhih Müslim) hədisləri mədh etdiyindən də artıq mədh edəcəksən?!

Eykaş səhiheyndəki hədislər sənin əlindən rahat qalaydı. Sən hər dəfə oradakı hədisləri zəif hesab edərək, dəyərdən salaraq, yozaraq və inkar edərək onu dəyişirsən. Düz yola gəlməyin vaxtı çatmayıbmı?! Tövbə edib qayıtmağın vaxtı gəlib çatmayıbmı?! Sən indi yetmişə yaxınlaşmısan və bu dünyadan səfər etmək vaxtı yaxınlaşıb. Allaha and olsun ki, sənin ölümü xatırladığın yadıma gəlmir! Əksinə ölümü xatırlayanın şənini alçaldırsan! Zənn etmirəm ki, sözümü qəbul edib öyüd-nəsihətimə qulaq asacaqsan?! Əksinə sənin bu vərəqlərdəki yazıları batil etmək, sözlərimi puç etmək üçün cilidlər yazmaq arzusunda olduğunu yaxşı bilirəm. O qədər özünü

müdafiə edəcəksən ki, sonda mən sükut etmək daha doğrudur deyəcəm. Əgər sənin vəziyyətin mənim nəzərimdə belədirsə, halbuki mən qayğıkeş və məhəbbət bəsləyən biriyəm.[86] Bəs görəsən düşmənlərinin nəzərində sənin vəziyyətin necədir?! Allaha and olsun ki, düşmənlərinin içərisində əməlisaleh, ağıllı və fəzilətli insanlar var. Necə ki, dostlarının içərisində facir, yalançı, cahil, batil əhli, kor və heyvan kimi olan insanlar var.

Razıyam ki, aşkarda məni söyəsən, gizlində isə sözlərimdən faydalanasan. "Eyblərimi mənə hədiyə edən insana Allah rəhmət eləsin". Həqiqətən mənim eyblərim çox, günahlarım saysızdır. Əgər mən tövbə etməsəm vay mənim halıma! Qeybləri bilənin yanında biabır olacam! Dərmanım Allahın əfvi, mərhəməti, hidayəti və müvəffəq etməsindədir. Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Peyğəmbərlərin sonuncusu ağamız Muhəmmədə, Əhli-beytinə və bütün səhabələrinə salam və salavat olsun!"[87]

Zəhəbi barmağını yaranın üzərinə qoyur

Zəhəbi ona aşağıdakı sözləri deyərkən barmağını yaranın üzərinə qoymuşdu: "Düz yola gəlməyin vaxtı çatmayıbmı?! Tövbə edib qayıtmağın vaxtı gəlib çatmayıbmı?! Sən indi yetmişə yaxınlaşmısan və bu dünyadan səfər etmək vaxtı yaxınlaşıb. Allaha and olsun ki, sənin ölümü xatırladığın yadıma gəlmir! Əksinə ölümü xatırlayanın şənini alçaldırsan! Zənn etmirəm ki, sözümü qəbul edib öyüd-nəsihətimə qulaq asacaqsan?! Əksinə sənin bu vərəqlərdəki yazları batil etmək, sözlərimi puç etmək üçün

[86] Zəhəbi şəfqət, qayğı və məhəbbət dili ilə demək istəyir ki, səni sevənlərlə düşmənlərin barədə təsəvvürlərin qarışıqdır. Ola bilsin ki, düşmən hesab etdiyin sənə nəsihət edərkən səmimidir. Çünki o, səni sevir. Ola bilsin ki, sənə heç bir söz deməyən, nəsihət etməyən ətrafındakıların səni sevdiklərini və sənə qarşı səmimi olduqlarını düşünürsən. Bu, səhvdir. Buna diqqət etməlisən.

[87] əs-Seyfus-səqil, s. 217, 218

cilidlər yazmaq arzusunda olduğunu yaxşı bilirəm. O qədər özünü müdafiə edəcəksən ki, sonda mən sükut etmək daha doğrudur deyəcəm".

Bu sözlərlə Zəhəbi onu tövbə etməyə, xəta və azğınlığın hakim olduğu məsləkdən geri dönməyə çağırır. Sonra belə deyir ki, bilirəm ki, sən mənim sözlərimi qəbul etməyəcəksən, öyüd-nəsihətimi dinləməyəcəksən. Sənin bütün dərdin haqqı qəbul etməmək üçün batil sözlər söyləməkdir. Ən dəhşətlisi budur ki, sən dini mətnləri (hədisləri, alimlərin sözlərindən gətirdiyin sitatları) kəsərək təhrif edirsən. Daha sonra Zəhəbi onun sükut etməsini danışmasından daha xeyirli olduğunu deyir.

Zəhəbi İbn Teymiyyənin müridlərinin qiymətini verir

Sonra görürük ki, Zəhəbi ardıcıllarına görə ona xəbərdarlıq edir. Bu xitab müəyyən bir zamana aid deyil, ümumidir. Bu gün də görürük ki, bəzilər anlamadığı sözləri danışır, müsəlman tayfalarını təkfir edir, onları şirk etməkdə ittiham edirlər. Zəhəbi bu vəziyyət barədə xəbərdarlıq edərək belə deyir: "Ey uğursuz, sənin ardıcılların, xüsusilə də, elmi və dini az olanlar zindiqliyə və parçalanmaya düşər. Lakin sənə fayda verir, əli ilə, dili ilə sənin uğrunda cihad edər. Halbuki batində qəlbi və halı ilə sənə düşməndir. Sənin ardıcıllarının əksəriyyəti ağıldan kəm həmsöhbət, yalanaçı, avam, sakit hiyləgər və ya anlayışı olmayan əməlisaleh insanlar deyilmi? Əgər mənə inanmırsansa özün araşdır və ədalətlə onları dəyərləndir... Allaha and olsun ki, düşmənlərinin içərisində əməlisaleh, ağıllı və fəzilətli insanlar var. Necə ki, dostlarının içərisində facir, yalançı, cahil, batil əhli, kor və heyvan kimi olan insanlar var. Razıyam ki, aşkarda məni söyəsən, gizlində isə sözlərimdən faydalanasan".

Məktubun bu hissəsində Zəhəbinin sözlərində sərtliklə rastlaşırıq. Belə ki, İbn Teymiyyənin ardıcıllarını, xüsusilə də, bu təfəkkürün ideoloqlarını elə sözlərlə dəyərləndirmişdir ki, həmin sözlərə diqqət etmək lazımdır.

Zəhəbinin bu sözləri deməsinin səbəblərini soruşmaq gərəkir. Nə səbəb olmuşdur ki, onları bu xüsusiyyətlərlə vəsf etmişdir ? Onun məqsədi nə idi?

Bu vəsflər onun dediklərini dərin düşünməyi tələb edir. Zəhəbi onların böyük və əzəmətli hesab etdikləri alimdir. Onun sözlərinə göz yummaq olmaz. O, bu təfəkkürü davam etdirənlərin nəzərində müraciət mənbəyidir. Nə üçün Zəhəbi belə deyir: "Sənin ardıcıllarının əksəriyyəti ağıldan kəm həmsöhbət, yalanaçı avam, sakit hiyləgər və ya anlayışı olmayan əməlisaleh insanlar deyilmi?... Necə ki, dostlarının içərisində facir, yalançı, cahil, batil əhli, kor və heyvan kimi olan insanlar var".

Bəlkə də Zəhəbi onların elminə və təfəkkürünə işarə etmək istəyir. Bu təfəkkürdə fucur[88], cahillik və yalan var. Məhz bu, cəhalətin zirvəsidir.

Lakin Zəhəbi İbn Teymiyyənin səhabələrini bu ittihamlarla vəsf etdikdə onun inanmayacağını bilirdi. Məhz buna görə də ona: "Onları araşdır və ədalətlə dəyərləndir" deyir. Necə də gözəl demişdir!

Kaş bu öyüd-nəsihətlər müsəlmanları təkfir edən, bidət və şirk kimi müxtəlif böhtanlar atmaqdan yorulmayan vəhhabi təfəkkürünün ardıcıllarına təsir edərdi. Ey kaş onlar bu təfəkkürü və əhli-sünnənin böyük alimlərinin, fəqihlərinin İbn Teymiyyəyə verdikləri cavabları diqqətlə və insafla araşdırsınlar. Lakin onlar İbn Teymiyyənin yazdığı kitablarla fəxr edir, universitetlərdə bu məsləyi müzakirə və müdafiə edilir. Halbuki onlar elmi obyektivliyin tələbinə baxmayaraq ona müasir olan sələf alimlərin, hətta şagirdlərinin irad tutduqları zəlalətləri, azğınlıqları və təhrifləri göz ardına vururlar. Yazdıqları kitablar və məktublarda bu məsləyi tənqid edən böyük alimlərin barəsində heç bir

[88] Burada fucur sözündən məqsəd elmi fucurdur. Bu, onların təfəkküründə kök salmış mürəkkəb cahilliklərinə işarədir. Bu sözlər dəlalət edir ki, Zəhəbi İbn Teymiyyənin yaxınlarının etdiklərindən ümidsizlik dərəcəsinə çatmışdır.

kəlmə də danışmırlar[89]. Həmin alimlərin sayı növbəti səhifələrdə qeyd edəcəyimiz kimi əlli nəfərə qədərdir.

Bu araşdırmamız İbn Teymiyyənin, xüsusilə də, İslam dininin əsaslarından hesab olunan tövhid barəsində seçdiyi məsləyin bəzi xətalarını üzə çıxaracaq.

Zəhəbinin məktubunun mötəbər olması

Bəziləri iki səbəb əsasən bu məktubun Zəhəbiyə aid olmasında şübhə edə bilərlər.

Birinci: Zəhəbi İbn Teymiyyənin şagirdlərindən olmuş və ondan təsirlənmişdir. Belə olan halda o belə bir məktub yaza bilərdimi? Bu ziddiyyət deyilmi?

İkinci: Subkinin nəql etdiyi məktub İbn Qazi Şuhbənin xəttilə yazılmışdır. O, İbn Teymiyyənin rəqiblərindən idi. Məlumdur ki, rəqibin şahidliyi naqisdir.

Məktuba şəkk edənlərə veriləcək cavab

Birinci: Zəhəbi İbn Teymiyyənin məsum olmasına etiqad etmir və ona müxalif çıxırdı.

[89] Lakin elə bir gün gələcək ki, ağıllar azad olacaq, düşüncələr çiçəklənəcək, durğunluq və kor təqlid arxada qalacaqdır. Səudiyyə ərəbistanında konfranslarda, elmi toplantılarda və internet səhifələrində bu məsləyi tənqid edən mötədil və azad düşüncə sahibi olan alimlər də var. İbn Teymiyyənin məsləyindən mənşə götürən və bir ölkənin ideologiyasını tamamilə dəyişə biləcək sələfi təfəkkürünü daha obyektiv araşdıran alimlər var. Bəlkə də Şeyx Həsən bin Fərhan Maliki, Məşari əz-Zaydi, Mənsur Nəqidan, Abdullah bin Bəccad Ətibi, Xalid Ğanimi, Muhəmməd Əli Mahmud, Əbdülmöhsin Əvaci və başqaları bu azad təfəkkürün nümayəndələridir.

Birinci şübhəyə gəlincə, deməli, Zəhəbinin İbn Teymiyyənin tərcümeyi-halını yazarkən onun barəsində qeyd etdiyi tərifl ər bu məktubun yalan olduğunu üzə çıxarır. Lakin İbn Həcər Əsqəlaninin İbn Teymiyyənin tərcümeyi-halında yazdıqları bu iddianı dəf edir. Belə ki, o Zəhəbinin bu mübhəmliyi aradan aparacaq sözlərini qeyd edir. Zəhəbi belə demişdir: "Mən onun məsum olmasını düşünmürəm. Əksinə bir çox əqidə və şəriət məsələlərində ona müxalifəm".[90] İbn Teymiyyənin məsum olmamasını düşünmək onun xəta etməsinin mümkünlüyü deməkdir. Onun şagirdinin öyüd-nəsihət etməsi şəriət baxımından vacib bir əməldir. Onu mədh etməsi ilə öyüd-nəsihət etməsi arasında heç bir bağlılıq yoxdur. Əgər məqsəd əhəmiyyətli bir məsələdirsə bu inkar nə üçündür? Xüsusilə də Zəhəbinin şagird olsa da, dinin əqidə məsələlərində güzəştə getməsi mümkün deyil. Bu məktub barəsində şəkk şübhə yaradılmamalı, əksinə tərifl ənməli və mədh edilməlidir.

İkincis: İmam Səxavi, Hafiz Əlai, Muhəqiq Doktor Bəşşar Əvvad, Doktor Səlahəddin Muncid məktubun Zəhəbiyə mənsub olduğunu sübut edirlər.

İmam Səxavi "əl-İlan bit-tovbix limən zəmmət-tarix" kitabında belə deyir: "Onun (Zəhəbinin) şanlı əqidəsinə və İbn Teymiyyəyə həddən ziyadə təəssübkeşliyini dəf etmək üçün yazdığı faydalı bir məktuba şahid olmuşam".[91]

Bu kitabın tədqiqatçısı haşiyədə belə deyir: "Zəhəbinin Zəğlul-ilm bəyanı ilə yanaşı nəşr olunan İbn Teymiyyəyə yazdığı nəsihət Səxavinin işarə etdiyi həmin məktubdur".[92]

---

[90] əd-Durərul-kaminə, c. 1, s. 176

[91] əl-İlan bit-tovbix limən zəmmət-tarix", s. 136

[92] Həmin mənbə

Əlai belə deyir: “Zəhəbinin İbn Teymiyyəyə yazdığı nəsihət məktubu. Allah hər ikisini bağışlasın”.[93]

Həmçinin görkəmli tədqiqatçı Bəşşar Əvvad bu məktubu təsdiqləyərək belə deyir: “Bu, Zəhəbinin şeyxi və yoldaşı Əbulabbas İbn Teymiyyə Hərraniyə yazdığı məktubdur. Bu məktubda ona nəsihət edir, bəzi hərəkətlərinə görə onu danlayır. Bu məktub Zəhəbinin əqidəsinin aşkar olması xüsusunda çox faydalıdır. Səxəvi “əl-İlan” kitabında onu qeyd etmişdir... Bəzilər bu məktubun saxta olduğu rəyindədirlər. Bunun heç bir əsası yoxdur”.[94]

Həmçinin deyir: “Zəhəbi əsas və qeyri-əsas məsələlərdə yoldaşı və şeyxi (yəni İbn Teymiyyəyə) müxalif çıxması ilə yanaşı ona danlaq barədə nəsihət məktubu göndərmişdir”. Onun və səhabələrinin rəylərini tənqid etmişdir. Buna baxmayaraq o, (İbn Teymiyyədən) çox təsirlənmişdir”.[95]

Bu həqiqəti Doktor Səlahəddin Muncid[96] də təsdiqləyərək belə deyir: “Bəziləri bu nəsihətin Zəhəbiyə mənsub olmasında şəkk edirlər. Bizim nəzərimizdə bu nəsihətin ona məxsus olmasında heç bir şübhə yoxdur. Təquyiddin bin Qazi Şuhbə və başqaları bu məktubu nəql edən alimlərin heç biri inkar etməmişdir”.[97]

---

[93] Tənzihul-həqqil-məbud kitabının haşiyəsi s. 139

[94] Zəhəbi və minhəcəhu fi kitabihi tarixil-İslam, s. 146

[95] Siyəru əlamin-nubəla, c. 1, s. 38

[96] Beynəlxalq münasibətlər və tarix üzrə fəlsəfə dokturu. Ərəb Dövlətləri Universitetində Əlyazmalar inistutunda direktor vəzifəsində işləmişdir. Ərəb Ali Araşdırmaları İnstitu, Frankfurt Universiteti, Briston Universiteti kimi bir çox universitetlər və institutlarda mühazirələr demişdir. O, nəinki beynəlxalq hüquq, hətta əlyazmalar sahəsində də məharətli mütəxəssisdir. Məhz buna görə də o, bu nəsihətin Zəhəbiyə aid olmasını deməsi əminlik yaradır.

[97] Şeyxul-İslam İbn Teymiyyə siyrətuhu və əxbaruhu indəl-muərrixin, s. 14

Üçüncü: Zəhəbi sərt dillidir, başqa alimlər barəsində də sərt sözlər demişdir.

Zəhəbinin kitablarını, alimlər barədə yazdığı tərcümeyi-halları oxuduqda onun bəzi alimlər barədə sərt danışdığına şahid oluruq. Məsələn, Fəxri Razi və Amidi kimi alimlərin barəsində sərt danışmışdır.

Subki ət-Təbəqat kitabında belə deyir: "Həmişə (Zəhəbinin) "əl-Mizan fiz-zuəfa" kitabında Fəxrəddin Razini və Seyf Amidini xatırlamasından təəccüb edirəm. Belə deyirəm: "Ya Allah! Təəccüblüdür ki, bu ikisinin heç bir rəvayəti yoxdur. Heç kim onları tənqid etməmişdir. Heç kimin onları nəql etdikləri elmlər barəsində zəif hesab etməsi eşidilməyib. Bu kitabda onlar necə tənqid olunur? Bundan başqa biz hər hansı şəxsin İmam Fəxrəddini Fəxr adlandırmasını eşitməmişik. Onu ya İmam, ya da İbn Xətib adlandırırlar".[98]

Bu alimlər Zəhəbinin dilindən xilas ola bilməmişlər. Halbuki onlar İbn Teymiyyədən ələmdirlər (biliklidirlər). Belə olduğu halda başqaları barədə niyə danışmamalıdır? Hətta İbn Teymiyyə olsa belə! Doktor Muncid belə deyir: "Bu, Zəhəbinin hücum edərkən davrandığı üslubdur. Belə aydın olur ki, o, bunu ömrünün axırlarında yazmışdır. Heç kim Zəhəbi kimi Şeyxi (İbn Teymiyyəni) tərifləməmişdir. Lakin o, İbn Teymiyyəyə məhəbbət bəslədiyi və ona ürəyi yandığı üçün bəzi məsələlər barəsində onu tənqid etmişdir".[99] Belə olduğu halda bu şəkk və şübhə nə üçündür?

Dördüncü: Bu məktub Zəhəbinin dəsti-xətti ilə yazılmış məktubdan köçürülmüşdür və saxtalaşdırılması mümkün deyil.

Bəlkə də bu məktubun Zəhəbinin dəsti-xətti ilə yazdığı məktubdan köçürülməsi onun mötəbər olmasına ən yaxşı dəlildir. Bu məktubun

[98] Təbəqatuş-şafeiyyəl-kubra, c. 2, s. 41

[99] Şeyxul-İslam İbn Teymiyyə siyrətuhu və əxbarəhu indəl-muərrixin, s. 14

nüsxəsini Təqiyuddin İbn Şuhbə Əsədi köçürmüşdür. Həmin məktub Qahirədə Darul-kutubil-misriyyə, həmçinin Darul-kutubuz-zahiriyyə kitabxanalarında saxlanılır.

Məşhur tədqiqatçı Bəşşar Məruf Əvvad "əz-Zəhəbi və minhəcuhu fi tarixil-İslam" kitabının haşiyəsində bu nüsxəyə işarə edərək belə deyir: "Həmin nüsxələrdən Təqiyuddin ibn Qazi Şuhbə Əsədinin (vəfat tarixi 851 h.) xətti ilə olan nüsxə 18823 nömrəsi ilə Darul-kutubil-misriyyə kitabxanasında, 1347 nömrəsi ilə isə Darul-kutubuz-zahiriyyə kitabxanasında saxlanılır. Husaməddin Qudsi hicri tarixi 1347-ci ildə "Zəğlul-ilm" kitabı ilə birlikdə çap etdirmişdir".[100]

Qeyd etdiklərimizdən sonra qəti surətdə bu məktubun doğru olmasına və heç bir şübhəyə əsas olmadığına tamamilə əmin oluruq. Yuxarıda qeyd etdiyimiz iradların heç bir əsası yoxdur.

İkinci şübhəyə gəlincə, Subkinin nəql etdiyi əlyazma nüsxə İbn Qazi Şuhbəyə məxsusdur. O, İbn Teymiyyənin rəqiblərindəndir. Onun şahidliyi naqisdir.

Bu sözün heç bir əsası yoxdur. Çünki məktubu nəql etməyin nöqsan hesab olunması bu hadisənin mahiyyətinə heç bir dəxaləti yoxdur. Kim deyir ki, elmi və fikri cəhətdən birinə müxalif olan ona rəqib sayılır. Alimlərin üslubu bir-birinə müxalif olmaqdır. Hətta Zəhəbinin belə bir qayda təsis etdiyini görürük. Onun rəyinə görə həmkarların bir-birinə dedikləri (tənqidi) sözlər düşmənçilik anlamında deyil. Zəhəbi belə deyir: "Həmkarların bir-birinə söylədikləri (tənqidi) sözlərə əhəmiyyət verilməz".[101] Zəhəbi burada elmi ixtilafa işarə edir.

Bundan başqa, bu məsələ təkcə İbn Qazi Şuhbəyə məxsus deyil. Əksinə əhli-sünnə alimləri tərəfindən demək olar ki, İbn Teymiyyənin

[100] əz-Zəhəbi və minhəcuhu fi kitabihi tarixil-İslam, s. 146

[101] Təzkirətul-huffaz, c. 2, s. 662

şübhələrinə qarşı icma edilmişdir. Onlar bnun üçün bütün dəlillərdən istifadə etmişlər. Əlbəttə, onların məqsədi düşmənçilik və ədavət yaratmaq deyil, onun fikirlərini təshih etmək üçündür. Danlaqdan daha çox nəsihətləri ehtiva edən bu məktub buna ən yaxşı dəlildir. Məgər (İbn Teymiyyənin fikirlərini tənqid edən) həmin alimlərin hamısını onun rəqibləri hesab etmək və şəhadətlərinin qəbul olunmamasını demək doğru olarmı?

İbn Qazi Şuhbənin tərcümeyi halı (vəfat tarixi 851 h.)

Bu məktubu nəql edən şəxslərin etibarlı olmasına daha da əmin olmaq və onların elmi məqamları və dini bilgiləri oxucu üçün məlum olsun deyə onların tərcümeyi-hallarını nəql edirəm.

İbn Qazi Şuhbəyə gəlincə, o, Əbu Bəkr bin Əhməd bin Muhəmməd bin Ömər Əsədi Şuhbi Dəməşqidir. Dövrünün Şam fəqihi, tarixçisi və alimidir. Dəməşq əhalisindəndir. İbn Qazi Şuhbə adı ilə tanınır. Çünki babasının atası Nəcməddin Ömər Əsədi Havran kəndlərindən olan Şuhbə kəndində 40 il qazı vəzifəsini icra etmişdir. Onun əsərlərindən "əl-Muntəqa min tarixil-İslam", "Mənaqibul-imam əş-Şafei", "əl-Kəvakibud-durriyyə". "Təbəqatun-nəcati vəl-luğəviyyin", "Təbəqatuş-şafeiyyə" və başqalarının adlarını qeyd edə bilərik.[102]

Burhanəddin bin Cəmaənin tərcümeyi-halı (vəfat tarixi 790 h.)

Qazi bin Cəmaəyə gəlincə, onun barəsində İbn Qazi Şuhbə yazmış və Zəhəbi tərcümeyi halını yazarkən belə demişdir: "İmam, fəqih, muhəddis İbrahim bin Əbdürrəhim Qazil-quzat Əbu Abdullah bin Cəmaə

[102] əl-İlam c. 2, s. 61; Nucumuz-zahirə, c. 15, s. 523

Burhanəddin Kənani Şafei. Elmin bütün hissələrini oxuyub əldə edənlərdən və seçilənlərdən biri. Onun daim fəzilətləri artmaqdadır."[103]

Deməli, fiqh, elm və fəzilətdə bu məqamda olan birinin sözlərinə və nəql etdiklərinə nöqsan nisbət verə bilərikmi?! Əksinə onun sözlərini təsdiq və qəbul etmək lazımdır.

[103] Mucəmu muhəddisi əz-Zəhəbi, c. 1, s. 45

İkinci fəsil: İbn Teymiyyənin tövhid barəsində rəyi və sələfi təfəkküründə bunun təsiri

Müqəddimə

Heç kimə sirr deyil ki, eləmlərin ən şərəflisi və ucası tövhid elmidir. Çünki bu elmin mövzusu Allah-taalanı sifətləri və adları ilə tanımaq, Onu hər növ eyb və nöqsanlardan münəzzəh, pak bilməkdir. İlahi sifətlər, şübhəsiz ki, etiqad əsasları mövzusunda ən əhəmiyyətli mövzulardandır. Bu məsələdə alimlər arasında ixtilaflar var. Bəziləri sifətləri tamamilə inkar etmiş, bəziləri zahiri mənalarından kənar yozmuş, bəziləri isə güluv edərək Xaliqi məxluqa bənzətmişdir. Onların rəyinə əsasən sifətlər dini mətnlərdə qeyd olunduğu zahiri mənadan kənara çıxmadan izah olunmalıdır. Bununla da ağıl və məntiqin qəbul etmədiyi, İslamın bəyənmədiyi, doğru qaydalara əsaslanan yozumdan uzaq bir məslək formalaşdırmışdırlar. Yalnız şəxsi rəy və qiyaslarına söykənən keyfiyyət baxımından təvil (yozum) qəbul etmişlər. Şübhəsiz ki, bu, batildir. İslam və ağı bunu rədd edir.[104]

Keyfiyyət baxımından təvili qəbul edənlərin rəyinə əsasən "O vaxt Allah buyurdu: ***"Ya İsa, həqiqətən, Mən sənin ömrünü tamam edib Öz dərgahıma qaldırıram,.."***[105] ayəsində maddi qalxma mənası nəzərdə tutulur.[106] Həmçinin

---

[104] Növbəti səhifələrdə təvil (yozum), onun şəri və əqli qaydaları barədə söhbət edəcəyik.

[105] Ali-İmran, 55

[106] Allah-təalanın ucalıq sifəti barədə çoxlu kitablar, araşdırmalar yazılmışdır. Məsələn, Üsamə bin Tofiq Qəssasın "İsbatu uluvvullahi alə xəlqihi vər-rəddu ələl-muxalifin", İbn Qudamə Muqəddəsinin "Kitabu isbatu sifətul-uluvv", Zəhəbinin "Kitabul-uluvvi lil-əliyyil-ğəffar", Şeyx Albaninin tədqiqi ilə, Sələfi yazıçı Həmmud bin Abdullah Tuveycirinin "Kitabu isbat uluvvillahi və mubayənətihi li xəlqihi" kitablarını qeyd edə bilərik.

"Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdu"[107] ayəsində "istiva" kəlməsini maddi anlamda "oturmaq" mənasında yozmuşlar. Bundan başqa digər ayələr və hədislər barədə keyfiyyət baxımdan yozumlar etmişlər.[108] Xaliqin sifətlərini məxluqa bənzədən bu məslək barəsində araşdırmamızın münasib məqamlarında qeydlər edəcəyik.

İbn Teymiyyə şeyxləri barədə nəql edərək belə deyir: "Vəlid bin Müslim belə deyir: "Malik bin Ənəs, Süfyan Sovri, Leys bin Səd və Əvzəidən (ilahi) sifətlərə dair buyurulan hədislər barədə soruşdum. Dedilər: "Həmin sifətləri nəql olunduğu mənalarında saxlayın(anlayın)". Başqa bir rəvayətdə isə "Keyfiyyət nisbət vermədən olduğu kimi saxlayın (anlayın)" dedilər. Sonra (Vəlid bin Müslim) belə dedi: "Onların – Allah onlardan razı olsun – "nəql olunduğu kimi saxlayın (anlayın)" dəmələri muəttilə təriqətinə (Allahın sifətlərini inkar edənlər), "keyfiyyət nisbət vermədən olduğu kimi saxlayın (anlayın)" dəmələri isə muməssilə (Allahı başqasına bənzədənlər) təriqətinə cavabdır".[109]

Bəğəvi Şərhus-sunnə kitabında "olduğu kimi saxlayın (anlayın)" cümləsini belə izah edir: "Yəni Quran və sünnədə Allah-taalanın vəsfi barədə bu qəbildən olan nəfs, üz, göz, əl, ayaq, gəlmək, səmaya enmək, ərşin üstündə oturmaq, gülmək və sevinmək kimi sifətlər Allah-taalanın sifətlərindəndir. Bunlar barədə nəql olunmuşdur. Bunlara iman gətirmək,

---

[107] Taha, 5

[108] İbn Teymiyyə Vasitiyyə əqidəsində aşkarcasına təcsim və təşbih mənası duyulan bəzi ayələr və hədislər qeyd etmişdir. Sonra belə izah etmişdir: Heç bir təhrif, inkar, keyfiyyət və bənzətmə olmadan Allah-təala kitabında Özünü belə vəsf etmiş, Rəsulu Muhəmməd də Onu bu cür vəsf etmişdir. Çünki Ona bənzər kimsə yoxdur". Növbəti mövzularda bu ziddiyyət izah olunacaqdır.

[109] Məcmu əl-fətəva, c. 5, s. 39

zahir mənalarında anlamaq, təvildən uzaq durmaq və təşbihdən çəkinmək vacibdir”.[110]

Məhz buna əsasən də İbn Həcər Əsqəlani Allah-taalanın sədəqəni öz əlləri ilə qəbul etməsi hədisini yozarkən belə deyir: “Maziri deyir: “Bu və bu kimi hədislər insanların danışıqlarına uyğun şəkildə ifadə edilir. Buna görə də sədəqənin qəbul olunması əllərilə almaq kimi ifadə edilmişdir”. İyyaz deyir: “Bəyənilən hər hansı bir şey əllə qəbul edildiyi üçün bu məsələdə də həmin söz istifadə edilmiş və qəbul etmək mənasını bildirmək üçün işlədilmişdir.[111]

Şeyx bin Baz Fəthul-bari kitabının haşiyəsində bu sözlərin ardınca belə deyir: “Bu yozumların heç bir əsası yoxdur. Doğru yol hədisləri zahiri mənasında izah etməkdir. Bu məsələdə – Allaha həmd olun – əhli-sünnə vəl-cəmaə nəzərində heç bir qadağa yoxdur... Bu hədis Allah-taalanın əlinin olmasını sübuta yetirir. Belə ki, O, halal kəsbdən verilən sədəqəni qəbul edir və onu (ruzini) qat-qat artırır”.[112]

Bundan da irəli gedərək nuzul (enmə) sifətinin Allah-taalanın zati sifətlərindən hesab etdilər. Məlumdur ki, bu, doğru deyil. Çünki bu sözlərə əsasən Rəbbəl-aləmin hər hansı bir cəhətdə olmalıdır. Bu, batilliyi məlum olan məsələdir. Buna əsasən də enmə həqiqi deyil, məcazi mənada izah olunmalıdır.

Ğamidi belə deyir: “Bəzilərinin “Allah zatı ilə enir” dedikdə məqsədləri bəzilərinin dediyi kimi həqiqi mənada enmədir. Yəni həqiqi mənadadır, məcazi mənada deyil. Doğrusu budur ki, bu söz öz mənasında işlədilməlidir”.[113]

---

[110] Şərhus-sunnə, c. 1, s. 168, 170

[111] Fəthul-bari, c. 3, s. 222

[112] Həşiyətu fəthil-bari, c. 3, s. 280

[113] Sifətun-nuzulil-ilahi, s. 278

İbn Teymiyyə bu həqiqəti, yəni Allah-taalanın zatı ilə enməsini təsdiqləmiş və Məcmu əl-fətəva kitabında belə deyir: “Qəlblərdə olan bu nur, bərəkət, rəhmət Allah-taalanın Özünü vəsf etdiyi kimi zatı ilə enməsinin əlamətlərindəndir. Necə ki, bir neçə səhih hədislərdə (Allah) Özünü Ərəfə gecəsi enməsi xüsusiyyətilə vəsf etmişdir. Həmin hədislərin bəziləri Səhih Müslimdə qeyd olunmuşdur”.[114]

İbn Qəyyim də İbn Teymiyyənin dediklərini təkrarlamışdır: “Zat sözünü mütləq mənada, heç bir əlavə olmadan dedikdə müəyyən sifətləri olan və həmin sifətlərin öz əksini tapdığı mahiyyətə dəlalət edir. Sanki onlar belə deyirlər: “Həmin mahiyyətdə öz əksini tapan məxsusi sifətlərin sahibi”.[115]

Həmçinin Albaninin əs-Silsiləs-səhihə kitabında İbn Teymiyyənin bu əqidə barədə dediklərini təsdiqləmiş, dəstəkləmiş və belə demişdir: “Onun enməsi həqiqi mənadadır Öz cəlalına layiqdir. Məxluqların enməsinə bənzəməz. Həmçinin Onun yaxınlaşması da həqiqi mənadadır. Bu rəyin tədqiqi Şeyxul-islam İbn Teymiyyənin kitablarında, xüsusilə Məcmu əl-fətəva kitabında qeyd edilmişdir. O, hədisi qeyd etmiş, həmin hədislə Allahın Ərəfə gecəsi zatı ilə enməsinə dəlil gətirmişdir”.[116]

Biz başa düşə bilmirik ki, Allahın cəlalına layiq həqiqi mənada enməsi nə deməkdir? Güman edirəm ki, bunu bəyan edə bilməyib heyrətdə qalarlar.

Zəhəbi zati enmə barədə söhbət etməkdən çəkinməyi tövsiyə edir.

Bu əqidəyə cavab olaraq Zəhəbinin bu məfhumu, yəni zati olmasını tənqid etməsi kifayətdir. O, yalnız enməyə iman gətirmiş, xüsusiyyətlərinə müdaxilə etməyi tərk etmişdir. Onun iddia etdiyi kimi bu, daha yaxşıdır.

[114] Məcmu əl-fətəva, c. 5, s. 373

[115] əs-Səvaiqul-mursilə, c. 4, s. 841

[116] əs-Silsiləs-səhihə, c. 6, s. 109

Həmçinin Əbu Nəsr Səcziyə etiraz edərək onun “Zatı ilə enir” dediyi sözün özünəməxsus olduğunu bəyan edir. Çünki enmənin zati olmasını demək cisimliliyə gətirib çıxardığını bilirdi. Buna əsasən də belə deyir: “Enmə məsələsinə gəlincə, buna iman gətirmək vacibdir, xüsusiyyətlərinə girməyi tərk etmək isə daha yaxşıdır. Sələfin yolu belədir. Enməsi zatidir deyən bu sözü yozaraq səmaya enməsi yalnız elmilədir deyənlərə acıq olaraq demişdir. Dində mübahisə etməkdən Allaha sığınırıq. Həmçinin Allah-taalanın “Rəbbin gəldi”[117] kimi buyurması barədə deyirik: “gəldi” və “endi”. Zati ilə endi deməyi qadağan edirik. Həmçinin elmi ilə enməsini də demirik. Əksinə susuruq və özümüzdən icad etdiyimiz sözlərlə Rəsulullahın (s) sözü müqabilində söz demirik. Allah ən doğrusunu bilir”.[118]

Əbu Nəs Səzcini “Süfyan Sovri və Malik kimi imamlarımız Allah-taalanın zatı ilə ərşin üstündə olmasında müttəfiqdirlər” sözlərinə əlavə edərək belə deyir: “Mən (Zəhəbi) deyirəm: “Zatı ilə kəlməsi istisna olmaqla onlardan nəql etdiyi məşhur və bilinən söz budur. Bu söz onun kisəsindəndir. Bu sözü onlara nisbət vermişdir. Bununla da ərşlə başqa məkanlar arasında fərq qoymaq istəmişdir”.[119]

Məhz buna görə də Şeyx Səid Fovdə bu rəydədir: “İbn Teymiyyə Quran, sünnə və səhabə bayrağı altında gizlənərək təcsim pərçəmini daşıyanlardan və müdafiə edənlərdən biri idi. Bununla avam insanların qəlblərini bu məsləkə çəkmək istəyirdi. O, təcsim əqidəsinin dəvətçilərindən biri idi. Lakin o, öz təbliğatında hiylə və tədbir, çox mütaliə, kəlam elminin qəribə üslublarından istifadə etmək baxımdan özündən əvvəlkilərdən və ardıcıllarından fərqlənirdi. Onun məsləkini

[117] Fəcr, 22

[118] Muxtəsərul-uluvvi lilәliyyil-ğəffar, s. 266, 267

[119] Siyəru əlamin-nubəla, c. 20, s. 231

anlamayan heyrətdə qalar. Böyük alimlər ona qarşı çıxmış, bəziləri isə onu mədh etmişdir. Bəzi alimlər mövqelərinin səbəblərini bəyan etmiş, bəziləri isə etməmişdir[120].

Əbu Zöhrə İbn Teymiyyənin təcsimə inandığnı sübuta yetirir.

Həmçinin Şeyx Əbu Zöhrə bu həqiqəti sübut edərək belə deyir: "İbn Teymiyyə təsdiqləyir ki, sələfin məzhəbi Quranda qeyd olunan üst, alt, ərş üzərində oturmaq, üz, əl, məhəbbət və nifrət kəlmələri öz zahiri mənalarında qəbul olunmasıdır. Həmçinin sünnədə qeyd olunanlar yozulmadan zahiri mənada qəbul edilməlidir. Doğrudanmı sələfin məzhəbi budur?

Buna cavab olaraq deyirik: Bəyan etdiyimiz kimi ondan əvvəl hicri dördüncü əsrdə hənbəlilər bunu demişlər. Bunun sələfin məzhəbi olduğunu iddia etmişlər. Həmin vaxt alimlər onların əqidələrinin təşbih və təcsimə gətirib çıxardığını sübut etmişlər. Necə ola bilər ki, gətirib çıxarmasın, halbuki onların nəzərində Allaha maddi işarə edilməsi caizdir".[121]

Əbu Zöhrə bu sözləri ilə İbn Teymiyyənin sələfin əqidəsinin təcsim olduğunu iddiasında bulunduğunu bildirir. Çünki üst və alt məfhumları

---

[120] əl-Kaşifus-səğir ən əqaidi İbn Teymiyyə, s. 14-16. Bu kitaba müraciət etmənizi tövsiyə edirik. Kitabın müəllifi müfəssəl şəkildə İbn Teymiyyənin əqidəsini açıqlamışdır. Müəllif İbn Teymiyyənin təkfir olunmasında onu təcsim əqidəsinə aparıb çıxaran iki prinsipə istinad etmişdir. Birinci: İbn Teymiyyənin nəzərində mövcudatın həqiqəti. O, bütün mövcudların (isətər Xaliq olsun, istərsə də məxluq) cismdən kənar olmadığını deyir. Cism olmayan mövcud ola bilməz. İkinci: İbn Teymiyyənin nəzərində bilgi vasitələri yalnız hiss yolu ilə vəhm, və xəyal ilə baş verir. Ağılın vəzifəsi bu hissiyyat üzvləri vasitəsi dərk olunanları seçməkdən ibarətdir. Hər hansı bir əşya hiss üzvü ilə dərk olunmasa ağıl onu dərk edə bilməz. Bu iki prinsipə görə İbn Teymiyyə çıxa bilmədiyi məsələlərin məngənəsinə düşmüşdür.

[121] Bax; əl-Kaşifus-səğir, s. 278

cisimlilik əlamətlərindəndir. Hətta o, üz, əl və başqa sifətlərin olduğunu iddia etmişdir. Bu sözlərdən aydın olur ki, o, bu sifətlərin Allahda olmasına etiqad bəsləmiş və Allah-taala üçün sabit olduğunu demişdir.

İlahi sifətin isbatı ilə inkarı arasındakı ziddiyyət; Çünki Ona bənzər heç nə yoxdur.

Onların inandıqları kimi Allah-taalanın, məsələn, unutmaq, eşitmək, oturmaq, enmək, yaxınlaşmaq, danışmaq və ya sevinmək kimi sifətlərinə gəlincə, bu sifətləri Allah-taala üçün yozulmadan sabit olduğunu deyirlər. Lakin eyni zamanda bu sifətlər bizim üzvlərimiz kimi deyil, çünki Ona bənzər heçnə yoxdur deyirlər.

Bu ziddiyyətə iki cəhətdən cavab verilir:

Birinci: Allahın eşitmək sifəti bizim eşitməyimiz kimi deyil, Onun enməsi bizim enməmiz kimi deyil, Onun yaxınlaşması bizim yaxınlaşmağımız kimi deyil. Bu və bu kimi ifadələr təcsim şübhəsini inkar etmir. Çünki hər hansı bir şeyin təsbit olunması onun təsəvvür olunmasından sonra baş verir. Biz enmə və ya oturma sifətinin sabit olduğunu dedikdə ilk öncə yuxarıdan aşağıya doğru hərəkət və yerdəyişmə təsəvvür edirik. Sonra isə sələfi təfəkkürünə əsasən dərk olunmasını Allah-taalaya həvalə edirik. İbn Teymiyyədən soruşuruq: “Yüksəlmə və enmə sifətini məxluqların hərəkətinə bənzətmədən Allah-taala üçün necə sübut edirsən?

Yüksəlmə və enmənin bir məkandan başqa məkana yerdəyişmə olmadan təsəvvür edilməsi mümkün deyil. Əgər yerdəyişməni inkar etsək bu sifəti necə isbat edə bilərik? Bundan sonra enmə və yüksəlmə sifətini Allah-taalaya necə nisbət vermək olar?

"...Onlar Allahı unutdular, Allah da onları unutdu"[122] və "...Biz də sizi unutduq..."[123] ayələrinə gəlincə, unutmaq sifətini Allah-taalaya nisbət vermirik. Baxmayaraq ki, unutmaq sözü Qurani-kərimdə qeyd olunmuşdur. "Allahın da unutmağı var, lakin bizim unutduğumuz kimi deyil" deməyimiz doğru deyil. Çünki Allah-taala buyurur: ***"...Rəbbin (Öz bəndələrini) unudan deyil".[124]*** Bu ayəni oxuyan heç bir ağıl sahibi "unudur, amma bizim unutduğumuz kimi yox, oturur, amma bizim oturduğumuz kimi yox, O, səmadadır, heç bir şey Ona bənzəməz" deməməlidir. Lakin belə deyirik: "Allah-taala eşidəndir, lakin bizim eşitdiyimiz kimi yox. O, görəndir, lakin bizim gördüyümüz kimi yox".

Ola bilər ki, kimsə anlaşılmazlığa düşərək soruşsun: "Nə üçün "gülür, amma bizim kimi yox", "unudur, amma bizim unutduğumuz kimi yox", yorulur, amma bizim yorulduğumuz kimi yox" deyə bilmərik?!" Onun cavabında deyirik: "Bizim gülməyimiz kimi yox, bizim unutduğumuz kimi yox, bizim yorulduğumuz kimi yox deməyin heç bir mənası yoxdur və təşbihi aradan aparmır. Çünki bu, hər şeydən əvvəl naqisliyə dəlalət edir! Yaxud "keyfiyyəti məlum deyil", "şəninə layiq" kimi sözlərdən istifadə etmək ərəb dilində anlaşılmır. Halbuki Allah-taalanın bizə anlamadığımız üslubda xitab etmədiyini deyirsən. Sənin həqiqi mənada Allaha gülmək xüsusiyyətini nisbət verdikdə biz bunun qəhqəhə və ya təbəssümlə baş verdiyini anlayırıq. Necə ki, bu sözləri ərəbcə eşidən hər kəs belə başa düşür. Lakin İmam Buxari[125] kimi gülməyi rəhmət mənasında yozsan, bundan fərqli məna başa düşülür.

---

[122] Tövbə, 67

[123] Səcdə, 14

[124] Məryəm, 64

[125] Səhihi şərhil-əqidət-təhaviyyə, s. 150

İkinci: Əgər bu sifətlərin keyfiyyəti məlum olmayan olduğunu, məsələn, "əl" sifəti barədə əli var, amma keyfiyyəti məlum deyil desən, cavabında belə deyərik: "Bu əl lüğət və ürf baxımından hiss olunan üzv mənasındadır. Əgər keyfiyyəti rədd etsək bu sözün lüğəti mənasını da inkar etmiş oluruq. Əgər əl sözünün dedikdə keyfiyyəti inkar ediriksə lüğəti mənasını necə başa düşə bilərik. Əgər bu sifətlərin ardınca keyfiyyəti məlum deyil desək görməyin və eşitməyin özünü inkar etmiş oluruq.

Sələfi məsləyini heyrətə salan suallar.

Sələfi məsləkini, xüsusilə də İbn Teymiyyəni, Albanini və bu etiqadda olanları, eniş və yüksəlişin zat ilə həqiqi mənada olduğunu (zatı ilə enib, zatı ilə yüksəldiyini) və başqa sifətlər barəsində bu cür deyənləri heyrətə salacaq bəzi suallar var. Qeyd etdiyimiz kimi bu, təcsim əqidəsinə gətirib çıxarır. Məhz buna görə də Zəhəbi zat məfhumunu rədd etmişdir. Əgər deyilənlər Allah barəsində sabit olarsa , onlar bu ayə barəsində nə deyəcəklər? Allah-taala buyurur: ***"...Onun kürsüsü göyləri və yeri əhatə etmişdir..."***[126] Bu ayədə qeyd olunan kürsü sözü zahiri mənasına əsasən kürsi bütün səmalardan və yerdən böyükdür. Belə olarsa bəs Allah-taala haradadır? Əgər ***"(Ey insanlar!) Göydə olanın (Allahın) yer hərəkətə gəlib çalxalandığı zaman sizi onun dibinə batırmayacağına əminsinizmi?!"***[127] ayəsinə əsasən səmada olduğunu desələr digər bir sual meydana çıxır. Məgər kürsi, haşa, Allahdan böyükdür?! Çünki ayədə qeyd olunduğu kimi kürsi səmalardan da böyükdür.

[126] Bəqərə, 255

[127] Mülk, 16

Həmçinin onlardan soruşuruq: Əgər Allah-taala səmadadırsa, bəs hansı səmadadır? Səmanı yaratmadan əvvəl harda idi? Səmaya möhtac olduğu halda onu necə yarada bilərdi?

Görəsən onlar ***"Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü (qiyamət gününü) yadınıza salın..."***[128] ayəsi barədə nə deyirlər. Kim səmanı bükəcək? Haşa! Allah-taala özünü bükəcək? Görəsən ***"...göylər isə Onun sağ əli ilə büküləcək..."***[129] ayəsi barəsində nə deyirlər? Bu halda Allah-taala harda olacaq? Əgər səmadan çıxacaqsa, bu, o deməkdir ki, O, səmaya daxil olur, oradan çıxır və hərəkət edir. Allah-taala barəsində belə bir şey demək qeyri-mümkündür!

Əgər desələr ki; Səma yüksəklik mənasını verən "sumuvv" sözündən götürülmüşdür, yəni yuxarı olan hər bir şey səmadır. Allah-taala yeddi səmanın üzərində ərşin üstündədir. Onlara belə cavab verilər: Əgər ***"(Ey insanlar!) Göydə olanın (Allahın) yer hərəkətə gəlib çalxalandığı zaman sizi onun dibinə batırmayacağına əminsinizmi?!"*** ayəsinin mətninin zahirinə əsaslansaq, ayə Allah-taala səmanın daxilindədir. Bu isə Onun ərşin üstündə olması rəyi ilə ziddiyyət yaradır.

Bizim nəzərimizdə Allah-taala bütün bu kimi vəsflərdən pak, uca və yüksəkdir. Allah-taala onların vəsflərindən uca və münəzzəhdir. Deməli, qeyd etdiklərimizdən bu nəticəyə gəlirik ki, İbn Teymiyyə Hərraninin fikirləri əsasında formalaşan sələfilik təfəkküründə təəssübkeşlik, zahiri mənada durğunluğun, ağıl və məntiqin inkarının nəticəsidir. Bəlkə də bu məsləyin pərişan olduğu ən əsas məsələ tövhid əqidəsidir. Bu məsləyin məkfurəsində aşkarcasına Allah-taalaya təcsim nisbət verilir. Onların nəzərində Allah məkan, cəhət, yüksəklik, enmə, əl, üz, gülmək kimi vəsflərlə başqa şeylərdən fərqlənmir.

---

[128] Ənbiya, 104

[129] Zümər, 67

Vəhhabilik İbn Teymiyyə təfəkkürünün varisidir

Təəssüflər olsun ki, bu təfəkkür birbaşa Şeyx Muhəmməd bin Əbdülvəhhabın fikirləri əsasında formalaşan vəhhabi məktəbinə təsir etmişdir. Bu məktəb İbn Teymiyyənin fikirlərinin sözün əsil mənasında varisi olmuş, hətta həmin fikirləri tamamilə əxz etmişdir. Sanki İbn Teymiyyə bu fikirləri onlara vəsiyyət etmişdir. Həmin fikirlərə rəvac vermiş, müdafiə etmiş və inkişaf etdirərək yeni biçimdə təqdim etmişdir. Lakin həmin fikirlərin məzmunu və ruhu İbn Teymiyyənin fikirlərindən başqa bir şey deyil.

Şeyx Muhəmməd Əbu Zöhrə[130]

Şeyx Əbu Zöhrə "İbn Teymiyyə arauhu və fiqhuhu" kitabında deyir: "(Muhəmməd bin Əbdülvəhhab) İbn Teymiyyənin etiqad, fiqh kitablarını oxumuş, onun yazdıqlarına iman gətirmiş, tamamilə mənimsəmiş və

[130] Şeyx Muhəmməd Əhməd Mustafa Əbu Zöhrə. Hicri tarixi ilə 1316-cı (1898 miladi) ildə dünyaya gəlmişdir. O, Misirin Tənta məntəqəsinin şəhərlərindən biri olan əl-Məhəllətul-kubrada dünyaya gəlmişdir. Hicri 1343-cü ildə şəri məhkəmənin qazısı vəzifəsinə yetişmiş və professor dərəcəsinə yüksəlmişdir. əl-Əzhər universitetində Darul-ulum və Usuluddin fakultələrində şəriət hökmləri və ərəb dilindən, Qahirə univerisitetində isə hüquqdan dərs demişdir. Hicri 1354 (1935) universitetdə yüksək araşdırmalar mövzusunda mühazirələr etmiş, elmi araşdırmalar məclisinin üzvü, şəriət şöbəsinin müdiri, hüquq fakultəsinin və islami araşdırmalar institutunun vəkili olmuşdur. Onun əsərlərindən "Muhaziratun fi tərixi məzahibil-islamiyyə", "İbn Teymiyyə arauhu və fiqhuhu", Əbu Hənifə həyatuhu və əsruhu", "əl-İmam əs-Sadiq həyatuhu və əsruhu", "İbn Hənbəl həyatuhu və əsruhu", "Tarixul-cədəl", "Xatəmun-nəbiyyin", "əl-Əhvalu-şəxsiyyətu və usulul-fiqhi", "əl-Əlaqətud-dovliyyə fil-İslam", "Məusuətul-fiqhil-islami", "ət-Təkafulul-ictimai fil-İslam", "əl-Xitabətu fil-muctəməul-islami", "əl-Vəhdətul-islamiyyə" və başqalarını qeyd edə bilərik. Həyatını fikirləri və etiqadları yolunda xitabət, kitab yazmaq, mühazirə etməklə başa vurmuşdur. 1974-cü il aprel ayının 11-də vəfat etmişdir. Bax: Məsuətu həzər-rəculu min Misir, s. 489, 490

həddən ziyadə təəssübkeşlik etmişdir. Ətrafındakıları bu fikirləri qəbul etməyə dəvət etmiş, eşidən qulaqlar, anlayan və təsirlənən qəlblər tapmışdır. Çoxlu insanlar bu rəylərə təəssübkeşlik etdilər və onun carçılarına çevrildilər. Hətta həmin köməkçilərdən kiçik bir dövlət də formalaşdırdılar. Çünki Muhəmməd bin Əbdülvəhhabın ən böyük yardımçısı qaynatası Səudların babası Muhəmməd bin Səud idi. O, İbn Teymiyyənin məzhəbini yaymaq və himayə etmək üçün hərbi manevrlər etmişdir. Siyasi maraqlar bu məzhəbin dirçəlməsində üst-üstə düşmüş, bir-birilə əməkdaşlıq etmişlər. Bununla da həmin kiçik dövlət yaranmışdır. Bidət etdikləri hər şeyə hücum edib və var gücləri ilə ona qarşı müharibə etdilər. Şiələrin müqəddəs hesab etdikləri məscidləri xarabalığa çevirdilər. Məscidlərə bitişik minarələri və təsbehləri qadağan etdilər. Onlar İslamın ilk dönəmində olduğu kimi hər şeyi sadəliyə qaytarmağa çalışırdılar...”[131]

Ustad Səid Fovdənin rəyi[132]

O, belə deyir: “Vəhhabilərin təcsim əqidəsi barədə mövqeləri və Allah-taalanın məxluqa bənzəməsindən münəzzəh hesab etməmələri məlum və məşhurdur. Onlar Allah-taala üçün həd, cəhət, Allah-taalada dəyişikliklərin baş verməsi, təmas, hərəkət və yerdəyişmə mənasında ərşin üzərində oturmaq kimi vəsflər nisbət verirlər. Şübhəsiz ki, bu etiqad

[131] İbn Teymiyyə arauhu və fiqhuhu, s. 441

[132] Tədqiqatçı Professor Səid Əbdüllətif Fovdə. Əslən fələstinli Beytu Dəcn kəndindəndir. Şafei məzhəbinə mənsubdur. Bir çox müasir alimlərlə görüşlər keçirmişdir. Şeyx Muhəmməd Ələvi Maliki, Şeyx Abdullah Sirac, Əllamə İbrahim Xəlifə kimi alimlər onun hədis nəql etməsinə icazə vermiş və elmi səviyyəsini tərifləmişlər. Sonuncu təfsir, hədisin şərhi, tövhid və elmin başqa sahələrində ona belə bir icazə vermişdir. Onun əsərlərindən “əl-Kaşifus-səğir”, “ət-Təliqat alal-lixmimi”, “Təhzibu şərhus-sunusiyyə”, “Tədimul-məntiqi”, “Şərhu suğras-suğra”, “Nəqzut-tədmuriyyə”, “Şərhus-silmil-munvəriq” və başqalarının adlarını qeyd etmək olar.

əhli-sünnə vəl-cəmaənin etiqadına müxalifdir. Vəhhabilər bu əqidədə ilk imamları İbn Teymiyyəyə tabedirlər. Bütün bunları ondan götürmüşlər. Onun sözlərini şagirdi İbn Cövziyyənin şərhlərindən öyrənmişlər. İbn Teymiyyənin "Nəqzi əsasit-təqdis", "Minhacus-sunnə" və başqa kitablarına müraciət etmək olar. Bu mövzuda bir neçə kitab yazmışam və həmin kitablarda İbn Teymiyyənin təcsim əqidəsində olmasını və onun əşərilərə tamamilə müxalif çıxmasını və onun özünəməxsus məzhəbinin olmasını sübuta yetirmişəm. Onun bu rəyləri bəzilərinin güman etdiyi kimi səhv və ya qələmindən çıxan xətalar deyildi".[133]

Ustad Zəki Miladın rəyi[134]

Həmçinin Ustad Zəki Milad haqqında bəhs etdiyimiz məsələni aşkar surətdə bəyan edərək belə deyir: "İbn Teymiyyədən miras olaraq aldığı, onun düşüncələri və bilgiləri ilə qidalanmış Şeyx İbn Əbdülvəhhabın hərəkatı onun fikirlərinə yenidən etibar qazandırdı. Həmin fikirlər müdafiə olundu, geniş surətdə yayıldı, dini və ideoloji prinsip kimi etiqad olundu. Məlumdur ki, İbn Əbdülvəhhabın dəvətinin əsasını əqidə məsələləri təşkil edirdi, xüsusilə də, tövhid və şirk məfhumlarına daha çox əhəmiyyət verilirdi. Doktor Bəhiyyin dediyi kimi tövhid və şirkin mənasını anlamaqda mübaliğəyə varmışlar. Hətta bu hərəkatın carçılarını tövhid naminə hərəkət edənlər adlandırmışdır. Bu mübaliğədə onlarla digər müsəlmanlar arasındakı fərqin əsası gizlənir. Çünki onlar özlərini müvəhhid və ya tövhid əhli hesab etdikləri halda onların yolları ilə

[133] "Müasir vəhhabilik və onun müsəlmanların parçalanmasında rolu" adlı mühazirədən. htt://www/aslein.ne

[134] Zəki Abdullah Milad. İslam araşdırmaları üzrə mütəxəssis, İslam təfəkkürü və müasir İslami məsələlər üzrə araşdırmacı. Ərəb Dili Ümumdünya Yazıçılar Birliyi tərəfindən doktorluq tituluna layiq görülmüşdür. İslam Məzhəblərini Yaxınlaşdırma Beynəlxalq Cəmiyyətinin üzvüdür.

getməyənləri mübaliğə edərək müşrik hesab edirlər. Buna əsasən də Şeyx İbn Əbdülvəhhabın "ət-Tövhid" kitabı onun dəvətini və məsləkini ifadə etdiyi kimi, onun ən bariz və ən əhəmiyyətli kitabı hesab olunur".[135]

Deməli, tövhidin mənasını anlamaqda mübaliğəyə yol verilmişdir. Belə ki, İbn Teymiyyədən irs aparan vəhhabi məktəbi özünü doğru tövhidin ardıcılları adlandırır, onların məsləyində olmayanları isə şirk və küfrdə ittiham edirdilər. Məhz bu cəhətdən düzgün islami anlayışın olmamasına görə müsəlman tayfaları arasında təfriqə yarandı. Beləki, Quran ayələrinin və şəriət hədislərinin səhv anlaşılması təhlükəsi meydana çıxdı. Bəziləri dini mətnləri (Quran ayələri və hədisləri) özünəməxsus fəhmi ilə anlayır və öz rəyinə uyğun tərzdə yozurdu. Baxmayaraq ki, Qurani-kərim düzgün anlayışı mədh edir, əksini isə pisləyir.

Qurani-kərimdə düzgün anlayış və düşünmək

Allah-taala buyurur:

"Biz onu (məsələnin hökmünü) dərhal Süleymana anlatdıq..."[136]

"Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa ürəklərinə kilid vurulmuşdur? (Yoxsa ürəklərinin öz kilidləri var?)"[137]

"Onlar Quran barəsində (onun Allah kəlamı olması haqqında) düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar".[138]

Anlamayanlar, görməyənlər və düşünməyənlər Qurani-kərimin həqiqətini inkar edənlərdir. Hətta onlar Quranı anlamaq belə istəmirlər. Çünki onlar qəlblərini və ağıllarını həqiqətə qarşı bağlamışlar. İdrak

[135] Orta əsrlərdə İslami düşüncə, ət-Təqrib jurnalının 32

[136] Ənbiya, 79

[137] Muhəmməd, 24

[138] Nisa, 82

olmadıqda və kor təbii-təqlid nəticəsində bəzən həqiqət itir. Hətta bu, ümmətin mübtəla olduğu xəstəlikdir. Beləki bu xəstəlikdən uzaq olan danlanır və müxtəlif ittihamlara məruz qalır.

İdrak problemi

Hesab edirik ki, düzgün idrakın olmaması problemi var. Bu, məqsədli və ya məqsədsiz ola bilər. Nəticədə isə bu, həqiqətlərin dəyişilməsinə, dini mətnlərin təhrif olunmasına və hədislərin inkarına gətirib çıxarır.

İbn Teymiyyənin fikirlərində bunun bariz olduğunu görürük. O, şagirdlərinin, müasirlərinin və ondan sonra gələn alimlərin şahidliyinə əsasən dinin həqiqətlərini dəyişmiş, dini mətnləri təhrif etmişdir.

Şeyx Təqiyyuddin Subki[139] fətvalarında deyir: "Onun yalnız özünəməxsus nəql etdiklərinə heç kim etimad etmir. Çünki o, nəqletmədə tələskənlik edir. Həmçinin məqsəddən yayınıb həddi aşdığı üçün yazdığı mövzuya heç kim etimad etmir. O, çox əzbərçil idi. Heç bir şeyxdən ədəb almamış və kifayət qədər elm öyrənməmişdir. Əksinə öz zehninə, cəsarətinə, geniş xəyalına və azğınlığına etimad edirdi. Onun barəsində

[139] İmam Hafiz Təqiyyuddin Əbulhəsən Əli bin Əbdülkafi bin Əli bin Tamam Subki Şafei. Hicri tarixi 683-cü ildə Misirdə Subkda dünyaya gəlmişdir. Zəhəbi əl-Mucəmul-muxtəs kitabında deyir: "O, doğru danışan, xeyirli, dindar, təvazökar və yaxşılıqla tanınan idi. O, elm mənbəyi idi. Fiqh elmini tədris və izah edirdi. Hədis elmini öyrədir və yazır. Usul elmini öyrədir və gücləndirirdi. Ərəb dilini tədris və tədqiq edirdi. Çox mükəmməl əsərlər yazmışdır. Öz zamanında tədqiq və fəzilət sahibi kimi tanınırdı. Mən ondan, o da məndən eşitmişdir. Şamda hökm vermiş və hökmləri mədh edilmişdir. Allah onu dəstəkləyir və doğru yolda müvəffəq edir. Kəlasədə onun mucəmini eşitmişik. Üç dəfə talaq vermək və qəbirləri ziyarət etmək üçün səfərə çıxmaq məsələsində Şeyxul-islam İbn Teymiyyəyə cavab kitabı yazmışdır. Onun "Şifaus-siqam fi ziyarəti xeyril-ənam" kitabı bu mövzudadır. Hicri 752-ci ildə Misirdə vəfat etmişdir. Davudi deyir: "Müxtəsər və müfəssəl olaraq yüz əlli kitab yazmışdır". Mərifətus-siqat c. 1, s. 137-138

mənə belə şeylər gəlib çatmışdır ki, buna görə onun sözlərindən üz çevirmək gərəkir. İnsanlar onun zamanında onunla danışmağa və ona cavab verməyə məcbur qalmışdılar. Bu səbəbdən də alimlərin və əmr sahiblərinin icması ilə həbs olunmuş və vəfat etmişdir".[140]

İbn Həcər Əsqəlani onun düşünmədən və fikirləşmədən hədisləri rədd etməsini və hədis elmində zəif olmasını ifadə edərək belə deyir: "İbn Mutəhhərin qeyd etdiyi hədisləri rədd etməkdə son dərəcədə dözümsüzlük etdiyinə rast gəldim. Baxmayaraq ki, həmin hədislərin əksəriyyəti qondarma və zəif idi. Lakin o, məzmununu bilmədiyi bir çox yaxşı hədisləri rədd etmişdir. Çünki o, əzbərçi olduğu üçün sinəsində olana daha çox etimad edirdi. İnsan unudandır. O, rafizinin sözlərini rədd etmək üçün o qədər mübaliğəyə yol vermişdir ki, bəzən Əlinin – Allah ondan razı olsun – şəninin kiçilməsinə səbəb olmuşdur".[141]

İbn Teymiyyənin və Subkinin şagirdi Səlahəddin Səfdi "Əyanul-əsr və əvanun-nəsr" kitabında belə deyir: "İbn Teymiyyə çox qəribə məsələlərdə özünəməxsus rəy demişdir. Həmin rəylərində əksəriyyətin nəzərində zəif olan rəyləri üstün hesab etmişdir. Bu elə bir eybdir ki, az qala uçuruma düşsün..."[142]

Şeyx Albani onun əzbərinə etimad edərək bəzi gümanlarına və tələsik hökm çıxarmasına işarə edərək İrvaul-ğəlil kitabında belə deyir: "Şeyxul-islam İbn Teymiyyə – Allah ona rəhmət eləsin – Məcmu əl-fətava kitabında belə deyir: "Səhih Müslimdə sabitdir ki, Nafe Abdullah bin Ömərdən Peyğəmbərin belə buyurduğunu nəql edir: "Allah üçün ən sevimli adlar Abdullah və Əbdürrəhman, ən doğrusu isə Haris və Həmam, ən pisi isə Hərb və Murrədir". Bu, onun – Allah ona rəhmət eləsin – xətalarındandır.

[140] Fətəva Subki, c. 2, s. 210

[141] Lisanul-mizan, c. 6, s. 319, 320

[142] Əyanul-əsr və əvanun-nəsr, s. 9

Çünki o, əzbərdən yazırdı. Yazarkən çox az hallarda kitaba müraciət edirdi. İbn Ömərin Səhih Müslimdəki hədisi onun dediyi kimidir. Lakin "ən doğrusu..." sözləri yoxdur. Bu əlavə Əbu Vəhəb Cəşəminin hədisindədir. Bildiyin kimi bu doğru deyil. Buna görə də diqqət lazımdır".[143]

Hafiz Vəliyuddin Əbu Zurə İraqi belə deyir: "Şeyx İbn Teymiyyəyə gəlincə, o, bu dünyada zahid idi. Lakin deyildiyi kimi elmi ağlından daha çoxdur. Onun etdiyi ictihad bir çox məsələlərdə olan icmanı pozmuşdur. Deyilənə görə həmin məsələlər altmışdan çox məsələdir. Buna görə də sərt dillər ona qarşı yönəlmiş, onu danlamış və bu səbəbdən məşəqqətə düşmüşdür".[144]

Qəribəlik, özünəməxsus, xəyal və icmaya müxaliflik bütün bunlar bir çox şəriət məsələlərinin nəqlində İbn Teymiyyənin ən bariz xüsusiyyətlərindən hesab olunur. O, heç bir qayda olmadan və ya doğru əsası olmayan məsələlərə zəif hədislər və rəylərlə dəlil gətirirdi. Bütün bunlardan sonra onun tövhid məfhumu barədə səhvə yol verməsinə heç də təəccüblənmirik. O, xəyal vəhyindən ilham alaraq tövhid əqidəsi barədə alimlərinin əksəriyyətinin nəzərində məlum olmayan bölgülər və fikirlər formalaşdırmışdır. Onun bütün fikirləri dəlil və sübutdan uzaq və xəyalidir.

[143] İrvaul-ğəlil c. 4, s. 409

[144] Dirasatun fi minhacis-sunnə kitabından nəql olunmuşdur. s. 563

İkinci bab: İbn Teymiyyənin nəzərində tövhidin qisimləri və onun özünəməxsus əqidəsi

Birinci fəsil: Üluhiyyət və rübubiyyətdə tövhid

İbn Teymiyyənin nəzərində üçlü tövhid

İbn Teymiyyənin nəzərində tövhid üç qismə bölünür:

Birinci: Üluhiyyətdə tövhid.

İkinci: Rübubiyyətdə tövhid.

Üçüncü: Adlar və sifətlərdə tövhid.

İbn Teymiyyənin nəzərinə əsasən bu üç qism Quran və peyğəmbər sünnəsindən götürülmüşdür. Əvvəlcə üluhiyyətdə tövhidvə rübubiyyətdə tövhid qismlərini müzakirə edək. Növbəti fəsildə isə üçüncü qismi müzakirə edəcəyik.

Üluhiyyət və rübubiyyətdə tövhid

İbn Teymiyyə bu iki prinsipi (üluhiyyətdə tövhid və rübubiyyətdə tövhid) dəfələrlə təkrar edir İslam mədrəsələlərində və universitetlərində tədris olunan kitablarında bu ikiliyi sübuta yetirir. Görəsən bu ikilik düzgündürmü? Əgər səhv olarsa nəticə necə olacaq? Səhv olduğunu fərz etsək burada səhv haradadır?

İbn Teymiyyənin sözlərindən sitatlar

İbn Teymiyyə belə deyir: “Allah-taalanın peyğəmbərlərlə və nazil etdiyi kitablarda göndərdiyi tövhid budur ki, yalnız heç bir şəriki olmayan Allaha ibadət olunsun. Bu, üluhiyyətdə tövhiddir. Bu, rübubiyyətdə tövhid üçün lazımdır. Yəni hər şeyin Rəbbi olan Haqqa ibadət olunsun. Amma

rübubiyyətdə tövhid məsələsinə gəlincə isə, Haqqın hər şeyin rəbbi olmasına şahid olmaqdır. Bu növ tövhid müşriklərdə var idi. Necə ki, Allah-taala buyurur: ***"Onların əksəriyyəti ancaq şərik qoşaraq Allaha inanarlar"***[145]***.***[146]

Həmçinin deyir: "Bununla yanaşı müşriklər bunu (rübubiyyətdə tövhidi) təsdiqliyirdilər. Baxmayaraq ki, onlar müşrik idilər. Təsəvvüf əhli, mərifət, tədqiq və tövhidə mənsub olanlar da bu cürdürlər. Onların tövhid barədə etiqadlarının qayəsi bu növ tövhidə şəhadət gətirməkdir, yəni Allah-taala hər bir şeyin rəbbi, maliki və xaliqidir".[147]

Həmçinin deyir: "Allah-taalanın insanlara əmr etdiyi tövhid rübubiyyətdə tövhidi özündə ehtiva edən üluhiyyətdə tövhid əqidəsidir. Beləki Allahdan başqası ibadət olunmasın, ona şərik qoşmasınlar, din bütövlükdə Allaha aid olsun, Allahdan başqa heç kimdən qorxulmasın, Allahdan başqa heç kimsəyə dua edilməsin, Allah-taala bəndə üçün hər şeydən sevimli olsun, Allah üçün sevsinlər, Allah üçün nifrət etsinlər və Allaha təvəkkül etsinlər..."[148]

İbn Baz bu məfhumu şərh edərək belə deyir:

Üluhiyyətdə tövhid:

İbadətdə tövhid üluhiyyətdə tövhid adlanır. Bu, ibadət deməkdir. Allah-taalanın qeyd etdiyi kimi müşriklər bu növ tövhidi inkar edirdilər. (Allah-taala buyurur:) ***"Onlar öz içərilərindən özlərinə (Allahın əzabı ilə) qorxudan bir peyğəmbər gəlməsinə təəccüb etdilər və kafirlər belə dedilər: "Bu, yalançı bir sehrbazdır! Əcaba, o, (Allahdan başqa heç bir tanrı yoxdur deməklə) tanrıların hamısını bir tanrımı edir? Bu,***

---

[145] Yusif, 106

[146] əl-İstiqamə, c. 2, s. 31

[147] Məcmul-fətava, c. 3, s. 101

[148] Minhacus-sunnə, c. 3, s. 289, 290

doğrudan da, çox təəccüblü bir şeydir".[149] Bu kimi ayələr çoxdur. Tövhidin bu qismi ibadəti yalnız Allah-taalaya xalis etməyi, Onun ibadətə layiq olduğuna iman gətirməyi və Ondan başqasına ibadət etməyin batil olmasını ehtiva edir. La ilahə illəllah kəlməsinin mənası budur. Bu Allahdan başqa haqq məbud (ibadət edən) yoxdur mənasındadır. Necə ki, Allah-taala buyurur: ***"Bu belədir. Çünki Allah haqq, (müşriklərin) Ondan başqa ibadət etdikləri (bütlər, tanrılar) isə batildir"***[150]***.***[151]

Həmçinin iddia etdiyi kimi müşriklərin də inkar etmədiyi digər qism (rübubiyyətdə tövhid) barəsində belə deyir: "Rübubiyyətdə tövhid Allah-taalanın fellərində tövhiddir. Yəni O, xaliq, ruzi verən, yaratdıqlarının işlərini idarə edən, onların dünya və axirət işlərini tənzimləyən, bütün bu məsələlərdə şəriki olmayandır. Necə ki, Allah-taala buyurur: ***"Allah hər şeyin xaliqidir..."***[152] Allah-taala buyurur: ***"Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan (ərşə üz tutan), hər işi yerinə qoyan (səhmana salan) Allahdır..."***[153] Bütə ibadət edən müşriklər bu növ tövhidi təsdiqləyirdilər. Baxmayaraq ki, əksəriyyəti qiyamət günü dirilməyi və həşr olunmağı inkar edirdilər. İbadətdə Allaha şərik qoşmaları, Allah-taala ilə yanaşı bütlərə ibadət etmələri və Muhəmməd peyğəmbərə (s) iman gətirməmələrinə görə İslama daxil olmuş sayılmamışlar.[154]

İbn Teymiyyə və onun məsləyində olanlar qeyd edilənlərə əsasən tövhidin iki qismininin olduğu rəyindədirlər:

---

[149] Sad, 4-5

[150] Həcc, 64

[151] Tahaviyyə əqidəsinə aid qeyd, əl-Buhusul-islamiyyə jurnalı 15-ədəd, s. 257

[152] Zümər, 62

[153] Yunis, 3

[154] Həmin mənbə

Birinci: Üluhiyyətdə tövhid. Yəni yalnız şəriki olmayan Allaha ibadət olunmalıdır. Bu, ibadətin Allah-taalaya aid olması deməkdir.

İkinci: Rübubiyyətdə tövhid. Bu, növ tövhid yaratmaq mənasını özündə ehtiva edir. Yəni kainatın bir Xaliqi var. Bütün müşriklər bu mənaya iman edirlər. Bu məsələdə hamı müttəfiqdir. Üluhiyyətdə tövhid rübubiyyətdə tövhidi lazım edir. Onlar arasında sıx bağlılıq var və bir-birindən ayrılmazdır. Nə vaxt birinci baş verərsə, ikinci də sabit olar. Bu növ tövhid hətta müşriklərin nəzərində də sabit idi. Buna dəlil Allah-taalanın bu kəlamıdır: ***"Onların əksəriyyəti ancaq şərik qoşaraq Allaha inanarlar".***[155] Üluhiyyətdə tövhid olmadıqdan sonra Allahın hər bir şeyin rəbbi olmasını təsdiqləmək kifayət deyil.[156]

Bu məsləyin tənqidi

Bu qisimdə, xüsusilə də, müşriklərin də iman gətirdiyini fərz etdiyi rübubiyyətdə tövhid barəsində mülahizə edirik ki, müşriklərin ayədə buyurulduğu kimi "Həqiqətən, əgər sən (müşriklərdən): "Göyləri və yeri kim yaratmışdır?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyə cavab verəcəklər" deyərək Allahın onları yaratmasını təsdiq etmələrinə iman gətirmələri ilə Allah-taalanın Rəbb və onların işlərini idarə edən olması məsələsində düşdükləri zəlalət arasında anlaşılmamazlıq baş vermişdir. Burada məqsəd İbn Teymiyyənin "Onların əksəriyyəti ancaq şərik qoşaraq Allaha inanarlar" ayəsinin təfsirində anladığı kimi yaratmaq mənası deyil. O, belə deyir: "Sələfin bəziləri belə deyir: "Onlardan: "Göyləri və yeri kim yaratmışdır?" -deyə soruşsan, onlar mütləq: "Allah!" – deyə cavab verəcəklər.[157] Buna görə onlar bütlərə sığınırlar ki, onları qorusun, himayə

[155] Yusif, 106

[156] Məcmu əl-fətəva, c. 8, s. 101

[157] Dəqaiqut-təfsir, c. 2, s. 296

etsin, işlərini idarə etsin. Hətta bütlər onların həyatlarında qarşılaşdıqları bütün dəyişikliklər, qarşılaşdıqları problemlər qarşısında sığınacaqdır. Hər hansı bir problemlə qarşılaşdıqda bütlərə sığınırdılar.

Bu bölgüyə bir neçə irad var:

Birinci: Səhabələrin və tabeinlərin nəzərində belə bir bölgü olmamış, həmçinin hənbəlilərdən heç kim bu bölgü barədə danışmamışdır.

İbn Teymiyyə əqidə məslələrində müzakirə etdiyi rəqiblərinə qarşı çox zaman səhabələrin və tabeinlərin belə nəql etməmələri ilə dəlil gətirir, yaxud müəyyən bir məsələ barəsində danışır və həmin məsələni onların əqidələrinin batil olması üçün dəlil kimi təqdim edir. Onun Minhacus-sunnə kitabına nəzər salsan bu məsələ bütün çılpaqlığı ilə aydın olar. Biz nəinki Qurani-kərimdə, nəinki səhabələrdən və tabeinlərdən, hətta ətbəut-tabeinlərdən (tabeinlərdən sonrakı nəsil) nəql olunan mətnlərdə bu bölgünün məntiqinə rast gəlmirik. Hənbələlilərin başında dayanan Əhməd bin Hənbəlin belə, bu bölgü barədə danışdığına rast gəlmirik. Hətta əhli-sünnənin əqidə barəsində bəhs edən bütün kitablarında belə bölgüyə rast gəlmirik. Buna əsasən də hədis alimi Əbu Hamid bin Mərzuq kimi tanınan Muhəmməd Ərəbi Tibani belə deyir: "Əhməd bin Hənbəl səhabələrinə "Tövhid iki qismə bölünür: rübubiyyətdə tövhid və üluhiyyətdə tövhid. Üluhiyyətdə tövhidin mənasını bilməyənin rübubiyyətdə tövhidi bilməsi nəzərə alınmaz. Çünki müşriklər bunu bilirdilər" deməmişdir. İmam Əhmədin əqidəsi ardıcıllarının, İbn Cövzi və başqalarının onun barəsində kitablarında yazıllıb. Bu əqidədə bu cür cəfəngiyyatlar yoxdur. Nə səhabələrin ardıcıllarından, nə də Peyğəmbərin (s) səhabələrindən– Allah onlardan razı olsun – heç kim: "Tövhid rübubiyyətdə tövhid və üluhiyyətdə tövhid qisimlərinə bölünür. Üluhiyyətdə tövhidi bilməyən kəs rübubiyyətdə tövhidi tanıması nəzərə alınmaz. Çünki müşriklər bunu

(rübubiyyətdə tövhidi) bilirdilər" deməmişdir. Əgər cinlər və insanlar İbn Teymiyyəyə yardım etmək üçün bir yerə cəm olsalar da, onlardan hər hansı birinin nəzərində bu bölgünü sübut etməyə çalışsalar da heç kim bunu bacarmaz. Elmdən nəsibi olan hər bir şəxsə səslənirəm ki, bu qondarma bölgü barəsində, hətta bir zəif rəvayət nəql etsinlər".[158]

İkinci: Bir çox ayələrdə müşriklərin bu növ tövhidə inanmadıqları buyurulur.

İbn Teymiyyə belə fərz edir ki, müşriklər rübubiyyətdə tövhidə inanırdılar. Lakin o, müşriklərin bu inancı pozmalarından xəbərsiz idi. Çünki müşriklər qiyamət gününü və məhşər sorğu-sualını inkar edirdilər. Allah-taala buyurur: ***"Onlar: "Biz sür-sümük, çürüyüb ovxalanmış torpaq olduğumuz halda, dirildilib yeni məxluqmu olacağıq?" – deyirlər".[159]***

Müşriklər axirəti inkar edirdilər: ***"(Qiyaməti inkar edənlər) belə deyirlər: "Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölürük və dirilirik (biri ölür, digəri anadan olur; biz ölürük, övladlarımız, nəslimiz isə yaşayır); bizi öldürən ancaq dəhrdir (zamanın gərdişi, ömür müddətidir; yaşa dolub qocalmağımızdır). Bu barədə onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar! (Hər şeyi zamanın, vaxtın boynuna yıxmaq doğru deyil, çünki bütün canlı və cansız məxluqat kimi zamanın özünü də yaradan Allahdır)".[160]***

Rəhmanı inkar edirdilər: ***"Onlara (müşriklərə): "Rəhmana (rəhmli olan Allaha) səcdə edin!" – deyildiyi zaman, onlar: "Rəhman nədir?***

[158] Bax: əs-Sələfiyyə beynə əhlis-sünnə vəl-imamiyyə, s. 561

[159] İsra, 49

[160] Casiyə, 24

Bizə əmr etdiyin şeyə səcdəmi edəcəyik?" – deyə cavab verərlər. Bu (səcdə əmri) onların (imana olan) nifrətini daha da artırar".[161]

İbn Kəsir bu ayənin təfsirində belə deyir: "Kafirlər biz onu tanımır və təsdiqləmirik".[162] Tanınmayan və təsdiqlənməyən Rəbb idi. Belə olan halda onların rübubiyyətə inanmalarını necə deyə bilərik?! Bundan başqa onların Allahın tövhidini inkar etmələri barədə çoxlu ayalər var. Növbəti səhifələrdə həmin ayələri qeyd edəcəyik.

Görəsən, müşriklərin müvəhhid olmasını inkar edən bu ayələrlə İbn Teymiyyənin fərziyyəsilə necə uyğun ola bilər?!

Üçüncü: Qurani-kərimdə müşriklərin rübubiyyəti inkar etmələri barədə nümunələr

İbn Teymiyyənin rübubiyyətdə tövhid barədə qeyd etdiyi tərif onun fərziyyəsini inkar edir. Onun fərziyyəsinə əsasən aləmlərin Rəbbi insanların bütün işlərini idarə edir. Bu məsələdə nə müşriklər, nə də müsəlmanlar müxalifdirlər. Quran ayələri bu fərziyyəni inkar edir. Ötəri olaraq bəzi ayələrə nəzər salsaq bu rəyin səhv olduğu bizə aşkar olur. Bu həqiqəti bəyan edən ayələrdən biri müvəhhidlərin dili ilə deyilən bu ayədir: ***"...bütün izzət-qüdrət (şərəf-şan) ancaq Allaha məxsusdur..."***[163] Lakin bunun müqabilində görürük ki, Peyğəmbərin (s) dövründə müşriklərin izzəti bütləri ilah seçməkdə idi. Allah-taala buyurur: ***"(Müşriklər qiyamət günü) onlar üçün izzət olsun (şəfaət diləsinlər yaxud Allahın əzabını onlardan dəf etsinlər) deyə, Allahdan başqa ilahlar qəbul etdilər".***[164]

---

[161] Furqan, 60

[162] Təfsirul-Quranil-azim, c. 3, s. 336

[163] Fatir, 10

[164] Məryəm, 81

Həmçinin müvəhhid zəfər və yardımın Allah-taalanın ixtiyarında olduğuna inanır. Allah-taala onların adından belə buyurur: ***"Kömək ancaq yenilməz qüdrət, hikmət sahibi olan Allahdandır".***[165] Lakin risalət dövründəki müşriklər zəfər və yardımın ilahələrin və saxta tanrıların ixtiyarında olduğuna etiqad edirdilər. Allah-taala buyurur: ***"(Müşriklər) bəlkə, özlərinə bir yardım oluna deyə, Allahdan başqa tanrılar (bütlər) qəbul etdilər".***[166]

Həmçinin müvəhhid varlıq aləmində bütün idarəçiliyin Allah-taalanın ixtiyarında olmasına inanır. Allah-taala buyurur: ***"Həqiqətən, o saatı (qiyamətin qopacağı vaxtı) ancaq Allah bilir. Yağışı (istədiyi vaxt) göydən O yağdırır..."***[167] Lakin risalət dövründəki müşriklər bütlərdən yağış yağdırmasını diləyirdilər.

İbn Kəsir İbn Hişamdan belə nəql edir: "Bəzi elm əhli nəql edirlər ki, Əmr bin Luhəy bəzi işləri üçün Məkkədən Şama səfər etmişdir. Bəlqa ərazisində olan Məab adlı yerə yetişdikdə onların bütlərə ibadət etmələrini gördü. Onlara dedi: "İbadət etdiyiniz bu bütlər nədir?" Ona: "Bu bütlərə ibadət edirik, onlardan yağış yağdırmalarını diləyirik və bizə yağış yağdırırlar" dedilər. Əmr onlara dedi: "Bu bütlərdən birini mənə verərsinizmi ərəb torpaqlarına aparım, ona ibadət etsinlər?" Ona Hobəl adlı büt verdilər. Onu Məkkəyə gətirdi, dikili qoyaraq insanlara ona ibadət və təzim etməyi əmr etdi".[168]

Dördüncü: Rübubiyyət və üluhiyyət bölgüsünün aralarında bağlılıq olması iddiası doğru deyil

---

[165] Ali-İmran, 126

[166] Yasin, 74

[167] Loğman, 34

[168] əl-Bidayə vən-nihayə, c. 2, s. 327

Bu rəyə sələfi alim Ömər Abdullah Kamilin sözlərində rast gəlirik. O, Əllamə Dəcvidən iqtibas edərək deyir: "Həqiqətən də Haqq İlah elə Haqq Rəbbdir. Həmçinin batil ilah elə batil rəbdir. İbadət və ilahlığa yalnız Rəbb olan layiqdir. Zərər və mənfəət verən rəbb olmasına etiqad bəsləmədiyimiz birinə ibadət etməyimizin heç bir mənası yoxdur.

Allah-taala Rəbbdir. Rəbb elə İlahdır. Onlar hər ikisi bir-birinə bağlıdır. Quran və sünnədə hər biri digərinin mənasında işlədilmişdir. (Yəni bu ikili bölgü olmadan onlar eyni şeylərdir. Qurani-kərim və nəql olunan çoxlu sayda sünnə rübubiyyətdə tövhidilə üluhiyyətdə tövhid arasında bağlılığın olduğuna işarə etmişdir. Allah-taala buyurur: ***"Göylərdə və yerdə pünhan olanı (yağışı, bitkiləri) aşkara çıxardan, onların gizlində və aşkarda etdikləri hər şeyi bilən Allaha səcdə etməsinlər deyə (Şeytan belə etmişdir)".***[169] Bu ayəyə əsasən mütləq iqtidarı sabit olmayana səcdə edilməməlidir. Ondan başqasına səcdə etməyimizin heç bir mənası yoxdur.

Allah-taala buyurur: ***"O sizə mələkləri və peyğəmbərləri özünüzə Rəbb qəbul etməyi əmr etməz. O sizə müsəlman olduqdan (özünüzü Allaha təslim etdikdən) sonra kafir olmağı heç əmr edərmi?!"***[170] Ayə aşkarcasına müşriklərin nəzərində bir neçə tanrının olduğunu bəyan edir. Qurani-kərimin onların mələkləri özlərinə rəbb seçmələrini bəyan etməsinə baxmayaraq tövhid bölgüsü bidətinin tərəfdarları deyirlər: "Müşriklər rübubiyyət tövhidinə iman gətirmişdirlər. Onların nəzərində vahid rəbb var. Onlar yalnız üluhiyyətdə tövhid əqidəsində şirkə yol vermişlər".

Kafirlərin qiyamət günü deyəcəkləri sözlərə nəzər salın: ***"Allaha and olsun ki, biz (haqq yoldan) açıq-aydın azmışdıq! Çünki biz sizi (siz***

[169] Nəml, 25

[170] Ali-İmran, 80

bütləri) aləmlərin Rəbbi ilə bərabər tuturduq".[171] Yəni sizi rəblər qərar vermişik. Bu məna aşkardır.[172]

Doktor Ömər bin Abdullah qəti şəkildə bu bölgünü inkar edir. Çünki hər iki məfhum, yəni Rəbb və İlah məfhumları eynimənalı məfhumlardır. Tövhidi bu iki qismə bölmək bidətçi rəyidir. Onun rəyinə görə heç kimin əvvəlcədən demədiyi bu bölgünün müəllifi İbn Teymiyyə bidətçidir.

Beşinci: Rəbb sözünün lüğəti mənası ilə müşriklərin rəblərini inkar etmələri uyğun deyil

Qeyd etdiklərimdən əlavə Rəbb sözünün lüğəti mənasına gəlincə, görürük ki, müşriklər bu məfhumu təkcə Allah-taalaya nisbət verməmişlər. Əksinə başqasını da Allaha şərik qoşurdular.

İbn Mənzur deyir: "Rəbb Allah-taaladır. O, hər şeyin Rəbbidir. Yəni sahibidir. Onun bütün yaradılış üzərində rübubiyyəti (sahibliyi) var. Onun heç bir şəriki yoxdur. O, rəbbul-ərbab, maliklərin və bütün mülklərin malikidir (sahiblərin sahibidir). İzafət birləşməsi olmadan Allah-taaladan başqa heç kimə Rəbb deyilməz. Allah-taaladan başqasına "əl" artikili ilə ər-Rəbb deyilər. cahiliyyət dövründə şah mənasını ifadə etmək üçün belə demişlər. Rəbib mələk deməkdir. Rəbbəytul-qovmə yəni onlara rəhbər oldum. "rəbbə əş-şeyə" yəni onu islah etdi".[173] Rəbb sözünün ərəb dilində mələk (şah), islah və muslih mənalarından başqa mənası yoxdur.

Təbəri rəbb sözünün tərifi barədə belə deyir: "Rəbb sözünün təvilinə (yozumuna) gəlincə, rəbb ərəblərin dilində bir neçə mənadadır. Ərəblər itaət olunan ağaya rəbb deyirlər. Lubeyd bin Rəbiənin sözü bu mənadadır:

O günü Kindənin rəbbini və oğlunu qətlə yetirdik.

---

[171] Şüara, 97-98

[172] Tövhidin üç bölgüsünün səhv olmasının bəyanı, s. 8. htt://www/okamel/com

[173] Lisanul-ərəb, c. 1, s. 399

Burada Kindənin rəbbi dedikdə Kindənin ağası nəzərdə tutulur.

Bir şeyi düzəldən şəxs də rəbb adlanır.

Sonra belə deyir: "Bir şeyin sahibi rəbb adlanır. Ola bilər ki, başqa mənalar da ifadə etsin. Lakin həmin mənaların hamısı bu üç mənaya qayıdır.[174]

Deməli, İbn Mənzur və Təbərinin qeyd etdikləri kimi rəbb kəlməsinin lüğəti mənası itaət olunan ağa, bir şeyi düzəldən, bir şeyin sahibidir. Əgər bu mənalara diqqət etsək onların vahid kökə qayıtdığını görürük. Bütün aləmlərin mütləq idarəçiliyinin Allah-taalaya aid olmasını bildirir. Müşriklər bu mənanı təkcə Allah-taalaya nisbət vermirdilər. Allaha başqasını da şərik qoşurdular. Buna dəlil Zümər surəsinin aşağıdakı ayəsidir:

"Bil ki, xalis din (sırf ibadət, təmiz itaət) ancaq Allaha məxsusdur. Allahı qoyub (bütləri) özlərinə dost tutanlar: "Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik!" (deyirlər). Şübhəsiz ki, Allah ixtilafda olduqları məsələlər barəsində (qiyamət günü) onların arasında hökm edəcək. Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz!"[175]

Bu ayədə Allah-taala müşriklərin Ondan başqasına ibadət etdiklərini, Allahdan qeyrisinə bir feli – Allaha yaxınlaşmaq – nisbət verdiklərini bəyan edir. Bu iki məsələni Allah-taaladan qeyrisinə nisbət vermək düzgün deyil. Müşriklər isə bu iki məsələni Allah-taaladan qeyrisinə nisbət vermişlər.[176]

---

[174] Camiul-bəyan, c. 1, s. 92

[175] Zümər, 3

[176] Səid Fovdə, "Şərhul-əqidətit-təhaviyyə

Rübubiyyət məfhumunun doğru mənası

Ən doğrusu rübubiyyətdə tövhid mənasını İbn Teymiyyənin fərz etdiyi kimi yaradan, xəlq edən mənasında deyil, aləmin və kainatın idarəçisi, işlərini tənzimləyən mənasında izah etməliyik. Bütün müşriklərin bu mənaya iman gətirmələri mümkün deyil. Çünki bir çox Quran ayələri müşriklərin ibadət etdikləri məbudların heç bir şey xəlq etmədiyini bəyan edir:

"Bu (gördüklərіniz) Allahın yaratdıqlarıdır. İndi siz də Mənə (Allahdan) başqalarının nə yaratdığını göstərin. Xeyr, zalımlar (müşriklər) açıq-aşkar əyri yoldadırlar (haqq yoldan azmışlar)".[177]

"(Müşriklər isə) Onu qoyub heç bir şey yarada bilməyən, əksinə, özləri yaradılan, özlərinə nə bir zərər, nə də bir xeyir verə bilən, diriltməyə, öldürməyə, həyat verməyə və (öləndən sonra qiyamət günü) yenidən diriltməyə gücləri çatmayanları (bütləri) özlərinə ilahlar (tanrılar) qəbul etdilər".[178]

"Yoxsa onlar (müşriklər) Allaha Onun yaratdığı kimi yaradan şəriklər qərar verdilər və onların nəzərincə bu yaratma bir-birinə bənzər göründü?!" De: "Allah hər şeyin xaliqidir. O birdir, qəhr edəndir (hər şeyə gücü yetən, hər şeyə qalib gələndir!)"[179]

"Ey insanlar! Bir məsəl çəkildi, ona qulaq asın! Şübhəsiz ki, Allahdan qeyri ibadət etdiyiniz bütlər heç bir milçək də yarada bilməzlər – lap hamısı bunun üçün bir yerə yığışsa belə! Əgər milçək onlardan (bütlərin üstündə olanlardan) bir şey götürüb aparsa, onu milçəkdən geri ala bilməzlər. İstəyən də aciz, istənilən də! (Bütlər də

---

[177] Loğman, 11

[178] Furqan, 3

[179] Rəd, 16

aciz, milçək də, yaxud bütlərə ibadət edən də aciz, ibadət edilən bütlər də!)"[180]

"Sizi (yoxdan) yaradan, sonra sizə ruzi verən, sizi öldürən və daha sonra (qiyamət günü) dirildəcək məhz Allahdır. Şəriklərinizi içərisində bunlardan heç olmasa birini edə biləni varmı? (Allah) pakdır, müqəddəsdir. (Allah müşriklərin) Ona şərik qoşduqlarından (bütlərdən) ucadır!"[181]

Bütün bu ayələr kainatı idarə edən hikmət sahibi olan bir idarəçiyə işarə edir. Yaradan, ruzi bəxş edən, mənfəət və zərər verən, dirildən, öldürən və... Bütün bu məfhumlar qeyd olunan mənanı təkid edir. Bu məfhumun (rəbb məfhumu) yalnız xaliq mənasında olduğunu demək düzgün deyil. Belə deməklə biz rübubiyyət məfhumunun əhatə dairəsini kiçiltmiş oluruq.

Deməli, qeyd etdiklərimizdən bu bölgünün batil olması və tövhidin bölünmədiyi bizə aydın olur. Əgər insan dinin zəruri prinsiplərindən birini inkar edərsə İslamdan çıxıb küfrə daxil olar. Ona: "Sənin tövhid əqidən yarımçıqdır və digər tərəfi kamil deyil" demək doğru deyil. Həmçinin bu iki növ tövhidin arasında bağlılığın olduğunu demək düzgün deyil. Çünki isbat etdik ki, müşriklər üluhiyyətdə tövhidi qəbul etmirdilər. Buna görə də onların rübubiyyətdə tövhid əqidəsinə inandıqlarını demək də düzgün deyil. Batilə əsaslanan hər bir şey batildir.

Əzhərin bu bölgünü rədd etməsi

Əzhərin Misir Fətva Mərkəzinə bu bölgü və bu bölgüyə əsasən müsəlmanların təkfir edilməsi barədə sual ünvanlandıqda bu bölgünün və nəticələrinin batil olması barədə cavab verilmişdir. Həmin cavabın

[180] Həcc, 73

[181] Rum, 40

tövhidlə bağlı birinci hissəsini oxuculara təqdim edirəm. Digər hissəsini isə növbəti səhifələrdə "Təkfir, təvəssülün və Peyğəmbərin (s) qəbrinin ziyarətinin qadağan edilməsi" ünvanı altında oxucuya təqdim edəcəm. Fətvanın mətni belədir:

"Tövhidi üluhiyyət və rübubiyyətə bölmək sonradan yaranan bölgülərdəndir və saleh sələflərdən belə bir bölgü nəql edilməmişdir. Məşhur rəyə əsasən bunu ilk dəfə Şeyx İbn Teymiyyə icad etmişdir. Sonradan bu barədə danışanlar bu bölgünü ondan götürmüşlər. Onun sözünün xülasəsi belədir: Rübubiyyət Allah-taalanın fellərində tövhidi, üluhiyyət isə Allah-taalanın bəndələrin fellərinə nisbətdə tövhiddir. Onlar cəm olduqda fərqli məna, ayrı olduqda isə eyni məna bildirir. Yəni ayrı işlədildikdə bir digərini əvəz edir. Bir yerdə işlədildikdə isə hər birinin özünəməxsus mənası var. Üluhiyyət rübubiyyətə zamindir, rübubiyyət isə üluhiyyəti zəruri edir. Bura qədər bu sözdə heç bir irad yoxdur. Lakin o, həddi aşaraq bu tövhidin iman üçün yetərli olmadığını, müşriklərin rübubiyyətdə tövhid əqidəsini qəbul etdiklərini, ümmətin kəlam alimlərinin əksəriyyətinin və başqalarının yalnız rübubiyyətdə tövhidlə kifayətləndiklərini və üluhiyyətdə tövhid əqidəsinə etinasız yanaşdıqlarını iddia etmişdir.

Rübubiyyətdə tövhid əqidəsinin iman üçün yetərli olmaması rəyi İbn Teymiyyədən öncə müsəlmanların icmasına müxalif olan bidət rəydir. Hətta "üluhiyyətdə tövhid rübubiyyətdə tövhidi təmin edir, rübubiyyətdə tövhid üluhiyyətdə tövhidi lazım edir" deyən İbn Teymiyyənin öz sözlərinə müxalifdir. Çünki lazım edənin batil olması lazım olanın batil olması deməkdir. Əgər müşriklər üluhiyyətdə tövhidə inanmırlarsa onların rübubiyyətdə tövhidə inanmalarını iddia etmək düzgün deyil. Çünki lazım edənin batil olması lazım olanın batil olması zəruri məsələdir. Əgər müsəlmanlar rübubiyyətdə tövhidi təsdiqləyirsə, onların üluhiyyətdə

tövhidə inanmamalarını iddia etmək düzgün deyil. Çünki onların bir-birinə bağlı olmaları fərz olunur. Lazım edənin sabit olması ilə yanaşı lazım olanın inkarı necə ola bilər?! Elm əhli bu rəyi batil etməyi öhdəsinə götürmüş və batil olduğunu bəyan etmişlər. Bu rəy heç bir dəlili olmayan batil rəydir. Peyğəmbərdən (s) başqa hər bir kəsin sözü tənqid olunar".[182]

Bu fətvanın məzmunundan aydındır ki, tövhidin bu bölgüsü əsaslarının batil olmasına görə batildir. Bunu da əlavə edim ki, bidətdir. Bu bölgü Şeyx İbn Teymiyyənin bidətlərindəndir. Ondan sonra gələnlər isə düşünmədən və nəticələrini araşdırmadan onun dediklərini təkrar etmişdirlər.

Əllamə Yusif Dəcvi Maliki bu bölgünü tənqid edir[183]

Əzhərli Əllamə Yusif Dəcvi (vəfat tarixi 1365 h.) bu bölgüyə qarşı çıxmış, İbn Teymiyyənin ***"(Ya Rəsulum!) Həqiqətən, əgər sən (müşriklərdən): "Göyləri və yeri kim yaratmışdır?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyə cavab verəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların əksəriyyəti (həmd-sənanın kimə məxsus***

[182] 6623 № -li fətva. Fətvanın mövzusu: "Tövhid bölgüsü və müsəlmanların təkfir edilməsinin hökmü". Tarix: 03.02.2007. Misir Fətva Mərkəzinin rəsmi internet səhifəsi. Həmçinin Şeyx Əli Cümənin "Əsrin mütəfəkkir xəvariclərdən ehtiyatlı olun" adlı məqaləsi. Tamamilə bu sözü qeyd etmişdir. İslam və Vətən jurnalı 249-cu say 1328 h.

[183] Yusif bin Əhməd bin Nəsr bin Suveylim Dəcəvi (1287-1365 h.) Əzhər məktəbinin müəllimlərindən biri, maliki məzhəbinin fəqihlərindən olmuşdur. Dəcvə kəndində dünyaya gəlmişdir. Uşaq vaxtında xəstəliyə tutulmuş və gözlərini itirmişdir. Hicri 1317-1301-ci illərdə Əzhərdə oxumuşdur. Qahirə yaxınlığında Uzbətun-nəxl məntəqəsində vəfat etmiş və Eynuş-şəmsdə dəfn edilmişdir. Onun bir neçə kitabı var. Həmin kitablardan "Xülasətu elmil-vədi", "Tənbihil-muminin liməhasinid-din", "Səbilus-səadə", "əl-Cəvabul-munif fir-rəddi alə muddəit-təhrifi fil-kitabiş-şərifi", "Rəsailus-səlam və rusulul-İslam", "La yusəl əmma yəfəl" ayəsinin təfsiri barədə kitabça və başqalarını qeyd etmək olar. Bax; "əl-Əlam", c. 8, s. 216

olduğunu) bilməz!"[184] ayəsinə əsasən müşriklərin də xilaf çıxmadıqlarını iddia etdiyi rübubiyyətdə tövhid məsələsini müzakirə edərək belə deyir: "Tövhidin iki qismə - rübubiyyətdə tövhid və üluhiyyətdə tövhidə bölünməsi İbn Teymiyyədən başqa heç kimin tərəfindən söylənilməmişdir. Rəsulullah (s) İslamı qəbul etmiş hər hansı şəxsə "İki cür tövhid var. Əgər sən üluhiyyətdə tövhidə iman gətirməsən müsəlman olmazsan" deməmiş və hər hansı bir sözlə işarə etməmişdir. Nə də ki, onların tabe olduqlarını iftixarla söylədikləri sələfdən kiminsə belə dediyi eşidilməmişdir. Bu bölgünün heç bir mənası yoxdur. Həqiqətən də Haqq İlah elə Haqq Rəbdir. Həmçinin batil ilah elə batil rəbdir. İbadət və ilahlığa yalnız Rəbb olan layiqdir. Zərər və mənfəət verən rəbb olmasına etiqad bəsləmədiyimiz birinə ibadət etməyimizin heç bir mənası yoxdur. Allah-taalanın buyurduğu kimi ibadət rübubiyyətdən asılıdır: ***"O, göylərin və yerin, onların arasında olan hər şeyin Rəbbidir! Yalnız Ona ibadət et və Onun ibadətinə səbirli ol! Heç (Allahın özündən başqa) Ona bənzərini (Onun adını daşıyan başqa birisini) görmüsənmi?"***[185] bu ayədə ibadətin rübubiyyətdən asılı olduğu qeyd olunur. Bizim zərər və mənfəət verən rəbb olmasına etiqad bəsləmədiyimiz birinə ibadət etməyimizin heç bir mənası yoxdur.

Allah-taala buyurur: ***"Göylərdə və yerdə pünhan olanı (yağışı, bitkiləri) aşkara çıxardan, onların gizlində və aşkarda etdikləri hər şeyi bilən Allaha səcdə etməsinlər deyə (Şeytan belə etmişdir)".***[186] Bu ayə mütləq iqtidarı sabit olmayana səcdə edilməməlidir. Ondan başqasına səcdə etməyimizin heç bir mənası yoxdur. Bu, ağıl və məntiqə uyğundur, Quran və sünnə buna dəlalət edir.

---

[184] Loğman, 25

[185] Məryəm, 65

[186] Nəml, 25

Allah-taala buyurub: ***"(Ya Rəsulum!) Həqiqətən, əgər sən (müşriklərdən): "Göyləri və yeri kim yaratmışdır?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyə cavab verəcəklər..."***[187] Onlar qəlblərində olmayanı dillərinə gətirirlər. Çünki həmin vaxt onlar qəti dəlillər və aşkar nişanalər qarşısında belə (deməyə) məcbur idilər. Bəlkə də onlar qəlblərində olmayanı və ya idraklarına sığmayan bir şeyi dillərinə gətirmişdilər. Çünki bu sözlə yanaşı yalan dediklərinə dəlalət edən əməl edirdilər. Onlar xeyir və zərər verməyi Allahdan qeyrisinə nisbət verirdilər. Onlar Allahı tamamilə tanımırlar və ən kiçik işlərdə belə qeyrisini Ondan üstün tuturdular. İstəyirsən onların Hud peyğəmbərə (ə) dedikləri sözlərə nəzər sal: "Belə olan halda İbn Teymiyyə nəyə əsasən: "Onlar bütlərin nə zərər, nə də mənfəət verdiyinə etiqad etmirdilər" deyir.[188]

Deməli, bu bölgü batildir. Çünki bu ikili bölgünün heç bir səbəbi yoxdur. Bu, İbn Teymiyyənin özünəməxsus rəyidir. Rəbb ibadətə layiq olandır. O, eyni zamanda ibadət olunan ilahdır. Ondan başqasına səcdə etmək olmaz.

Tövhidin ikili bölgüsünün nəticəsi

Təkfir, təvəssül və Peyğəmbərin (s) qəbrini ziyarət etməyin qadağan olunması

Tövhidin ikili bölgüsünün nəticəsi ümumi surətdə müsəlmanların təkfir olunması ilə nəticələndi. Xüsusilə də, İbn Teymiyyənin nəzərində Peyğəmbərə (s) və Əhli-beytinə, həmçinin, peyğəmbərlərə təvəssül edənlər, onlardan şəfaət diləyənlər və çətinliklərdə onları səsləyənlər

[187] Loğman, 25

[188] ət-Təvəssül bin-nəbiyy, s. 98, 99

onlara ibadət edirlər. Onlar etdikləri ibadətlərdə rübubiyyətə etiqad etdikləri üçün küfr edirlər. Bu mələklərə və İsa Məsihə (onların rübubiyyətinə) etiqad etmək kimi eynidir. Onlar belə ibadət etməklə üluhiyyətdə tövhidi tərk etmişlər. Bu hökm qəbirləri ziyarət edənlərə, övliyalara təvəssül edənlərə, onları səsləyənlərə, onlardan yardım diləyənlərə və Allah-taaladan başqa heç kimin qüdrətinin çatmadığı işləri başqasından istəyənlərə şamildir. Muhəmməd bin Əbdülvəhhab: "Onların küfrü bütpərəstlərin küfründən daha çirkindir" deməklə bu hökmü dəstəkləyir.[189]

Muhəmməd bin Əbdülvəhhab "Kəşfuş-şubuhat" kitabında belə deyir: "Sübuta yetmişdir ki, bütün dualar, nəzirlər, yardım diləmələr və hər növ ibadətin Allaha məxsus olması üçün onlarla (müşriklərlə) vuruşmuşdur. Bilirsən ki, onların rübubiyyətdə tövhidi etiraf etmələri onları İslama daxil etməmişdir. Onların məqsədləri mələklər, peyğəmbərlər, övliyalardır. Onlardan şəfaət diləmələri və onları Allaha yaxınlaşdırmasını istəmələri qanlarının və mallarının halal etmişdir. Bununla da peyğəmbərlərin dəvət etdikləri və müşriklərin etiraf etməkdən boyun qaçırdıqları tövhidi anlayacaqsan".[190]

Əbu Zöhrə "İbn Teymiyyə həyatuhu və əsruhu və arauhu" kitabında belə deyir: "İbn Teymiyyə Allahın vəhdaniyyəti və ibadəti barəsində əqidəsini təvəssül məsələsində formalaşdırmışdır. Buna əsasən də üç məsələni qadağan etmişdir:

Birinci: Salehlərlə Allaha yaxınlaşmaq.

İkinci: Ölülərdən yardım diləmək və onlara təvəssül etmək.

---

[189] Dəcvi Malikinin bu bölgüyə cavab olaraq yazdığı kitabdan. Kitabut-təvəssul bin-nəbiy və cəhələtul-vəhhabiyyin, s. 97

[190] Kəşfuş-şubuhat, s. 4

Üçüncü: Təbərrük məqsədilə salehlərin və peyğəmbərlərin qəbirlərini ziyarət etmək, həmçinin Peyğəmbərimizin (s) qəbrini ziyarət etmək. İbn Teymiyyə bü üç məsələ barəsində danışaraq dövrünün alimlərinə müxalif çıxmış, onun fikirləri alimlərin fikirləri ilə toqquşmuşdur. O, fikirlərinə görə həbs olunduqda işgəncəyə məruz qalmışdır".[191]

Əzhərin fətvası: Peyğəmbərə (s) təvəssül etmək dörd məzhəbin imamlarının icam etdiyi məsələlərdəndir

Əvvəlki səhifələrdə Əzhər din məktəbinin tərəfindən Misir Fətva Mərkəzinin tövhidin ikili bölgüsünün batil olmasına dair fətvası barədə danışmışdıq. Əvvəlki mövzunun davamı olaraq Misir Fətva Mərkəzinin bu tövhid bölgüsünün müsəlmanların təkfir olunması, Rəsulullahın (s) qəbrini ziyarət etməyin və ondan şəfaət diləməyin qadağan olunması kimi nəticələri barədə bəyanatını bir daha qeyd etmək istəyirik.

Fətvanın mətni:

Peyğəmbərin (s) məqamına dua edərək təvəssül edənin təkfir olunmasına gəlincə, həqiqətdə bu, ümmətin alimlərinin böyük əksəriyyətinin təkfir olunmasıdır. Çünki Ona (s) təvəssül etmək insanların tabe olduqları dörd imamın məzhəblərinin icma etdiyi məsələlərdəndir. Peyğəmbərin (s) kor kişinin hədisində və başqa səhih hədislərdə ona təvəssül etməyi əmr etməsi sübuta yetmişdir.

Şovkani[192] "əd-Durrun-nədid fi ixlasi kəlimətit-tövhid" adlı kitabında təvəssülün icazəli olması barədə olduqca dəyərli sözlər demişdir. Bu

[191] İbn Teymiyyə həyatuhu və əsruhu və arauhu, s. 267

[192] Muhəmməd bin Əli bin Muhəmməd bin Abdullah Şovkani (1173 h.-1250h.) Müçtəhid və fəqih. Yəmənin böyük alimlərindəndir. Səna əhalisindəndir. Yəməndə Xovlan məntəqəsinin Şovkan kəndində anadan olmuşdur. Sənada böyüyüb ərsəyə

məsələni daha da aydınlaşdırmaq üçün uzun olmasına baxmayaraq onun sözlərini qeyd edirik:“Bəndə Rəbbindən hər hansı bir şeyi istədikdə Allaha yaratdıqlarıından biri ilə təvəssül etməsinə gəlincə, Şeyz İzzuddin bin Əbdüssəlam belə deyir: “Əgər bu barədə nəql olunan hədis səhihdirsə, Allah-taalaya yalnız Peyğəmbərlə (s) təvəssül edilməsi icazəlidir”.

Bəlkə də o, Nəsainin sünənində və Tirmizinin nəql etdiyi, İbn Macə və başqalarının səhih hesab etdiyi hədisi nəzərdə tutur: “Bir kor kişi Peyğəmbərin (səlləllahu əleyhi və alihi və səlləm) yanına gəlib dedi: “Ya Rəsulullah, gözlərim tutulub. Allaha dua et gözlərimi açsın!” Peyğəmbər ona buyurdu: “Get dəstəmaz al və iki rükət namaz qıl! Sonra belə de: “İlahi, rəhmət peyğəmbəri olan peyğəmbərin Muhəmməd vasitəsilə Sənə üz tuturam və Səndən diləyirəm! Ya Muhəmməd! Mən sənin vasitən ilə Rəbbinə üz tutram ki, gözlərimi açsın! İlahi, Peyğəmbəri mənim üçün şəfaətçi qərar ver ki, mənə şəfaət eləsin”.(Ravi) dedi: “Əgər bir hacətin olsa belə et. Allah-taala onun gözlərini açdı”.[193]

Bununla da bilmiş olursan ki, ***“Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik!”[194] , “Allahdan başqa heç kəsə dua***

---

gəlmişdir. Hicri 1229-cu ildə Səna şəhərinin qazisi olmuşdur. Şəriət hakimi olaraq orada vəfat etmişdir. Onun 114 kitabı var. Həmin kitablardan aşağıdakılarını qeyd edə bilərik: “Neylul-əvtar min əsrar muntəqal-əxbar”, “əl-Bədrut-tali biməhasinin min bədil-qarnis-sabi”, “əl-Əbhasul-ərəziyyə”, “əl-kəlamu alə hədisi hubbid-dunya rasu kulli xətiyyə”, “Fəthul-qədir”, “İrşadul-fuhul”, “əd-Durrun-nədid fi ixlasi kəlimətit-tövhidi” və başqaları. Bax; əl-Əlam, c. 6, s. 298

[193] Şovkaninin kitabının tədqiqatçısı və şərhçisi Əbu Abdullah Hələbi bu hədisin barəsində belə deyir: “Səhihdir”. Əhməd Müsnədində c. 4, s. 138-də və Tirmizi “əd-Dəvat” kitabında bu hədisi qeyd etmişlər. (Tirmizi) belə demişdir: “Həsəndir və səhihdir”. İbn Macə və Hakim də bu hədisi qeyd etmişlər. Hakim demişdir: “Səhihdir. Osman bin Huneyfin nəql etdiyi hədislərdəndir”. əd-Durrun-nədid fi ixlasi kəlimətit-tövhid”, haşiyə s. 19

[194] Zümər, 3

(ibadət) etməyin!”[195], “Haqq olan (qəbul edilən) dua yalnız Ona (Allaha) olan duadır. Ondan başqasına edilən dualar (Ondan qeyrisinə ibadət edənlərin duaları) qəbul olunmaz”[196] ayələrini əsas gətirərək peyğəmbərlər və salehlərə təvəssül etməyi qadağan edənlərin dəlilləri yerində deyil. Bu dəlillər müzakirə edilməlidir və müddəaya tamamilə yaddır. Müşriklərin “Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik!” demələri onların bütlərə ibadət etmələrini aşkarcasına bildirir. Alimə təvəssül edən isə ona ibadət etmir. Əksinə onun daşıdığı elmə görə Allah yanında məqamının olduğunu bildiyi üçün ona təvəssül edir. Həmçinin “Allahdan başqa heç kəsə dua (ibadət) etməyin!”ayəsində də qadağan olunan Allahla yanaşı başqasına dua etməkdir. Məsələn, “Allaha və filankəsə” deyə. Alimə təvəssül edən isə Allahdan başqa heç kimə dua etmir. Məhz Allahın bəzi qullarının yerinə yetirdikləri saleh əməllərinə görə onlara təvəssül edir. Necə ki, mağarada bağlı qalan üç nəfər öz saleh əməlləri ilə təvəssül etmişdilər (hədisə işarə edir). Həmçinin “Ondan başqasına edilən dualar (Ondan qeyrisinə ibadət edənlərin duaları) qəbul olunmaz” ayəsidə bu anlamdadır. Şübhəsiz ki, onlar dualarına cavab verə bilməyəcək birinə dua edirdilər. Onların dualarını qəbul edəcək Rəblərin isə dua etmirdilər. Alimə təvəssül edən isə Allahdan qeyrisinə dua etmir. Nə ondan başqasına dua edir, nə də Onunla yanaşı başqasına dua edir. Əgər bunları bilsən təvəssülü qadağan edənlərin müzakirə obyektindən xaric dəlillərini dəf etmək sənin üçün çətin olmaz.[197]

---

[195] Cin, 18

[196] Rəd, 14

[197] 6623 № -li fətva. Fətvanın mövzusu: Tövhidin qisimləri və müsəlmanların təkfir olunması hökmü. Tarix: 03.02.2007. Bax; “əd-Durrun-nədid fi ixlasi kəlimətit-tövhid”, s. 18 və 22. Müəllif bu kitabda təvəssülü, şəfaəti və yardım diləməyi qadağan edənlərin şübhələrini qəti, səhih və mətin dəlillərlə puç etmişdir. Məlumdur ki, Şovkani

İkinci fəsil: Adların və sifətlərin tövhidi

İbn Teymiyyənin tövhid əqidəsi təkcə bu iki bölgüdən ibarət deyil. O, bu bölgü üzvlərinə üçüncü bölgü üzvü də əlavə etmiş və onu adlar və sifətlərdə tövhid adlandırmışdır. O, Minhacus-sünnədə belə deyir: "Bu babda ən əsası Allah Özünü vəsf etdiyi və (hər hansı sifətin) isbatı və inkarı (məsələsində) peyğəmbərlərinin onu vəsf etdiyi kimi Onu vəsf etməkdir. Allah Özü üçün sabit etdiyi sifət Onun üçün sabit, Özündən dəf etdiyi sifət Ondan dəf olunmalıdır. Məlumdur ki, ümmətin sələfinin yolu bənzətmə və keyfiyyət, təhrif və tətil (sifətlərin inkarı) olmadan Allahın Özünə aid etdiyi sifətləri Ona aid etmək olmuşdur. Həmçinin Allahın adları barəsində doğru yoldan çıxmadan Özünə aid etdiyi sifətləri Ona nisbət verməklə yanaşı Özündən dəf etdiyi sifətləti isə Ondan dəf edirlər. Allah-taala Onun adları və ayələri barədə doğru yoldan çıxanları pisləmişdir".[198]

Həmçinin o, əl-Əqidəl-İsfahaniyyə barədə danışarkən belə deyir: "Şafei Müsnədində Ənəs bin Malikin cümə günü barədə belə dediyini nəql edir: "Həmin gün Rəbbinizin ərş üzərində istiva[199] etdiyi gündür". Əbu Bəkr Əsrəm Fuzeyl bin İyyazın belə dediyini nəql edir: "Allah-taala barəsində keyfiyyət təsəvvür edə bilmərik. Çünki Allah-taala Özünü vəsf edərək belə bəyan etmişdir: ***"(Ya Peyğəmbər!) de: "(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur); Allah (heç kəsə, heç nəyə) möhtac deyil!"***[200] Onun Özünü vəsf etdiyindən daha doğru vəsf yoxdur.

---

vəhhabilərin nəzərində elmin sütunlarından hesab olunur və onun rəyləri onların nəzərində məqbul sayılır.

[198] Məcmu əl-fətava, c.3, s. 3; ər-Risalə ət-Tədmuriyyə, s. 5; əl-Əqidəl-vasitiyyə, s. 10

[199] İstiva sözü lüğəti mənada oturmaq, əyləşmək deməkdir. Lakin burada məcazi məna nəzərdə tutulduğu üçün varlıq aləmini hökmü altına alması mənasında başa düşülür.

[200] İxlas, 1-2

Enmək və gülmək, Özünü öymək və baxmaq sifətləri də bu mənadadır. İstədiyi kimi enir və istədiyi kimi gülür. Onun Öz məkanından necə və nə cür enməsini təsəvvür etməməliyik. Əgər Cəhəmi sənə: "Mən enən Rəbbi inkar edirəm" deyərsə, sən də: "Mən də istədiyi hər şeyi edən Rəbbə inanıram" de!".[201]

Bu sözlərə əsasən adların və sifətlərin tövhidi bu mənadadır: Allah-taala Özü və peyğəmbərləri vəsf edildiyi kimi vəsf edilməlidir. Keyfiyyət təsəvvür olunmadan, başqasına bənzətmədən, təhrif etmədən və ya sifətləri inkar etmədən Allahın Özünə aid etdiyi sifətlər Ona nisbət verilməlidir. Həmçinin Allahın Özünə aid etmədiyi sifətləri də Ondan uzaq hesab etmək lazımdır.

Hesab edirik ki, bu məsləkdirayətə və fiqhə deyil, rəvayətə əsaslanır. Buna əsasən də onlar xüsusilə sənədi səhih olan rəvayətin zahirinə əsaslanırlar. Həmin rəvayətlər ağıl və məntiqə, hətta aksiomaya müxalif olsa belə tənqid edilə bilməz. Bu məsləyə əsasən hətta həmin rəvayətlər ağıl və fitrətə zidd olsa belə, mətnini müzakirə etməməliyik.

Sifətlər barədə ayələr və hədislər

1. Qurani-kərimdən ayələr

İbn Teymiyyə sifətlərdə tövhid əqidəsində Quran ayələrinin və hədislərin zahirinə əsaslanmışdır. Beləki o, Vasitiyyə əqidəsində iddiasına dəlalət edən ayələri qeyd etmişdir. Həmin ayələrin bəzilərini qeyd edirik:

Allah-taala buyurur:

"Yoxsa onlar Allahın (qəzəbinin) bulud kölgələri içində mələklərlə (əzab mələkləri ilə) gəlməsini və işin tamam olmasını (özlərinin məhv

[201] əl-Əqidəl-İsfahaniyyə, c. 1, s. 49, 50

edilməsini) gözləyirlər? Şübhəsiz ki, (bütün) işlər (axırda) Allaha qayıdacaq".[202]

(Məkkə müşrikləri) özlərinə yalnız mələklərin, yoxsa Rəbbinin (əzabının), yaxud da Rəbbinin bəzi qiyamət əlamətlərinin gəlməsinimi gözləyirlər? (Ya Rəsulum!) Rəbbinin bəzi qiyamət əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanından bir xeyir qazanmamış şəxsə (sonrakı) imanı heç bir fayda verməz. De: "Gözləyin, doğrusu, biz də gözləyirik!"[203]

"Xeyr! (Belə deməyin). Doğrusu, siz özünüz yetimə hörmət etmirsiniz (yetimin haqqını vermirsiniz)".[204]

"Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı[205] baqidir".[206]

"Allahdan[207] başqa hər şey məhvə məhkumdur".[208]

" Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur."[209]

2. Hədislər

Həmçinin adı çəkilən əqidəyə dəlalət edən bəzi hədislər də qeyd edərək belə deyir: "Elm əhlinin qəbul etdiyi və inanılması vacib olan səhih hədislərdən bəzilər bunlardır:

---

[202] Bəqərə, 210.

[203] Ənam, 157

[204] Fəcr, 21

[205] Ayədə "vəch" sözü zat kimi tərcümə olunmuşdur. Vəch sözünün lüğəti mənası üz, çöhrə deməkdir.

[206] Rəhman, 27

[207] Burada orjinal dilində "vəchuhu" buyurulur. Qeyd etdiyimiz kimi vəch sözü üz və çöhrə mənasındadır.

[208] Qəsəs, 88

[209] Taha, 5

(Peyğəmbər) buyurub: “Hər gecə gecənin axırıncı üçdə biri qaldıqda Rəbbimiz dünya səmasına enir və belə deyir: “Kim mənə dua edər ki, duasını qəbul edim? Kim məndən bir şey istəyər ki, ona bəxş edim? Kim məndən bağışlanmaq diləyər ki, onu bağışlayım?” Bu hədis hamı tərəfindən qəbul olunur.

“Allah tövbə edən mömininin tövbəsinə görə sizlərdən hər hansı birinizin itmiş miniyini tapmasından daha çox sevinir”. Bu hədis hamı tərəfindən qəbul olunur.

“Allah biri digərini qətlə yetirən iki şəxsə gülər. Hər ikisi Cənnətə girəcək”. Bu hədis hamı tərəfindən qəbul olunur.

“Rəbbimiz bəndələrinin ümidsizliyindən və xeyirin yaxınlığına təəccüb edir. Sizin məşəqqət içində və ümidsiz olduğunuzu görür. Sonra gülməyə davam edir. Bilir ki, sizin qurtuluşunuz yaxındadır”.

“Cəhənnəmə insanların atılması davam edəcək və Cəhənnəm: “Yenə də varmı” deyəcək. İzzətli Rəbb qıçını (başqa rəvayətdə qədəmini) cəhənnəm alovuna qoyacaq və alov bir-birinin üzərinə cəm olacaq. Bundan sonra Cəhənnəm: “Kifayətdir! Kifayətdir!” deyəcək”. Bu hədis hamı tərəfindən qəbul olunur.

“Ərş suyun üzərindədir. Allah ərşin üzərindədir. O, sizin necə olduğunuzu bilir”. Bu hədis həsəndir”.[210]

İbn Teymiyyənin düşüncəsində bu ayələrin və rəvayətlərin sifətlərdə tövhidə dəlalət etməsi aşkardır. Çünki ona görə Allah-taalanın bütün sifətləri keyfiyyət təsəvvür olunmadan zahiri mənasında başa düşülməlidir. Əks təqdirdə bu, sifətlərin inkarı hesab olunur. Keyfiyyət barədə soruşmaq isə vacib deyil. Çünki sifətlərin keyfiyyəti məchuldur.

Əgər onun nəql etdiyi başqa rəvayətləri tədqiq etsək bunu aşkarcasına görərik. İbn Teymiyyə Dirut-təaruz kitabında deyir: “Malik və Rəbiə və

[210] Bax; əl-Əqidəl-vasitiyyə, s. 19,20

başqaları belə deyir: “İstiva (oturmaq) məlumdur, keyfiyyət məchuldur”. Aydın oldu ki, onun oturmasının keyfiyyəti məchuldur. Bununla yanaşı həmin sifətin sabit olmasını inkar etməmişlər. Lakin məxluqatın bunu bilməsini inkar etmişlər”.[211]

Həmçinin: İshaq bin İbrahimin belə dediyi nəql olunur: “Əmir Abdullah bin Tahir mənə belə dedi: “Ey Əbu Yəqub, Rəsulullahdan (s) nəql etdiyin “Rəbbimiz hər gecə dünyanın səmasına enir” hədisinə əsasən Rəbbimiz necə enir?” Mən dedim: “Allah əmiri izzətli etsin! Rəbbin işlərinə necə deyilməz. O, keyfiyyət olmadan enir”.

Abdullah bin Mubarək barəsində nəql olunur ki, bir nəfər şəban ayının ortasında gecəyarı enmə (Allahın enməsi) barəsində soruşdu. Abdullah belə cavab verdi: “Ey zəif, hər gecə gecəyarısı enir”. Həmin adam dedi: “Ey Əbu Əbdürrəhman, necə enir? Onun məkanı boş qalmırmı?” Abdullah bin Mübarək dedi: “İstədiyi kimi enir”.[212]

“Bığ yeri tərləmiş yeniyetmə” hədisinin İbn Teymiyyə tərəfindən təshih olunması

Qətadənin İkriməyə istinad edərək onun da İbn Abbasdan nəql etdiyi hədisdə Rəsulullah (s) buyurub: “Rəbbimi yaşıl bir bağçada bığ yeri tərləmiş, saçları qıvrım yeniyetmə surətində gördüm”.[213]

---

[211] Dirut-təaruz, c. 2, s. 35

[212] Dirut-təaruz, c. 2, s. 27

[213] Əbu Zurə bu hədisi səhih hesab etmişdir. Əcluni Kəşful-xifa kitabında belə deyir: “əl-Alai kitabında İbn Abbasdan “Rəbbimi bol saçlı yeniyetmə surətində gördüm” həmçinin “Bığ yeri tərləmiş yeniyetmə surətində” də nəql olunmuşdur. İbn Sədaqə Əbu Zurənin belə dediyini nəql edir: “İbn Abbasın hədisi səhihdir. Bunu mötəzili olandan başqa heç kim inkar etməz...” Kəşful-xifa, c. 1, s. 436, 437. Muttəqi Hindi belə deyir: “Əbu Zurənin belə dediyi nəql olunur: “Bu, səhih hədisdir”. Mən deyirəm: “Bu hədis yuxuda görmək mənasında yozulmalıdır”. Kənzul-ummal, c. 1, s. 227

İbn Teymiyyə bu hədisi sırf gözlə görmək mənasında təfsir etmişdir. Biz onun "Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə" kitabında dediyi sözlərdə buna rast gəlirik. O, Qazi Əbu Yəlanın sözlərinin ardınca belə deyir: "Buna əsasən qeyd edilən görmə gözlə görmədir. Qətadənin İkrimədən, onun da İbn Abbasdan mərfu olaraq (ravi silsiləsinin tam olmaması) nəql olunan səhih hədisdə deyildiyi kimi..."[214]

Həmçinin o, İbn Xüzeymənin sözlərinin ardınca belə deyir: "Həkəmin İkrimədən nəql etdiyi hədis mərfu hədis hökmündədir. Çünki o, görmək barədə hədisi ağıl və Quran təvilində bilinməyən formada qeyd etmişdir. İbn Əbu Səlmənin İbn Abbasdan nəql etdiyi hədis də belədir. Orada Quran təfsirindən bilinməyən məsələlər barədə danışılmışdır. Buna əsasən də İkrimənin İbn Abbasdan nəql etdiyi və bu kimi hədislər gözlə görmək mənasındadır. Necə ki, hədis alimlərindən bir dəstəsi bu rəydədir".[215]

Burada İbn Teymiyyə hədisi yuxuda görmə mənasında yozanlardan uzaqlaşmış, Kərramiyyə və Həşəviyyə təriqətlərinin əqidəsinə uyğun olaraq zehnində və düşüncəsində olanları bəyan etmişdir. Onun dəlili bundan ibarətdir ki, görmək barədə olan hədis rəylə bilinməz. Burada onun rəydən məqsədi ağıldır. Həmçinin onun nəzərində Quran təvili ilə də bu hədis anlaşılmır. Əvvəlki araşdırmalarda qeyd etdiyimiz kimi İbn Teymiyyə məcazi mənanı və təvili qəbul etmədiyi üçün təcsim şirkinə düşmüşdür.

Bu bəyandan sonra İbn Teymiyyəni müdafiə edən heç kim Allah-taalaya verilən bu təcsim və təşbih reallığından qaça bilməz. Allah-taala belə vəsfdən uca və münəzzəhdir! Onların Vasitiyyə əqidəsində İbn Teymiyyənin qeyd etdiyi ayə və hədislər barədə: "Ona bənzər heç bir şey yoxdur" dediyini söyləməyə haqları yoxdur. Çünki onun qeyd etdiyimiz

[214] Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə, c. 7, s. 290

[215] Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə, c. 7, s. 294

sözləri bu ayənin təfsiridir. İbn Teymiyyənin nəzərində bənzərin olmaması məhz elə aşkar təcsimin özüdür. Həmçinin, onun Allah-taalanı görmək barədə təfsirini qeyd etdiyimiz rəvayətdə olduğu kimi, gözlə görmək mənasında izah etdiyinə rast gəlirik.

İbn Teymiyyənin sözlərində təcsim

İbn Teymiyyə Vasitiyyə əqidəsi və digər kitablarda birbaşa təcsim əqidəsini bəyan etməsə də dəlil gətirdiyi bu ayələr və rəvayətlər bu fikri deməyi tələb edir. Xüsusilə də müxtəlif kitablarında dediyi sözlərdən bu fikri aşkarcasına duyuruq. O, bu əqidəni tamamilə aydın surətdə bəyan edirdi. Bundan əlavə o, qeyd etdiyimiz kimi dini mətinlərin zahiri mənasından kənara çıxmayanlardandır. Bu, dəlilə ehtiyac olmayan aşkar bir məsələdir. Buna görə də onun bu mövzuda dediyi bəzi sözlərə işarə edəcəyik:

1. Allah-taalaya aşkarcasına cisimlilik nisbət vermək

İbn Teymiyyə "Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə" kitabında belə deyir: "Nə Allahın kitabında, nə də Rəsulunun sünnəsində, nə də ki, ümmətin sələfləri və imamlarından hər hansı birinin sözlərində "O, cisim deyil" deyilmir. Onun sifətləri cisim və ərəz (xassə) deyil. Şəriət və ağılın mənasını inkar etmədiyi sözlərin inkarına görə şəriət və ağılla sabit olan mənanın inkar olunması cəhalət və zəlalətdir".[216]

Məcmu əl-fətava kitabında belə deyir: "Təcsim sözü sələfdən heç kimin sözlərində nə inkar, nə də təsdiq olunmuşdur. Belə olan halda necə demək

[216] Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə, c. 1, s. 101

olar ki, “Sələfin məzhəbi (rəyi) təcsimin inkar olunması və ya təsdiq olunmasıdır”.[217]

Minhacus-sunnə kitabında belə deyir: “Cisim barədə dediyinə və buna aid məsələlərə gəlincə, nə Kitab, nə sünnə Allahın sifətləri barədə bunu nə inkar etmiş, nə də təsdiq etmişdir. Səhabələrdən, tabeinlərdən və onlar tabe olanlardan heç bir kəs, nə əhli-beyt, nə də başqaları bu barədə bir söz deməmişdir”.[218]

Bu o deməkdir ki, İbn Teymiyyənin nəzərində cisim sözü məqbuldur. Çünki nə Quranda, nə sünnədə, nədəki səhabələrin və tabeinlərin sözlərində, hətta onun iddia etdiyinə görə Əhli-beytin (ə) sözlərində bu barədə danışılmamışdır. Bu halda sükut etməli, Quran və sünnədə qeyd olunan hər hansı sifəti yozmamalıyıq.

2. Allah-taalanı görmək və ona işarə etmək (Çünki O, cisimdir)

Minhacus-sunnədə belə deyir: “Bəzən cisim deyildikdə ona işarə olunan və ya görünən, yaxud da sifətləri özündə əks etdirən nəzərdə tutulur. Allah-taala axirətdə görünəcək. Sifətlər onda öz əksini tapır və insanlar dua edərkən əlləri, qəlbləri, üzləri və gözləri ilə ona işarə edirlər. Kim: “Cisim deyil” deməklə bu mənanı nəzərdə tutarsa ona belə cavab verilər: “Bu sözlə inkar etmək istədiyin nəql olunan səhih rəvayətlər və aşkar əqli dəlillərlə sabit mənadır. Sən bunun inkarı üçün heç bir dəlil təqdim etmədin”.[219]

Həmçinin belə deyir: “Bəli Allahı gözlə görmək Cənnətdə möminlər üçündür. Həmçinin insanlar qiyamətin məhşərində görəcəklər. Necə ki, bu barədə Peyğəmbərdən mütəvatir hədislər nəql olunmuşdur. Beləki

[217] Məcmu əl-fətava, c. 4, s. 152

[218] Minhacus-sunnə, c. 2, s. 192

[219] Minhacus-sunnə, c. 2, s. 134, 135

(Peyğəmbər) buyurmuşdur: “Siz günüz vaxtı bulud olmadan günəşi gördüyünüz kimi Rəbbinizi də görəcəksiniz”.[220]

3. Allah-taalaya oturmaq və ağırlıq nisbət vermək

İbn Teymiyyə Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə kitabında belə deyir: “Osman bin Səid Cəhəmiyyə (təriqətinə) cavab verərkən belə deyir: “Əta bin Yasar belə nəql edir: “Bir kişi Kəbin yanına gəldi. O, bir dəstə camaatla birgə idi. Həmin adam dedi: “Ey Əbu İshaq, mənə Cabbardan danış”. Camaat onun sözlərini ağır hesab etdi. Kəb dedi: “Buraxın bu adamı. Əgər cahildirsə öyrənər. Əgər alimdirsə elmi artar”. (Sonra) Kəb dedi: “Sənə deyim ki, Allah-taala yeddi qat göy və o cürdə yeri yaratdı. Sonra hər iki səma arasında, həmçinin dünya səması ilə yer arasında qat yaratdı və onları da həmin cür elədi. Sonra ərşi qaldırdı və onun üzərində oturdu. Səmaların içində elə bir səma yoxdur ki, Cəbbar (ərşə) çıxdıqda onun ağırlığından səs çıxarmasın”.[221]

Sonra İbn Teymiyyə bu söhbətə əlavə edərək belə deyir: “Bu hədisin sənədində adları çəkilən bu imamlar ən hörmətli imamlardır. Onlar və başqaları bu hədisi nəql etmişlər. Heç biri hədisdə “Cəbbarın ağırlığından” ifadəsini inkar etməmişlər. Əgər bu söz İslam dinində məqbul olmazsa, bu hədisi belə üslubda nəql etməzdilər”.[222]

İbn Teymiyyə inkar etmədiyi bu hədisə əsasən Cəbbarın ağırlıq sifətini qəbul edir. Hətta həmin imamlarla müvafiq olur. Çünki onun nəzərində bu İslam dinində inkar edilən rəy hesab olunmur. Əks təqdirdə həmin görkəmli alimlər bunu inkar edərdilər.

---

[220] Məcmu əl-fətəva, c. 3, s. 390

[221] Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə, c. 1, s. 572, 573

[222] Həmin mənbə

İbn Qəyyim Cövziyyə[223] sələfinfin (İbn Teymiyyənin) oturmaq və ağırlıq sifətləri barədə dediklərini təkrar edir

Həmçinin İbn Teymiyyənin əqidəsi şagirdi İbn Qəyyimdə öz əksini tapmışdır. Onun sözləri ustadının nəğməsinin takrarı idi. Biz buna onun Nun qəsidəsində aşkarcasına rast gəlirik:

Allah səmasının üstəndə ərşin üzərindədir
Məlakut və səltənət sahibi münəzzəhdir
Onun ərşinin elə səsi çıxır ki,
Arabaya minənin çıxartdığı səs kimi[224]

Bu sözlərdən aydın olur ki, bu məsələdə o, öz sələfinin məsləyinə tabedir. Ərşin səsi çıxır. Bunun səbəbi isə Rəbbin ağırlığıdır. Heç bir şübhə yoxdur ki, ağırlıq cisimliliyin əlamətlərindəndir. Onun "oturduqda onun ərşinin səsi çıxır" sözləri aşkarcasına dəlalət edir ki, ərşin səsinin çıxmasına səbəb Rəbbin ağırlığıdır. Şübhəsiz ki, çəki, ağırlılıq cisim olmağın əlamətlərindəndir.

4. Allah-taala üçün məkan nisbət vermək

İbn Teymiyyə deyir: "Dördüncü tərəf: Əgər Allah səmaları və yeri yaratmadan əvvəl ərşi yaratmışdırsa, ərşin Onun üçün məkan olması ağıla

[223] İbn Həcər əd-Durərul-kaminə kitabında belə deyir: "İbn Teymiyyənin məhəbbəti ona o dərəcədə hakim idi ki, onun rəylərindən heç vaxt kənara çıxmırdı. Hətta bütün rəylərində onu müdafiə edirdi. Onun kitablarını məhz o, tənzimləmiş və elmini yaymışdır. Onu dəvənin üstünə mindirib şallaqla vuraraq gəzdirib təhqir etdikdən sonra İbn Teymiyyə ilə birlikdə həbs etmişlər. İbn Teymiyyə vəfat etdikdən sonra onu azad elədilər. Lakin İbn Teymiyyənin fətvalarına görə yenidən möhnət yaşadı. O, dövrünün alimlərini təhqir edirdi, həmçinin, dövrünün alimləri onu təhqir edirdilər". əd-Durərul-kaminə, c. 5, s. 138

[224] Şərhu qəsidəti İbn Qəyyim, c. 1, s. 522. (məzmununu tərcüməsi)

görə münasibdirsə, səmalar Onun qullarının məkanıdır. Onun tilavət etdiyi, həmçinin digər ayələrdə və hədislərdə sabit olan, eləcə də müsəlmanların ittifaqı onun rəyinə deyil, rəqibinin rəyinə dəlildir".[225]

Şeyx Səid Fovdə onun bu sözlərinə haşiyə çıxaraq belə deyir: "Bax gör, necə də burada aşkarcasına ərşi Allah-taalaya məkan qərar vermişdir. Yəni ərş Allah-taalanın qərar tapdığı yerdir. Necə də cürətlə bunun müsəlmanların ittifaqı olduğunu, ayələrin və hədislərin dəlalət etdiyini deyir?"[226]

5. Allahın ərşin üzərində olmasını isbat etməsi

İbn Teymiyyə belə deyir: "Beşinci tərəf: "Ərşin lüğəti mənası üstündəkinə nisbətdə taxt, altındakına nisbətdə isə tavandır. Əgər Quran Allaha ərş nisbət verirsə, ərş Ona nisbətdə tavan deyil. Məlum olur ki, (ərş) Ona və başqasına nisbətdə taxt kimidir. Bu isə Onun ərşin üzərində olmasını tələb edir".[227]

Burada İbn Teymiyyə ərşi taxt kimi təsvir edir. Ərş Allahın taxtıdır. Allah-taala sanki insan kimi taxtın üzərindədir. Bu, aşkarcasına təcsim əqidəsidir.

6. Allah-taala ilə Peyğəmbərin (s) birlikdə ərşin üzərində oturması

İbn Teymiyyə Məcmu əl-fətəva kitabında deyir: "(Allahın) razı qaldığı alimlər və qəbul olunan övliyaları nəql edirlər ki, Rəbbi Muhəmməd peyğəmbəri Özü ilə ərşi üzərində otuzduracaq".[228]

---

[225] Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə, c. 1, s. 579, 580

[226] əl-Kəşfus-səğir, s. 411

[227] Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə, c. 1, s. 576

[228] Məcmu əl-fətəva, c. 4, s. 152

Oturmaq sifətində yaradılmış bəşər olan Peyğəmbər bu sifətdən münəzzəh olan Xaliqlə müştərəkdir. Onun razılaşdığı və əsaslandırdığı bu sözlərdə təcsim əqidəsi aşkarcasına özünü biruzə verir. Lakin buna keyfiyyəti məlum deyil və bu kimi sözlərlə bəhanə gətirir. Çünki biz İbn Teymiyyədən soruşsaq ki, sən Rəbbi Peyğəmbəri (s) Özü ilə ərşin üzərində oturdacağını zehnində təsəvvür edirsənmi? Təbii ki, sən burada oturmaq məfhumunu təsəvvür etmisən. Buna dəlil sənin inanmağın və təsdiq etməyindir. Eyni zamanda bizdən tələb edirsən bunu keyfiyyəti olmadan təsəvvür edək. Bəzən keyfiyyəti təsəvvür edir, bəzən isə təsəvvür etmirik. Bu, ziddiyyət deyilmi? Çünki biz ya təsəvvür edib zehnimizdə müəyyən surət çəkməliyik və yaxud heç nə təsəvvür etməməliyik. Hər iki təsəvvürün keyfiyyətlə və ya keyfiyyətsiz olmasının isə batil olması aydındır.

Doğrusu, ağıl bunu dərk edə bilməz. İnsanın sifətlərinə bənzərliyi təsəvvür olunan hər bir şey yozulmalıdır. Çünki Allah-taala hər cür naqislik və eybdən münəzzəhdir. O, mütləq kamillikdir. Ondan başqa hər bir varlıq naqisdir.

Burada əvvəlki səhifələrdə də işarə etdiyimiz son dərəcə əhəmiyyətli bir məsələni xatırlatmaq olduqca vacibdir. Bunu bilmək lazımdır ki, İbn Teymiyyə hər hansı bir rəy söylədikdə və ya müəyyən bir əqidə icad etdikdə öz rəyini gücləndirmək üçün başqalarını da özünə qoşur. Biz bilmirik ki, onun nəzərdə tutduğu Allahın razı qaldığı alimlər və qəbul olunan övliyalar kimlərdir. Halbuki alimlərin böyük əksəriyyəti bu batil əqidənin əksini söyləyirlər. Növbəti səhifələrdə onların rəylərini qeyd edəcəyik.

7. Allah-taalaya cəhət nisbət vermək

İbn Teymiyyə deyir: “Allahı görməyin (mümkünlüyünü) deyənlərin əksəriyyəti ağıl qəbul etdiyi kimi üzbəüz görəcəklərini deyirlər. Necə ki, Peyğəmbər (s) buyurur: “Həqiqətən də siz qiyamət günü Rəbbinizi görəcəksiniz...”[229]

Burada aşkarcasına cəhət olduğunu deyir. Əgər Allah-taala hər hansı cəhətdə olmasaydı Onu görə bilməzdilər. Sonra da öz iddiasına ağıl və hədislə dəlil gətirir.

Həmçinin deyir: “Allahın görən şəxsdən müəyyən cəhətdə olaraq görsənməsi sələf və imamların icması ilə sübuta yetmişdir”.[230]

Yoxluq olan cəhət məfhumunun icadı

Sonra İbn Teymiyyə cəhət məsələsinə heç kəsin öncədən demədiyi yeni icadla – yoxluq olan cəhət məfhumu ilə haqq qazandıraraq belə deyir: “Kim Xaliq müəyyən bir cəhətdədir dedikdə mövcud cəhət nəzərdə tutarsa; halbuki Ondan başqa hər bir şey məxluqdur. Kim bu mənada: “O, müəyyən bir cəhətdədir” deyərsə səhv etmişdir. Əgər cəhət dedikdə yoxluq olan bir məsələ nəzərdə tutarsa və Onun (Allahın) aləmin üstündə olmasını: “Allah aləmin üstündədir” deyərsə, doğru demişdir. Aləmin üstündə ondan başqa heç bir mövcud yoxdur”.

Burada Allah-taalanın müəyyən bir cəhətdə olması aşkarcasına deyilir. Lakin həmin cəhət yoxluqdur. Sanki o, maddi cəhətdən yayınmaq istəyir və cəhətin varlığının olmamasını və Allahdan başqa hər bir şeyin məxluq olduğunu bəyan edir. Bundan sonra isə yoxluq olan cəhət məfhumu icad etmişdir.

---

[229] Minhacus-sunnə, c. 3, s. 341

[230] Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə, c. 2, s. 415

Şeyx Useymin və yoxluq olan yüksək cəhət məfhumu

Şeyx Muhəmməd bin Saleh Useymin İbn Teymiyyənin dediyi olmayan cəhət məfhumu təkrar edərək belə deyir: "Allah müəyyən bir cəhətdədirmi? Bu sualın cavabında deyirik: "Sözə gəlincə, biz orada dayanırıq. Bizə və ona aid heç nə yoxdur. Lakin məna barədə müfəssəl olaraq deyirik: "Cəhət sözündən məqsədin nədir? Əgər Allah-taalanı bir qab içindəkini əhatə edən kimi Onu əhatə edən bir cəhətdə olmasını nəzərdə tutursansa bu, qeyri-mümkün və batildir. Əgər aşağı cəhət və məxluqlara qarışmaq nəzərdə tutursansa, bu da Allah üçün qeyri-mümkündür. Allah-taala aşağı cəhətdə deyil. Həmçinin qabın içindəkini əhatə etdiyi kimi onu əhatə edən bir cəhətdə də deyil. Əgər O, yoxluq olan yüksək cəhətdədir, həmin cəhət onu əhatə etmir və orada Ondan başqa heç bir şey yoxdur desən, bu haqq sözdür".[231]

İbn Teymiyyənin nəzərində cəhət elə Allahın zatıdır

Belə aydın olur ki, İbn Teymiyyənin yoxluq olan cəhətdən məqsədi elə Allahın zatının cəhətidir. O, belə deyir: "Aləmin üstündə Onun zatından başqa heç nə yoxdur. O, – subhənahu– Özünün cəhətidir. Aləmdən xaric hər hansı bir mövcuda tərəf üz tutmamış və aləmdən xaric mövcud olan heç bir şey ona tərəf üz tutmamışdır. Onun zatından başqa bir şey yoxdur ki, ona tərəf üz tutsun və ya O, həmin şeyə tərəf üz tutsun".[232]

Bu, batil sözdür. Çünki biz cəhət sözünün lüğəti mənasına nəzər salsaq, mənası üz tutulan və məqsəd olan bir yerdir.[233] Cəhət məsəfanin sonudur və məkandır. Cismin müəyyən bir cəhətdə olması, yəni o, həmin cəhətdəki məkandadır. Bəzən məkan yerləşdiyi müəyyən cəhətin adı ilə adlanır.

---

[231] Şərhul-əqidətis-Səfəraniyyə, s. 101

[232] Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə, c. 2, s. 118

[233] Lisanul-ərəb, c. 13, s. 556

Məsələn, yerin üstü və ya yerin altı. Cəhət müəyyən əlavə ilə elə həmin məkandan ibarətdir.

Deməli, cəhət müstəqil vücudu olmayan şərti mənadır. Cəhət dedikdə hərəkətin başlanğıcından başlayaraq hərəkət edərək məqsədindəki yeri nəzərdə tutursan. Bundan başqa mənası yoxdur. Cəhət elə həmin məkanda olan cismin özüdür demək doğru deyil. Çünki Kəbənin cəhəti dedikdə Kəbə həmin cəhətin özü deyil, o, müəyyən bir cəhətdə olan şeydir. İstilahi mənada cəhət sözünün mənası budur. Alimlər: "Cəhət şərti mənadır" dedikdə bunu nəzərdə tuturlar.[234] Buna görə də İbn Teymiyyə cəhət mənasını nə qədər yozsa da, nəticə şübhəsiz ki, təcsimə gətirib çıxarır. Çünki cəhətdədir demək, onun müəyyən bir tərəfdə olması deməkdir. Müəyyən bir yerdə olduğunu demək onun məhdud olduğunu qəbul etməkdir. Məhdud olduğunu deyirsənsə, deməli cisim hesab edirsən. Bu məntiqi nəticələr daha artıq izaha ehtiyacı olmayan məsələrdir. Bundan əlavə İmam Sadiqin (ə) yuxarı, məkan, cəhət kimi məhdudiyyət bildirən mənaları inkar edən meyarını təqdim edirik: "Kim Allahın bir şeyin içində, bir şeydən ayrıldığını və ya bir şeyin üzərində olduğunu iddia edərsə şirk etmişdir. (Çünki) əgər Allah-taala bir şeyin üzərində olarsa, daşınan olar. Əgər bir şeyin içində olarsa, əhatələnmiş olar. Əgər bir şeydən olarsa, sonradan yaranmış olar".[235]

Allah-taala istər cəhət, istər qeyri bir şey, istər yuxarı məkan və ya aşağı məkanla əhatə etsən bütün bunlar təcsimlə nəticələnir.

"Allah nə aləmin daxilindədir, nə də xaricində" tezisi

Əşərilər və mötəzilə bu sözü tez-tez təkrarlayırlar. Bu ifadə özündə ziddiyyətin olduğunu əks etdirir. Necə ola bilər ki, Allah nə aləmin

[234] Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə, c. 2, s. 118

[235] ət-Tovhid, s. 178

daxilində, nə də xaricindədir? Burada iki zidd vəsf – aləmə daxil olmaq və aləmdən xaric olamaq eyni anda inkar edilir. Məgər Allah-taala bizimlə deyilmi və bizi əhatə etmirmi?

İbn Teymiyyə əşərilərə və mötəziləyə hücum edir

İbn Teymiyyə bu rəydə olanlara çox ağır sözlərlə hücum edərək belə deyir: "Onlar ümumi möminlərə və alimlərə Allahın ərşin üzərində olmasını inkar etdiklərini, Onun nə aləmin daxilində, nə də xaricində olmasını aşkarcasına demirdilər. Münafiqlər danışıq tərzlərindən tanındıqları kimi alimlər də onların dəlillərindən bunu bilirdilər və duyurdular. Allah-taala buyurur: ***"Əgər istəsək onları sənə göstərərik (və) sən onları üz və simaları ilə tanıyarsan. Sən mütləq onları danışıq tərzlərindən tanıyacaqsan..."***[236].[237]

Bu sözlərilə İbn Teymiyyə onları danışıq tərzlərinə görə münafiqliklə vəsf edir. Bununla da öz rəyində onların batil əqidəyə əsaslandıqlarına işarə edir.

O, həmçinin belə deyir: "Onlar: "Nə aləmin daxilindədir, nə də xaricində, nə ondan ayrıdır, nə də ki, onunla birgə" deyənlərdir. Onlar heç bir varlığın iki vəsfdən hər hansı birindən ayrı ola bilməyəcəyi iki vəsfi inkar edirlər. Necə ki, mötəzilənin və onlarla müvafiq olanların əksəriyyəti bu sözü deyir".[238]

Həmçinin belə deyir: "Onların çoxu bu iki sözü bir yerə cəm edir. Nəzərində və söhbətində hər iki vəsfin inkar edərək: "O, nə aləmin daxilindədir, nə də xaricində" deyirlər. Halbuki ibadət və pərəstiş etdikdə Onun hər yerdə olduğunu və Ondan xali bir yerin olmadığını deyirlər. Bu

[236] Muhəmməd, 30

[237] Bəyanu təlbisil-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə, c. 2, s. 83

[238] Məcmu əl-fətəva, c. 2,s. 298

sözlərin batil olması zəruri olaraq məlumdur".[239] İbn Teymiyyənin nəzərində bu, iki ziddin bir yerdə olmasıdır. Bu isə, ağılın hökmünə əsasən qeyri mümkündür və batildir.

İbn Əbulhədid və Fəxri Razi bu tezisi müdafiə edirlər

İbn Əbulhədid bu ziddiyyəti dəf edərək belə deyir: "Bu məsələdə sözlərimiz belədir: Xaliq bütün mövcudlardan xaricdir. Bu izah birinci məsələ ilə ziddiyyət yaratmır. Birinci məsələ budur: Xaliq aləmin daxilindədir. Bununla da Onun hər ikisindən (aləmin daxilindən və xaricindən) xali olması iki ziddiyyətdən xali olmasıdır. Düşünmürsənmi ki, iki məsələnin hər ikisi yalan ola bilər? Beləki fələk onu ehtiva etmir və O fələkdən xaric cəhətdə deyil. Əgər hər iki hökm bir-birinə zidd olsaydı bu doğru olmazdı. Məsələn, belə deyirsən: "Zeyd evdədir" və "Zeyd məsciddədir". Bu iki hökm bir-birinə zidd deyil. Ola bilər ki Zeyd nə evdədir, nə də məsciddədir. Əgər bu iki hökm bir-birinə zidd olsaydı, bu ziddiyyətdən çıxmaq qeyri-mümkün olardı. Lakin ziddiyyət "Zeyd evdədir", "Zeyd evdə deyil" hökmlərindədir. Avamlar bizim "Xaliq nə aləmin daxilində, nə də aləmin xaricindədir" sözümüzə nifrət etmələri səhvdir. Onların etiqadlarına və təsəvvürlərinə əsasən bu iki hökm bir-birinə ziddir".[240]

Fəxru Razi belə deyir: "Aləmin daxilində olmayan və hər hansı cəhətdə olmaqla aləmdən kənarda olmayan bir varlığın mövcudluğunu necə qəbul etməmək olar? Baxmayaraq ki, xəyal və təsəvvür belə mövcudu dərk edə bilmir. Hənbəli məzhəbinin əksəriyyəti zahiri bədən üzvləri bildirən hər hansı bir ayə və hədisə istinad etmişlər və aşkarcasına: "Bu mənanı məxluqa aid ediləndən fərqli olaraq Allah-taalaya aid edirik" deyirlər.

[239] Həmin mənbə, c. 1, s. 7

[240] Şərhu nəhcul-bəlağə, c. 13, s. 84

Onlar məxluqun üzündən fərqli olaraq Allaha üz aid etmişlər. Allah-taalaya məxluqun əlindən fərqli əl aid etmişlər. Məlumdur ki, onların qeyd etdikləri mənada əl və üz məfhumlarını xəyal və təsəvvür qəbul etmir.

Əgər bunun xəyal və təsəvvürə zidd olduğunu ağıl isbat edirsə, Allah-taalanın aləmin nə daxilində və nə də xaricində olmayan bir varlıqdır demək niyə inkar edilməlidir? Baxmayaraq ki, təsəvvür və xəyal belə varlığı dərk etməkdə gücsüzdür".[241]

İmam Əlinin (ə) "Heç bir şeyin daxilində deyil və heç bir şeydən kənar deyil" sözü

Biz güman edirik ki, əşərilər, həmçinin mötəzilə bu sözü müvəhidlərin rəhbəri, möminlərin əmiri Əli bin Əbu Talibdən (ə) iqtibas etmişlər. Lakin sözlərində bəzi dəyişikliklər etmişlər və nəticədə bu iki məsələ arasında ziddiyyət olduğu görsənir. Ən doğru olan İmam Əlinin (ə) buyurduğudur: "Heç bir hissə, bədən üzvləri, ərəzlə (müstəqil varlığı olmayan xassə) vəsf olunmaz. Onun tərkibi və qisimləri yoxdur. Onun barəsində varlığının həddi, sonu var deyilməz. Heç bir şey Onu əhatə etmir ki, Onu məhdud eləsin və ya ağuşuna alsın. Heç bir şey Onu üstündə daşımır ki, Onu sağa sola meyl etdirsin. O, heç bir əşyaya daxil və heç bir şeydən xaric deyil".

Burada İmam (ə) bildirmək istəyir ki, Allah-taalanını yaratdıqlarını əhatə etməsi onları tamamilə öz hakimiyyətilə əhatə etməsidir. Necə ki, Quranda belə buyurulur: ***"...Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!"***[242] O, məxluqlar kimi bir şeyin içinə daxil və xaric olmur. Çünki bu, məhdudluq, naqislik və sonu olmaq anlamını əks etdirir. Heç bir şey Onu əhatə etmir, heç bir şey onu daşımır. Hiss üzvləri Onu dərk edə bilməz. O heç vaxt dəyişməz. Heç bir cəhətdə deyil. Hansısa

[241] Əsasut-təqdis, c. 1, s. 19

[242] Hədid, 4

bir məkanda deyil ki, məkan yüksəldikdə O da yüksələ, aşağı endikdə aşağı enə. Bu sözlər son dərəcədə Allah-taalanı münəzzəh və pak olduğunu bəyan edir.

İbn Teymiyyənin təcsim barədə iddiasının xülasəsi

İbn Teymiyyənin yuxarıda qeyd etdiyimiz sözlərindən onun təcim əqidəsində əsaslandığı ən əsas nöqtələri qeyd edirik:

1. Yuxarı, aşağı, enmək, oturmaq, görmək, məkan kimi mənalar nəql yolu ilə şəriətdə və həmçinin ağıl baxımından sabitdir. Necə ki, İbn Teymiyyə belə deyir: "Şəriət və ağılın mənasını inkar etmədiyi sözlərin inkar olunması cəhalət və zəlalətdir"[243]

2. Onun iddiasına əsasən Rəsulullah (s), imamlar, səhabələr, hətta əhli-beyt rəvayətlərdə qeyd olunan təcsim mənasını nə inkar, nə də isbat etmişlər. Başqa cür desək, inkar olunmasına dəlil olmadığına görə bu məsələnin olması mümkündür. Hətta bu, baş vermişdir. Necə ki, İbn Teymiyyə belə deyir: "Bu sözlə inkar etmək istədiyin nəql olunan səhih rəvayətlər və aşkar əqli dəlillərlə sabit mənadır. Sən bunun inkarı üçün heç bir dəlil təqdim etmədin"[244]

Bu iddialara cavab vermədən əvvəl nəzər diqqəti bu məsələ barədə danışarkən İbn Teymiyyənin daim yozuma əl atdığı nöqtəyə çəkmək istəyirik. Bəzən o, sözlərlə oynayaraq Peyğəmbərdən, imamlardan və ya səhabələrdən bu məsələnin inkar və ya təsdiq olunması barədə bir şey nəql olunmadığını deyir, digər tərəfdən isə keyfiyyətin olmaması və sifətləri tamamilə tanımamaq kimi bəhanələr gətirir. Lakin onun sözlərini diqqətlə nəzərdən keçirdikdə var gücü ilə təcsim əqidəsini müdafiə etdiyini görürük. Əvvəlcə Quranla başlayaraq Quranın bunu inkar

[243] Təlbisil-cəhəmiyyə, c. 1, s. 101

[244] Minhacus-sunnə, c. 2, s. 134, 135

etməməsini iddia edir. Bu, qeyd olunan əqidənin isbatı deməkdir. Sonra isə "isbat da etmir", deməklə yayınır. Yəni ləfz qeyd olunmadığı üçün bu sözü demirik. Lakin mənası sabitdir. Doğru olan da budur. Deməli, Allah həqiqi mənada cismdir. Onun inkar və isbat olunmamışdır deməkdə məqsədi məhz budur. Bir sözlə o, Allah-taalaya cisimlilik nisbət verir. Amma "Keyfiyyət təsəvvür etmirik və bu barədə soruşmuruq. Oturmaq məlumdur. Keyfiyyət məchuldur" sözlərinə gəlincə, bu iddialara cavab verdikdən sonra bu barədə müfəssəl surətdə danışacağıq.

Bu iddianın təhlili və cavabı

Aşağıda qeyd edəcəklərimizə əsasən İbn Teymiyyənin bu sifətləri sübuta yetirmək üçün istinad etdiyi dəlillər batildir və heç vəchlə düzgün deyil.

Birinci: Şəriət Allah-taalaya cisimlilik nisbət verməyi qadağan edir.

Onun iddia etdiyinə əsasən şəriətin bu sifəti inkar etməməsinə gəlincə, bu sifəti inkar edən çoxlu sayda Quran ayələri var. Allah-taala buyurur: "Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cisimlikdən uzaqdır), (hər şeydən) xəbərdardır!"[245]

Təbəri bu ayənin təfsirində belə deyir: "Mənası budur ki, gözlər Onu əhatə edə bilməz. O isə gözləri əhatə edir".[246]

Sonra o, səhabələrdən İbn Abbas "Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər" ayəsinə əsasən bu sifəti inkar etməsini nəql etmişdir: "Heç kimin gözləri Allahı əhatə edə bilməz". Həmçinin Qətadə "Gözlər Onu

[245] Ənam, 103

[246] Camiul-bəyan, c. 7, s. 390

(görüb) dərk etməz. O, gözləri dərk edər” ayəsi barədə belə demişdir: “O, gözlərin onu dərk etməsindən daha əzəmətlidir”.

Ətiyyə Ofidən[247] “O gün neçə-neçə üzlər sevinib güləcək, Öz Rəbbinə baxacaqdır!”[248] ayəsi barədə belə dediyi nəql olunur: “Onlar Allaha baxacaqlar. Allahın əzəmətindən gözləri onu əhatə edə biməyəcək. Onun görməsi isə onları əhatə edəcək. Bu, Allahın “Gözlər onu dərk etməz...” ayəsində buyurulur. (Təbərinin sözləri burada tamam olur).[249]

Alusi Bağdadi “...Ona bənzər heç bir şey yoxdur. O, (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!”[250] ayəsinin təfsirində belə deyir: “bənzərlik mütləq mənada müştərəklik deyil, növ və mahiyyətdə müştərəklikdir. Sən azacıq diqqət etməklə dərk edirsən ki, diri, bilən, iradə edən, qüdrətli, danışan, eşidən və görən Allah-taala ilə həyat, elm, iradə, qüdrət, eşitmək və görməklə vəsf olunan bəndə arasında bu ifadələrdən savayı müştərəklik təsəvvür olunmaz.[251] Deməli, şəriət Allah-taala üçün təcsim sifətini inkar edir.

İkinci: Ağıl Allah-taala ilə başqası arasında oxşar olan hər hansı bir sifəti qəti surətdə rədd edir

---

[247] Ətiyyə bin Səid bin Cunadə Ofi əl-Cədəli, əl-Qeysi əl-Kufi Əbulhəsən. Üçüncü təbəqə ravilərdəndir. Orta tabeinlərdəndir. Buxari, Əbu Davud, Tirmizi və İbn Macə ondan nəql etmişlər. İbn Səid deyir: “İnşallah etibarlıdır. Onun doğru hədisləri var”. İbn Muin Mizzidən nəql edərək belə deyir: “O, salehdir”. Heysəmi deyir: “Etibarlı hesab olunur”. ət-Təbəqatul-kubra, c. 6, s. 304; Təhzibul-kamal, c. 20, s. 147; Məcməuz-zəvaid, c. 3, s. 180 və c. 5, s. 74

[248] Qiyamət, 22-23

[249] Camiul-bəyan, c. 7, s. 390

[250] Ruhul-məani, c. 9, s. 131

[251] Ruhul-məani, c. 9, s. 131

İbn Teymiyyə yuxarıda qeyd etdiyimiz kimi "Şəriət və ağılın mənasını inkar etmədiyi sözlərin inkar olunması cəhalət və zəlalətdir" deyərək ağılın cisimliliyi inkar etmədiyini deyir. Buna cavab olaraq deyirik: Əksinə ağıl bunu qəti surətdə inkar edir. Əgər Allah-taala cism olsa, cisimlilikdə başqa cisimlərə bənzərdir. Əgər başqa cəhətdən cisimlərdən fərqli olmasa sonradan yaranması və ya qədim olması vacibdir. Əgər fərqli olarsa, müştərək və fərqli cəhətlərin birləşməsindən tərkib tapdığı üçün mürəkkəb olar. Belə olması da qeyri-mümkündür. Deməli, cisim olması qeyri-mümkündür.[252] Həmçinin ağıl soruşur: Əgər Allah-taala cisim olarsa, Onun müəyyən bir məkanda olması vacibdir. Bundan sonra Onun bu məkandan çıxması ya mümkün, ya da qeyri-mümkündür. Əgər mümkün olarsa, Onun hərəkət etməsi mümkündür. Əgər mümkün olmazsa, deməli, O həmin məkana bağlı acizdir. Bu iki halın hər biri Allah-taala üçün qeyri-mümkündür. Deməli, Allah cisim deyil.[253]

Üçüncü: Əhli-beyt Allah-taalanın cisim olmasını inkar edir

İbn Teymiyyənin "... nə əhli-beyt, nə də başqaları..." bunu inkar etməmişdir deməsinə gəlincə, Əmirəlmöminin (ə) və İmam Sadiqin (ə) yuxarıda qeyd etdiyimiz sözlərinə əsasən bu iddia batildir. Bununla yanaşı Muhəmməd Əbduhunun Nəhcül-bəlağədə İmam Əlidən (ə) nəql etdiyi xütbələrdən bəzi məqamları qeyd edirik: "Şəhadət verirəm ki, Səni yaratdığın müxtəlif üzvləri, bir-birinə birləşmiş, Sənin hikmətinin nizamı ilə (dərinin və ətin altında) gizlənən kiçik oynaqları olan məxluqata bənzədən vicdanın dərinliyində Səni tanımamış, qəlbi Sənin bənzərin və oxşarının olmadığına əminlik tapmamışdır. Sanki onlar tabe olanların (bütpərəstlərin) tabe olunanlara (bütlərə) nifrət edərək belə deyəcəklərini

[252] əl-Xulasə fi ilmil-kəlam, "Turasuna jurnalı", 34-cü sayı, s. 177, 178

[253] Həmin mənbə

eşitməmişlər. “Allaha and olsun ki, sizi aləmlərin rəbbinə bərabər tutduğumuz zaman biz haqq yoldan açıq-aydın azmışdıq”[254] Səni bütlərinə bənzədənlər, təsəvvürləri ilə Sənə məxluqların xüsusiyyətlərini nisbət verənlər, fikirlərində Səni hissələri olan cisimlər kimi güman edənlər, naqis ağılları ilə Sənə müxtəlif məxluqlar kimi düşünənlər yalan söyləyirlər. Şəhadət verirəm ki, Səni yaratdığın bir şeylə bərabər bilən Səndən üz döndərmişdir. Səndən üz döndərən (Sənə bənzər və oxşar nisbət verənlər) nazil etdiyin açıq-aşkar ayələrə, dəlil və sübutlarının hökmünə qarşı küfr etmişlər. Sən ağılların sonuna vara bilmədiyi üçün düşüncələrin axınında təsəvvür edilə bilinməyən, ağıllara gəlmədiyi üçün məhdud olmayan Allahsan”.[255]

Tövhid əhlinin ağası, təqvalıların imamının mübarək lisanından cari olan bu əzəmətli və dəqiq sözlər İlahi Zata əlavə ediləcək bütün sifətləri rədd edir. Kim Allahı cisimliklə vəsf edərsə, Onu doğru tanımamışdır. Ağılları qarışmış, təsəvvürləri ilə Allahı inkar etmiş və Onu yaratdıqlarına bərabər tutmuşlar. Halbuki Allah-taala vəsf edənlərin vəsfindən uca və yüksəkdir.

Bu xütbənin sənədini araşdırmağa ehtiyacımız yoxdur. Çünki bu xütbənin təcsim və təşbihi aşkarcasına rədd edən Qurani-kərim ayələri ilə üst-üstə düşdüyü üçün bizim nəzərimizdə tamamilə doğrudur. Həmçinin Allah-taalanı mütləq mənada münəzzəh (naqisliklərdən uzaq) bilən Quranla yanaşı ağıl və məntiqin tələblərinə uyğundur.

“Oturmaq məlumdur, keyfiyyət məchuldur” rəvayətinin tədqiqi

Əvvəlki səhifələrdə söz vermişdik ki, bu tezisi təhlil edəcəyik. İndi bu barədə danışmağın vaxtıdır. Sonra isə bu rəvayətin sənəd və dəlalətini

[254] Şuəra, 97-98

[255] Nəhcül-bəlağə, c. 1, s. 164

müzakirə edəcəyik. İbn Teymiyyə öz iddialarından təcsim şübhəsini uzaqlaşdırmaq üçün çox vaxt bu sifətləri yozaraq daim kitablarında yuxarıdakı tezisi təkrarlayır və bu sözləri İmam Malikə nisbət verir. Həmin tezisin tam mətni belədir: "İstiva (oturmaq) məlum, keyfiyyət isə məchuldur. Buna iman gətirmək vacib, bu barədə soruşmaq isə bidətdir".[256]

Rəvayətin nəql olunma yollarının təhlili

Hədis kitablarında qeyd olunan bu mətnə bu sözlərlə rast gəlmədik. Əgər hədis yazanların kitablarını tamamilə gözdən keçirsək İbn Teymiyyənin və başqalarının qeyd etdiyi bu mətnlə rastlaşmırıq. Həmçinin rəvayəti nəql edənlərin zaman baxımdan aralarındakı məsafəni və ravi təbəqələrini də gözdən keçirmək olduqca önəmlidir. Ravilərin təbəqələri belədir:

1. Osman bin səid Darami (vəfat tarixi 280 h.) Cəhəmiyyə təriqətinə rədd cavabı verərkən belə deyir: "Məhdi bin Cəfər Rəmli hədis alimlərindən olan Cəfər bin Abdullahdan, o da bir adamdan – adını mənə demişdi – belə nəql edir: "Bir adam Malik bin Ənəsin yanına gəlib dedi: "Ey Əbu Abdullah, **"Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur"** ayəsində necə qərar tutmuşdur?" (Ravi) deyir: "Malikin onun sözlərindən elə vəcdə gəldiyini gördük ki, heç vaxt belə vəcdə gəldiyini görməmişdik. Onu tər basdı. Başını aşağı salladı. Biz onun bu barədə nə əmr edəcəyini gözləyirdik". (Ravi) deyir: "Sonra Malik özünə gəldi və belə dedi: "Keyfiyyət ağılasığmazdır, Onun (taxtda) qərar tutması isə məchul deyil.

[256] əs-Səfdiyyə, c. 1, s. 289. Bax; İbn Teymiyyənin təfsir barədə kitab və yazıları, c. 16, s. 473; Məcmu əl-fətəva, c. 3, s. 25; c. 5, s. 348; Dirut-təaruz, c. 1, s. 162; ər-Risalə ət-Tədmuriyyə, c. 1, s. 29

Buna iman gətirmək vacibdir. Bu barədə soruşmaq isə bidətdir. Mən sənin zəlalətə düşəcəyindən qorxuram". Sonra isə onun (məclisdən) çıxarılmasını əmr etdi".[257]

2. Abdullah bin Cəfər bin Həyyan (vəfat tarixi 369 h.) İsfəhan mühəddislərinin təbəqələri kitabında belə deyir: "Əbdürrəhman bin Feyz, Harun bin Süleymanın belə dediyini nəql edir: "Muhəmməd bin Nüman bin Əbdüssəlamın belə dediyini eşitdim: "Bir kişi Malik bin Ənəsin yanına gəlib dedi: "Ey Əbu Abdullah, **"Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur"** ayəsində necə qərar tutmuşdur?" (Ravi) deyir: "Malik başını aşağı saldı və onu tər basmağa başladı. Biz onun bu barədə nə əmr edəcəyini gözləyirdik. Başını qaldırdı və belə dedi: "(Taxtda) qərar tutması məchul deyil. Keyfiyyət ağılasığmazdır. Buna iman gətirmək vacibdir. Bu barədə soruşmaq isə bidətdir. Görürəm ki, sən zəlalətdəsən. Onu burdan çıxardın".[258]

3. Hibətullah Lalakai (vəfat tarixi 418 h.) "Etiqadu əhli-sunnə" kitabında belə deyir: "Əli bin Rəbi Təmimi Muqri Abdullah bin Əbu Davuddan, o da Səlmə bin Şəbibdən, o da Məhdi bin Cəfərdən, o da Cəfər bin Abdullahdan belə nəql edir: "Bir kişi Malik bin Ənəsin yanına gəlib dedi: "Ey Əbu Abdullah, **"Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur"**ayəsində necə qərar tutur. (Ravi) deyir: "Malikin onun sözlərindən elə vəcdə gəldiyini gördük ki, heç vaxt belə vəcdə gəldiyini görməmişdik. Onu tər basdı. Başını aşağı salladı. Camaat onun bu barədə nə deyəcəyini gözləyirdi".

[257] ər-Rəddu aləl-cəhəmiyyə, c. 1, s. 66

[258] Təbəqatul-muhəddisin bi İsfəhan, c. 2, s. 214

(Ravi) deyir: “Sonra Malikin qəm-qüssəsi aradan getdi və belə dedi: “Keyfiyyət ağıla sığmaz, onun (taxtda) qərar tutması məchul deyil. Buna iman gətirmək vacibdir. Bu barədə soruşmaq isə bidətdir. Mən sənin zəlalətə düşəcəyindən qorxuram”. Sonra onun (məclisdən) çıxarılmasını əmr etdi”.[259]

4. Əbu Nəim İsfahani (vəfat tarixi 430 h.) Hilyətul-övliya kitabında belə deyir: “Muhəmməd bin Müslim Əqili Qazi Əbu Uməyyə Ğabidən, o da Səlmə bin Şəbibdən, o da Məhdi bin Cəfərdən, o da Cəfər bin Abdullahdan belə nəql edir: “Malik bin Ənəsin yanında idik. Bir kişi onun yanına gəlib dedi: **“Ey Əbu Abdullah, Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur”**ayəsində necə qərar tutmuşdur?” (Ravi) deyir: “Malikin onun sualından elə vəcdə gəldiyini gördük ki, heç vaxt belə vəcdə gəldiyini görməmişdik. Başını aşağı saldı. Yerə baxıb əlindəki çubuqla torpağın üstündə xətlər çəkməyə başladı. Hətta onu tər basdı. Sonra başını qaldırıb əlindəki çubuğu bir kənara atdı və belə dedi: “Keyfiyyət ağılasığmazdır, onun (taxtda) qərar tutması isə məchul deyil. Buna iman gətirmək vacibdir. Bu barədə soruşmaq isə bidətdir. Sənin bidət əhli olduğunu güman edirəm”. Sonra onun (məclisdən) çıxarılmasını əmr etdi”.[260]

5. Beyhəqi (vəfat tarixi 458 h.) “əl-Əsma vəs-sifat” kitabında bu hədisi iki yolla nəql etmişdir:

a) Yəhya bin Yəhyadan

İsfəhanlı fəqih Əbu Bəkr Əhməd bin Muhəmməd bin Harisdən, o da Əbu Şeyx adlanan Əbu Muhəmməd Abdullah bin Muhəmməd bin Cəfər bin

[259] Etiqadu əhli-sunnə, c. 3, s. 398

[260] Hilyətul-övliya, c. 6, s. 326

Həyyandan, o da Əbu Cəfər Əhməd bin Zeyrək Yəzdidən belə nəql edir: "Muhəmməd bin Əmr bin Nədr Nişapurinin belə dediyini eşitdim: "Eşitdim ki, Yəhya bin Yəhya belə nəql edir: "Malik bin Ənəsin yanında idik. Bir kişi gəlib dedi: "Ey Əbu Abdullah,**"Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur"** ayəsində necə qərar tutmuşdur?" (Ravi) deyir: "Malik başını aşağı saldı. Hətta onu tər basdı. Sonra belə dedi: "(Taxtda) qərar tutmaq məchul deyil. Keyfiyyət ağılasığmazdır. Buna iman gətirmək vacibdir. Bu barədə soruşmaq isə bidətdir. Görürəm ki, sən bidət əhlindənsən". Sonra onun (məclisdən) çıxarılmasını əmr etdi".[261]

b) Abdullah bin Vəhəbdən

Əbu Abdullah Hafiz Əhməd bin Muhəmməd bin İsmail bin Məhrandan, o da atasından, o da Əbu Rəbi bin Rəşid bin Sədin belə dediyini nəql edir: "Abdullah bin Vəhəbin belə dediyini nəql edir: "Malik bin Ənəsin yanında idik. Bir kişi onun yanına gəlib dedi: "Ey Əbu Abdullah,**"Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur"** ayəsində necə qərar tutmuşdur?" (Ravi) deyir: "Malik başını aşağı saldı və onu tər basdı. Sonra başını qaldırıb dedi: **"Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur".** O, özünü vəsf etdiyi kimidir. Onun barəsində "necə?" deyilməz. Keyfiyyət ondan götürülmüşdür. Sən pis adamsan və bidət əhlisən. Çıxardın onu burdan!" Həmin adamı (məclisdən) çıxartdılar".[262]

[261] əl-Əsma vəs-sifat, c. 2, s. 410

[262] Həmin mənbə, c. 2, s. 409

6. İbn Əbdülbirr (vəfat tarixi 463 h.) ət-Təmhid kitabında iki yolla nəql etmişdir:

a) Yəhya bin Yəhyadan. Bu rəvayətin sənədini Beyhəqinin rəvayətində qeyd etmişdik.

b) Əyyub bin Səlah Məxzumi

Əyyub bin Səlah Məxzumi Rəmlədə bizə belə nəql etdi: "Malikin yanında idik. Bir nəfər iraqlı onun yanına gəlib belə dedi: "Ey Əbu Abdullah, səndən bir məsələ barədə soruşmaq istəyirəm". Malik başını aşağı saldı. (Həmin) adam ona dedi: "Ey Əbu Abdullah,**"Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur"** ayəsində necə qərar tutmuşdur?" (Malik) dedi: "Məchul olmayan bir şey barəsində soruşdun və ağılasığmaz bir şey barədə danışdın".[263]

7. Abdullah bin Qudamə Müqəddəsi (vəfat tarixi 620 h.) "İsbatu sifətul-uluvv" kitabında belə deyir: "Cəfər bin Abdullah belə nəql edir: "Bir kişi Malik bin Ənəsin yanına gəlib dedi: "Ey Əbu Abdullah, **"Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur" ayəsində necə qərar tutmuşdur?"** (Ravi) deyir: "Malikin onun sözlərindən elə vəcdə gəldiyini gördük ki, heç vaxt belə vəcdə gəldiyini görməmişdik. Onu tər basdı. Camaat başını aşağı sallayıb onun bu barədə nə deyəcəyini gözləyirdi". (Ravi) deyir: "Sonra Malikin qəm-qüssəsi aradan getdi və belə dedi: "Keyfiyyət ağılasığmazdır, onun (taxtda) qərar tutması məchul deyil. Buna iman gətirmək vacibdir. Bu barədə soruşmaq isə bidətdir. Mən sənin zəlalətə düşəcəyindən qorxuram". Sonra onun (məclisdən) çıxarılmasını əmr etdi"[264]

[263] ət-Təmhid, c. 7, s. 151

[264] İsbatu sifətul-uluvv, c. 1, s. 119

8. Zəhəbi (vəfat tarixi 748 h.) "əl-Uluvvu liləliyyil-ğəffar" kitabı

Zəhəbi Beyhəqinin yuxarıda qeyd etdiyi rəvayəti səhih hesab edərək belə deyir: "Beyhəqi Əbu Rəbi Rəşdininin İbn Vəhəbdən nəql etdiyi hədisi səhih sənədlə qeyd etmişdir..."[265]

9. Albani "Muxtəsərul-uluvv kitabında" Zəhəbinin dediyini təkrar etmiş və hədis barəsində "Sənədi güclüdür" demişdir.[266]

Bu rəvayət barədə bəzi mülahizələr

Bu rəvayət barədə bəzi mülahizələrimiz var. Aşağıda müxtəsər olaraq bəzilərini qeyd edirik:

1. Bu rəvayətin nəqlolunma yollarının əksəriyyəti zəifdir. Xüsusilə də hicri üçüncü əsrdə (280 h.) vəfat etmiş Daraminin nəql etdiyi rəvayət bu rəvayətin nəqlolunma yollarında daha çox istinad edilir. Rəvayət isə mürsəldir (ravi silsiləsində bəzi ravilərin qeyd olunmamışdır). Çünki "adını mənə dediyi bir adamdan" deyərək nəql edir. Lakin bu adamın kim olduğunu bilmirik. Bundan əlavə rəvayətin sənədində Məhdi bin Cəfər Rəmli də var. Dörd hədis kitabından əlavə Buxari və Müslim ondan hədis nəql etməmişlər. Bəlkə də bunun səbəbi onun xəyali şeylər nəql etməsidir.[267] O, etibarlı ravilərdən elə şeylər nəql edir ki, heç kim onun nəql etdiklərini deməmişdir.[268] Güman edirik ki, onun hədisinin etibarsız olmasının səbəbi Buxarinin onun barəsində "Onun hədisi qəbul edilmir"

[265] əl-Uluvvu liləliyyil-ğəffar, c. 1, s. 138

[266] Muxtəsərul-uluvv, c. 1, s. 75

[267] Bax; Təhzibul-kamal, c. 28, s. 590

[268] Təqribut-təhzib, c. 28, s. 118

deməsidir.[269] Məhz buna görə də Əbdürrəzzaq Bədr belə deyir: “Bu əhvalatı tərəddüdlə nəql etmişdir. Gah şeyxi Cəfər bin Abdullahdan, o da Malikdən, gah da şeyxi Cəfərdən, o da bir kişidən, o da Malikdən nəql etmiş, üçüncü dəfə isə birbaşa Malikdən nəql etmişdir”.[270]

2. Rəvayət məqtudur və dəlil üçün yetərli deyil.

Əgər güzəştə gedib rəvayətin səhih olduğunu desək də, rəvayət məqtudur və Rəsulullahdan (s) nəql olunmamışdır. Əksinə rəvayəti nəql edən Malik bin Ənəsdir. O isə, tabeindəndir.

Məlumdur ki, məqtu hədis tabeinlərin sözləri və fellərinə əsaslanır və Rəsulullaha (s) nisbət verilmir. Məqtu hədis nəinki əqidədə, hətta şəriət hökmlərindən heç bir məsələ üçün dəlil hesab olunmur. Çünki bu, müsəlmanların hər hansı birinin söz və ya felindən başqa bir şey deyil. Səhv və ya doğru ola bilər. Bəli, əgər həmin rəvayətin Rəsulullaha (s) yetişməsinə hər hansı bir işarə və ya əlamət olarsa səhih hesab olunar. Burada isə heç bir əlamət yoxdur. ət-Təqriratus-səniyyə kitabının müəllifi belə deyir: “Tabeinə və ya ondan sonra gələn birinə nisbət verilən mətn, istər söz olsun, istərsə də fel, (Peyğəmbərə nisbət verilməsinə) heç bir əlamət olmazsa, məqtudur və dəlil deyil”.[271]

Buna əsasən də Zəhəbinin və Albaninin bu rəvayəti təshih etməsi qəbul edilmir. Onların sözlərinin heç bir dəyəri yoxdur. Çünki qeyd etdiyimiz kimi rəvayət məqtudur, Dəlil olmasını fərz etsək də Peyğəmbərdən (s) və ya səhabədən nəql edilməmişdir. Bu barədə Xətib Bağdadinin dediyi sözləri nəql edəcəyik. Doğrudur ki, Ümmü Sələmədən (Peyğəmbərə) istinad edən rəvayət nəql edilmişdir. Lakin həmin rəvayəti İbn Teymiyyə

[269] Mizanul-itidal, c. 4, s. 195

[270] əl-Əsərul-məşhur ən Malik, s. 40

[271] ət-Təqriratus-səniyyə fi şərhil-mənzumətil-bəyquniyyə, c. 1, s. 21

ilə yanaşı hədis alimləri zəif hesab etmişlər. Növbəti səhifədə həmin rəvayəti müzakirə edəcəyik.

3. Bu sifətin Allah-taalaya nisbət verilməsi hər hansı bir səhabə və ya tabeinin sözü ilə təsdiq olunmamışdır.

Xətib Bağdadi "əl-Fiqh vəl-mütəfəqqih" kitabında çox dəyərli bir qayda qeyd etmişdir. Həmin qayda budur: "Ravilərinin etibarlı olması qəbul olunmuş səhih peyğəmbər hədisləri olmadıqda səhabənin və ya tabeindən olan şəxsin sözünə əsasən heç bir sifət Allaha nisbət verilməz. Zəif və ravilərinin etibarlı olması barədə ixtilaf olan hədislə dəlil gətirilməz. Hətta müxtəlif sənədlərlə nəql olunsa və başqa hədis onu dəstəkləsə də həmin hədis dəlil hesab olunmaz".[272]

Xətib Bağdadi Rəsulullahdan (s) nəql olunması qəti surətdə sübut olunmadıqda hər hansı sifətin Allaha nisbət verilməsinin qəbul edilməməsi məsələsində həddindən artıq sərt mövqe nümayiş etdirir. Peyğəmbərdən (s) zəif hədis nəql olunarsa, hətta həmin hədisi dəstəkləyən çoxlu sayda yollarla başqa hədis nəql olunarsa belə, mötəbər hesab olunmur. Belə olduğu halda Malikdən nəql olunan və məqtu olan hədis barədə nə demək olar?!

4. Rəvayətin dəlaləti İbn Teymiyyənin nəql etdiyi kimi "keyfiyyət məchuldur" deyil, "keyfiyyət ağılasığmazdır" deyə nəql edilmişdir. Bu ikisinin arasında isə böyük fərq var.

Qeyd olunan İbn Teymiyyənin "Taxtda qərar tutmaq məlumdur, keyfiyyət isə məchuldur" deyə nəql etdiyi formada deyil. Əksinə rəvayəti nəql edən alimlərin əsaslandığı forma bu cürdür: "Keyfiyyət ağılasığmazdır, Onun taxtda qərar tutması isə məchul deyil" bəzi nəqllərdə

[272] Ğayətul-bəyan fi tənzihillahi ənil-cihəti vəl-məkan, s. 7

isə “keyfiyyət Ondan götürülmüşdür” deyə qeyd olunur. Bunların arasında isə böyük fərq var. Burada İmam Malik ona nisbət verilən bu sözlərin səhihliyini fərz etsək belə demək istəyir ki: “Həqiqətən də biz enmənin keyfiyyətini dərk edə bilmərik”. Onu keyfiyyət dedikdə məqsədi cisimlilikdir. Burada mütləq mənada keyfiyyət rədd edilir.

İbn Teymiyyənin “keyfiyyət məchuldur” sözlərinə əsasən isə, Onun cisim olmasını demək mümkündür. Lakin bizə məchul olduğu üçün dərk etmirik. Amma bunu bilirik. O, bu sifəti Allaha aid edir və qəti şəkildə rədd etmir. Bu iki söz arasında əsas fərq bundan ibarətdir.

Buna əsasən də İmam Nəvəvinin nəql etdiyinə əsasən Qazi İyaz belə deyir: “Ey kaş əhli-sünnə və haqq məzhəbinin zat barədə fikirləşməməyin vacib olması rəyində müttəfiq olmalarını biləydim. Həmçinin onlar belə əmr etmiş və ağılın heyrətə düşməsinə görə sükut etmişlər. Hamısı keyfiyyət və surət nisbət verməyin haram olmasında müttəfiqdirlər. Onların bu məsələdə dayanmaları və ondan çəkinmələri vucud və mövcud barədə şəkkdən irəli gəlmir, tövhid məsələsinə heç bir xələl gətirmir. Əksinə bu tövhidin həqiqətidir”.[273]

Qazi İyaz keyfiyyət nisbət verməyi haram edir. Yəni aləmlərin Rəbbinin sifətlərini cisimləşdirmək və maddiləşdirmək haramdır. Tövhidin həqiqəti keyfiyyət nisbət verməyi rədd etməkdədir. Bu məsələ İbn Teymiyyənin anladığı kimi deyil. Yəni keyfiyyət məchuldur dedikdə mövcud deyil mənasında deyil, lakin məlum deyil mənasındadır.

5. İmam Malikin təvil (yozum) mövqei Allah-taalanın təcsimdən münəzzəh olmasına dəlalət edir

[273] Şərhun-Nəvəvi alə səhih Müslim, c. 5, s. 25

Buna əsasən də İmam Malikin İbn Teymiyyənin əqidəsindən fərqli əqidə də olmasını deyirik. Zəhəbinin nəql etdiyinə əsasən o, zahiri cisim mənasını verən sifətləri belə yozmuşdur:

Həbib bin Əbu Həbib Malikin belə dediyini nəql edir: "Malik mənə belə dedi: "Uca və böyük Rəbbimiz enir, yəni əmri enir. O isə, heç aradan getməyən və daimidir".[274]

Bu sözlərilə İmam Malik enməni həqiqi mənada deyil, məcazi mənada olduğunu bəyan edərək əmrin enməsi kimi yozmuşdur. Çünki o, burada sözün zahiri mənasını götürmür. İmam Malikin "Taxta qərar tutması məchul deyil" sözündən məqsəd Allah-taəalanın enməsində əmrinin enməsi olduğu kimidir. Yəni "taxtda qərar tutması" Onun qüdrətinə işarədir. Məhz buna əsasən də Malikin sual soruşan şəxsi qovmasını və onun bidət sahibi olmasını deməsini başa düşürük. Həmçinin İmam Malikin zahiri təcsimə bənzəyən bəzi rəvayətləri qəti surətdə inkar etdiyini görürük. Zəhəbi İbn Qasimdən belə nəql edir: "Malikdən "Allah Adəmi öz surətində yaratmışdır" hədisini nəql edənlər, həmçinin, "Allah baldırını açacaq", "Əllərini cəhənnəm oduna salıb istədiyini oradan çıxaracaq" hədisləri barədə soruşdum. Malik qəti surətdə inkar etdi. Kiminsə bu hədisləri nəql etməsini qadağan etdi".[275]

Lakin Zəhəbi İmam Malikin bu inkarına onun məqsədinə uyğun olmayacaq tərzdə bəraət qazandırmışdır. Bunu izah edəcəyik.

Zəhəbi Malikin yuxarıda qeyd etdiyimiz kəlamının ardınca belə deyir: "İmam bunu onun nəzərində sabit olmaması və ona yetişməməsi üçün inkar etmişdir. Buna görə də o, üzürlüdür".[276]

[274] Siyəru əlamin-nubəla, c. 8, s. 105

[275] Siyəru əlamin-nubəla, c. 8, s. 104

[276] Siyəru əlamin-nubəla, c. 8, s. 104

Lakin bu, irad yerində deyil. Çünki hədisdə sual soruşan şəxsin nəql etdiyi rəvayətlərin sənədi barədə söhbət getmir. Əksinə söhbət təcsim mənasını ehtiva edən bu mətnlərin məzmunundan gedir. Bu inkar həmin rəvayətlər nəticəsində mütəşabih ayələrə müdaxilə etmək qorxusundan irəli gəlirdi. Çünki insanların çoxu Quran təfsirini, mütəşabih ayələri izah etmək üçün hansı ayələrin möhkəm olmasını bilmirdilər. Həmçinin insanların çoxu məcazi məna və təşbih kimi ərəb dilinin incəliklərindən xəbərdar deyildi. Buna əsasən də bu məsələlərə müdaxilə etməyi onlara qadağan etmişdir. Onun məqsədi belə rəvayətlərin ona yetişməməsi və ya onun nəzərində bu qəbildən olan hədislərin sabit olmaması deyildi.

Ümmü Sələmənin rəvayəti

Lalakainin "Şərhul-etiqad", Sabuninin "Əqidətus-sələf", İbn Qudamənin "İsbatus-sifətul-uluvvu" və Zəhəbinin "əl-Uluvvu liləliyyil-ğəffar" kitabında Ümmü Sələmədən nəql etdikləri rəvayətə gəlincə, həmin rəvayətdə (mətn sonuncuya aiddir) belə deyilir: "Əbdussəməd bin Əli Muhəmməd bin Ömərdən, o da Əbu Kənanə Muhəmməd bin Əşrəsdən, o da Əbu Umeyr Hənəfidən, o da Qurrə bin Xaliddən, o da Həsəndən, o da anasından, o da Ümmü Sələmədən – Allah ondan razı olsun – "Rəhman taxtda qərar tutdu" ayəsi barədə belə nəql edir: "Taxtda qərar tutmaq məchul deyil, keyfiyyət ağılasığmazdır. Buna iman gətirmək vacib, inkar etmək isə küfrdür".[277]

Ola bilsin ki, bu rəvayətin Malikin nəql etdiyi məqtu rəvayətin tamamlayıcısı olması deyilsin. Çünki Ümmü Sələmə səhabədir. Buna əsasən də hədisin sənədi tamdır. Lakin səhabənin sözünün dəlil olmasını əsas tutsaq belə, sənədinin nöqsanlı olmasına görə bu hədisi qəbul etmirik. İbn Teymiyyə deyir: "Ümmü Sələmədən – Allah ondan razı olsun –

[277] Şərhul-etiqad, c. 3, s. 397; Əqidətus-sələf, s. 37; İsbatu sifətul-uluvv, s. 109; əl-Uluvvu liləliyyil-ğəffar, c. 1, s. 81

nəql olunan bu cavab movquf və mərfudur. Lakin bu rəvayətin sənədi etimad olunanlardan deyil".[278]

İbn Teymiyyənin nəzərində bu sənədə etimad etmək olmaz. Çünki Əbu Kənanə etibarlı ravi deyil və Əbu Umeyr məchuldur. Buna əsasən də sənəd etibardan düşür. Zəhəbi də "əl-Uluvvu lilәliyyil-ğəffar" kitabında bunu təsdiqləyir. Zəhəbi belə deyir: "Bu söz Rəbiətur-rəy, İmam Malik və Əbu Cəfər Tirmizi kimi şəxslər tərəfindən deyilməsi doğrudur. Amma Ümmü Sələmənin belə deməsini nəql etmək doğru deyil. Çünki Əbu Kənanə etibarlı deyil və Əbu Umeyri tanımıram".[279]

Tirmizinin rəvayəti

Bu rəvayəti Xətib Əbu Həfs bin Şahinin atası Əbu Teyb bin Osman Simsardan nəql etmişdir: "Əbu Cəfər Tirmizinin yanında idim. Bir nəfər ondan Peyğəmbərin (s) "Allah-taala dünyanın səmasına enir" hədisi barədə soruşdu. "Enmə necə olur? Ondan yuxarıda yüksəklik qalırmı?" Əbu Cəfər Tirmizi: "Enmə ağılasığandır, keyfiyyət isə məchuldur. Buna iman vacibdir. Bu barədə soruşmaq isə bidətdir" deyə cavab verdi".[280]

Biz isə belə deyirik: Bu rəvayət yalnız Tirmizidən nəql edilmişdir. Sənədi natamam olduğu üçün bu rəvayətə əsasən dəlil gətirmək mümkün deyil. Həmçinin Zəhəbinin Rəbiətur-rəy, Malik İbn Sufyan bin Uyeynə kimi başqalarından nəql edərək bəyan etdiyi kimi onların sözləri məhfuz deyil. Əksinə bu rəvayətlər sənəd baxımından natamamdır. Onlara əsaslanaraq dəlil gətirmək düzgün deyil. Çünki belə rəvayətlər fitrətə, Qurana və ağıla ziddir. Qeyd etdiyimiz kimi bəzilərinin sənədləri zəifdir. Bu rəvayətlərin dəlaləti Malikin nəql etdiyinə uyğun deyil.

---

[278] Məcmu əl-fətava, c. 3, s. 365

[279] əl-Uluvvu lilәliyyil-ğəffar, c. 1, s. 81

[280] Tarixu-Bağdad, c. 1, s. 382

İbn Teymiyyənin zamanından öncə əhli-sünnə alimləri təcsim əqidəsini inkar etmişlər

İbn Teymiyyənin təcsim əqidəsinə inanması qəti surətdə sübuta yetdikdən sonra ondan əvvəl yaşamış əhli-sünnənin görkəmli alimlərinin rəylərini qeyd edirik. Bununla da aydın olsun ki, əhli-sünnənin böyük alimləri sələfi fikrindəki təcsim əqidəsinə müxalifdirlər. Həmin alimlərdən aşağıdakıları qeyd edirik:

1. İmam Əhməd bin Hənbəl (vəfat tarixi 241 h.)

İmam Əhməd təcsim əqidəsinə etiqad bəsləyənlərə qarşı çıxmışdır. O, belə deyir: "Adlar (Allahın adları) şəriət və dildən götürülür. Bu adı (cisim adı) uzunluğu, eni, qalınlığı, tərkibi, surəti və birləşmələri olan bir varlığa aid etmişlər. Allah-taala bütün bunlardan kənardır. Onun cisim adlandırılması doğru deyil. Çünki O, cisimlilik mənasından xaricdir. Şəriətdə də belə deyilməmişdir. Buna əsasən də batildir".[281]

Ustad Səqqaf bu sözlərin ardınca belə deyir: "İmam Əhmədin bu sözləri İbn Teymiyyənin sözünü tamamilə heç edir".[282]

Bununla da məlum olur ki, İbn Teymiyyə İmam Əhmədə müxalif olmuşdur. Halbuki bu məzhəb (hənbəli məzhəbi) ona mənsubdur. Məhz buna görə də İbn Teymiyyənin xüsusilə də, Əhməd bin Hənbəldən nəql etdiklərini diqqətlə araşdırmaq lazımdır.

2. Qazi Əbu Bəkr Baqillani (vəfat tarixi 458 h.)[283]

[281] ət-Təndid bi mən əddədə ət-tovhid, s. 20, 21

[282] əl-Əqidə c. 1, s. 111

[283] Muhəmməd bin Teyb bin Cəfər bin Qasim Qazi Əbu Bəkr Baqillani. Kəlam elmində kitablar yazmışdır. Bağdada yaşayıb. O, öz ixtisasında zəmanəsinin lideri idi. Etibarlıdır, kəlam elminə vaqif idi. Qazi İyaz "Təbaqatul-fuqəhail-malikiyyə" kitabında

Əbu Bəkr Baqillani belə deyir: “Əgər: “Nə üçün Allah-taalanın başqa şeylərə bənzəməyən şey (varlıq) olduğunu dediyiniz kimi başqa cisimlərə bənzəməyən cisim olduğunu qəbul etmirsiniz?” desələr, onlara belə cavab verilər: “Çünki (Allahın) şey olmasını deməyimiz hər hansı bir cinsdən fərqli bir cinsi və mürəkkəbliyi bəyan etmir. Bir şeyin varlığının məxluqların cinsindən və mürəkkəb olmaması mümkündür. Bu, Onun şey adlandırılması ilə ziddiyyət yaratmır. Amma cisim lüğəti mənada mürəkkəb olmayandan fərqli olaraq mürəkkəb varlığa deyilir. Həmçinin insan və muhdəs (sonradan yaranan) sözləri yoxluqdan var olanın adıdır. Çünki bu forma başqasına deyil, ona aiddir. Necə ki, O, başqa şeylərdən fərqli bir şedir sözünə uyğun olaraq qədim olan Allah-taalanın başqa muhdəslərdən fərqli muhdəs olmasını və ya başqa insanlardan fərqli insan olmasını deməyimiz düzgün olmadığı kimi, Onun başqa cisimlərdən fərqli bir cism olmasını deməyimiz də düzgün deyil. Çünki bu, sözün mənasına ziddir və onun ifadə etdiyi lüğəti mənadan çıxmaqdır”.[284]

3. Hədis hafizi Beyhəqi (vəfat tarixi 458 h.)[285]

---

onun barəsində qeyd etmiş və belə demişdir: “O, sünnənin qılıncı, ümmətin dili və hədis əhlinin dili ilə danışan ləqəbini almışdır. Bax; Tarixul-İslam c. 28, s. 88

[284] Təmhidil-əvail və təlxisid-dəlail, s. 222, 223

[285] İmam, hədis hafizi, əllamə, Xorasanın şeyxi Əbu Bəkr Əhməd bin Hüseyn bin Əli bin Musa əl-Xosrovgərdi əl-Beyhəqi. Kitablar müəllifi... ondan öncə heç kimin yazmadığı kitablar yazmışdır. Həmin kitablardan əl-Əsma vəs-sifat, əs-Sünənul-kəbir, əs-Sünən vəl-asar, Şuəbul-iman, Dəlailun-nubuvvə və başqalarını qeyd etmək olar. Əbulhəsən Əbdülğafir Tarixu-Nişapur kitabında onun barəsində belə deyir: “Əbu bəkr Beyhəqi fəqih, hədis hafizi və üsul alimidir. Din və təqva sahibi idi. Hədis hifzində zəmanəsinin birincisi, kitab yazmaqda tay-tuşlarının içərisində yeganə idi”. bax; Təzkirətul-huffaz, c. 3, s. 1133

Beyhəqi hədis alimlərinin öndərlərindən hesab olunur. O, "əl-Əsma vəs-sifat" kitabında təcsim əqidəsinə qarşı çıxmışdır. Ərş və kürsi barəsində nəql olunanlar babında belə demişdir: "Bəndə harda olsa da Allah-taalaya yaxınlıq və uzaqlıq baxımından eynidir. O, zahirdir. Buna görə də Onu dəlillərlə dərk etmək olar. O, batindir. Onun hər hansı məkanda olması düzgün deyil. Bəzi alimlərimiz Peyğəmbərdən nəql olunan bu hədisə əsasən Onun hər hansı məkanda olmasını inkar etmişlər: "Sən zahirsən. Səndən yüksəkdə heç nə yoxdur. Sən batinsən. Səndən sonra heç nə yoxdur". Ondan yuxarıda və Ondan aşağıda heç nə yoxdursa, deməli, O, hər hansı bir məkanda deyil".[286]

4. Əllamə Seyfuddin Amidi (vəfat tarixi 631 h.)[287]

O, "Ğayətul-məram fi elmil-kəlam" kitabında belə deyir: "Əgər deyilsə ki; "Müşahidə etdiyimiz mövcudlar ya cisim, ya da ərəzdir. Üçüncü qismin sabit olmasını dərk etmirik. Əgər mövcudlar bizim dediyimiz kimi iki cürdürsə, Allah-taalanın ərəz olması düzgün deyil. Çünki ərəzin cismə ehtiyacı var. Allah-taala heçnəyə möhtac deyil. Əks təqdirdə möhtac olduğu ondan daha şərəfli olardı. Bu isə qeyri-mümkündür. Əgər Onun ərəz olması batildirsə, deməli, yalnız cisim ola bilər". Cavabında belə deyərik: " Burada xətanın mənşəyi qaib olana müşahidə olunanın, hiss

[286] Bax; Dəfuş-şubəhit-təşbih bi əkuffit-tənzih, s. 129

[287] Əllamə, kitab müəllifi, kəlam elminin sərkərdəsi Seyfuddin Əli bin Əbu Əli bin Muhəmməd bin salim Təğləbi Amidi Hənbəli (sonradan şafei məzhəbin seçmişdir) 550- ci illərdə dünyaya gəlmişdir. Usul, fəlsəfə, məntiq və ixtilaflı etiqad məsələlərində kitab yazmışdır. Onun kəlam elminə dair "əl-Əfkar fil-kəlam", üsul elminə dair "Muntəhas-saul", ixtilaflı məsələlərə dair "Təriqət" adlı kitabları var. Onun təqribən 20-ə qədər əsəri var. O, səksən il yaşamışdır. Sibt ibn Cövzi belə deyib: "Onun zamanında heç kim usul və kəlam elmində ona bərabər olmamışdır. 631-ci il səfər ayının 4-də vəfat etmişdir. Bax; Zəhəbi, "Siyəru əlamin-nubəla", c. 22, s. 365

olunmayana hiss olunanın hökmünü verməyi xəyal etməkdir. Bu doğru deyil, səhvdir. Ola bilər ki, xəyal müşahidəyə əsasən cisim yalnız məkanda olmalıdır desin. Baxmayaraq ki, ağıl aləmin məkanda olmadığına şahiddir. Çünki dəlil onun sonunun olmasına dəlalət edir. Bəzi insanların xəyalı o qədər güclü olur ki, hətta ağılın əleyhinə hökm çıxarır. Məsələn, meyit olan evdə qalmaqdan imtina edən şəxs kimi. Çünki onun hərəkət edəcəyini və ya ayağa qalxacağını xəyal edir. Halbuki ağlı belə olmayacağına hökm edir. Deməli, ağıl sahibi xəyalı bir kənara atıb dəlil və sübutdan başqa heç nəyə əsaslanmayandır. Biz bəyan etdik ki, bütün varlıqların başlanğıcı olan bir mövcudun olması labüddür. Həmçinin bəyan etdik ki, görsənən və ya görsənməyən mövcudlar içərisində Ona bənzər birinin olması mümkün deyil. Bu iki qaydanı qəbul etdikdən sonra aydın olur ki, xəyal qüvvəsinin hökmünün heç bir nəticəsi yoxdur. Bundan başqa əgər Onun da müşahidə olunan varlıq kimi cisim olması gərəkirsə, müşahidə olunan varlıqlar kimi hadis (sonradan var olan) olması da gərəkir. Bu isə mümkün deyil".[288]

Deməli, qeyd etdiklərimizdən məlum olur ki, İbn Teymiyyədən öncə yaşayan əhli-sünnə alimləri təcsim əqidəsini qəti şəkildə inkar etmişlər.

İbn Teymiyyənin zamanında və ondan sonrakı alimlərin onu inkar etmələri

İbn Teymiyyə tövhid barədə yanlış fikirlərini dilə gətirdikdən sonra əhli-sünnə alimləri və hədisçiləri onun kitablarında irəli sürdüyü və müdafiə etdiyi təcsim əqidəsini yenidən tənqid etməyə başladılar.Bu barədə bəzi əhli-sünnə alimlərinin sözlərini aşağıda qeyd edirik:

[288] Ğayətul-məram fi ilmil-kəlam, s. 185, 186

1. Fəxr bin Muəllim Qurəşi Fəqih (vəfat tarixi 725 h.)[289]

O, "Nəcmul-muhtədi" kitabında belə deyir: "(Allahın) müəyyən cəhətdə olmasını deyənlərin bəziləri cisimliliyi demişlər, tərkib və birləşməni isə inkar etmişlər. Onlar belə demişlər: "Vucudu cismdir". Onlar küfr etmişlər. İmam Əbu Səid Mütəvəlli "Ğunyətul-məqbul fi ilmil-usul" kitabında belə deyir: "Əgər desələr ki: "Biz Onun cisim olmasını dedikdə mürəkkəb olmasını deyil, mövcud olmasını nəzərdə tuturuq". Onlara cavab verərək deyirik: "Bu sözün lüğəti mənası sizin qeyd etdiyiniz kimi deyil. Bu isə qeyri mümkündür. Bu mənanı daşımadığı halda nə üçün bu sözü (qeyd etdiyiniz mənada) işlədirsiniz? Sizinlə Onu cəsəd adlandırıb lüğəti mənasına zidd olsa da, məqsədinin mövcud olmasını deyən şəxslə nə fərqiniz var?"[290]

2. Əllamə Şəhəbuddin Əhməd bin Yəhya Kilabi Şafei (vəfat tarixi 733 h.)[291]

O, Allaha oturmaq nisbəti verən İbn Teymiyyəyə cavab verərkən belə deyir: "Onlar hər vəchlə ağılı kənarlaşdırırlar. Fəhm və idrak adlanan şeyə nəzər etmirlər. Onların bu hərəkətinə əhsən deyirik! "Rəhman taxtda qərar tutdu". Onlar belə deyirlər: "Bu, dəlalət edir ki, O, ərş (taxt) üzərində oturmuşdur. Bu sözün dəyəri yoxdur! Şübhəsiz ki, Allah-taala buyurduğu

---

[289] Muhəmməd bin Muhəmməd bin Osman Qurəşi Misri Fəxruddin bin Muhyiddin. İbn Muəllim ləqəbi ilə tanınmışdır. Hicri 660-cı ildə şəvval ayında dünyaya gəlmişdir. İbn Əllaqdan, İbn Nuhhasdan, Əbdülhadi Qeysi, Nəcib Hərrani və başqalarından nəql etmişdir. Fəzilətli və səxavətli insan idi. Onun bir neçə əsəri və şeirləri vardı. Hicri 725-ci ildə cəmadil-axirə ayında Dəməşq şəhərində vəfat etmişdir. Bax; əd-Durərul-kaminə, c. 5, s. 463-464

[290] Nəcmul-muhtədi və rəcmul-mutədi, s. 544

[291] Şəhabuddin Əhməd bin Yəhay bin İsmail Kilabi Hələbi Şafei. İbn Cibril ləqəbi ilə tanınmışdır. Hicri 733-cü ildə vəfat etmişdir. Əqidə məsələlərində İbn Teymiyyəyə cavab olaraq Xəbərul-cihət kitabını yazmışdır. Bax; Hədiyətul-arifin c. 1, s. 108

kimidir... Əgər desələr ki, bu, Onun ərşin üzərində olmasına dəlalət edir. Deməli, onlar dediklərindən dönmüş olurlar, ziddiyyət, həddi aşma və cürətdə son dərəcə mübaliğəyə yol vermiş olurlar. Əgər ağılı rədd edirik və məqsədi anlayırıq desələr onlara belə deyirik: "İstiva (taxtda qərar tutmaq) ərəb dilində nə deməkdir?" Əgər: "Oturmaq və yerləşmək" desələr, cavabında belə deyərik: "Ərəb bunu yalnız cisim barəsində deyir".[292]

3. Təqiyuddin Hisni (vəfat tarixi 829 h.)

Hisni belə deyir: "Nəticə budur ki, o və ardıcılları təşbih və təcsim əqidəsində həddi aşanlardandır".[293]

Həmçinin Əbulhəsən Əli Dəməşqinin atasından nəql etdiyi əhvalatı qeyd edərək yazır: "İbn Teymiyyə ilə birlikdə Əməvi camisinin həyətində oturmuşduq. Öyüd-nəsihət verərək moizə etdi. Sonra istiva (taxda qərar tutmaq) ayələri barədə danışdı və belə dedi: "Allahın ərşdə qərar tutması mənim burada oturduğum kimidir". (Əbulhəsənin atası) dedi: "İnsanların hamısı onun üzərinə hücum etdilər və onu minbərdən endirdilər. Sonra onu yumruq və başmaqla vurmağa başladılar".[294]

4. Şeyxul-islam İbn Həcər Heytəmi (vəfat tarixi 974 h.)

O, belə deyib: "Allah-taalaya ağır və böyük məsələlər nisbət verilmişdi. Mənbərlərdən Ona cəhət və cisimlilik nisbət verilməsi iddiası ilə Onun əzəməti və cəlalının böyüklüyü aradan aparılmışdır".[295]

---

[292] ət-Tofiqur-rəbbani, s. 170-171

[293] Dəfu şubəhi mən şəbbəhə və təmərrədə, s. 123

[294] Həmin mənbə, s. 41

[295] əl-Covhərul-munəzzəm fi ziyarətil-qəbril-mukərrəm, s. 29

5. Əllamə Muhəmməd Zahid Kəvsəri (vəfat tarixi 1371 h.)

"Əs-Seyfus-səqil" kitabının müqəddiməsində belə deyir: "Kim onun həyatını oxuyarsa, bütün həyatının yalnız ağlı olmayanın və dinində xələl olan birinin edəcəyi fitnədən ibarət olduğunu görər. Hanı Allah-taalaya cəhət, hərəkət, ağırlıq və məkan kimi sifətləri nisbət verən aşkar dini mətnlər və ağlın qəbul etdiyi sübutlar?"[296]

Həmçinin belə deyib: "Kim: "O, zatı ilə ərşdə qərar tutmuşdur", "Zatı ilə ərşdən enir", "Peyğəmbər (s) Onunla birlikdə ərşin üzərində oturacaq", "Onun danışması zatından çıxan səslədir", "Zatı ilə hərəkət edərək enir", "O, ərşi daşıyanlara ağırlıq edir", "O, səmada və ya ərşin üzərindədir", "Onun cəhəti, həddi, sonu və məkanı var", "Dəyişikliklər Onun zatı ilə baş verir", "O və ya yaratdıqlarından hər hansı biri ərşə təmas edir", yaxud bu kimi cəfəngiyyat deyərsə, onun dindən çıxmasına, azmasına və Allah-taala barədə deyiləcək sifətlərdən uzaq olmasına heç bir şübhə etmirik. Bu, aşkar bir məsələdir. Bu cür cəfəngiyyatları sələfilik iddiası altında gizlətmək mümkün deyil. Bu cəfəngiyyatlara etiqad edənlərin əqidəsini pisləyirik və onların yuxularına istehza edirik. Onların Həşəviyyə təriqətinin toxumlarından cücərənlər olduğunu xatırladırıq".[297]

6. Kəttani (vəfat tarixi 1383 h.)[298]

---

[296] əl-Kəvsəri, əs-Seyfus-səqil, s. 6

[297] əs-Səfus-səqil kitabının haşiyəsi, s. 14

[298] Muhəmməd bin Əbdülhəyy bin Əbdülkərim bin Muhəmməd Həsəni İdrisi. "Əbdülhəyy Kəttani" adı ilə tanınmışdır. Hədis və rical elminin bilicisi idi. Mərakeşdəndir. Fas şəhərində dünyaya gəlmiş və orada elm öyrənmişdir. Çoxlu sayda əsərləri var. Həmin kitablardan "Fihrisul-fəharis", "İxtisaruş-şəmail", "ət-Tərətibul-idariyyə", "Sülasiyyatul-Buxari" və başqalarını qeyd etmək olar. Bax; əl-Əlam, c. 6, s. 187-188

İmam Əbdülhəyy Kəttani “Fihrisul-fəharis” kitabında İbn Teymiyyənin tərcümeyi-halını yazmış, onun barəsində təkfir olunmaqdan məsumluq dərəcəsinə çatmasını deyilməsinə qədər deyilmiş qarışıq fikirləri qeyd etdikdən sonra da ondan təcsim barədə nəql olunanları qeyd edərək belə deyir: “Ondan nəql olunan ən pis və çirkin şey “Rəbbimiz gecənin sonuncu üçdə birində mənim endiyim kimi enir” rəvayətidir. Səyyah İbn Bətutə belə nəql edir: “Onun (bu sözləri deyərkən) xütbə söylədiyi mənbərdən endiyinə şahid oldum”. Qazi Abdullah Muqri Kəbir “Nəzmul-alali fi sulukil-əmali” kitabında şeyxi İmam Təlməsaninin iki oğlu barədə danışarkən belə deyir: “Təquyiddin ibn Teymiyyə ilə mübahisə etmiş və ona qalib gəlmişlər. Onun çəkdiyi möhnətin səbəblərindən biri də bu idi. Onun çirkin sözləri vardı. Məsələn, enmə hədisini zahiri mənasında saxlaması və mənim bu enişim kimi deməsi. Həmçinin “yalnız üç məscidə səfər edilə bilər”[299] hədisinə əsasən yalnız mübarək qəbri (Peyğəmbərin qəbrini) ziyarət etmək niyyətində olan şəxs üçün namazını qəsr qılmamalıdır deməsi.

Həmçinin belə deyir: “O, əqidə məsələlərində xələllidir. Başqsı onun təcsimə etiqad bəsləyən zahirpərəst olduğunu deyir. Bunları əvvəldə dediyimiz kimi insanlar onun barəsində kafir deməklə peyğəmbər demək qədər mübaliğəyə varmalarının təsdiqi üçün qeyd edirik. İşlərin ən xeyirlisi orta olanıdır”.[300]

Bununla da alimlərin İbn Teymiyyəni təcsim əqidəsinə görə ittiham edən sözlərini qeyd etməklə kifayətlənirik. Həmin alimlər onun aşkarcasına və ya işarə ilə Allah-taalaya bu sifəti nisbət verməsini dərk etmişlər.

[299] Fihrisul-fəharis, c. 1, s. 277

[300] Həmin mənbə, c. 1, s. 278

Üçüncü fəsil: Tövhid əqidəsi barədə İbn Teymiyyənin özünəməxsus rəyləri

Dəyişikliklərin Allah-taalanın zatı ilə baş verməsi barədə İbn Teymiyyənin əqidəsi

İbn Teymiyyənin əqidəsinə əsasən bütün dəyişikliklər, hadisələr Allah-taalanın müqəddəs zatı ilə baş verir. Məkan, cəhət, gəlmək, qalxmaq, enmək, danışmaq, hətta bütün fellər Allahın zatı ilə baş verir. O, bu əqidənin banisidir. Bütün bunlar ilahi zatla baş verdiyi üçün Allah-taala bu felləri yerinə yetirir. Bütün bunlar onun sözlərində öz əksini tapmışdır.

İbn Teymiyyə "Təlbisul-cəhəmiyyə" kitabında[301] məkan və cəhətəin Allah-taalanın zatı ilə olmasını inkar edən Fəxri Raziyə cavab verərkən belə deyir: "O, (yəni Razi) on dördüncü halda belə deyir: "Onun vucudu məkan və cəhət adlanan bir şeydə yerləşməkdən ehtiyacsızdır. Məkan və cəhətə aid olan varlıq məkan və cəhətə möhtacdır. Məkanda olan bir şeyin ağıl baxımından məkandan kənar olması qeyri-mümkündür. Belə olarsa, Onun məkana və cəhətə ehtiyacı olar".

İbn Teymiyyə bu sözləri inkar edərək belə deyir: "Hər bir ağıl sahibinə məlumdur ki, cismin məkanı onunla olur və ona ehtiyacı var. Məkan cisimdən ayrı ola bilməz. Ağıl baxımından məkanda olan bir şeyin məkansız olması qeyri-mümkündür. Çünki məkanda yerləşən bir şeyin məkansız hasil olması mümkün deyil. Hər bir cisim məkanda yerləşir. Məkanda yerləşənin məkansız mövcud olması qeyri-mümkündür". Bu sözləri ilə İbn Teymiyyə məkan ağıla əsasən cisimdən ayrı olmayan bir anlayışdır və məkan cisimlə hasil olur. Əks təqdirdə onları bir-birindən ayrı olması labüddür. Bu isə mümkün deyil.

[301] Təlbisul-cəhəmiyyə, c. 2, s. 128

Başqa bir yerdə isə o, belə deir: “İki cür varlıq var. Onlardan biri bu işləri yerinə yetirə bilir. Yəni gedir, gəlir, enir, qalxır və bu kimi felləri zatı ilə yerinə yetirir. Digəri üçün isə bu, mümkün deyil. Onun belə felləri etməsi qeyri-mümkündür. Bu felləri yerinə yetirən, onları yerinə yetirə bilməyəndən daha kamildir. Əgər: “Bu fellər zatda dəyişikliklərin baş verməsinə gətirib çıxarır” deyilərsə, məsələn, “Sifətlərin onun zatında baş verməsi ərəzlərin onun zatında baş verməsinə gətirib çıxarır” deyilərsə belə, sadəcə bu terminə görə, yaxud bu ərəzdir və ya dəyişikliklərə gətirib çıxarır deyilməsi bu sifətləri kamillikdən çıxartmır. Bu sifətlərlə vəsf olunan onunla vəsf oluna bilməyəndən və ya mümkün olduğu halda vəsf olunmayandan daha kamildir”.[302]

Bu sözlərdən aydın olur ki, gəlmək, getmək, enmək və qalxmaq Allah-taalanın zatından baş verir. O, bu felləri yerinə yetirir. Yəni istədiyi yerə enir, istədiyi vaxt qalxır və s.

Əgər ona bu dediklərin ərəz və dəyişikliklər tələb edən fellərdir, məkan və cəhətin olmasını tələb edir deyilərsə, belə cavab verir: “Bu fellərin ərəz və ya dəyişikliklərə səbəb olan fel adlandırılması onun kamilliyinə xələl gətirməz. Əksinə kamillik bu sifətlərlə vəsf olunmaqdır.

Danışmaq, sevmək, nifrət etmək və bu kimi sifətlər barəsində də belə demişdir. Belə ki, o, danışmaq sifətinin müəyyən bir şəraitdə olduğunun labüdlüyündən danışır. O, Nəml surəsində ***“(Musa alovun) yanına çatdıqda belə bir nida gəldi”***[303] buyurulduğu kimi çağıranın Allah-taala olduğunu deyir. Bu sifət Onun zatında olmalıdır. Məlumdur ki, həriflər gələcək zamana dəlalət edir. Deməli, bu sifət (danışmaq sifəti) Allah-taalanın zatındadır. İbn Teymiyyə Minhacus-sunnə kitabında bu məsələni aşkarcasına belə deyir: “Deyirik: “Kəlam mütəkəllim (danışan) vasitəsilə

[302] Məcmu əl-fətava, c. 6, s. 90-91

[303] Nəml, 8

baş verməlidir". Əgər bizə Rəbbdə dəyişikliklər baş verməsini desəniz sizə belə deyilər: "Bəli. Bizim bu sözümüzə şəriət və ağıl hökm edir. Kim Allah-taala danışır, istəyir, sevir, nifrət edir, razı qalır, gəlir, gedir deməzsə, Allahın kitabını batil etmiş olar. Çünki Allah-taala belə buyurur: ***"(Musa alovun) yanına çatdıqda belə bir nida gəldi",*** həmçinin buyurur: ***"Bir şeyi istədiyi zaman (Allahın) buyurduğu ona ancaq: "Ol!" deməkdir. O da dərhal olar".***[304] Bu ayədə gələcək zamana dəlalət edən hərfləri qeyd edir".[305]

Bu sözlərdən məlum olur ki, İbn Teymiyyə danışmaq, sevmək və nifrət etmək kimi sifətləri də gəlmək və getmək sifətlərini izah etdiyi kimi izah edir. Onun iddiasına əsasən bu sifətlər Allah-taalanın zatı vasitəsilə baş verir. O, bu sifətləri məxluqların sifətləri ilə müqayisə edir. Necə ki, kəlam insanın zatı vasitəsilə baş verir və sözlər onun ağzından çıxır, eləcə də Allah-taalada bu cür baş verir. Bu isə təcsim əqidəsinə gətirib çıxarır. Subki məhz "əd-Durrətul-muziyyə fir-rəddi alə İbn Teymiyyə" kitabında buna işarə edərək belə deyir: "O, qədim sifətin sonradan yaranmış olduğunu və sonradan yaranan məxluqun qədim olduğunu deyir. Heç bir məzhəb və heç bir təriqət bu iki rəydən hər hansı birini deməmişdir. Bu rəy ümmətin bölündüyü yetmiş üç firqədən heç birinə aid deyil. Hər hansı ümmətin belə dediyinə rast gəlməmişəm".[306]

İbn Teymiyyə Minhacus-sunnə kitabında deyir: "Naqisliklərin və eyblərin Onda olmasının inkar edilməsinə görə kamillik və cəlal sifətlərinin də inkar edilməsi vacib deyil. Allah Öz zatı ilə istədiyini və

[304] Yasin, 82

[305] Minhacus-sunnə, c. 2, s. 380

[306] əd-Durrətul-muziyyə fir-rəddi alə İbn Teymiyyə, s. 4

qüdrəti çatan hər bir şeyi edir… Quran və sünnənin dəlalət etdiyi sifətlər kimi”.[307]

Bu əqidənin tənqidi

Birinci: İbn Teymiyyə feli sifətlərlə zati sifətləri fərqləndirməmişdir

İbn Teymiyyənin sözlərindən aydın olur ki, o, feli sifətlərlə zati sifətləri bir-birinə qarışdırmışdır. Halbuki onların arasında böyük fərq var. Allah-taalanın qüdrət, elm, həyat kimi zati sifətlərin ziddi ilə vəsf olunması mümkün deyil. Məsələn, Allah filan şeyi bilir və filan şeyi bilmir deyilməz. Feli sifətlərə gəlincə isə, Allah-taalanın müqəddəs zatı bəzən həmin sifətlərin özü ilə, bəzən isə ziddi ilə vəsf olunur. Məsələn, Allah-taala filan şeyi yaratmışdır və filan şeyi yaratmamışdır deyilməsi düzgündür. Həmçinin kəlam (danışmaq) sifəti də bu cürdür. Allah-taala Musa ilə danışmış, lakin Fironla danışmamışdır deyilməsi düzgündür. Həmçinin, Allah-taala Tur dağında Musa ilə danışmış, lakin Nil çayında onunla danışmamışdır deyilməsi də düzgündür. Şiə məzhəbində bəzi rəvayətlərə əsasən Allah-taala mütəkəllimdir (danışandır). Onun kəlamı hadisdir (zati deyil, sonradan baş verəndir). Çünki kəlam söz və söz birləşmələrindən və mənadan ibarətdir. Kəlam dedikdə bu iki məsələ anlaşılır. Şübhəsiz ki, bunların hər ikisi hadisdir (sonradan yaranandır). Həmçinin, əgər kəlam qədim olsaydı muxatəb (xitab olunan tərəf) olmadan xitabın (kalamın) əzəldən olması vacib olardı. Bu, Allah-taalanın şəninə layiq olmayan bir haldır.

Deməli, Allahın kəlamı və bəzi sifətləri zati deyil. Çünki zati sifət əzəlidir, qədimdir. Bu sifətlər isə hadis (sonradan yaranan) və felidir. Feli sifətlər Allah-taalanın zatının vəsfi deyil. İbn Teymiyyə məhz bunları bir-

[307] Minhacus-sunnə, c. 1, s. 298

birinə qarışdırmışdır. Allah-taalanın zatında hadis (sonradan olan) baş verməz. Çünki hadis olan məkan, cəhət, həd, dəyişiklik və bu kimi hallardan ayrı deyil. Buna görə də biz belə deyirik: Kəlam sifəti hava, Cəbrail, ağac və ya başqa maddi varlıqlar kimi Allah-taalanın zatından qeyri bir yerdə olmalıdır. Buna əsasən də Allah-taalanı kəlam sifəti ilə vəsf etdikdə və ya Allah mütəkəllimdir dedikdə məqsədimiz bu kimi varlıqlarda kəlamı yaratmasıdır.

Əmirəlmöminin Əli (ə) buyurur: "Dil və dilçək olmadan xəbər verir, dəlik (qulaq dəliyi) və (eşitmə) ləvazimatı olmadan eşidir, tələffüz etmədən deyir, əzbər deyir əzbərləmir (haradansa oxuyub və ya düşünüb demir), istəyir amma istəyini gizlətmir, riqqətə gəlmədən (duyğulanmadan) sevir və razı qalır, çətinlik çəkmədən nifrət edir və qəzəblənir, olmasını istədiyinə eşidiləcək səs və nida olmadan "ol" deyir, o da olur. Allah-taalanın kəlamı Onun felidir, yaradıb inşa etmişdir. Əvvəlcə onun (kəlamın) varlığı olmamışdır. Əgər olsaydı qədim olardı və bununla da ikinci ilah olardı".[308]

Əmirəlmöminin Əli (ə) bu həqiqəti təkid edərək bildirir ki, Allah-taalanın danışması və eşitməsi dil və qulaq kimi üzvlərlə baş vermir. Bütün bunlar maddi və cismani üzvlərdir. Allah-taala bu vəsflərdən uca və pakdır. Sonra isə bildirir ki, Allah-taala kəlamı yaradır və inşa edir. Kəlam onun zati sifəti deyil və Onun zatında baş vermir. Həmçinin işarə edir ki, əgər desəniz ki, kəlam qədim sifətdir, onda qədimlərin sayı çox olar. Nəticədə Allahdan qeyri ilah olar. Bu isə batildir.

İkinci: Allah-taalada hadis olan bir şeyin baş verməsi kamil bir varlıqda naqisliyin baş verməsidir

[308] Nəhcül-bəlağə, c. 2, s. 122

İbn Teymiyyənin iddia etdiyi kimi hadis olan bir şeyin Allahda baş verməsi, başqa sözlə desək, məxluq olan bir şeyin (çünki, hadis sonradan var olan deməkdir) Allahda baş verməsi əslində, kamil olan Allah-taalada naqis bir şeyin baş verməsi deməkdir. Kamil bir varlıqda isə heç vaxt naqislik ola bilməz. Əks təqdirdə onun kamilliyi ilə ziddiyyət yaranar. Həmin kamil varlıq da hadis olar. Allah-taala hadislikdən tamamilə uzaq, pak və ucadır. Kamil varlığın naqisliklə vəsf olunması mümkün deyil. Necə ola bilər ki, kamil olması ilə yanaşı eyni zamanda da naqis olsun?! Bu, aşkarcasına batildir. Buna əsasən də hadis olan bir şeyin Allah-taalada baş verməsi mümkün deyil.[309]

Üçüncü: Hadis olan bir şeyin Allah-taalanın zatında baş verməsinin vacib nəticəsi dəyişilikdir

Allah-taalanı zatında hadis olan bir şeyin baş verməsi rəyi Onun zatında dəyişikliyin olması deməkdir. Heç kim belə bir nəticəni qəbul etməz. Belə olduğu üçün nəticə də batildir. Əvvəlcə soruşuruq ki, hadis (dəyişiklik) məfhumu nədir? Bu, başqa bir şeyin Onun zatına əlavə olunması və Onun bir haldan başqa hala keçməsi deyilmi? Əgər fərz etsək ki, həmin hadis Allah-taalanın zatında baş verib, deməli, ilahi zatda mövcud olmayan bir şey baş vermişdir. Hadisin mənası budur. Bu isə batildir. Həmçinin hadis olan təsirlənməni tələb edir. Allah-taala təsirlənmədən pak və ucadır. Buna əsasən də hadis olan bir şeyin Allahın zatında baş verməsi mümkün deyil.

[309] Dirasatun fi minhacus-sunnə, s. 132

Dördüncü: İbn Teymiyyənin bu əqidə barəsində düşdüyü ziddiyyət

İbn Teymiyyənin bu əqidə barəsində düşdüyü ziddiyyətə onun həbs olunduqdan sonra bəzi qazı və alimlərərə cavab olaraq yazdığı "ət-Tisiniyyə" kitabında rast gəlirik. O adı çəkilən kitabda belə deyir: "(Qazilərin və alimlərin) "Allahın kəlamı hərf və səsdir. Onun zatında baş verir. Allahın kəlamı Onun zatında baş verir". Bu, mənim sözüm deyil və mən heç vaxt belə deməmişəm".[310]

Sünni və şiə alimlərinin bu əqidəyə qarşı çıxmaları

Alimlərin əksəriyyətinin bu əqidəni batil hesab etdiklərini görürük. Aşağıda həmin alimlərin bəzilərinin rəylərini qeyd edirik:

1. İmam Fəxri Razi (vəfat tarixi 606 h.)[311]

Fəxri Razi bu əqidənin batil olması barədə belə deyir:

Birinci: Hadis olanın Allah-taalanın zatında baş verməsi mümkün deyil. Çünki zat həmin sifətin var olması və ya olmamasından asılı olmayaraq öz varlığını davam etdirirsə, həmin sifət ya mövcud olmalı ya da olmamalıdır. Əgər zatın varlığı (həmin sifət olmadan) yetərli deyilsə, zatın həmin sifətlə vəsf olunması və ya vəsf olunmaması vacibdir. Burada varlıq və yoxluq başqa bir şeydən asılı olur. Başqasından asılı olan bir şeydən asılı olan elə

[310] ət-Tisiniyyə, s. 115

[311] Kəlam elminin mütəxəssisi təfsir və müxtəlif əsərlərin müəllifi. İbn Xətibur-Rey adı ilə tanınmışdır. Adı Muhəmməd bin Ömər bin Hüseyn bin Əli əl-Qurəşi ət-Teymi əl-Bəkri. Künyəsi Əbulməali və Əbu Abdullahdır. Fəxri Razi ləqəbi ilə tanınmışdır. İbn xətibur-Rey (Reyin xətibinin oğlu) ləqəbi ilə də tanınır. O, şafei məzhəbinin məşhur fəqihlərindəndir. İki yüzə qədər böyük və kiçik əsərlərin müəllifidir. Həmin əsərlərdən ət-Təfsirul-hafil, əl-Mətalibul-aliyə, əl-Məbahisuş-şərqiyyə, əl-Ərbəin, Usulul-fiqhi vəl-məhsul və digərlərinin adlarını qeyd etmək olar. Bax;əl-Bidayə vən-nihayə, c. 13, s. 66

başqasından asılıdır. Başqasından asılı olan mümkünül-vucuddur. Buradan belə nəticə çıxır ki, varlığı vacib olanın varlığı mümkündür. Bu isə qeyri-mümkündür.

İkinci: Əgər Allahın zatında hadis olan bir şeyin baş verməsi mümkün olarsa, həmin hadisin xüsusiyyətləri Onun zatının ayrılmaz hissəsi olardı. Bu zaman həmin xüsusiyyətlər əzəli olardı. (Bu isə mümkün deyil). Çünki hadis olanın varlığın xüsusiyyətləri həmin hadisin var olması ilə şərtlənir. Hadis olanın vücudunun əzəldən mümkünul-vucud olması ola bilməz. Buna görə də onun xüsusiyyətlərinin əzəldən olması mümükün deyil.

Üçüncü: Həmin sifətlər olmadan əvvəl Allah ilahi sifətlərlə vəsf olunurdusa, ilahiliyin sübutu üçün həmin sifətlərə ehtiyac yoxdur. Buna əsasən də həmin sifətlər inkar edilməlidir. Çünki həmin sifətlər ya hadis, ya da qədim olmalıdır. Hər ikisinin batil olması sübuta yetmişdir. Bununla da belə sifətin olması qeyri-mümkündür.[312]

2. Əllamə Seyfuddin Amidi (vəfat tarixi 631 h.)[313]

Seyfuddin Amidi Ğayətul-məram kitabında belə deyir: "Doğru rəy, haqq yol və tədqiqə ən yaxın olan budur ki, əgər hadis olanın Allahda baş verməsi mümkün olarsa, həmin hadislə vəsf olunmasında iki haldan biri baş verməlidir: Bu vəsf ya ona naqislik, ya da kamillik gətirər. Bir şeyin varlığı özünə nisbətdə yoxluğundan daha şərəflidir. Varlığın bir şeylə vəsf olunması vəsf olunanın vücudundan və ya onun kamilliyindən bir şey aparmaz. Bir sözlə ona naqislik gətirməz. Şübhəsiz ki, həmin sifətlə vəsf olunması olunmamasından daha üstündür. Çünki yoxluq onun müqabilində olan varlıqdan şərəfli deyil. Varlıq ondan şərəflidir. Hər hansı varlıq zatına naqislik gəlmədən iki sifətdən ən şərəfsi ilə vəsf olunarsa,

[312] ət-Təfsirul-kəbir, c. 1, s. 112, 113

[313] Əvvəlki səhifələrdə tərcümeyi-halını qeyd etmişik.

həmin sifətin varlığına olan nisbəti naqislik və kamilliyə qayıdır. Yəni varlığının yoxluğuna nisbəti kimi olur. Şübhəsiz ki, nisbəti belə olan üçün həmin vəsfin olması olmamasından daha şərəflidir. Bu sifət onun kamilliyinə səbəb olur demək doğru deyil. Əks təqdirdə (həmin sifət) qədim olmalıdır. Çünki Allahın hər hansı bir kamilliyyə möhtac olmaması və naqis olmaması zəruridir. Qaldı bir məsələ ki, onun bu sifətlə vəsf olunması onunla vəsf olunmadığı vəziyyətinə nisbətdə naqis olmasına gətirib çıxarır. Deyildiyi kimi xaliqin hər hansı cəhətdən məxluqa nisbətdə mərtəbəcə aşağı və ya naqis olması mümkün deyil.[314]

3. Əllamə İsfərayini (vafat tarixi 741 h.)[315]

Əllamə İsfərəyini ət-Təbsir fid-din kitabında belə deyir: "Bilməlisən ki, hadis olanların Allah-taalanın zatında və sifətlərində baş verməsi caiz deyil. Çünki hadis olanların baş verdiyi yer hadis olmaqdan xali deyil. Əgər ondan xali deyilsə, onun kimi hadis olar. Buna əsasən də İbrahim (ə) belə deyir: "Mən batanları sevmirəm".[316] Bununla da bəyan etdi ki, hər hansı bir şeydə onun müəyyən bir haldan başqa hala keçməsinə səbəb olan hadisə baş verirsə həmin varlıq hadisdir və onun ilah olması mümkün deyil".[317]

Şeyx Tusi (vəfat tarixi 460 h.)[318]

---

[314] Ğayətul-məram fi ilmil-kəlam, s. 191, 192

[315] Əllamə Mufti Əbulmuzəffər Tahir bin Məhəməməd əl-İsfərayini Tusi Şafei. ət-Təfsirul-kəbir kitabının müəllifi. Görkəmli alimlərdən biridir. Yeddi yüz qrıx birinci ildə Tusda vəfat etmişdir. Bax; Siyərul-əlamin-nubəla, c. 18, s. 401

[316] Ənam, 76

[317] ət-Təbsir fid-din, s. 97, 98

[318] Əbu Cəfər Tusi. Şiə məzhəbinin şeyxi və çoxlu sayda kitabların müəllifi. Əbu Cəfər Muhəmməd bin Həsən bin Əli Tusi. Bağdada gəlmişdir... Zəkalı insanlardan hesab

Şeyx Tusi “ət-Təcrid” kitabında belə deyir: “Varlığın vacib olması Onun bütün sifətlərinin və kamilliklərinin həmişə olmasını tələb edir. Təkamül və dəyişiklik yolunda olan varlığın vacibliyi ilə vəsf olunmaz. Çünki vaciblik bütün sifətlərin felən olmasını tələb edir və tədricilə olmaya ziddir”.[319]

Əllamə Hilli (vəfat tarixi 726 h.)[320]

Əllamə Hilli Təcridul-etiqad kitabını şərhində on altıncı məsələdə hadis olan bir şeyin Allah-taalanın zatında olmasının qeyri-mümkün olduğunu deyir: “Mən deyirəm: Varlığın vacib olması Allah-taalanın zatında hadis olan bir şeyin baş verməsinə ziddir. Bu əlavə bağlılıqdır. Kərramiyyə bu məsələyə müxalifdir. Buna dəlil Allah-taalanın zatında hadis bir şeyin baş verməsi onun dəyişməsinə, təsir qəbul etməsinə gətirib çıxarır. Bu isə vacibliyə ziddir. Əgər hadis olan Onun zatıdırsa əzəli olmalıdır. Əgər zatından fərqlidirsə varlığı vacib olan (Allah) başqasına möhtac olar. Bu isə qeyri-mümkündür. Çünki hadis olan kamillik sifətlərindən olarsa

---

olunurdu. İbn Nəccar tarixində onun barəsində yazmışdır. Çoxlu sayda əsərləri var. Həmin kitablardan “Təhzibul-əhkam” çox böyükdür,“Muxtələful-əxbar”, “əl-Məfsəh fil-imamə” kitablarını qeyd etmək olar. Dörd yüz altmışıncı ildə məhərrəm ayında vəfat etmişdir. Bax; Siyəru əlamin-nubəla, c. 18, s. 335

[319] Təcridul-etiqad, s. 180

[320] Həsən bin Mutəhhər Hilli. Şiə məzhəbinin alimi, imamı və müəllifi. Zəkada bir nişanə idi. İbn Hacibin muxtəsəri əsərini son dərəcə aydın və gözəl surətdə şərh etmişdir. Sağ ikən əsərləri şöhrət tapmışdır. Şeyx Təquyiddin ibn Teymiyyə ər-Rəddu alər-rafizi adı ilə tanına kitabını ona rəddiyyə olaraq yazmışdır. İbn Mutəhhərin şöhrəti geniş yayılmışdı və gözəl əxlaqlı idi. İbn Teymiyyənin onun barədə yazdığı bəzi yazılar ona yetişdikdə belə demişdir: “Əgər mənim dediklərimi anlasaydı ona cavab verərdim”. Yeddi yüz iyirmi altıncı ildə məhərrəm ayında vəfat etmişdir. Vəfat edənədək Hillədə yaşamışdır. Bax; Lisanul-mizan, c. 2, s. 317

Allahın zatı ondan xali olmazdı. Əgər hadis olan kamillik deyilsə, ilahi zatın onunla vəsf olunması mümkün deyil".[321]

Deməli, əgər desək ki, sifət Allah-taalanın zatında sonradan baş verib, onun zatda sonradan yaranması vacibdir. İlahi zat hadis olanların yaranma yeri ola bilməz. Çünki bu, dəyişiklik və təsirlənməyə gətirib çıxarır. Bu isə batildir. Çünki Allah-taalanın varlığı vacib olandır. Əgər bu hadis olanın səbəbi Allahın zatıdırsa, Allahın əzəli olmasına görə bu, mümkün deyil. Əgər səbəb başqasıdırsa (Allah) ona möhtac olar. Bu da, həmçinin, batildir. Qeyd etdiklərimizdən əlavə Subkinin əs-Seyful-səqil kitabında daha geniş dəyərli cavablar var.

Allah-taalada hadis olan bir şeyin əvvəlinin olmaması barədə İbn Teymiyyənin əqidəsi

İbn Teymiyyə bir neçə kitabında hadis olanların Allahın məxluqu olması ilə yanaşı onların əvvəlinin olmamasını demişdir. İbn Teymiyyə bu əqidəsində Buxarinin səhihində qələmə aldığı İmran bin Hasinin Peyğəmbərdən (s) nəql etdiyi "Allah vardı və ondan öncə heç bir şey yox idi" rəvayətinə əsaslanmışdır. İbn Həcər Əsqəlani bunu bəyan edərək belə deyir: "Yaradılışın əvvəli babında "Ondan əvvəl heç nə olmamışdır" sözləri ilə qeyd olunmuşdur. Əbu Müaviyənin rəvayətində isə belə nəql olunur: "Allah hər şeydən əvvəl idi". Bu, Allah vardı, Onunla yanaşı heç nə yox idi mənasındadır. Bu, əvvəli olmayan hadisləri sübut edənə ən aşkar cavabdır və İbn Teymiyyəyə nisbət verilən ən biabırçı məsələlərdəndir".[322]

Əllamə Albani "Allah-taala ən birinci qələmi yaratmışdır" hədisi barədə danışanda belə deyir: "Bu hədis ən birinci məxluq ərşdir deyənlərə cavabdır. Bu barədə Rəsulullahdan (s) heç bir hədis nəql olunmamışdır.

[321] Kəşful-murad fi təcridil-etiqad, s. 408

[322] Fəthul-bari, c. 13, s. 346

İbn Teymiyyə kimi bunu deyənlər istinbat və ictihad edərək demişlər. Bu hədisə - bu mövzuda başqa hədislər də var - əməl etmək daha doğrudur. Çünki bu məsələ barəsində nəql olunmuş aşkar hədisdir. Məlumdur ki, hədis olduğu yerdə ictihada yer yoxdur. Həmçinin bu hədis "əvvəli olmayan hadis olan varlıqlardan danışanlara, həmçinin, elə bir məxluq yoxdur ki, ondan öncə məxluq olmasın. Sonsuzluğadək belədir. Belə ki, "Bu ən birinci məxluqdur" deyilməsi mümkün deyil" deyənlərə cavabdır.[323]

İbn Teymiyyədən iqtibaslar

İbn Teymiyyənin bu əqidəyə etiqad bəsləməsinə dəlalət edən sözlərini aşağıda qeyd edirik.

1. Məcmu əl-fətava kitabında [324]

"Əzəlin mənası əvvəli olmayandır. Əzəl müəyyən bir şey deyil. Əzəldən qüdrətlidir deməyimiz daim qüdrətlidir mənasındadır. Onun (Allahın) qadir olması vəsfi daimidir və əvvəli yoxdur. Əgər: "Əzəldən istədikdə mütəkəllimdir (danşandır), əzəldən istədiyini edəndir" deyilərsə, bu cürdür. Bu Onun daim mütəkəllim olmasını tələb edir. Əgər: "Əzəldən xəlq edir" deyilərsə, mənası məxluqdan sonra məxluq yaratmaqda davam edirdir. Necə ki, əbədi olaraq hər məxluqdan sonra məxluq yaradır. Hadis olanları və hərəkətləri bir birinin ardınca inkar edirsən. Bu, Onun daimi fel yerinə yetirməsilə vəsf olunmasından başqa bir şey deyil. Əgər sifətin növünün onunla olması mümkün olarsa, bunu nə şəriət, nə də əql inkar edir. Əksinə bu, onun kamilliklərindəndir".

İbn Teymiyyə burada əzəliliyi Allah-taalanın əvvəlinin olmaması ilə izah edir. Onun əvvəlinin olmasını inkar edir. Baxmayaraq ki, bunu daimi

[323] Silsilətul-əhadis-səhihə, c. 1, s. 257

[324] Məcmu əl-fətava, c. 18, s. 239

qüdrət kimi təfsir edir. Sonra belə nəticə çıxarır ki, O, hər məxluqdan sonra məxluq yaradır. Bu isə Onun daimi fel yerinə yetirməsi vəsfi ilə vəsf olunmasına gətirib çıxarır. Onun daimi fel yerinə yetirməsi və xəlq etməsinin mənası budur ki, elə bir məxluq yoxdur ki, ondan əvvəl məxluq olmasın. Çünki bu, Allah-taalanın əvvəlinin olmaması fərziyəsinin əsasıdır. Buna görə də hər bir məxluqdan öncə məxluq olmalıdır. Bu cür əvvəl olmadan davam edir. Belə ki, "bu, ən birinci məxluqdur" deyilməsi mümkün deyil.

2. Allah-taalanın felinin davamlı olmasına, hər hansı bir fel və ya xəlqin əvvəl olmamasına gətirdiyi dəlillərdən biri də Bəyanu təlbisil-cəhəmiyyə (c. 1, səh. 100) kitabında dediklərıdir: "Allah-taala kitabında sonradan qaytaracağı xəlqin yaranmasının əvvəli barəsində xəbər verir. Belə ki, buyurur: ***"O, xəlqi yoxdan yaradır, sonra iman gətirib yaxşı işlər görənləri ədalətlə mükafatlandırmaq üçün (qiyamət günü) yenidən dirildir"***[325] Bir neçə yerdə göyləri və yeri altı günə yaradığını xəbər vermişdir. Bu barədə çoxlu hədislər nəql olunmuşdur. Həmçinin O, bu məxluqların dəyişəcəyini xəbər vermişdir: ***"(Yadda saxla! Qiyamət günü) elə bir gündür ki, Yer (yer kürəsi) başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq (Yer dəyişib başqa cür yer, göylər də başqa cür göylər olacaq; onların mahiyyəti, şəkli o qədər dəyişəcək ki, tanınmaz hala düşəcəklər)".***[326] Həmçinin buyurur: ***"...Mələklər onları qarşılayıb: "Bu sizə vəd olunmuş gününüzdür!" – deyəcəklər. Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü (qiyamət gününü) yadınıza salın. (O gün insanları) ilk dəfə yaratdığımız kimi qaytarıb əvvəlki halına salarıq. Biz yerinə yetirməli***

[325] Yunis, 4

[326] İbrahim, 48

olduğumuz vədi mütləq yerinə yetirəcəyik. Biz onu mütləq edəcəyik".[327] Məlumdur ki, göylərin və yerin yaranmasından əvvəl mütləq yoxluq olmadığı kimi əvvəlki halına qaytarmadan sonra yoxluq ola bilməz. Allah-taalanın bu ayəsində: ***"Göy yarılacağı, Və Rəbbinin buyuruğunu haqq olaraq eşidib (Ona) itaət edəcəyi zaman".***[328] Həmçinin ***"Göy parçalanacağı zaman"***[329] ayəsində altı gündə yaratdığı xəlqi qiyamət günü yenidən qaytaracaq. Onları maddədən və müəyyən müddət ərzində yaratdığını xəbər verir. Həmin məxluqları yenidən qaytardıqda onları yox etməyəcək. Əksinə müəyyən müddət ərzində başqa maddəyə çevirəcək. (Bu yaradılışın əvvəli yoxdur)".

İbn Teymiyyə bu sözlərilə Allahın felinin ardı kəsilmədən və hər hansı bir məxluqun əvvəl olmadığına dəlil gətirir. Bunun dəlili aşağıdakılardır:

a) Allah-taala varlıqları yaratdığı kimi onları birinci dəfə yaratdığı hala qaytaracaq. Allah-taala Özü buyurur: ***"Məgər onlar (kafirlər) Allahın məxluqatı əvvəlcə (yoxdan) necə yaratdığını, sonra da onu (qiyamət günü) yenidən qaytaracağını bilmirlərmi?"***[330] Həmçinin ***"Yer (yer kürəsi) başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq"*** ayəsində yaradılışın davamlılığı var.

b) Bu yenidən qaytarmadan əvvəl yoxluq olmamışdır. Buna misal olaraq belə deyilir: Göylərin və yerin yaradılışından əvvəl yoxluq olmamışdır.

c) Göylər və yer kimi məxluqlar yoxluqdan deyil, maddədən yaradılmışdır.

---

[327] Ənbiya, 103, 104

[328] İnşiqaq, 1, 2

[329] İnfitar, 1

[330] Ənkəbut, 19

d) Hətta Allah yenidən qaytardıqda onları yox etmir, başqa maddəyə çevirir. Bu cür davam edir. Birinci olan məxluq yoxdur. Birinci məxluq var deməyimiz mümkün deyil.

3. Aləmin qədim olmasını deyənlərə cavab olaraq belə deyir: "Onların dediyinin qayəsi budur ki, failin felinin davamlı olması labüddür".[331]

İbn Teymiyyə onların dediklərini təsdiqləyir. Yəni o, Allah-taalanın felinin ardı kəsilmədən davam etməsinin vacibliyini təsdiqləyir. Bu, onun təsəlsülə inanmasının göstəricisidir. Varlıqların ardıcıl olaraq yaranmasında felin (yaradılışın) Allah-taalaya vacib olmasında, yəni əvvəli olmayan hadis varlıqların yaradılışına başlaması ilə aləmin maddəsinin yaradılmasında və sonsuza qədər formalarının dəyişilməsi məsələsindəki feli arasında heç bir fəqr yoxdur. Hər iki rəyə əsasən bu fel Allah-taalaya vacibdir və onun felindən ayrılması qeyri-mümkündür. Bununla da İbn Teymiyyə təsəlsülü qəbul etmiş olur.

Sonradan yarananların hamısından əvvəl Allah-taala olmuşdur. Allah-taalanın fellərinin sonu yoxdur. Bu mənada ki, yaranmışlar silsiləsinin keçmişdə də heç bir əvvəli yoxdur. Buna əsasən də yaranmışların əvvəli yoxdur.

Bu əqidənin tənqidi

Bu əqidəyə inanmaq başdanbaşa təzaddır

İbn Teymiyyə daim təkrar edir: "Yaranmışların silsiləsinin əvvəli yoxdur. Lakin ərş, kürsi, göylər, yer kimi əşyaların Allah-taalanın varlığından sonra olması vacibdir. Belə ki, Allah-taala bu varlıqları

[331] ər-Risaləs-səfdiyyə, c. 1, s. 132

yaratmış və xəlq etmişdir. Yaradılışdan əvvəl bir şeyin olması labüddür. Buna görə də yaradılış aləmi məhdud və sonlu olmalıdır.

Əgər qəbul eləsək ki, yaradılışın əvvəli sonsuzdur və bütün məxluqlar Allah-taalanın iradəsi ilə yaradılıb, bəs əvvəl olmadığı halda iradə ilə verilən yaradılış əmrini necə təsəvvür edə bilərik?! Ağıl sahiblərinin hamısı müttəfiqdirlər ki, iradə nəticəsində yaranan hər bir şey hadis olmalıdır. Yəni əvvəlcə yox idi, sonradan yarandı. Filosoflar iradə nəticəsində yaranan lakin əzəli olan bir varlığın olmasının qeyri-mümkünlüyünü dərk etmişlər və belə demişlər: "Aləmin Allah tərəfindən yaranması nəticənin səbəbdən törənməsi kimidir". Bununla da aydın olur ki, məxluqların Allah-taala tərəfindən yaranması ilə yanaşı yaradılışın əvvəli yoxdur deməyin heç bir əsası yoxdur.

Şeyx Tusi belə deyir: "Əgər bir kəs yaradılışın hadis olmasını (yaranmasını) deyərsə, bu o deməkdir ki, yaradılışın əvvəli var. Əgər bundan sonra yaradılışın əvvəli yoxdur deyərsə, bu, yaradılışın qədim olması deməkdir. Bu isə ziddiyyətdir. Həmçinin, əgər cismin qədim olduğunu deyərsə, bu, cismin əzəldən mövcud olmasına dəlalət edir. Əgər desə ki, Allah-taalanın zatında daim məna (yaradılışın surəti) olmuşdur. Allahın zatında əzəldən mənanın olmasını demişdir. Əzəldən mövcud olan məna qədimdir. Bu isə məxluqun yaranmış olması fikrindən imtina etməkdir. Yaxud əzəldən Onda məna olmamasını deyərsə, cismin mənası (surəti) olması fikrindən dönmüş olur. Bu isə batildir. Bununla da cisimlərin sonradan yaranması aydın olur".[332]

Həmçinin belə deyə bilərik: Əgər əvvəli olmayan fəna olmuş hadis varlıqların təsəvvür edilməsi mümkündürsə, deməli, əvvəli olmayan hadis varlıqların real olaraq mövcud olmasını da fərz etmək mümkündür. Çünki fənaya uğramış hərəkətlərə varlıq aid olmuşdur. Əgər bütün hadis

[332] əl-İqtisad s. 24

varlıqların vücudunun olması fərz olunsa, sonsuz olan real hadis varlıqların vücudunun olması vacib olar. Lakin bu, mümkün deyil. Çünki sonsuz olana vücud aid olmaz.

Təsəlsülün batil olmasının dəlili

Bütün alimlər səbəb və nəticələr silsiləsinin sonsuz olmasının batil olmasında müttəfiqdirlər. Baxmayaraq ki, filosoflar hadis varlıqlarda olduğu kimi rütbə baxımdan ikinci dərəcəli olduqda bunun mümkünlüyünü demişlər.[333]

Əgər səbəb və nəticələr silsiləsi sonsuzadək uzansa, bu, səbəblərin həqiqətdə vücudunun olmaması deməkdir. Çünki tam səbəblə yanaşı nəticənin də tam olması vacibdir. Əgər səbəb və nəticələr silsiləsi sonsuz olarsa, sonsuz olanın vücudunun bir anda olması vacib olar. Bu isə mümkün deyil. Çünki əgər mümkünlər – hamısı mümkün olması şərtilə – vacibə (varlığı zatından olan, hər hansı bir səbəbdən törənməyən) söykənməzsə, bu, həmin səbəb və nəticələr silsiləsini yaradan səbəb olmadan vücudunun olması deməkdir. Yaxud da bu, həmin silsilənin varlığının dövr nəticəsində meydana gəlməsi deməkdir. Təsəlsül (səbəb və nəticələr silsiləsinin sonusuzadək olması) və dövr batildir.[334]

Alimlərin bu əqidəyə iradları

[333] Yəni ola bilər ki, mövcudların müstəqil təsiri ola bilər. Belə ki, onun felləri müstəqil surətdə ondan törənir. Lakin bu, həmin fellərin səbəblər səbəbdən ayrı olması deyi. Çünki mövcud olan hər bir varlıq öz vücudunda müstəqil deyil. Əksinə varlıq ehtiyacın, bağlılığın və asılılığın özüdür. Varlığın sifətləri, felləri və ondan törənən nəticələr də belədir. Bütün aləm Allahın qüdrətinin, iradəsinin, elminin və felinin aşkar olunması, üzə çıxmasıdır.

[334] ər-Rəsailut-tisi, s. 291, 292

1. İmam Təqiyuddin Subki (vəfat tarixi 756 h.)[335]

İmam Subki belə deyir: “Bu, İbn Teymiyyənin bidətlərindəndir. O, əvvəli olmayan hadis varlıqların olduğunu qəbul edir. Onun bununla yanaşı “O, qədimdir” deməsi çox təəccüblüdür. Əgər növ qədimdir, hər bir hərif hadisdir deyərsə, Quranın hər bir hərifi barədə mövzuya qayıtmış oluruq. Hərflərin hadis olmasına əsasən Quranın da hadis olması vacibdir. Onun Rəbbin zatında hadislərin baş verməsini qəbul etməsi onu xilas etməz, əksinə onu məhv edər. Bu, elmə ciddi yanaşmamaq, bir-birinə qarışdırmaq və elmi şeyxlərdən öyrənməməyin bəlasıdır”.[336]

Subki İbn Teymiyyənin bu uçurumlara düşməsinin səbəblərini aşağıdakı kimi əsaslandırır:

Birinci: O, elmlərə, xüsusilə də, ilahiyyat elmlərinə ciddi yanaşmır və elmləri bir-birinə qarışdırmışdır.

İkinci: O, bu elmi böyük qüdrəti olmayan şeyxlərdən öyrənməmişdir.

2. Əllamə Muhəmməd Zahid Kəvsəri (1371 h.)[337]

Əllamə Kəvsəri belə deyir: “Allah-taalanın felinin keçmişdən davam etməsi rəyi əvvəli olmayan hadis varlıqların olması deməkdir. Bu rəyin mənasız olması bir neçə dəfə qeyd edilibdir. Qazi Əbu Yəla Hənbəli belə deyib: “Mulhidlərin (inkar edənlərin) rəyinin əksinə olaraq sayının sonu olmayan istər qədim olsun, istərsə də hadis varlıqların vücudunun olması mümkün deyil. Buna dəlil budur: Məsələn hər bir dəstəyə beş hissə əlavə etsək, sonsuzluğu yox olar. Çünki onun artması zəruridir. Həmçinin azaldıqda da belədir. Belə olduqda isə onun sonlu olması vacibdir. Çünki

[335] Əvvəlki səhifələrdə tərcümeyi-halını qeyd etmişik.

[336] əs-Seyfus-səqil, s. 71

[337] Əvvəlki səhifələrdə tərcümeyi-halı qeyd edilmişdir.

artmaq və azalmağı qəbul edir. Artma və azalma qəbul edən hər bir şeyin say baxımdan sonlu olması vacib bir məsələdir".[338]

3. İmam Abdullah bin Siddiq əl-Məğribi (müasirlərdən)[339]

"İbn Teymiyyənin əqidəsinin fasid olmasının əlaməti alimlərinin onun əvvəli olmayan hadis varlıqlar barədəki rəyini tənqid etmələridir. O, "Allah var idi, Ondan öncə heç nə yox idi" hədisini "Allah vardı, Ondan başqa heç nə yox idi" hədisindən üstün tutmuşdur. Hər iki hədis Buxaridə nəql edilmişdir. ***"Allah hər şeyi yaradandır..."[340], "... hər bir şeyi yaradıb və hər bir şey üçün öz halına münasib ölçü təyin etmişdir"[341], "Həqiqətən Biz varlıq aləmindəki hər şeyi müəyyən ölçüdə və məhdud çərçivədə yaratmışıq"[342]*** ayələrinə və müsəlmanların "Yalnız Allah vardı və onunla bərabər heç bir şey yox idi. Sonradan (Allah) aləmi yaratdı" barədə

---

[338] əs-Seyfus-səqil kitabına haşiyə, s. 85

[339] Əllamə hədis alimi, fəqih, təfsirçi, şair, hədis hafizi, müctəhid Əbulfəzl Abdullah bin Əllamə Əbu Abdullah Şəmsəddin Muhəmməd bin Muhəmməd Siddiq Ğəmari Tanci. Əzhəruş-şərifdə oxumuşdur. Çoxlu sayda əsər yazmışdır. Bütün əsərləri faydalı və dəyərlidir. Kitabları onun elminin geniş əhatəli olmasına, güclü məntiq və dərin düşüncəyə sahib olmasına dəlalət edir. O, fəhm, əqli nəticə çıxarmaq və kitabların tərtibi üslubu baxımından qədim alimlərin sırasındadır. Hətta onların çoxundan daha üstündür. Bunun ən əsas göstəricisi onun yazdığı əsərləridir. Həmin əsərlərdən Bidəut-təfasir, Zauqul-həlavə bi imtinai nəsxit-tilavə, əl-Fəvaidul-məqsudə bi bəyanil-əhadisiş-şazzətil-mərdudə, əl-İbtihac bi təxrici əhadisil-minhaci lil-beyzavi, Təxricu əhadisin ləmə Əbi İshaq əş-Şirazi fil-usul, Əqidətu əhlil-İslami fi nuzuli İsa (ə) fi axiriz-zəman, ər-Rəddul-muhkəmul-mətinu alə kitabil-qəvlil-mubin, İthaful-əzkiya bi cəvazit-təvəssuli bi seyyidil-ənbiya kitablarının adlarını qeyd edə bilərik. Hicri 1413-cü ildə Tənədə vəfat etmiş və atasının qəbri yanında dəfn edilmişdir. http://www.alalbait.ps

[340] Zümər, 62

[341] Furqan, 2

[342] Qəmər, 49

icmasına müxalif olan rəyinə uyğun olması üçün belə etmişdir. İbn Teymiyyə hər iki hədisi anlamamışdır. Onlar arasında seçim edərək xətaya yol vermişdi. Doğrunu tapmaqda müvəffəq olmamışdır. "Allah vardı Ondan əvvəl heç nə yox idi" və ya "Allah hər şeydən əvvəl vardı" hədisi Allah-taalanın "əl-Əvvəl" adını bəyan edir. "Allah vardı və Ondan başqa heç nə yox idi" hədisi isə Allahın Vahid və Əhəd adlarının mənasını bəyan edir".[343]

4. Əllamə Muhəmməd Nasiruddin Albani (müasir).[344]

Albani deyir: "İbn Teymiyyə - Allah ona rəhmət eləsin - əvvəli olmayan hadis varlıqları sübut etmək, filosoflara cavab vermək üçün uzun uzadı danışmışdır. Onun sözlərinin içərisində ağılları heyrətə salacaq və əksər qəlblərin qəbul etməyəcəyi məsələlər var. Hətta rəqibləri onu əvvəli olmayan qədim məxluqların olduğunu deməkdə ittiham etmişlər. Baxmayaraq ki, o, etiraf edir ki, elə bir məxluq yoxdur ki, ondan əvvəl yoxluq olmasın.[345] Bununla yanaşı o, əvvəli olmayan hadis varlıqlar

[343] Abdullah bin Siddiq əl-Məğribi, "əl-Qaululmuqniu fir-rəddi alal-Albani", s. 9

[344] Əllamə Şeyx Muhəmməd Nasiruddin Albani. Sələfi təfəkkürünün, xüsusilə də, vəhhabi təfəkkürünün ən bariz mütəfəkkirlərindən biridir. O, hədis elmində seçilən alimlərdəndir. İbn Teymiyyənin həvadarları onun barəsində belə deyiblər: "O, İbn Həcər Əsqəlani, İbn Kəsir və başqa cərh və tədil alimlərinin zamanını yenidən qaytarıb". Şeyx Albanı hicri 1333-də Albaniyanın paytaxtında anadan olub. Onun bir çox əsərləri var. Həmin əsərlərin ən əhəmiyyətliləri bunlardır: "İrvaul-ğəlil fi təxrici əhadisi mənaris-səbil", "Silsilətul-əhadisis-səhihəti və şeyun min fiqhuha və fəvaiduha", "Silsilətul-əhadisiz-zəifəti vəl-məvzuəti və əsəruha əs-seyyi fil-umməti", "Vəsfətu salətin-nəbiyy minət-təkbiri ilət-təslimi kənnəkə təraha" Albani hicri 1420-ci ildə cəmadil-axirə ayında vəfat etmişdir.

[345] Qeyd etdiyimiz kimi İbn Teymiyyə göylərin və yerin yaradılışından əvvəl mütləq yoxluq olduğunu demir. Bu isə Albaninin "elə bir məxluq yoxdur ki, ondan əvvəl yoxluq olmasın" sözlərinə müxalifdir. Əgər İbn Teymiyyə bu həqiqəti qəbul etsəydi, əvvəli

silsiləsi olduğunu söyləyir. Həmçinin o və başqaları hadis varlıqların sonsuz silsiləsinin olduğunu deyirlər. Onun bu sözü məqbul deyil. Əksinə onun sözü bu hədislə inkar edilir. Nə qədər istəyərdik ki, İbn Teymiyyə bu məsələlər müdaxilə etməsin. Çünki bu barədə söhbət onun da çəkindirdiyi, ehtiyatlı olmağa səslədiyi fəlsəfə və kəlam elminin məsələlərinə bənzəyir. Lakin İmam Malik (rəhiməhullah) necə də doğru deyib: "Bu qəbrin sahibindən (s) başqa aramızda elə bir adam yoxdur ki, nəyisə inkar etməsin və ona qarşı inkar edilməsin".[346]

Həmçinin Albani belə deyir: "Alimlər müttəfiqdirlər ki, birinci məxluq var. Əvvəli olmayan hadis varlıqların olduğunu deyənlər bu ittifaqa müxalif olanlardır. Çünki onlar "elə bir məxluq yoxdur ki, ondan əvvəl məxluq olmasın" deməklə əvvəli olmayan məxluqlar olduğunu qəbul edirlər. Necə ki, İbn Teymiyyə bəzi kitablarında bunu bəyan etmişdir. Əgər ərşin birinci məxluq olduğunu desələr – necə ki, şərhçinin sözünü zahiri belədir – əvvəli olmayan hadis varlıqlar barədə rəylərinə müxalif çıxmış olarlar. Belə demədikləri təqdirdə isə ittifaqa müxalif çıxmış olurlar".[347]

Burada Albani aşkarcasına İbn Teymiyyəyə qarşı çıxır. Baxmayaraq ki, onun bu fikrə yaxın olması məlumdur. Başda İbn Teymiyyə olmaqla əvvəli olmayan hadis varlıqların olduğunu qəbul edənlər bu əqidənin batil olmasını deyən alimlərin əksəriyyətinin ittifaqına müxalif çıxmışlar. Bu əqidəyə inanların özlərində ziddiyyət var. Əgər onlar "Ərş ilk məxluqdur"

---

olmayan məxluqların vücudunu qəbul etməzdi. Əksinə İbn Teymiyyə bu həqiqəti qəbul etmir. Buna görə də o, belə deyir: "Allah hər bir şeyi sonsuz və əvvəli olmayan maddədən yaratmışdır". Əslində onu yox etdikdə başqa materiyaya çevirir, sonra həmin başqa materiyadan xəlq edir. Əgər materiya başqa materiyadan xəlq edilirsə, necə ki, insanı Adəmdən, adəmi palçıqdan və beləcə sonsuzadək əvvəli olmayan materiyadan xəlq edirsə, bu, materiyanın əvvəlinin olmaması deməkdir.

[346] əs-Silsilətus-səhihə, c. 1, s. 258

[347] Şərhul-muxtəsəri liləqidətit-Təhaviyyə

deyirlərsə, bununla əvvəli olmayan hadis varlıqların olması əqidələrinə müxalif çıxmış olurlar. Əgər bu fikirlərini inkar etməsələr ittifaqa müxalif çıxmış olurlar.

Allah-taalanın hərf və səslə danışması barədə İbn Teymiyyənin əqidəsi

İbn Teymiyyədən iqtibaslar

İbn Teymiyyə Allah-taalaya nisbət verdiyi qeyd etdiyimiz sifətlərlə kifayətlənməyib, Ona kəlam və həriflər sifətini də əlavə etmişdir. Onun əqidəsinə görə Allah-taala istədikdə danışır, istədikdə isə susur. O, bu iddianı hədis, sünnə və camaət imamlarına nisbət vermişdir. Onun bu sifət barədə dediklərinə nəzər salaq:

İbn Teymiyyə Minhacus-sunnə kitabında belə deyir: "Allah-taala əzəldən mütəkəllimdir (danışandır). Danışmaq istədikdə onu yerinə yetirir. O, eşidiləcək səslə danışır. Kəlamın növü qədimdir" deyən şəxs həmin səsi qədim hesab etməzsə, onun dediyi bu söz hədis və sünnə imamlarından nəql olunmuşdur".[348]

Burada İbn Teymiyyə adəti üzrə yenə də kiminsə adından danışır. O deyir ki, Allah-taala əzəldən mütəkəllimdir (danışandır). Danışmaq istədikdə onu yerinə yetirir. Yəni zatı ilə yerinə yetirir. O, eşidiləcək səslə danışır. Kəlamın növü qədimdir. Lakin Allahın səsi (danışarkən çıxan səs) qədim deyil. Bundan sonra İbn Teymiyyə bu rəyi qəbul edir. Çünki bu rəy hədis və sünnə imamlarından da nəql olunmuşdur.

Gizli deyil ki, hədis imamları sözünü mütləq mənada qəbul edə bilmərik. Çünki Əşərilər, Hənəfilər, Malikilər, hətta Hənbəlilər kimi hədis əhlinin əksəriyyəti İbn Teymiyyənin rəyində olmamışdır.

[348] Minhacus-sunnə, c. 2, s. 362

Siyuti belə deyir: “Lalakai Muhəmməd bin Həsəndən belə nəql edir: “Məşriqdən məğribədək bütün fəqihlər təfsir və təşbih (bənzətmə) olmadan sifətlərə iman gətirməyin vacib olmasına müttəfiqdirlər”.[349]

Burada Lalakai yer üzünün şərqində və qərbində yaşayan fəqihlər Qurani-kərimdə qeyd olunan bu sifətləri məxluqların sifətinə bənzətməməkdə müttəfiq olduqlarını nəql edir. Çünki sifətlərin məxluqlara bənzədilməsi təcsim əqidəsinə gətirib çıxarır.

İbn Teymiyyə Məcmu əl-fətəva kitabında belə deyir: “Onun (Əhməd bin Hənbəlin) nəzərində kəlam sifətinin qədim olması məlumdur. Allah əzəldən istədikdə danışır, istədikdə isə susur. Kamilliklik sifəti olan kəlama qüdrəti sonradan olmamışdır. Necə ki, bağışlamağa qüdrəti çatması sifəti sonradan olmamışdır. Baxmayaraq ki, kamillik Onun istədikdə danışması və istədikdə susmasıdır”.[350]

İbn Teymiyyə Əhməd bin Hənbəlin rəylərinə əsaslandığını iddia edir.[351] Əksinə o, Əhməd bin Hənbəlin rəylərini öz inancına uyğun olaraq yozur. Belə hesab edir ki, kamillik Allahın danışmasında və sifətindədir.

---

[349] əl-İtqan fi ulumil-Quran, c. 3, s. 1

[350] Məcmu əl-fətava, c. 6, s. 160

[351] Lakin Əhməd ibn Hənbəl İbn Teymiyyədən fərqli olaraq təcsimi inkar edir. Məlumdur ki səs cisimliliyi tələb edir. Bu İmam Əhmədə gizli deyildi. Buna görə də o, bu məfhumu inkar etmişdi. Hənbəlilərin başçısı olmuş İmam Əbulfəzl Təmimi İmam Əhmədin rəyini nəql edərək belə deyir: “O, (İmam Əhməd) təcsim əqidəsinidə olanın rəyini inkar etmiş və belə demişdi: “Adlar şəriətdən və dilçilikdən götürülmüşdür. Dilçilər bu adı uzunluğu, eni, qalınlığı, tərkibi, surəti və birləşməsi olan hər bir varlıq üçün təyin etmişlər. Allah-taala bütün bunlardan xaricdir. Cisimlilik mənasından xaric olduğu üçün onu cism adlandırmaq icazəli deyil. Şəriətdə də bu barədə deyilməmişdir. Buna görədə batildir”. Əbdülvahid bin Əbdüləziz bin Haris Təmimi, “Etiqadu İmam ibn Hənbəl”, s. 298

Həmçinin İbn Teymiyyə məxluqlarla müqayisə edərək kamilliyin danışmaq və səsdə olduğunu təsəvvür etmişdir. Amma yadından çıxartmışdır ki, məxluq üçün olan hər bir kamillik Xaliq üçün də kamillik hesab olunmur. Həyat yoldaşı, övlad insan üçün kamillik hesab oluna bilər, amma Allah-taala üçün naqislikdir. Əlavə edim ki, kəlamın söz və tələffüz etməkdən ibarət olması aydındır. Allah-təla söz tələffüz etməkdən münəzzəhdir.

İbn Teymiyyə həmçinin, Məcmu əl-fətəva kitabında belə deyir: "Deməli Onun kəlamı qədimdir. Baxmayaraq ki, O, iradə və qüdrətilə danışır. Əgər deyilsə ki, O, çağırır və səslə danışır, buna görə də müəyyən səsin qədim olması vacib deyil. Əgər iradəsi və qüdrəti ilə Tövrat, Quran və İncil danışmışsa "sin" dən əvvəl "ba" ilə danışması qeyri-mümkün deyil. "Ba"nın və "sin"in növünün qədim olması heç də müəyyən "ba"nın və müəyyən "sin"in qədim olması demək deyil. Bu fərq iradə, kalam, eşitmək, görmək və başqa sifətlərədə də sabitdir".[352]

Dirut-təaruz kitabında isə belə deyir: "Əgər sələf və imamlar desələr: "Allah-taala əzəldən mütəkəllimdir (danışandır), istədikdə danışır". Bununla onun sonradan mütəkəllim olmamasını isbat etmişlər. Onun danışması qədim iradəsilədir. Əgər bir şeyin ardınca başqa şey danışırsa, kəlamın bir-birinin ardınca olması onun növünün hadis olmasını tələb etmir. Əks təqdirdə qüdrət və iradənin hakim olduğu hər şey sonlu olmalıdır. Hadislərin sonlu olması bu deməkdir. Sələfin hamısının və xələfin əksəriyyətinin rəyi budur: Qüdrət və iradənin hakim olduğu varlıqlar sonsuzdur. Bununla da onlar Allahın lal kimi danışmaq iqtidarında olanın aciz olması kimi acizlikdən, həmçinin, naqis olub

[352] Məcmu əl-fətava, c. 12, s. 158

sonradan kamil olmaqdan Allahı münəzzəh etmişlər. Bununla yanaşı Onun Öz ixtiyarı ilə kəlama qüdrətinin çatdığını isbat etmişlər".[353]

Həmçinin "əl-Fətəval-kubra və əl-Cəvabus-səhih" kitablarında Zuhridən nəql olunan hədisi dəlil gətirərək belə deyir: "Musa Rəbbinin kəlamını eşitdikdə belə dedi: "Ya Rəbbi, eşitdiyim bu kəlam sənin kəlamındırmı?" (Rəbb) dedi: "Bəli, ey Musa, bu mənim kəlamımdır. Sənin ilə on min dilin gücü ilə danışdım. Bütün dillərin gücü məndədir. Mən bundan da güclüyəm. Sənin bədəninin gücü yetəcəyi səviyyədə sənin ilə danışdım. Əgər bundan artıq səviyyədə sənin ilə danışsaydım ölərdin". Musa öz qövmünün yanına qayıtdıqda ondan soruşdular: "Rəbbinin kəlamını bizə vəsf elə". (Musa) dedi: "Subhənəllah! Onu sizə vəsf etməyə qüdrətim çatarmı?" Onlar: "Bənzət!" dedilər. Musa dedi: "Siz qulaq oxşayan ildırım səsi eşitmisinizmi? Sanki onun kimi idi".[354]

Onun sözündən aydın olur ki, bu sifəti, yəni kəlam sifətini inkar etmir. Sələf və xələfin sözləri ilə dəlil gətirərək Allah-taalanın belə bir sifətinin olduğunu isbat edir.

Bu əqidənin tənqidi

Qeyd etdiklərimizə əsasən İbn Teymiyyənin bu mövzu barədə əqidəsini belə xülasələşdirə bilərik: Allah-taalanın kəlamı sözlərdən təşkil tapır. Bu söz və kəlmələri biri-digərindən əvvəl tələffüz olunur. Necə ki, İbn Teymiyyə özü: "Sin"dən əvvəl "ba"nı deməsi mümkünsüz deyil. Baxmayaraq ki, "ba"nın və "sin"in növünün qədim olması müəyyən "ba"nın və müəyyən "sin"in qədim olması demək deyil.

Bu kəlmələrin cinsi və növü qədimdir. Çünki Allah-taalanın qüdrəti və iradəsi ilə baş verir. Bu kəlmələr özlüyündə Allahın zatı ilə sonradan

[353] Dirut-təaruz, c. 1, s. 363

[354] əl-Fətəval-kubra, c. 1, s. 154; əl-Cəvabus-səhihu limən bəddələ dinəl-məsih", c. 4, s. 11

yaranır. Çünki Allah-taala məhz onları icad etmişdir. Bu kəlmələrin hərfllərdən ibarət olması labüddür. İbn Teymiyyə bu hərflərin ilahi zat vasitəsilə yarandığından qəflətdə deyildi. Çünki onun əvvəlinin və sonunun olması labüd bir məsələdir. Buna görə də o, Allahın kəlamının cins və növ baxımından qədim olduğunu demək məcburiyyətində qalır. Necə ki, o, kəlamın sözlərinin hadis olmasını etiraf etməsilə yanaşı "baxmayarq ki, "ba"nın və "sin"in növünün qədim olması" deyə bəyan edir.

Kəlam sifəti təcsim əqidəsinə gətirib çıxarır

Lakin İbn Teymiyyə sözlərini nə qədər bəzəsə də elm əhli və obyektiv düşünən insanlarda bunun əks sədasını tapmayacaq. Onun sözləri aşkarcasına Allah-taalanın ixtiyarı ilə istədiyi vaxt hərflər və səslərlə danışdığına və susduğuna dəlalət edir. Məlumdur ki, kəlam və səs Onun cisim olmasına dəlalət edir. Kim belə olarsa, ilah və xaliq ola bilməz.

Bəlkə də Təhavinin əqidəsində işarə etdiyi fikir İbn Teymiyyənin əqidəsi və ümumiyyətlə vəhhabi fikrinin əsası hesab olunur. O, belə demişdir: "Quran Allahın kəlamıdır. Keyfiyyəti olmadan söz olaraq onunla başlamışdır".[355]

Məlumdur ki, sözün keyfiyyətinin olmaması insanların danışdığı kimi Allah-taalanın hərf və səslə danışmasını inkar etməkdir. Çünki o, keyfiyyət olmadan deməklə bunu inkar edir. Əks təqdirdə əgər Allah-taala Quranı Cəbrailə hərf və səslə oxusaydı keyfiyyət olmadan deməzdi. Çünki hərflər artıq keyfiyyətdir.

Deməli, o, bildirmək istəyir ki, Quran elçinin (Cəbrailin) sözlərindəndir. O, Quranı tələffüz etmişdir. Buna dəlil bu ayədir: ***"Bu (Quran Allah***

[355] Mətnul-əqidətit-Təhaviyyə, c. 1, s. 24

dərgahında) çox möhtərəm olan bir elçinin (Cəbrailin) gətirdiyi kəlamdır".[356]

Quranı məhz Cəbrail ona vəhy etmişdir. Buna əsasən də səs və kəlamın birbaşa Allaha nisbət verilməsi batildir.

Alimlərin bu əqidəni batil hesab etmələri

Bu əqidənin batil və puç olmasını bəyan etmək üçün bu mövzuda bəzi alimlərin sözlərini nəql edirik:

1. İmam Qurtubi (vəfat tarixi 671 h.)[357]

Bu iddianın batil olması barədə belə deyir: "Hədisdə "Səslə onları çağıracaq" deyilməsinə görə hərf və səslə danışdığını deyənlər dəlil gətirilər ki, Allah-taala belə danışır. Allah-taala mücəssimələrin (təcsim əqidəsinə inananlardan) və kafirlərin dediklərindən uca və böyükdür. Allah-taalaya nisbət verilən çağırış Allahın izni və əmri ilə bəzi müqərrəb mələklərin çağırması kimi yozulmalıdır. Bu kimi hallar danışıqda icazəlidir və inkar edilmir. Məsələn, əmir çağırdı, əmirin çağırışı mənə çatdı kimi deyilməsi kimi. Necə ki, Allah-taala buyurur: "Firon öz qövmünə müraciət edib dedi..."[358] Burada məqsəd carçının onun adından car çəkməsidir.

---

[356] Təkvir, 19

[357] İmam Əllamə Əbu Abdullah Ənsari Xəzrəci Qurtubi. İmam, müxtəlif elmlərin sahibi, elm dəryası. Onun çoxlu və faydalı əsərləri var. Həmin əsərlər onun dərin mütaliəsinə və lütfünə dəlalət edir. Hicri yeddi yüz qırx birinci ildə Munyətu Bəni Xuzeyb minəs-səidil-ədna məntəqəsində vəfat etmişdir. O, təfsir kitabı ilə məşhurdur. Onun təfsiri əzəmətli təfsirdir. Onun "əl-Əsna fi əsmaillahil-husna" və "ət-Təzkirə" adlı kitabları var. Bütün bunlar onun imam və geniş mütaliəli bir insan olduğuna dəlalət edir. Bax; əl-Vafi bil-vəfiyyat, c. 2, s. 87

[358] Zuxruf, 51

Onun izni ilə çağrışı çatdırırdılar. Bu, “əmir filankəsi qətlə yetirdi və ya vurdu” deyilməsi kimidir. Burada məqsəd onun bu işləri birbaşa özünün yerinə yetirməsi deyil. Lakin məqsəd onun əmri ilə baş verməsidir. Səhih hədislərdə qeyd olunub ki, mələklər şahidlərin yanında təqva və hidayət əhlinə xitab edərək “Bilin ki, filan bin filan...” yuxarıda qeyd etdiyimiz kimi”.[359]

2. Əllamə İsfərayini (vəfat tarixi 741 h.)

İsfərayini belə deyir: “Bil ki, Allahın kəlamı hərf və səslə deyil. Çünki hərf və səs əvvəl və sonranın olmasını ehtiva edir. Bu isə qədim olan Allahın barəsində mümkün deyil”.[360]

3. İbn Həcər Əsqəlani (vəfat tarixi 852 h.)

İbn Həcər hədis hafizlərinin və imamların səslə danışmaq sifətinin inkar olunması barədə alimlərin rəyini nəql edərkən belə deyir: “Hədis hafizləri İbn Əqilin əzbərinin zəif olduğu üçün onun nəql etdiyi rəvayətləri qəbul etmək barədə ixtilaf etmişlər. Onun hədisindən başqa Peyğəmbərdən (s) nəql olunan heç bir hədisdə səs kəlməsi qeyd olunmamışdır. Əgər başqa hədisdə, məsələn, ondan əvvəl olan İbn Məsudun hədisində və ya ondan sonra gələn Əbu Hüreyrənin hədisində qeyd olunsaydı, ona müraciət edilərdi. Həmin hədisdə deyilir ki, vəhy baş verdikdə mələklər onun səsini eşidirlər. Həmin səsin səmanın və ya vəhy gətirən mələyin, yaxud da mələklərin qanadlarının səsi olması ehtimal olunur. Əgər bu ehtimal olunarsa, bu məsələ barəsində konkret dini hökm hesab olunmur. Başqa bir yerdə isə işarə edir ki, ravi çağırdı demək

[359] ət-Təzkirətu fi əhvalil-movta əvl-axirə, s. 308

[360] ət-Təbsir fid-din, c. 1, s. 167

istəmişdir, lakin səs sözü ilə ifadə etmişdir. İmamlardan səs məsələsini inkar edənlərin sözünün xülasəsi budur".[361]

4. Əllamə Əli Qari (vəfat tarixi 1014 h.)

Əllamə Əli Qari belə deyir: "Hənbəli bidətçiləri belə deyirlər: "Onun kəlamı zatı ilə yerinə yetirdiyi hərflər və səslərdən ibarətdir. O, qədimdir. Bəziləri cəhalətdə mübaliğə edərək belə demişdilər: "Nəinki suhuflar, hətta dəri və vərəq də qədimdir. Bu, batilliyi zəruri olan bir sözdür. Hissiyyata qarşı çıxmaqdır. Hiss Bismillahda "ba" hərfi "sin" hərfindən sonra gəldiyini və bu kimi məsələləri dərk edir".[362]

5. Əllamə Muhəmməd Zahid Kəvsəri (vəfat tarixi 1371 h.)

O, belə deyir: "Allaha səs nisbət verilməsi barədə heç bir hədis səhih deyil. Çoxlu sayda dəlillərin onların əleyhinə olmasına və etimad etdikləri əsasın aradan getməsinə baxmayaraq onlar haqqa qarşı inad edir, Allahın kəlamının bəşər kəlamının növündən olduğunu güman edirlər. Halbuki o, (bəşərin kəlamı) dil və dilçəyin vasitəsilə havada hasil olan titrək keyfiyyətdir. Allah bundan uca və yüksəkdir. Onların halı bütə və ya Adəm övladına bənzətmədir: "Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər...."[363]

Həmçinin belə deyir: "Cabirin Səhih Buxaridə nəql olunan hədisinin Əbu Səidin hədisindən zəif olması ilə yanaşı dəlalət edir ki, çağıran Allahdan qeyrisidir. Belə ki, həmin hədisdə deyilir: "Səslə çağıracaq ki, Allah sənə əmr edir... Burada hədisin sənədi həqiqi deyil. Nazim, yəni İbn Zufeyl, İbn Qəyyim Cövziyyə "Hadil-ərvah" kitabında Darqutnin yolu ilə

[361] Fəthul-Bari, c. 13, s. 383

[362] Şərhul-fiqhil-əkbər, s. 29, 30

[363] Ənam, 179

qeyd olunan bir hədis nəql etmişlər: “Allah-taala qiyamət günü səslə car çəkəcək birini göndərəcək...”. Bu, Peyğəmbər (s) tərəfindən buyurulmuş sözdür. Əvvəlki hədisdə isə istinad məcazidir. Beləcə Nazim özünün və müsəlmanların əli ilə evini xarab edir. Hədis hafizi Əbulhəsən Muqəddəsi səs barədə olan hədislərin zəifliyi barəsində bəzi məqamları bəyan etmişdir. Müraciət etmək lazımdır”.[364]

Deməli, alimlərin dedikləri kəlamların nəticəsi budur ki, İbn Teymiyyənin bir çox kitablarında təsdiqlədiyi bu əqidə batilildir. Çünki bu əqidə təcsimə yol açır. Təcsim əqidəsinin batil olması isə aşkardır. Məhz alimlər İbn Teymiyyənin şəriət və ağıla müxalif olan bu qəribə rəylərinə görə onu danlamış və pisləmişlər.

[364] əs-Seyfus-səqil kitabının Kəvsəriyə məxsus olan haşiyəsi, s. 196

Üçüncü bab: İbn Teymiyyənin şübhələri

Məcazi mənanın, təvilin inkarı və şiə ravilərini təcsim əqidəsində ittiham etmək.

Birinci fəsil: İbn Teymiyyənin məcazi mənanın və təvili inkar etməsi şübhəsi

Müqəddimə

İbn Teymiyyənin tövhid əqidəsi, xüsusilə də, sifətlər barədə dedikləri onun məcazi mənanı və təvili inkar etməsindən irəli gəlirdi. O, Quran ayələrində və hədislərdə məcazi mənanı və təvili inkar etmiş, yalnız zahiri mənanı əsas tutmuşdur. Məhz buna görə bu məsələni izah etmək və bu şübhəni aradan aparmaq lazımdır.

İbn Teymiyyənin nəzərində ərəb dilində həqiqi mənadan başqa heç bir məna yoxdur. İnsanların məcazi məna olduğunu düşündükləri əslində həqiqi mənadan başqa bir şey deyil. Onun fikirlərinin formalaşmasında bu məsələnin olduqca böyük əhəmiyyəti olmuşdur. Belə ki, onun özünün də Quran ayələrinin və peyğəmbər hədislərinin təvilində heyrət və çaşqınlıq içində qaldığına rast gəlirik. Bu hal mütəşabih ayələri izah etdikdə daha çox pis özünü biruzə verirdi. O, məcazi məna və təvilə qarşı müharibəyə başladı.

Doktor Əbdüləzim Mətəni belə deyir: “Məcazi mənanın bəlağət məsələsi və dilin gözəlliyi olmasına baxmayaraq bu əhəmiyyətli sahəyə - etiqad və tövhid məsələlərinə - daxil olması imamın (İbn Teymiyyənin) ona qarşı inqilab alovlandırmasına səsəb olmuşdur. Çünki o, “Yədullah”

(Allahın əli) kimi ayəni qüdrət mənasında təvil etmək Allah-taalanın hər hansı bir sifətini inkar etmək anlamında olduğunu düşünürdü".[365]

Bu həqiqəti dəstəkləyən dəlillərdən biri də onun Məcmu əl-fətəva kitabında dediyi sözlərdir: "Quranda məcazi məna yoxdur. Dildə həqiqi və məcazi məna bölgüsü bidətdir. Sələf bu barədə bir şey deməmişdir. Xələf isə bu barədə iki rəydədir. Burada mübahisə ləfz baxımından deyil, əksinə belə deyilməlidir: "Bu bölgünün özü batildir. Bu, ondan heç də fərqlənmir". Məhz buna görə də onların qeyd etdikləri bütün fərqlərin batil fərqlər olması aşkardır".[366]

Sonra belə deyir: "Sonra yenə belə deyilməlidir: "Bu bölgü həqiqi deyil. Onların arasında fərq qoyanlar bunu ondan fərqləndirəcək düzgün həddi təyin etməmişlər. Bununla da məlum olur ki, bu bölgü batildir. Bu, dediyini təsəvvür edə bilməyənin bölgüsüdür. O, elm olmadan danışır. Onlar şəriətdə bidət edənlər və ağıla qarşı çıxanlardır".[367]

Bu sözlərə əsasən məcazi məna və təvil iddia edən hər bir kəs şəriətdə bidət etmişdir. Çünki şəriətdə belə bir bölgü yoxdur. Həmçinin sələf və xələf bu barədə danışmamışdır. Bu barədə danışanların elmi yoxdur.

Quran ayələrini məcazi məna ilə yozanlar barəsində İbn Teymiyyənin düşüncəsi belədir. Bəlkə də onu bu əqidəyə etiqad bəsləməyə vadar edən onun aşağıdakı nəzəriyyəsidir: Sifətlər barədə nəql olunan xəbərlər zahiri mənasında olduğu kimi anlaşılmalıdır. Quran və sünnədə Allah-taalanın sifətləri barədə nəfs, üz, göz, barmaq, əl, ayaq, gəlmək, getmək, səmaya enmək, ərşin üzərində qərar tutmaq, gülmək, və fərəhlənmək kimi nəql olunan məfhumlar Allah-taalanın sifətləridir. Bu cür eşidilmişdir. Ona

[365] əl-Məcaz indəl-imam İbn Teymiyyə, s. 7

[366] Məcmu əl-fətəva, c. 7, s. 113

[367] Həmin mənbə, c. 7, s. 96

iman gətirmək və təvildən çəkinərək olduğu kimi zahiri mənasında saxlamaq vacibdir.

İbn Teymiyyə deyir: “Onların (sələfin) – Allah onlardan razı olsun -bu sözü: “Olduğu kimi saxlayın” muəttiləyə (sifətləri inkar edənlərə) bir cavabdır. Onların: “Keyfiyyət olmadan” sözləri isə muməssiləyə (məxluqun sifətlərinə bənzədənlərə) cavabdır”.[368]

Bununla da biz onun Allah-taalanın sifətlərində təşbih (bənzərmə) və təmsil (oxşatma) əqidəsinə düşməsində böyük rol oynayan səbəbi bilmiş oluruq. Məhz bu baxımdan tövhid məsələsində İbn Teymiyyənin əqidəsini dəyərləndirmək və anlamaq üçün onun məcazi mənanı rədd etməsi, eləcə də, Quran ayələrində və hədislərdə nəql olunan xəbəri sifətlərin təvilini qəbul etməməsi barədə araşdırma aparmaq lazımdır.

Baxmayaraq ki, məcazi məna insan fitrətinə münasib olan işlərdən olduğu üçün inkarı mümkün deyil. Məcazi məna insanın daxilində cərəyan edən və dilə gəlməkdə insanı məcbur edən mənaların gözəl bədii tərzdə ifadə olunmsıdır.

Ərəblər və onların dili insan fitrətinə qarşı çıxmamışdır. Onlar müxtəlif dövrlərdə bu üslubdan istifadə etmişlər. Bu mənanı ehtiva edən şeirləri saysız-hesabsızdır. Yazıçı və xətiblər içərisində görkəmli şairlərin və bəlağət ustadlarının məcazi məna baxımından gözəl sənət əsərləri var. Bunu yalnız bədii ifadə üslublarından xəbərdar olan yüksək zəkalı xridarlar dərk edirlər. Məcazi məna hər hansı bir sözü və ya ifadəni onun üçün təyin olunmuş mənadan fərqli, başqa bir mənada işlədib sözlərlə oynamaq deyil. Məcazi məna hər hansı kəlmənin dəlalət etdiyi mənanı itirdiyi üçün başqa kəlməni onun yerinə işlətmək də deyil. Əksinə məcazi məna mənalar arasında əlaqələrin və rabitələrin üzə çıxarılması nəticəsində mənalar arasında bağlılıq yaratmaq üçün zehnin hərəkətidir.

[368] Məcmu əl-fətəva, c. 5, s. 39

Bunun nəticəsində zəka sahibi olan insan hər hansı bir mənaya dəlalət edən sözü başqa bir mənaya dəlalət etməsi məqsədilə işlədir. Həmin sözü eşidən şəxs söz və ya konteksdən məqsəddə tutulan mənanı dərk edir".[369]

Buna əsasən də bir çox alimin dediyi kimi məcazi və həqiqi məna bölgüsü təkcə ərəb dilinə məxsus deyil. Bu bütün dillərin təbiətinin tələb etdiyi bir məsələdir. Bu, sözün adətən işlədilən mənasından kənara çıxmaqdır. Bu, bütün dillərdə mövcuddur. Hər hansı bir dilə və ya millətə məxsus deyil. Məlumdur ki, bəşər övladları arasında müştərək ifadə yolları və üslubları var. Bu müştərək üslublar insan növündə olan müştərək xüsusiyyətlərdən irəli gəlir. Ona görə də hər bir dildə həqiqi və məcazi mənanın olması təbiidir. Parlaq çöhrəyə "ay parçası", şücaətli insana "aslan" demək təkcə ərəb dilinə məxsus olan xüsusiyyətlərdən deyil. Əksinə bütün dillərdə bu xüsusiyyətlər mövcuddur. Bəli ərəb dili məcazi mənalar və müxtəlif üslubların çoxluğu ilə fərqlənir. Hətta ərəb dilindən əhatəli xəbərdar olan şərqşünaslar da bunu etiraf etmişlər. Ərəb dilinin bu məziyyəti onun köklü və başqa dillərdən üstün olmasından irəli gəlir. Əslən avstriyalı olan Kaliforniya Universitetinin dillər kafedrasının müdiri şərqşünas Gustav Grunebaum belə deyir: "Ərəb dili heç bir dilə bənzəri olmayacaq dərəcədə məcazi mənadan istifadə edilməsi ilə seçilir. Ərəb dilində elə məcaz, metonimiya (işarə) və istiarə (sözün başqa mənada işlədilməsi) üslubları var ki, onu digər bəşər dillərindən daha yüksəklərə ucaltmışdır".

Bəlağət alimlərinə gəlincə bu bölgüdə məhz onlar öndə dururlar. Onların işi sözləri araşdırmaq, sözün fərqli mənalarını və zidlərini üzə çıxarmaqdır. Alimlərin nəzərində bəyan elminin vəzifələri içərisində

[369] "Əbdurrəhman Həsən əl-Meydani, "əl-Bəlağəyul-ərəbiyyə ususha və ulumuha və fununuha", s. 633

həqiqi və məcazi məna mühüm yer tutur.[370] Hər hansı bir şəxsin məcazi mənanı aşkar dəlil olmadan inkar etməsi həqiqətən də, qəribədir. İbn Teymiyyənin məcazi mənanı inkar etməkdə etimad etdiyi dəlillərə nəzər salmadan əvvəl məcazi və həqiqi mənanın mahiyyətini izah etməliyik ki, bu iki məfhum barəsində oxucuya müəyyən anlayış təqdim edək.

Həqiqi mənanın tərifi

Həqiqi məna hər hansı bir dəlil və ya nişanə olmadan sözün onun üçün təyin olunmuş mənada işlədilməsidir. Üsul alimləri həqiqi mənanı üç qismə bölmüşlər: 1. Şəriət baxımından həqiqi məna. 2. Dildə həqiqi məna. 3. Ürf baxımından həqiqi məna.

Şəriət baxımından həqiqi mənaya gəlincə, şəriətin müəyyən mənalara xüsusi sözləri təyin etməsidir. Məsələn, "salət" sözünü şəriət namaz mənasından anlaşılan xüsusi məna üçün təyin etmişdir. Həmçinin "saum" sözünün müəyyən əməllərdən çəkinmək, "zəkat" sözünü sədəqə mənasında təyin etmişdir.

Dilçilikdə həqiqi mənaya gəlincə, şəriət bu məsələyə müdaxilə etmir. Əksinə dil özü sözləri müəyyən mənalar üçün təyin etmişdir. Məsələn, daş və ağac kəlmələri kimi.

Ürf baxımından həqiqi mənaya gəlincə isə, dildə təyin olunmuş mənaya müxalif olsa da, söz ürfün işlədilməsinə əsasən xüsusi məna daşıyır.

Məcazi mənanın tərifi

Məcazi məna öz mənasından fərqli mənada işlədilən sözdür. Bu söz "cazəş-şeyə" bir şeyi aşıb keçmək mənasını verən "cazə" şərti məsdərindən götürülmüşdür. Əgər söz dildə onun üçün təyin olunmuş

[370] Bax; Doktor Əbdülmuhsin Əskəri, "əl-Məcaz fil-luğəti vəl-Quran" adlı mühazirədən. www.alquran.org.sa

mənadan keçərək başqa mənada ilşədilərsə bu, məcaz adlanır. Bu anlamda ki, sözü öz əsl mənasından başqa mənaya daşımışlar. Yaxud həmin söz onun üçün təyin olunmuş mənanı keçərək başqa mənaya dəlalət edir.

Məcazi mənanın növləri

Məcazi məna ya sözün özündən qaynaqlanır, yaxud isnadda məcazi mənada olur. Əgər məcazi məna sözün özündən qaynaqlanırsa, belə ki, söz onun üçün təyin olunmuş mənadan başqa bir mənada işlədilərsə, həmin söz ya müfrəd (tək), ya da mürəkkəb olur.

1. Müfrəd məcazi məna

Öz mənasından başqa mənada işlədilən sözün birinci məna ilə ikinci məna arasında əlaqənin olduğu və birinci mənanın nəzərdə tutulmaması halda əgər iki məna arasında oxşar bağlılıq varsa, belə məcazi məna istiarə adlanır. Məsələn, belə deyilir: Əlində qılınc tutan bir aslan gördüm. Burada məqsəd şücaətli insan nəzərdə tutulur. Əgər birinci məna ilə ikinici arasındakı bağlılıq oxşar cəhət deyilsə, mursəl məcaz adlanır. Necə ki, Allah-taala buyurur: “Sənin onları bağışlamağın üçün mən nə zaman onları (imana) dəvət etdimsə, onlar (dəvətimi eşitməsinlər deyə) barmaqlarının tərəflərini qulaqlarına tıxadılar...”[371] Burada barmaqlarının tərəflərindən məqsəd barmaqlarının uclarıdır.

Musrəl məcazın səbəblik, nəticəlik, cüzilik, küllilik və başqa əlaqələri var.

2. Mürəkkəb məcaz

Bu, birinci və ikinci məna arasındakı əlaqəyə əsasən mürəkkəb kəlmənin öz mənasından fərqli mənada işlədilməsidir. Məsələn, hər hansı

[371] Nuh, 7

bir iş görməkdə tərəddüd edən şəxsə belə deyirsən: “Sənin bir addım irəli atıb bir addım geri atdığını görürəm”. Burada kəlimə deyil, cümlə bütövlükdə məcazi mənadadır.

3. Sözün həzf olunması (deyilməyib nəzərdə tutulması) ilə məcazi məna

Allah-taala buyurur: “Kənddən soruş”. Yəni kənd əhalisindən soruş. Çünki kənd daş-divar mənasındadır, insan və cəmiyyət mənasında deyil. Burada əhali sözü pozulmuşdur.

4. Əqli məcaz

Əgər məcazilik sözün özündən qaynaqlanmırsa, başqa sözə istinad edildikdə məcazi məna hasil olursa, əqli məcaz adlanır. Əqli məcaz feli və ya fel mənasında olan sözü nisbət verilməsinə layiq olmayan bir şeyə nisbət verilməsidir. Bu şərtlə ki, münasib olan bir şeyə nisbət verilməsinə dəlalət edən əlamət olsun. Felin məkan zərfinə nisbət verilməsi bu növ məcazdandır. Məsələn, çay axdı. Əslində həqiqi fail (işi icra edən) sudur. Buna görə də “Su çayda axdı” deyilməlidir. Felin səbəbə nisbət verilməsi də bu növdəndir. Məsələn, əmir qəsri inşa etdi. Əslində felin həqiqi failə, yəni bənna və fəhlələrə nisbət verilməsi daha münasib olardı. Belə deyilməli idi: “Bənnalar əmirin tapşırığı ilə qəsri tikdilər”. Lakin binanın inşa olunmasında səbəb olan tərəfə, yəni əmirə nisbət verilmişdir. Buradakı nisbət məcazi mənadadır.[372]

Məcazi məna inkar olunmaz həqiqətdir

Məcazi məna aşkar bir həqiqətdir, onu ləğv etmək və ya qarşısına maneə çəkmək olmaz. Muhəddis (hədis alimi), fəqih, müfəssir (Quranı

[372] Bax; Ümum Ərəb ensiklopediyası. Məcaz sözünün izahı. Metaphor

təfsir edən) və dilçi ondan imtina edə bilməz. Hər hansı bir şəxsin araşdırdığı istər Quran, istərsə də hədis mətni olsun lüğəti mənaları nəzərdən keçirməlidir. Xüsusilə də bəlağət və fəsahətin gözəlliklərini özündə ehtiva edən ərəb dilində olan mətnlərlə belə davranmaq lazımdır.

Əbu Ubeydə[373] Quranda məzaci məna barədə belə deyir: "Quranda ərəb kəlamında olan gözəlliklər və mənalar var. Ehtimal olunur ki, ixtisar olunmuş məcaz, həzf məcaz, xəbəri əvəz edən məcaz, tək ləfzlə qeyd olunan, amma hamıya dəlalət edən məcaz, cəmə dəlalət edən sözün iki nəfərə aid olması məcazı, cəmin xəbərində işlədilən sözün təkin xəbəri olması məcazı, cəm mənasında gəlib başqa müfrədlə müştərək olduqda təki bildirən məcaz, iki və ya daha çox varlıq barəsində xəbər verildikdə təkin və ya cəmin xəbərinin işlədilməsi və başqasının xəbərini əvəz edən məcaz. İki və ya daha çox barədə xəbər verildikdə xəbərin onlardan birinə aid olması məcazı, iki və ya daha çox barəsində xəbər verildikdə xəbərin onlardan fərqli birinə aid olması məcazı, heyvan və ya ölmüş varlıqlar barədə xəbər verilərkən xəbərin insana aid olması məcazı, hazır olmayana edilən xitabla hazır olana xitab etmək macazı, hazır olana xitab edildikdən sonra həmin xitabın hazır olmayana aid edilməsi məcazı, əlavə hərflərin artırılması ilə həmin hərflərin atılması ilə sözdə yaranan məcaz, aşkar etməməklə gizli qalma məcazı, təkid üçün təkrar məcazı, təkrarın

[373] Zəhəbi deyir: "Əbu Ubeydə, əllamə, imam, elm dəryası Muəmmər bin əl-Musənna ət-Teymi. Bir neçə əsərin müəllifidir". Cahiz belə deyib: "Yer üzərində nə camaat içərisində, nə də xaricində bütün elmləri Əbu Ubeydədən daha çox bilən bir kəs yox idi". Yəqub bin Şeybə belə deyib: "Əli bin Mədininin Əbu Ubeydəni xatırladığını və onu yaxşılıqla yad etdiyini, nəql etdiyi hədisləri səhih hesab etdiyini eşitdim". Onun barəsində belə demişdir: "O, ərəblərdən yalnız səhih olanı nəql etmişdir". Mubərrid deyib: "O və Əsməi nəhv elmində bir-birnə yaxın idilər. Əbu Ubeydə qövmün ən kamili idi". Deyilənə görə iki yüz doqquzuncu ildə vəfat etmişdir. Həmçinin iki yüz onuncu ildə vəfat etdiyi də deyilmişdir". Siyəru əlamin-nubəla, c. 9, s. 345, 347

çoxluğundan xilas olmaq üçün müxtəsərlik məcazı, önə keçirilən və ya sona keçirilən məcaz, onunla eyni səbəbdə olduğu üçün xəbəri başqasının xəbərinə çevrilməsi macazı. Bütün bunlar icazəlidir".[374]

İbn Cinni (vəfat tarixi 392 h.)[375] "əl-Xəsais" kitabında belə deyir: "Bil ki, dilin əksəriyyəti diqqət edildikdə həqiqi deyil, məcazi mənadadır. Əgər sənə: "Qəlbimdə sənə ev tikmişəm" və ya "Səxavətdən səmimi bir qul əldə etmişəm", yaxud "Sənin barədə gümanım və etibarımdan sənə doğruluq yurdu bəxş etmişəm" deyərsə bu, məcazi mənadadır. Çünki burada baş vermiş şeylərə təkid və təşbih mənasında istiarə var. Dildə məcazi mənanın çox növləri var. Sözün pozulması, əlavə edilmişlər, sözün əvvələ keçirilməsi, sözün təxiri, müəyyən mənaya yozmaq, təhrif kimi növləri var. Görmürsənmi əgər sən desən ki: "Bənu filanı (hər hansı tayfanı) yol ayaqlayır" burada sən tapdalanması mümkün olmayan bir şeyin tapdalanması mümkün olan bir şeylə tapdalanması barədə xəbər verirsən. Buradakı məcazi mənaya diqqət etmirsənmi? Burada təşbihin əlaqəsi yol üzərində gedənlər barədə xəbər verməkdir. Çünki yol onlara aparıb çıxarır. Sanki yol onlardır".[376]

---

[374] Məcazul-Quran, s. 18,19

[375] İbn Cinni, ərəb dilinin imamı, Əbulfəth Osman bin Cinni əl-Musuli. Çoxlu sayda əsərlərin müəllifidir. Yaqutun "Tarixil-udəba" kitabında onun geniş tərcümeyi-halı qeyd olunmuşdur. Əbu Əli Farisi ilə yoldaşlıq etmişdir. Onunla səfərlərə çıxmış, məharət və bacarıq sahibi olduqdan sonra əsərlər yazmağa başlamışdır. Bağdadda yaşamışdır. Onun sayəsində böyük alimlər yetişmişdir. Onun "Sittus-sinaəti vəl-luməu", "ət-Təsrif", ət-Təlqin fin-nəhv", "ət-Təaqub", "əl-Xəsais" kitablarını qeyd etmək olar. Üç yüz doxsan ikinci ildə səfər ayında vəfat etmişdir". Siyəru-əlamin-nubəla, c. 17, s. 18, 19

Səmani əl-Ənsab kitabında belə deyir: "Nəhv alimi, tədqiqatçı və əsərlər müəllifi Əbulfəth Osman bin Cinni. İbn Makula onun barəsində: "Mahir və gözəl nəhv alimi idi" demişdir". əl-Ənsab, c. 2, s. 100

[376] əl-Xəsais, c. 2,s. 446, 447

İbn Quteybə “Təvilu muşkilil-Quran” kitabında məcazi mənanı inkar edənlərə cavab olaraq belə deyir: “Məcazi mənaya görə Qurana tənə vuranlara gəlincə, onlar məcazi mənanın yalan olmasını iddia edirlər. Çünki divar danışmır, kənddən bir şey soruşulmaz. Bu, onların ən səviyyəsiz cahilliklərinə, pis düşüncələrinə və az fəhmlərinə dəlalət edir”.[377]

Həmçinin Cürcaninin məcazi mənanı inkar edənlərə qarşı sərt danışdığını görürük: “Məcazi mənya tənə vuran, onun doğru olmayan kimi vəsf edən kəs böyük cahillik etmişdir. Onun boş-boş çərənləməsi gizli deyil”. [378]

Həmçinin Siyuti məcazi mənanı inkar edənlərə cavab verərək belə deyir: “Bu, batil şübhədir. Əgər Quranda məcazi məna olmadığını desək, onun gözəlliyinin yarısını aradan aparmış olarıq. Bəlağət alimləri məcazi mənanın həqiqi mənadan daha ifadəli olduğunu deyirlər. Əgər Quranda məcazi məna olmaması vacibdirsə, onun həzf (sözün pozulması növündən olan məcazi məna), təkid, əhvalatlarını təkrar olunması və başqalarının da olmaması vacibdir”.[379]

Deməli, məcazi məna həqiqətdir və onun inkar edilməsi az qala bədihi və zəruri bir məsələnin inkarıdır. Lakin bununla yanaşı görürük ki, İbn Teymiyyə bu aşkar həqiqəti inkar edir. İndi isə İbn Teymiyyənin dəlillərini və həmin dəlillərə müfəssəl cavabları qeyd edəcəyik.

Məcazi mənanı inkarı barədə İbn Teymiyyənin dəlilləri

Şeyxul-islam İbn Teymiyyənin Quranın təvilinə və mütəşabih hədislərin yozumuna qarşı ən əsas dəlillərindən ikisini qeyd edirik.

---

[377] Təvilu muşkilil-Quran, s. 132

[378] Əsrarul-bəlağə, s. 292

[379] əl-İtqan fi ulumil-Quran, c. 2, s. 97

1. Hədis, təfsir və dilçilik elminin məşhur imamları sözü həqiqi və məcazi mənaya bölməmişlər

İbn Teymiyyə Məcmu əl-fətəva kitabında deyir: "Əgər sonrakı dövrün mötəzilə alimlərinin, kəlam elminin nümayəndələrinin və onların yolunu gedən fəqihlərin bu bölgünü qəbul etmələrini kimsə deyərsə, ona belə cavab verilər: "Şübhəsiz ki, onların əksəriyyəti bu bölgünü qəbul etmişdir. Lakin onların arasında İslam elmlərindən nə təfsir, nə hədis, nə fiqh, nə də dilçilikdə, nə də ki, nəhv elmində imam olacaq biri yoxdur. Əksinə Xəlil, Siybəveyh, Kisai, Fərra kimi dilçilik və nəhv imamları onların bölgüsü kimi bölgü aparmamışdırlar".[380]

Həmçinin belə deyir: "Usulul-fiqh elmində kəlamı mücərrədləşdirən ilk şəxs Şafei olmuşdur. O, kəlamı həqiqi və məcaziyə bölməmişdir. Hətta o, dəlil gətirməkdə əhatəli olması və şəri dəlillərdən agah olması ilə yanaşı heç bir şeyi məcazi adlandırmamışdır. Nə kitablarında, nə risalədə, nə də ki, qeyrisində belə bir şey qeyd etməmişdir. Deməli, kim məşhur müctəhidlər, İslam imamları və sələf alimlərindən başqalarının kəlamı həqiqi və məcazi mənalarına bölmələrinə etiqad bəsləyərsə – necə ki, sonrakı dövrün alimlərindən bir dəstəsi belə etmişdir – bu, onun cahilliyindən, din imamlarının və müsəlmanların sələflərinin kəlamından xəbərsiz olmasından irəli gəlir".[381]

Cavab: Hədis alimləri məcazi mənanı qəbul edirlər

Hədis alimlərinə gəlincə, İbn Həcər "cənabət halında dəstəmaz alan şəxs" babında Buxarinin rəyini izah edərək belə deyir: "Mənə belə aydın olur ki, Buxari "sonra bədənini yudu" sözünü məcazi mənaya yozmuşdur.

[380] Məcmul-fətəva, c. 20, s. 404

[381] Məcmul-fətəva, c. 20, s. 403

Yəni qeyd etdiklərimizdən sonra bədəninin qalan hissəsini. Buna dəlil ondan sonra “ayaqlarını yudu” sözüdür. Çünki “bədənini yudu” sözü əgər ümumi mənada anlaşılarsa, yenidən ayaqların yuyulmasını dəlil gətirməzdi. Çünki ayaqların yuyulması ümumi bədənin yuyulmasına daxildir. Bu, Buxarinin davranışına bənzər hallardandır. Çünki gizliyə aşkardan daha çox əhəmiyyət vermək onun şənindəndir”.[382]

Deməli, hədis alimlərinin imamı Buxari həqiqi mənanın bölgü üzvü olan məcazi mənanın olmasını qəbul edir. İbn Həcər Səhih Buxarinin sözlərinin ehtiva etdiyi mənalardan xəbərdar olan biridir. Bu barədə onun rəyini bəyan etmişdir.

Nəvəvi (vəfat tarixi 686h.) Rovzətut-talibin kitabında Rafinin sözlərini qeyd etdikdən sonra talaq vermənin formaları barədə danışarkən belə deyir: “Ən yaxşısı həqiqi məna ilə məcazi məna arasında müştərək olanı qəbul etməkdir. Belə deyilməlidir: “Əgər həmin felin baş verməsi üçün səy etməməyi niyyət edərsə, yerinə yetirməkdən və yerinə yetirilməsini əmr etməkdən çəkinər. Çünki məna genişdir. Bu mənanı nəzərdə tutmaq, yalnız məcazi mənanı nəzərdə tutmaqdır.

Mən deyirəm: Rafinin dediyi bu söz yaxşıdır. Birincisi, Şafeinin məzhəbinə əsasən səhihdir. Bizim qədim alimlərimizin əksəriyyəti bir sözlə həqiqi və məcazi mənanı nəzərdə tutmağın mümkünlüyünü demişlər. Allah ən doğrusunu bilir”.[383]

Deməli, Nəvəvi hicri altıncı əsrin alimlərindən olmasına baxmayaraq qədim alimlərinin əksəriyyətinin sözlərin həqiqi və məcazi mənalarını etiraf etdiklərini təsdiqləyir.

İndi də İbn Teymiyyənin məcazi mənanın hicri üçüncü əsrdən sonra meydana gəlməsi barədə iddiasını araşdıracayıq. Bu məsələ barədə qədim

[382] Fəthul-bari, c. 1, s. 328

[383] Rovzətut-talibin, c. 8, s. 43, 44

imamların rəylərini müfəssəl surətdə qeyd edəcəyik. Bəlkə də Nəvəvi onları nəzərdə tutmuşdur.

Təfsir alimləri məcazi mənadan istifadə etmişlər

İkinci və üçüncü yüz illiklərin təfsir alimlərinin rəylərini qeyd edəcəyik.

1. Haris bin Əsəd Mühasibi (vəfat tarixi 234 h.)

O, məcazi mənanı qeyd edir və onu "əl-izmar" (gizlətmə, mənanın gizlədilməsi) adlandıraraq belə deyir: ***"...Çünki küfrləri üzündən buzov qəlblərini bürümüşdü"***[384] ayəsi buna aiddir. Burada inəyin məhəbbəti nəzərdə tutulur. Həmçinin ***"Olduğumuz şəhərdən (Misir əhalisindən) də,.. soruş"***[385] ayəsində şəhər əhalisindən soruşmaq nəzərdə tutlur. Həmçinin ***"birlikdə gəldiyimiz karvandan da soruş"***[386] ayəsində kərvan əshabından soruş nəzərdə tutulur".[387]

2. Təbəri (vəfat tarixi 310 h.)

Təbərinin təfsiri İbn Teymiyyənin etimad və istinad etdiyi təfsirlərdəndir. Hətta bu təfsir İslamda doğru danışan dil hesab olunur. Bu, Təbərinin sözlərinin xüsusilə, İbn Teymiyyə üçün etibarlı və höccət olmasına dəlildir. İbn Teymiyyə onun haqqında belə deyir: "Təfsir alimlərindən olan imamların ittifaqına əsasən mötəbər sənədlərlə nəql edən İbn Cureyc, Səid bin Əbu Urubə, İbn cərir Təbəri, İbn Hatəm və

[384] Bəqərə, 93

[385] Yusif, 83

[386] Yusif, 83

[387] Fəhmul-Qurani və məanihi, c. 1, s. 259

İslamda doğru danışan dil hesab olunan başqa böyük alimlərin təfsirləri etimad olunan rəvayətləri ehtiva edir.[388]

Təbəri Camiul-bəyan adlı təfsirində ***"Orada ayı bir nur, günəşi də bir çıraq etdi"[389]*** ayəsinin təfsirində Zəhhakın sözlərindən sonra belə deyir: "Bəsrə əhlindən olan bəzi ərəb dilçiləri belə deyirlər: "Orada ayı bir nur, günəşi də bir çıraq etdi" ayəsi məcazi mənadadır. Necə ki, "Bəni Təmim tayfasının yanına gəldim"sözündə onların bəzilərinin yanına gəldiyi (başa düşülür)...[390]

Sonra Təbəri ***"Və Allah sizi (atanız Adəmi) yerdən (torpaqdan) bir bitki kimi göyərtdi"[391]*** ayəsi barədə danışır. Bu ayəni məcazi mənada təfsir edir. Yəni Allah-taala sizi yerin torpağından yaratmışdır.

Təbəri ayənin mənasını düzgün anlamaq üçün ərəb dilçi alimlərinə istinad edir. Təbii ki, onlardan yan keçmək mümkün deyil. Çünki Quran ərəb dilində nazil olmuşdur. Buna əsasən də onun mənasını anlamaq üçün bu dili dərin bilmək lazımdır. Bu dil olduqca əhatəlidir, bəlağət, fəsahət, bəyan, məcaz və bədiilik ehtiva edir.

3. Nəhhas (vəfat tarixi 338 h.)

Allah-taala buyurur: ***"Xeyr, yalnız Ona (Allaha) dua edib yalvaracaqsınız. O əgər istəsə, yalvardığınızı aradan qaldırar..."[392]*** Bu ayə məcazi mənadadır. Mənası budur ki, yalvardığınız bəlanı aradan qaldırar. Bu ayə "Olduğumuz şəhərdən soruş" ayəsindəki kimi məcazi mənadadır".[393]

---

[388] Minhacus-sunnə, c. 7, s. 178, 179

[389] Nuh, 16

[390] Camiul-bəyan, c. 29, s. 120

[391] Nuh, 17

[392] Ənam, 41

[393] Məanil-Quran, c. 2, s. 423

4. Cəssas (vəfat tarixi 370 h.)

Cəssas ***"Ey Rəbbim! Mənə də Öz tərəfindən pak bir övlad bəxş et!"***[394] ayəsinin təfsirində belə deyir: Burada bəxşiş mal sərf etmədən bir şeyə sahib olmaqdır. Belə deyirlər: "Öz aralarında bu şeyi bir-birinə bəxşiş etdilər". Allah-taala burada hədiyə sözünü məcazi mənada işlətmişdir. Çünki əslində burada heç bir hədiyə yoxdur".[395]

Dilçi alimlər öz əsərlərində məcazi mənadan istifadə etmişlər

İbn Teymiyyənin əleyhilərinə danışdığı ərəb dilçi alimlərinə gəlincə, onların bəzilərinin məcazi mənanı təsdiqlədiklərini qeyd edirik:

1. Siybəveyh (vəfat tarixi 180 h.)[396]

Sibəveyh aşkar surətdə məcazi məna barəsində danışmışdır. O, məcazi mənanı "siə" (əhatəlik) və "təvəssu" adlandırırdı. Lakin İbn Teymiyyə bu mənadan ya qəflətdə olmuş, ya da özünü bilməməzliyə vurmuşdur. Halbuki bu termin qeyd etdiyimiz kimi dilçi alimlərin və təfsirçilərin əksəriyyətinin işlətdiyi bir termindir. Siybəveyh məcazi məna barəsində belə deyir: "Kəlamın əhatəli olması barədə olanlardan biri də Allah-taalanın bu ayəsidir. "Olduğumuz şəhərdən (Misir əhalisindən) də,

[394] Ali-İmran, 38

[395] Əhkamul-Quran, c. 2, s. 15

[396] Ömr bin Osman bin Qənbər Harisi Əbu Bəşər. Siybəveyh ləqəbi ilə tanınmışdır. Nəhv alimlərinin imamıdır. Nəhv elmini geniş izah edən ilk şəxsdir. Şirazın kəndlərinin birində dünyaya gəlmişdir. Sonra Bəsrə şəhərinə gəlmişdir. Xəlil bin Əhmədlə birlikdə olmuş və bu elmdə ondan da üstün olmuşdur. Kitabu Siybəveyh fin-nəhv adlı kitab yazmışdır. Onun kitabı kimi nə əvvəlkilər, nə də ki, sonrakılar bir kitab yazmamışlar. əl-Əlamu, c. 5, s. 81. İbn Teymiyyə belə demişdir: "Xalq içərisində heç kim Siybəveyhin kitabı kimi bir kitab yaza bilməz". ən-Nubuvvat, c. 1, s. 15

birlikdə gəldiyimiz karvandan da soruş”.[397] Burada şəhər əhalisi nəzərdə tutulur. Lakin ixtisar edilmişdir. Burada fel əhali sözü olacağa təqdirdə edəcəyi işi şəhər sözü üzərində etmişdir.

Həmçinin ***“Xeyr bəs gecə-gündüzün hiylələri?”***[398] Burada gecə-gündüz qurduğunuz hiylələr nəzərdə tutulur. Allah-taala buyurur: ***“Yaxşı əməl əslində Allaha...inanan...”***[399] Burada məqsəd yaxşı əməl sahibi Allaha və axirətə inanandır”.[400]

Məhz buna əsasən də Şatibi belə deyir: “Siybəveyh nəhv elmi barəsində danışsa da sözlərində ərəblərin sözləri işlətmələri və mənaları barədə məqsədlərini bəyan etmiş, təkcə bütün faillər (feli icra edən, feli cümlədə mübtəda) mərfudur (adlıq haldadır), hər bir məful (üzərində iş icra olunan, tamamlıq) mənsubdur (təsirlik haldadır) deməklə kifayətlənməmişdir. Əksinə o, hər babı (mövzunu) şəninə layiq surətdə bəyan etmişdir. Hətta onun sözləri bəyan, məani, sözlərin və mənaların işlədilmə xüsusiyyətlərini də ehtiva edirdi”.[401]

Bu, dəlalət edir ki, Siybəveyh bəlağət və fəsahət elminin bütün üslublarından, eləcə də, məcazi mənadan istifadə etmişdir.

Siybəveyhin “təvəssu” adlandırdığı bu üslubun məcazi məna olmasına dəlalət edən dəlillərdən biri də budur ki, onun gətirdiyi misallar eynilə bəlağət kitablarında qeyd olunanlardır. Həmçinin ondan sonra gələn İslam alimləri kitablarında bunu məcazi məna adlandırmışlar. Bu qəbildən olan alimlər sayılması mümkün olmayacaq dərəcədə çox saylıdır. Həmin alimlər məcazi mənadan istifadə edərkən onu bəzən məcaz, bəzən isə

[397] Yusif, 82

[398] Səbə, 33

[399] Bəqərə, 177

[400] Kitabu Siybəveyh, c. 1, s. 212

[401] əl-Muvafiqat, c. 4, s. 116

təvəssu adlandırmışlar. “Bu məcazdır və təvəssudur” deyə alimlərinin kitablarında otuzdan çox yerdə qeyd olunmuşdur. Bu, dəlalət edir ki, Siybəveyhin təvəssu adlandırdığı məhz elə məcazi mənadır. Bu, təfsirə (mənaya) və ya sinonim sözə ətf etmək (bağlayıcı vasitəsilə bağlanmaq) qəbildəndir.[402]

2. Əxfəş (vəfat tarixi 215 h.)[403]

O, ərəb dilinin nəhv elmində görkəmli bir alim və dilçilik elminin liderlərindən biri idi. O, ***“...sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)!”[404]*** ayəsinin təfsirində belə deyir. Bu, məcazi mənadadır. Burada səma sözünü təkdə qeyd etmişdir. Çünki burada səma sözü (təkdə işlədilməsinə baxmayaraq) bütün səmalara dəlalət edir”.[405]

3. Əbulhuseyn Əhməd bin Faris bin Zəkəriyyə (vəfat tarixi 390 h.)

O, əs-Sahibi fi fiqhil-luğəti kitabında sünənil-ərəbi fi həqaiail-kəlami vəl-məcaz babında belə deyir: “Həqiqi və məcazi mənada belə deyirik: “Həqiqət; “həqqə "حق الشيئ" yəni vacib oldu. Möhkəm mənasını bildirən

---

[402] Bax; Əbdülmuhsin bin Əbdüləziz Əskər, “əl-Məcaz fil-luğəti vəl-Quran” adlı mühazirəsindən. www.alquran.org.sa

[403] İbn Xəlkan belə deyir: “Əbülhəsən Səid bin Musədə əl-Məcaşii əl-Bəlxi. əl-Əxfəşul-əvsat adı ilə tanınmışdır. Bəsrənin nəhv alimlərindən biri olmuşdur. O, ərəb dilinin imamlarından biri idi. Nəhv elmini Siybəveyhdən öyrənmişdir. Nəhvdə ondan böyük idi. O, belə demişdir: “Siybəveyh kitabında yazdığı elə bir şey yoxdur ki, əvvəlcə mənə göstərməsin. O, özünü məndən bilikli hesab edirdi. Bu gün mən bu elmdə ondan daha elmliyəm”. Vəfiyyatul-əyan, c. 2, s. 381, 382

[404] Bəqərə, 29

[405] Məanil-Quran, c. 1, s. 61

“muhəqqəq” şeydən yaranmasını bildirir. Məsələn, "ثوب محقق النسخ" dedikdə möhkəm libas nəzərdə tutulur.

Şafeinin sözü həqiqi və məcazi mənaya bölməməsi iddiası yalandır

İbn Teymiyyənini Şafei barəsində dediyi: “Usulul-fiqh elmində kəlamı mücərrədləşdirən ilk şəxs Şafei olmuşdur. O, kəlamı həqiqi və məcaziyə bölməmişdir. Hətta o, dəlil gətirməkdə əhatəli olması və şəri dəlillərdən agah olması ilə yanaşı heç bir şeyi məcazi adlandırmamışdır.”[406] Bu sözlərə gəlincə, belə deyirik: “Ola bilər ki, İbn Teymiyyə Şafeinin məcazi mənanın bir termin kimi işlətmədiyini deməkdə doğru söyləyir. Lakin Şafei bu terminin məzmununu ər-Risalə kitabında bir neçə dəfə təkrar etmişdir. Şafeinin və ya qeyrilərinin yaxud ondan əvvəl yaşamış alimlərinin bu terminin adını qeyd etmələri zəruri deyil. Əksinə bu terminin məzmun mənasını qeyd etmələri yetərlidir. Bu imamların qeyd etdikləri məna onların məqsəd və məramlarını əks etdirir.

Şafeinin məcazi mənanı qəbul etməsinə dəlalət edən sözlərindən biri də adı çəkilən kitabda dediyi sözlərdir: O, həmin kitabda deyir: “Beşinci bəyan: Allah kitabında ərəblərə öz dillərində başa düşdükləri mənada xitab etmişdir. Ərəb dilinin başa düşülən mənalarından biri də həmin dilin genişliyidir. Bu dilin təbiətinə əsasən bir şeyin ümumi və zahiri mənası deyilir və ümumi zahir nəzərdə tutulur. Bununla da başqa mənanın nəzərdə tutulmadığını bildirir. Bəzən də ümumi zahiri məna ilə xitab edir ümumi nəzərdə tutulur və xüsusi və ona aid olur. Bununla da xitab olunanın bir hissəsi ilə buna dəlil gətirilir. Bəzən də ümumi zahiri məna ilə xitab olunur və xüsusi nəzərdə tutulur. Zahiri mənanın üslubundan bilinir ki, ondan məqsəd zahiri deyil. Bütün bunların bilgisi kəlamın əvvəlində,

[406] Məcmu əl-fətava, c. 20, s. 403

ortasında və ya sonunda mövcuddur... bəzən elə şey deyir ki, başqa sözlə izah olunmağa ehtiyac olmadan, işarəni bildiyin kimi onu da bilirsən. Sonra bu kəlamın ən üstünü olur. Çünki bu, cahil olanlara deyil, elm əhlinə məxsusdur".[407]

Deməli, Şafei qeyd edir ki. Quran-kərim ərəblərin təbiətlərinə və dillərinə münasib tərzdə nazil olmuşdur. Bu dil çeşidli məna çoxluğu ilə olduqca zəngindir. Bu dildə ümumi və xüsusi mənalar var. Elə sözlər var ki, onun mənası zahiri mənada deyil. Həmin sözləri fitrətə münasib tərzdə yozmaq lazımdır. Kəlamda elə üslublar var ki, onu dərk etmədən kəlamın zahirinə əsasən hökm çıxarmaq olmaz.

İmam Şafeinin məcazi məna barədə qeyd etdiyi nümunələr

Sonra İmam Şafei ərəblərə yönəlmiş ilahi xitabın onların dilində olması və ərəb dilininin mənalarından birinin də onun geniş (məcazi məna) olması barədə dediyi sözlərin təsdiqi üçün bəzi nümunələr qeyd edərək belə deyir: "Allah təbarəkə və təala Yusifin qardaşlarının sözlərini nəql edərək buyurur: ***"...Biz ancaq bildiyimiz şey barəsində şahidlik edirik. Biz qeybi mühafizə edən deyilik. Olduğumuz şəhərdən də, birlikdə gəldiyimiz karvandan da soruş. Biz, həqiqətən, doğru danışanlarıq!"***[408] Bu ayə və bu mənada olan əvvəlki ayələr dili bilən elm əhlinin nəzərində bir mənalı olaraq onların atalarına şəhər əhalisindən və kərvan əhlindən soruşduqlarını deyirlər. Çünki şəhər və karvandan onların doğru söyləmələri barədə bir şey soruşulmaz".[409]

Bu sözlər onun qeyd etdiyi nümunələrə əsasən aşkarcasına məcazi mənaya dəlalət edir. Yusifin qardaşlarının doğru danışması şəhər və

[407] ər-Risalə, s. 51, 52

[408] Yusif, 81-82

[409] ər-Risalə, s. 64

kərvandan deyil, şəhər əhalisindən və kərvanda olanlardan soruşmaqla baş tuta bilərdi.

Zərkəşli Şafeinin aşkarcasına məcazi mənanı qəbul etdiyini bəyan edir

Həmçinin Zərkəşli – o, Şafeinin sözlərini İbn Teymiyyədən daha yaxşı bilir – "əl-Bəhrul-muhit fi usulil-fiqh" kitabında Şafeinin "əl-Umm" kitabında namaz və oruc kimi şəriət terminlərinin mövzusu bəhsində son söz fəslində məcaz sözünü işlətməsini demişdir.

O, belə deyir: "Şafei "əl-Umm" kitabında bunun məcazi mənadan olduğunu demişdir. İbn Ləbban da "əl-Umm" kitabının tərtibatında bunu demişdir".[410]

Əhməd Mahmud Şakir[411] Şafeinin məcazi mənanı işlətdiyini bəyan edir

Həmçinin Şeyx Əhməd Mahmud Şakirin ər-Risalə kitabını tədqiq edərkən Şafeinin məcazi mənanı qəbul etməsinə bəzi dəlillər qeyd etdiyini görürük. O, Şafeinin "Rəsulullah bu növ yeyilən şeyləri xaric etdikdə..." sözlərinin ardınca belə deyir: "Bu, məcazi mənadadır. Çünki təsirli fel öz-

[410] əl-Bəhrul-muhit fi usuili-fiqh, c. 1, s. 522

[411] Əhməd bin Muhəmməd Şakir bin Əhməd bin Əbdülqadir. Hədis və təfsir alimi. Misirlidir. Qahirədə dünyaya gəlmiş və orada vəfat etmişdir. Valideyinləri Misirin Crəca bölgəsindəndir. Məhkəmə işlərində bəzi vəzifələr daşımışdır. Sonra 1951-ci ilədək Ali Şəri Məhkəmənin baş hakimi vəzifəsində işləmişdir. Təqaüdə çıxdıqdan sonra vəfat edənədək kitab yazmaqla məşğul olmuşdur. Ən böyük işi Əhməd bin Hənbəlin Müsnədinin 15 cildinə şərh yazmaq olub. Həmçinin İbn Kəsirin təfsirinin ixtisar edərək dörd cilddə Umdətut-təfsir adlı təfsir yazmışdır. Onun kitablarından biri də hər hansı məzhəbə aid olmayan "Nizamut-talaq fil-İslam" kitabıdır. əl-Əlam, c. 1, s. 253

özlüyündə təsirli fel olmur. Təsirsiz fel ön qoşma, həmzə və ya eynul-felin (tipik samitin) təşdidli olması ilə təsirli olur. Bu sözün məcazi mənada olmasını demişlər. Mənə belə gəlir ki, Şafei bu məcazi mənanı işlətmişdir. Lakin felin tipik samitin təşdidilə deyil, ön qoşma ilə təsirli olması yolu ilə işlətmişdir".[412]

Qeyd etdiklərimizdən məlum olur ki, İbn Teymiyyənin iddiası doğru deyil. Şafei həqiqi məna müqabilində məcazi mənanın olmasını qəbul etmişdir.

2. Sözün həqiqi və məcazi mənaya bölünməsi hicri üçüncü əsrdən sonra baş vermişdir

İbn Teymiyyənin məcazi mənanın olmaması barədə etdiyi ikinci iddia onun bu sözləridir: "Bu bölgü üçüncü əsrdən sonra meydana çıxmış bir bölgüdür. Bu barədə nə səhabələrdən, nə onlara yaxşılıqla tabe olanlardan, nə də Malik, Sovri, Əvzəi, Əbu Hənifə və Şafei kimi elmdə məşhur olan imamlardan heç kim bir söz deməmişdir".[413]

Bu iddianın cavabı

İbn Teymiyyənin yuxarıda qeyd etdiyimiz sözlərinə gəlincə, təbiidir ki, bəzi terminlər mövzudan sonra formalaşmışdır. Xüsusilə də dini mətnlərin (hədislərin) qələmə alınması sonradan baş vermişdi, hətta müəyyən zaman kəsiyində qadağan olunmuşdur. Dini mətnlərin qələmə alınmasından sonra səhabələrin sözləri və ya onların sözlərinin məzmunu əsasında bəzi terminlər formalaşmışdır. Əgər bu günkü terminlərə nəzər salsaq görərik ki, səhabələrin və ya tabeinlərin zamanından qələmə alınanlardan fərqlidir. Bu, təbii bir məsələdir. Lakin bu, həmin zamanda

[412] ər-Risalə, haşiyə, s. 523

[413] Məcmu əl-fətəva, c. 7, s. 88

məcazi mənanın və qeyrisinin olmaması demək deyil. Səhabələrdən İbn Abbas, tabeinlərdən Qətadə, Mücahid və başqaları məcazi mənadan istifadə etmişlər. Sələf və xələfin təvili mövzusu barədə danışdıqda bunu qeyd edəcəyik.

Doktor Əskər məcazi məna termininin üçüncü əsrdən sonra meydana gəlməsi iddiasını rədd edir

Doktor Əbdülmuhsin Əskərin İbn Teymiyyənin irəli sürdüyü dəqiqlik və obyektivlikdən uzaq olan iddiasını alt-üst edəcək dəyərli sözləri var. O, belə deyir: "Hicri ikinci əsrdə – bu əsr əsərlərin qələmə alındığı dövrün başlanğıcıdır – alimlərin kitablarında məcazi mənanın sabit olduğunu görürük. Alimlər onu "təvəssu" və "istiarə" adlandırırdılar. Onu təvəssu adlandıranlardan biri də ər-Risalə kitabında Şafei olmuşdur. O, məcazın bir neçə üslubunu qeyd etmiş və belə demişdir: "Bu, ərəb dilinin genişliyinə əsasəndir". Məcazi mənanı istiarə adlandıranlardan biri də Siybəveyhin dövründə yaşamış Əbu Əmr bin Əla (vəfat tarixi 154 h.) olmuşdur. İbn Rüşeyq "əl-Umdə" kitabında buna aid dəlillər qeyd etmişdir. İkinci əsrdə məcazi mənanı istiarə adlandıranlardan biri də yazdığı Şərhun-nəqaiz kitabında Əbu Muəmmər bin Musənna və Məaniul-Quran kitabında Əxfəş (vəfat tarixi 215 h.) olmuşdur. O, (Əxfəş) kitabında ***"...sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)!"***[414] ayəsinin təfsirində belə deyir. Bu, məcazi mənadadır. Burada səma sözünü təkdə qeyd etmişdir. Çünki burada səma sözü (təkdə işlədilməsinə baxmayaraq) bütün səmalara dəlalət edir". Elm əhlindən bəziləri "Bu, (burada səma sözü) cinsdir (cinsə dəlalət edir)" demişdir. Bizim üçün isə burada onun məcaz sözünü işlətməsi əhəmiyyət kəsb edir.

[414] Bəqərə, 29

Həmin əsrdə məcaz sözünü işlədənlərdən bir də Əbu Ubeydə Muəmmər bin Musənna olmuşdur. O, kitabını Məcazul-Quran adlandırmışdır.

Şair Əbu Təmam ərəb dilinin böyük şairlərindəndir. Onun Mutənəbbidən sonra ikinci mərtəbədə olması mümkündür. Onun belə bir beyti var. O, şərabı vəsf edərək belə deyir:

Qədəhi məni tərk etmiş və həqiqətim,

Məcazidir, güman kimi yəqinimdən bir sübhdür.

O, burada həqiqi məna müqabilində məcazi mənanı qeyd etmişdir.

Şair Əbu Təmam (vəfat tarixi 232 h.) hicri 180-ci ildə dünyaya gəlmişdir. Bu terminin onun dilindən söylənilməsi bu terminin onun yaşadığı dövrdə məlum olmasını bildirir. Bu terminin onun yaratdığını demək doğru deyil. Çünki şairlər terminlər formalaşdırmırlar. Bu, hələ ikinci əsrdə olmuşdur. Əbu Təmam bir müddət də üçüncü əsrdə yaşamışdır. Üçüncü əsrdə isə məcazi məna alimlərin nəzərdə tutduğu kimi həqiqi mənanın müqabilində olan bir termin olaraq məşhur idi.

Həmin alimlərdən biri də İbn Quteybədir (vəfat tarixi 276 h.). O, Təvilul-muşkil kitabında məcazi məna barədə rəy adlı bab qeyd etmişdir. Sonra Quranda məcazi məna olmasına qarşı çıxanlar barəsində danışmışdır. Sonra isə məcazi mənanı inkar edənlərə cavab verənlər barədə də danışmış və onların fikirlərini geniş surətdə müzakirə etmişdir. İbn Quteybə məcazi məna barəsində ayrıca bab yazan ilk alim hesab olunur.

Həmçinin onun şeyxi Cahizin (vəfat tarixi 255 h.) də məcazi məna barəsində yazıları var. O da bu mövzu barədə danışmış və məcaz adlandırmışdır. Cahiz ədiblərdən hesab olunur. İbn Quteybə isə daha çox dilçi alim hesab olunur.

Üçüncü əsrdə yaşayan alimlərdən məcazi mənanı qəbul edənlərdən biri də Darami olmuşdur. O, "ən-Nəqz alə Bişr əl-Mərisi" adlı kitabında bir neçə səhifə məcazi mənadan söhbət açmışdır. Darami İslamın böyük alimlərindən hesab olunur. Həmçinin Buxari (vəfat tarixi 256 h.) Xəlqu əfalul-ibad adlı kitabında həqiqi məna ilə məcazi məna barəsində danışmışdır.

Məcazın terminoloji mənası barədə qeyd etdiklərimiz ədiblər, dilçilər, hədis və şəriət alimləri tərəfindən deyilənlər idi. Müxtəlif sahələrin mütəxəssisləri tərəfindən bu barədə danışılması üçüncü əsrdə, xüsusilə də, üçüncü əsrin birinci yarısında məcazi mənanın məşhur olmasına dəlalət edir. Üçüncü əsrdən sonra isə məcazi məna termini daha da məşhur olmuş, alimlərin əksəriyyəti bu barədə danışmışlar. Bundan sonra isə Əbdülqadir Cürcani Əsrarul-bəlağə adlı kitabında bir elmi termin kimi məcazi mənanın əsasını qoymuşdur.

Elm əhlindən məcazi mənanı istiarə adlandıranlar da vardı. Buna Əzhərinin Təhzibul-luğə kitabında rast gəlirik. Alimlərdən bəziləri isə qeyd etdiyimiz kimi təvəssu adlandırırdılar. Məcazi məna məfhumu üçüncü əsrin birinci yarısında şöhrət tapmışdır. [415]

Əqli baxımdan məcazi mənaya və onun Qurani-kərimdə geniş surətdə intişar tapması məcazi mənanın bəlağətin özəyi olmasını əks etdirir. Şübhəsiz ki, Quran mütləq olaraq ərəb dilində olan ən uca və dəyərli mətndir. Məcazi məna sözdən deyil, cümlədən anlaşıldığı üçün məcazi

[415] Müəllifin Dildə və Quranda məcazi məna adlı mühazirəsi. www.alquran.org.sa Bu mühazirə məhz İbn Teymiyyə və onun ardıcıllarına cavab vermək məqsədi daşıyırdı. Bu mühazirə internet səhifələrində elmi yığıncaqlarda yaxşı mənada səs salmışdı. Hətta İbn Teymiyyənin ardıcılları bu mühazirəyə rəddiyyə cavabı verməkdə aciz idilər. Bu mühazirəyə verilən cavablar isə elmilik və obyektivlik baxımından nəzərə alınmayacaq dərəcədə zəifdir

mənanın nəzərdə tutulmasına dəlalət edən əlamət və nişanələrin olması labüddür. Həmin əlamətləri aşağıdakı qisimlərə bölürlər:

1. Ləfzi əlamət: Bu növ əlamət şərti sözlərə əsasən məcazi mənanın nəzərdə tutulmasını bildirir. Diqqətlə cümləni araşdırdıqda məcazi mənanın nəzərdə tutulmasına dair heç şəkk-şübhə qalmır. Məcazi mənanın bu növü Qurani-kərimdə olduqca çoxdur:

a) Allah-taala buyurur: ***"Və deyildi: «Ey yer, öz suyunu ud və ey göy, (yağışını) saxla»..."***[416]

Bu ayədə Allah-taala məcazi məna ilə varlıq aləminə hakim olan iradəsini bəyan edir. Burada "və deyildi" -deyə buyurulur. Bu, varlıq aləminə əmr etmək anlamındadır. Burada cansız varlıqlara olan xitab məcazi mənanın nəzərdə tutulmasına dəlalət edir. Çünki "ey yer" və ya "ey səma" -deyə cansız varlığa həqiqi mənada xitab olunmaz. Çünki bu növ varlıqlar xitabı dərk etmir. Məhz bu, buradakı əqli baxımdan məcazi mənaya dəlalət edən ləfzi əlamətdir.

Allah-taalanın cansız varlıqlara xitab etməyə qüdrətli olduğunu və həmin varlıqların da cavab verə biləcəyini, bu halda isə həqiqi mənanın nəzərdə tutulmasını deyərək etiraz edə bilərsən. Hətta bu, möcüzə nəticəsində baş versə belə, dediyimizlə heç bir ziddiyyət yaratmır. Burada anlaşılan yenə məcazi mənadır. Çünki bu, hətta həmin varlıqlar möcüzə nəticəsində cavab versələr belə, ümumiyyətlə, dərk etməyən, cavab verməyən, eşitməyən və danışmayan varlıqlara yönəlmiş bir xitabdır.

b) Allah-taala buyurur: ***"... (Xızırla Musa) orada uçmaq istəyən bir divar gördülər. (Xızır) onu(n təməlini təzələməklə, yaxud təmir etməklə, yaxud ona dirək vurmaqla) dikəltdi. Musa dedi: «Əgər istəsəydin, əlbəttə bu əmələ görə bir muzd alardın!»***[417]

[416] Hud, 44

[417] Kəhf, 77

Burada əqli baxımdan məcazi məna daha aşkar şəkildə özünü biruzə verir. Çünki divar iradəsi olan bir varlıq deyil. Divar hər hansı feli etmək və ya tərk etməkdə ixtiyar sahibi olan varlıqlardan olmaması aydın məsələdir. Bu, cansız varlıqlara həyat bəxş edən, onlara iradə və hissiyyat nisbət verən məcazi məna üslubudur. Həmçinin bir feli yerinə yetirmək sifətini heç bir feli yerinə yetirmək iqtidarında olmayana nisbət verilməsi, iradəsi olmayanın iradə sahibi kimi göstərilməsi məcazi mənaya eyhamdır. Burada məcazi mənaya dəlalət edən əlamət iradəsi olmayan cansız varlığın iradəsinin olmasıdır.[418]

Deməli, İbn Teymiyyənin sözləri məcazi mənanın olmaması fərziyyəsini qəti surətdə rədd edən bu aşkar dəlillər müqabilində cəfəngiyatdan başqa bir şey deyil. Dil, ədəbiyyat, hədis, fiqh alimlərinin hamısı dilin ümumi prinsiplərinə – bu prinsiplərin əsas mənbəyi Quran hesab olunur – uyğun gəlməyən İbn Teymiyyə məntiqini rədd edirlər. Məcazi məna Qurani-kərimin əsasını qoyduğu və aşkar surətdə ayələrində öz əksini tapan bəlağətdən hesab olunur. Ərəb cəmiyyəti bu dilə və onun ehtiva etdiyi bədiiliyə və üslublarına çox böyük əhəmiyyət verirdi. Qurani-kərim məhz onların danışdıqları dilidə nazil olmuş və onların bu dildə danışarkən istifadə etdikləri dilin bütün üslub və qaydalarını özündə əks etdirmişdir.

Məzhəb imamları məcazi mənanı qəbul edirlər

İbn Teymiyyə deyir: “Digər imamlara gəlincə, onlardan heç kim, nə Əhmədin ilk ardıcılları, nə Malik, nə Şafei, nə də Əbu Hənifə Quranda məcazi mənanın olmasını deyiblər”.[419] Məzhəb imamlarının rəylərini, ağıl və məntiqlə izah olunması vacib olan mətnlər barədə onların yozumlarını

[418] Bax; Doktor Muhəmməd Hüseyn Əli əs-Səğir, “Məcazul-Quran”, s. 125-162

[419] Məcmu əl-fətəva, c. 7, s. 89

daha yaxından öyrənmək və əhli-sünnənin böyük alimlərinin fikir və düşüncələrinə müxalif olan bu rəyin tamamilə puç, yalan və cəfəng olmasını bilmək üçün məzhəb imamlarının məcazi mənanı qəbul etmələrinə dəlalət edən bəzi rəylərini qeyd edirik.

İmam Əbu Hənifə Nüman bin Sabit (vəfat tarixi 150 h.)

Əbu Hənifənin məcazi mənanı qəbul edən ilk şəxs olduğunu düşünürük. O, Cahizdən[420] əvvəl məcazi mənanı istiarə adlandırmışdı. Bəzi hənəfi alimləri onun barəsində bu həqiqəti nəql etmişlər.

Səraxsi "əl-Məbsut" kitabında belə deyir: "Lakin Əbu Hənifə – Allah ona rəhmət eləsin – məcazi mənanın hökmdə deyil, danışıqda həqiqətin əksinə olduğunu deyirdi. Çünki məcazi məna danışan tərəfindən müəyyən bir sözü başqa bir sözün məqamında qoymasıdır…"[421]

Əbu Bəkr Kaşani Bədaius-sənai kitabında belə deyir: "Əbu Hənifə dil və lüğət alimlərinin böyükləri kimi dilə yanaşırdı... Əgər isim iki halda bir şey üçün sabitdirsə, hər hansı bir halda həmin şey üçün isim olandan daha sabitdir. Hətta məcazi mənanın həqiqi mənaya nisbəti kimi birinciyə nisbəti olur".[422]

İmam Malik bin Ənəs (vəfat tarixi 179 h.)

İbn Əbdülbirr Malik bin Ənəsdən nəql edərək belə deyir: "Ondan: "Allah gecə dünyanın səmasına enir" hədisi barədə soruşdular. Malik belə dedi: "Əmri nazil olur (enir)". Ola bilər ki, Malikin – Allah ona rəhmət

[420] Bəlağət alimləri və ədiblər çox vaxt məcazi məna barəsində ilk dəfə Cahizin danışdığını deyirlər. Bu, yanlışdır. İlk dəfə məcazi məna barəsində məhz Əbu Hənifə danışmışdır.

[421] əl-Məbsut, c. 7, s. 68

[422] Bədaius-sənai, c. 3, s. 51

eləsin – dediyi kimi Allahın rəhmətinin, qəza-qədərinin, əfv və duaları qəbul etməsi enir. Bunlar da Onun əmrindəndir".[423]

Aydındır ki, o, bu hədisin təfsir edərkən məcazi mənaya istinad edir. İbn Əbdülbirr də bu ehtimalı dəstəkləyir. Onun nəzərində bu, həqiqətə daha yaxındır.

İmam Şafei (vəfat tarixi 203 h.)

Şafeinin bu barədə sözlərini və onun məcazi mənanı qəbul etməsi barədə müfəssəl surətdə əvvəlki səhifələrdə danışmışıq. Onun "Olduğumuz şəhərdən soruş" ayəsinin təfsirində aşağıdakı sözlərini qeyd etmişdik: "Bu ayə və bu mənada olan əvvəlki ayələr dili bilən elm əhlinin nəzərində bir mənalı olaraq onların atalarına şəhər əhalisindən və kərvan əhlindən soruşduqlarını deyirlər. Çünki şəhər və karvandan onların doğru söyləmələri barədə bir şey soruşulmaz" Bu sözlər onun məcazi mənanı qəbul etməsinə aşkarcasına dəlalət edir. Həmçinin Əhməd Mahmud Şakir Zərkəşlinin sözlərini qeyd etmişdik. Müraciət et.

İmam Əhməd bin Hənbəl (vəfat tarixi 241 h.)

İmam Əhmədə gəlincə, İbn Teymiyyə özü onun məcazi mənanı qəbul etməsini nəql etmişdir. Lakin o, sonra Əhməd bin Hənbəlin rəyini yozaraq bunun lüğət baxımından məcazi mənaya aid olmasını və həqiqi məna müqabilində olan məcazi məna deyil.

İbn Teymiyyə belə deyir: "Həqiqi və məcazi məna sözünü deməmişdir. Həmçinin digər imamlara gəlincə, Əhməd bin Hənbəldən başqa onların heç birinin sözlərində məcaz sözü yoxdur". Bundan başqa o, ər-Rədd aləl-cəhəmiyyə kitabında belə deyir: "Quranda biz kimi sözlər lüğətdə məcazi

[423] ət-Təmhid, c. 7, s. 134, 144

mənalarındandır. Bir insan: “Biz sənə bəxş edəcəyik, biz edəcəyik” deyir. Bunun lüğəti mənada məcaz olduğunu qeyd etmişdir”.[424]

Biz deyirik: “Madam ki, Əhməd bin Hənbəl “Bu lüğətdəki məcazdır” deyir, deməli, o, lüğətdə məcaz olduğuna inanır. Burada onun məqsədi heç də mütləq mənada lüğəti məna deyil. Buna görə də “Rəbbinin gəlib mələklərin səf-səf duracağı”[425] ayəsini təfsir edərkən ayəni yozaraq maddi mənada gəlmək deyil, savabın gəlməsi mənasında olduğunu demişdir.

İbn Kəsir “əl-Bidayə vən-nihayə” kitabında belə deyir: “Beyhəqi Hakimdən, o da Əbu Əmr bin Səmmakdan, o da Hənbəldən belə nəql edir ki, Əhməd bin Hənbəl “Rəbbinin gəlib mələklərin səf-səf duracağı” ayəsini savabın gəlməsi mənasında yozmuşdur. Sonra Beyhəqi belə deyir: “Bu sənədin (hədisin sənədinin) üzərində heç bir toz yoxdur. (Yəni sənədinin düzlüyünə heç bir irad yoxdur”.[426]

Lakin biz İbn Cubreyn, Doktor Fovzan, İbn Useymin kimi alimlərin və başqalarının təfəkküründə öz əksini tapan Vəhhabi təfəkkürü İbn Teymiyyə düşüncəsindən azad ola bilməmişdir. Məhz buna əsasən də onlar Beyhəqiyə etiraz etmişlər.

Doktor Saleh Fovzan[427] Beyhəqiyə etiraz edir

Saleh Fofzan belə deyir: “Beyhəqinin İmam Əhmədə nisbət verdiyi sözlərin onun olması sabit deyil. Onun kitabları və ya ardıcıllarının

---

[424] Məcmu əl-fətəva, c. 7, s. 88, 89

[425] Fəcr, 22

[426] əl-Bidayə vən-nihayə, c. 10, s. 361

[427] Səudiyə Ərəbistanında Böyük Alimlər Heyətinin üzvü, Rabitə təşkilatınının nəzdində olan Məkkeyi-Mükərrəmədəki Məcməul-fiqh təşkilatının üzvü, Həccdə dua etməyə nəzarət komitəsinin üzvü, həmçinin bundan başqa Elmi Araşdırmalar Komitəsinin üzvüdür. Magistr və doktorluq sahəsində yazılan elmi əsərlərə nəzərət edir. http//www.alfawzan.ws

kitablarından isbata yetirilməmişdir. Buna görə də Beyhəqinin dediklərinə etimad edilməz. Çünki Beyhəqinin nəzərində sifətlər barədə bəzi yozumlar var. Bu babda nəql etdikləri etibarlı deyil. Çünki o, ola bilər ki, nəql edərkən güzəştə yol verirdi".[428]

Mənasız etiraz

Bu etiraz qəribə və yersizdir. Əgər məsələni tərsinə fərz etsək və belə desək: Əgər İmam Əhməd bu məsələni Beyhəqidən nəql etsəydi, bu halda Əhməd bin Hənbəl güzəştə yol verənlərdən hesab olunardımı?! Bundan əlavə güzəştli və mühafizəkar olmaq qaydası hədisin hökmdən düşməsi üçün qəbul olunmuş bir qayda deyil. Ola bilər ki, gözəştə yol verən daha mühafizəkardır və ya əksi doğrudur. Bu qayda hədislərin qəbul olunması və ya rədd edilməsi üçün meyar deyil. Həmçinin bu hədis İbn Kəsirin dili ilə nəql edilmişdir. O isə, hədis elmindən daha xəbərdar olan biridir. Əgər hədisdə bir zəifliyə rast gəlsəydi ona işarə edərdi və ya hədisi etibardan salardı.

Bütün bunlardan sonra belə deyirik: Fovzan hara, İmam Beyhəqi hara? Beyhəqini Zəhəbi etibarlı saymış, kitablarını, eləcə də, "əl-Əsmau vəs-sifat" kitabını tərifləmişdir.

Zəhəbi belə deyir: "İmam, hədis hafizi, əllamə, Xorasanın şeyxi Əbu Bəkr Əhməd bin Hüseyn bin Əli bin Musa Xosrovgerd. Əsərlər müəllifi... Məqsədinin yaxşılığı, fəhminin və hifzinin gücünə görə onun elmi bərəkətli olmuşdur. Elə kitablar yazmışdır ki, ondan öncəkilər belə kitablar yazmamışdır. Həmin kitablardan biri də "əl-Əsma vəs-sifat" kitabıdır".[429]

Görəsən Doktor Fovzan İmam Əhməd bin Hənbəlin məcazi məna barəsində mübahisə edərkən söylədiklərinə nə deyir?

---

[428] Butinin əs-Sələfiyyə kitabına haşiyə, s. 33

[429] Təzkirətul-huffaz, c. 3, s. 1132

Xəllal sənədinə əsasən Hənbəldən İmam Əhməd bin Hənbəlin belə dediyini nəql edir: “Mübahisə olan gün mənim əleyhimə dedilər: “Qiyamət günü Bəqərə surəsi gələcək... (hədis)”. Onlara dedim: “Bu, savabdır”.[430]

Zəhəbi Əhməd bin Hənbəlin ayətul-kürsinin əzəməti barədə yozumu barədə belə deyir: “Əbülhəsən Əbdülməlik Məymuni belə deyir: “Bir nəfər Əbu Abdullaha belə dedi: “Parça satanın arxasınca gedib ona öyüd-nəsihət verdim. Onun Əhvəsin Abdullahdan belə bir hədis nəql etdiyi xəbəri çatmışdır: “Allah-taala ayətul-kürsidən əzəmətli bir varlıq yaratmamışdır...” Sonra hədisi nəql edir. Əbu Abdullah (yəni Əhməd bin Hənbəl) belə dedi: “Belə günlərdə (möhnət günlərini nəzərdə tutaraq) bu hədisi nəql etməsi gərəkmirdi. Mətn belədir: “Allah göydə və yerdə ayətul-kürsidən əzəmətli bir şey yaratmamışdır”. Əhməd bin Hənbəldən möhnət günü nə deməkdir deyə soruşulduqda belə demişdir: “Yaratmaq burada göy, yer və bu şeylərə aiddir, Qurana aid deyil”.[431]

Zəhəbi bu sözlərə əlavə edərək belə demişdir: “Mən deyirəm: “Gərək hədis nəql edən cəhəmiyyə təriqətindən olan sünnə düşmənlərinin zahirinə yapışıb inad etdikləri hədisləri yaymamalıdır”.[432]

İmam Əhməd bu hədisi təvil etmiş (yozmuş), zahiri mənada izah etməmişdir. Yaradılışı göyə və yerə aid etmişdir.

Bundan əlavə İbn Teymiyyə özü etiraf edir ki, Əhməd bin Hənbəlin səhabələri içərisində məcazi mənanın olması barədə onun məzhəbinə qarşı dəlil gətirənlər olmuşdur. İbn Teymiyyə Məcmu əl-fətəva kitabında belə deyir: “Bununla onun səhabələrindən (yəni Əhməd bin Hənbəl) Qazi

[430] Səhihu şərhil-əqidətut-Tahaviyyə, s. 158

[431] Siyəru əlamin-nubəla, c. 10, s. 578

[432] Siyəru əlamin-nubəla, c. 10, s. 578

Əbu Yəla, İbn Əqil, Əbulxəttab və başqaları onun məzhəbinə qarşı dəlil gətirərək demişdir: “Quranda məcazi məna var”.[433]

Deməli, dediklərimizdən belə aydın oldu ki, İbn Teymiyyə məcazi mənanı inkar etməkdə həddi aşmışdır. O, öz iddiasını əsaslandıra bilməmişdir. Biz onun nəzəriyyəsinin batil olmasını şübhə doğurmayacaq dərəcədə sübuta yetirdik. Çünki dilçilər, fəqihlər və imamlar məcazi mənanı və istiarənin olmasını isbat etmişlər. Hətta bu məsələyə inanmaq az qala fitri məsələlərdən hesab olunsun. Necə ki, bunu əvvəlki səhifələrdə qeyd etmişik. Bu məsələni inkar etmək bədihi, fitrət və ağılın qəbul etdiyi inkar olunmaz bir məsələni inikar etmək hesab olunur.

Mütəşabih və təvil

Şübhəsiz ki, mütəşabih ayələrin təvili ilə sifətlərdə tövhid mövzusu arasında sıx bağlılıq var. Şeyx Əbu Zöhrə buna işarə edərək belə deyir: “Mütəşabih ayənin təvili ilə sifətlər və tövhid barəsində söhbət etmək arasında sıx əlaqə var. Onlardan biri barədə danışmaq, digəri barədə danışmaq deməkdir. Bu mövzuda etimad olunan əsas mütəşabih kəlməsinin Qurani-kərimdə möhkəm ayələrin müqabilində qeyd olunmasıdır: Allah-taala buyurur: ***“(Ya Rəsulum!) Sənə Kitabı (Quranı) nazil edən Odur. Onun (Kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan (yaxud Allahdan və elmdə qüvvətli olanlardan)***

[433] Məcmu əl-fətava, c. 7, s. 89

başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: " Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər".[434]

Alimlərin əksəriyyətinin rəyinə əsasən Qurani-kərimdəki mütəşəbih ayələr (ilahi) sifətlər və Allah-taalaya nisbət verilən fellər barədə danışan ayələrdir. Məsələn, ***"...Allahın (qüdrət) əli onların əllərinin üstündədir..."***[435]***, "Rəhman olan Allah taxtda qərar tutdu".***[436] ***"Həqiqətən, Məryəm oğlu İsa Məsih ancaq Allahın peyğəmbəri, (Cəbrail vasitəsilə) Məryəmə çatdırdığı bir söz və Onun tərəfindən olan bir ruhdur...".***[437]***.***[438]

İbn Teymiyyənin təvil barədə rəyi

Əbu Zöhrə yuxarıda qeyd etdiyimiz sözlərindən sonra sözün zahiri mənasından başqa məna qəbul etməyən İbn Teymiyyənin rəyi barədə danışaraq belə deyir: "İbn Teymiyyə bu mövzunu araşdırdıqda öz nəzərində sələfin rəyinə əsaslanır. Belə ki, sələf keyfiyyət axtarmadan sözün cümlədəki zahiri mənasını əsas götürmüşdür. Keyfiyyət axtaranlar yolunu azmışlardır... Şübhəsiz ki, İbn Teymiyyə səhabələrin mütəşabih ayələrin də zahiri mənalarında dərk etdiklərini və ilahi zatın həqiqəti barədə soruşmadıqları kimi keyfiyyət barədə soruşmadıqlarını düşünürdü.[439]

Biz deyirik: Təvil geniş əhatəli elmi məfhum olaraq dini mətnlərin, xüsusilə də, mütəşabih ayələrin dərk olunmasında əvəzsiz rol oynamışdır.

---

[434] Ali-İmran, 7

[435] Fəth, 10

[436] Taha, 5

[437] Nisa, 171

[438] İbn Teymiyyə, rəyləri və fiqhi, s. 236, 237

[439] Həmin mənbə, s. 236, 237

Buna görə də dini mətnləri olduğu kimi dərk etmək bəhanəsilə, yaxud Quranın və səhih sünnənin ruhuna münasib mənada dini mətnin zahirinin yozulması məqbul deyil deyərək onu yalnız zahiri mənada dərk etmək mümkün deyil. Məhz bu baxımdan hicri üçüncü və dördüncü əsrdən əvvəl olan sələf, həmçinin həmin əsrlərdən sonra gələn xələf bəzi mütəşabih dini mətnləri təvil etdiklərini, həmin mətnləri möhkəm olanlara qaytardıqlarını və yaxud mökəm ayələrin mənalarına uyğun mənada izah etdiklərini düşünürük.

Qeyd olunan təvil üslubunu ümmətin alimi hesab olunan səhabə - İbn Abbas, Sufyan Sovri, İbn Uyeynə, İbn Cərir Təbəri və başqaları yerinə yetirmişlər. Onlar mütəşabih mənaları ağıl və məntiqin, fitrət və dilin qəbul etdiyi tərzdə yozmuşlar, Allah-taalanı cəhət, bənzətmə, oxşatma kimi nöqsanlı hallardan münəzzəh etmişlər.

Mövzunun daha aydın olması üçün aşağıdakı beş məsələni izah etməliyik:

1. Təvilin lüğəti və terminoloji mənası.
2. Sələf və xələf alimlərin etdikləri təvildən nümunələr.
3. İlahi sifətlərin təvilində sələfi fikrinin çaşqınlığı.
4. Düzgün təvilin qaydaları və şərtləri.
5. İslam mütəfəkkiri Seyid Muhəmməd Baqir Sədrin təvil barəsində nəzəriyyəsi.

Təvilin lüğəti mənası

Rağib İsfəhani (vəfat tarixi 502 h.) belə deyir:

“Təvil əvvəl sözündəndir. Yəni əslə qayıtmaq. “Məvəl” qayıdılan yerə deyilir. Bu söz istər elm, istərsə də fel olsun, bir şeyi onun üçün nəzərdə tutulan son məqsədə qaytarmaqdır. Elm barəsində, məsələn; ***“Halbuki, onun təvilini (və həqiqi mənasının nə olduğunu) Allahdan və elmdə***

qüvvətli olanlardan başqa heç kəs bilmir". Həmçinin, bu ayə: ***"Yoxsa onlar onun təvil və yozumundan başqa bir şey gözləyirlər? Onun təvili gələn gün..."*** yəni onun nəzərdə tutulan məqsədinin bəyanı gələcək".[440]

İbn Mənzur (vəfat tarixi 711 h.) belə deyir:

"əl-Əvvəl: qayıtmaq, آل الشيئ يؤول و مآل bir şeyin qayıtması. أول اليه الشيء onu qaytardı. الت عن الشيء geri döndüm. Belə deyilir: طبخت النبيذ حتى آل الى الثلث أو الربع (çaxırı bişirdim üçdə birinə və ya dörddə birinə döndü) yəni qayıtdı. الايّل vəhşi heyvan:. Farisi belə deyir: "Dağa sığınıb orada qorunduğu üçün belə adlanmışdır..." Allah-taalanın ***"yozumu hələ onlara gəlməmiş..."*** buyurmasının mənası budur ki, onun təvilini onlar bilmirdilər. Bu, təvil elmini düşünməyin gərəkdiyinə dəlalət edir".[441]

Sonra belə deyir: Təvildən məqsəd sözün zahirini öz əsli mənasından dəlilə ehtiyacı olan başqa mənaya köçürməkdir. Əgər həmin məna olmasa zahiri məna tərk olunmaz. Aişənin – Allah ondan razı olsun – hədisi bu mənadadır: Peyğəmbər (s) ruku və səcdələrində tez-tez: "Subhanəkə Allahummə və bihəmdikə" (Münəzzəhsən, ey Allahım, Sənə olunan həmd-səna ilə) deyərdi. Quranı təvil edirdi". Məqsədi Allah-taalanın bu ayəsi idi: "Rəbbinə həmd-səna etməklə bərabər Onu zikr et"[442].[443]

Təbəriyə gəlincə, o, Camiul-bəyan adlı təfsir kitabında təvilə başqa bir məna da əlavə etmişdir. Onun qeyd etdiyi məna lüğəti mənadan bir o qədərdə fərqli deyil. Həmin mənanın təfsiridir. O, belə deyir: "Ərəb dilində təvil sözünün mənasına gəlincə, təfsir, yozum, məqsəd, işin nəticəsi və sonu mənalarındadır. Bu sözün əsli bir şeyin əslinə qayıtması

[440] Mufrədatu ğaribil-Quran, s. 31

[441] Lisanul-ərəb, c. 11, s. 33

[442] Nəsr, 3

[443] Lisanul-ərəb, c. 11, s. 33

sözündəndir. Deyilənə əsasən "...sonu və nəticəsi daha gözəldir" ayəsi mükafat mənasındadır. Çünki mükafat həmin qövmün əldə edəcəyi son məqsəddir".[444]

Deməli, təvil sözü lüğəti baxımdan qayıtmaq mənasını bildirən sözün kökünə qayıdır. Lüğəti məqsədləri və mənaları bilmədən bu məna anlaşılmaz. Dilin məqsədləri və mənalarına baş vurmadan sözün zahirinə əsaslana bilmərik. Əks təqdirdə dəlil və ya əlamət əsasında zahiri mənanı başqa mənaya yozan təvilə əl atmaq zəruridir. İbn Mənzurun Aişə xanımdan nəql etdiyi hədisdəki kimi.

Təvilin terminoloji mənası

Əllamə Burhanuddin Liqani Maliki[445] "Covhərətut-tovhid" kitabının şərhində belə deyir: "Təvil məqsəddə tutulan mənanı bəyan etməklə yanaşı zahiri mənanın əksinə yozmaqdır. Təvil etməkdən məqsəd nəzərdə tutulan mənanın olmasıdır. Xələfin rəyi də bu cür idi". Sonra belə deyir: "Sələf və xələf müxtəsər surətdə təvildə müttəfiqdirlər. Çünki onlar zahirinin Allah-taalaya aid edilməsi qeyri-mümkün olan mətni yozurdular".[446]

---

[444] Camiul-bəyan, c. 3, s. 250, 251

[445] İmam Əbulimdad Burhanuddin İbrahim bin İbrahim bin Həsən bin Əli bin Əbdülqüdus bin Vəli Şəhir Muhəmməd bin Harun Liqani Maliki. Liqani Misirdə Liqnə şəhərinə nisbət verilir. O, geniş mütəliəsi olan hədis elmində görkəmli alimlərdən və kəlam elmində ümman olan şəxlərdəndir. Yaşadığı dövrdə Qahirədə problemli elmi məsələlərin həllində və fətvalarda müraciət edilən şəxs idi. Onun və mənsub olduğu qəbilənin böyük şərəfi vardı. Lakin o, təvazökarlıqdan bunu aşkar etmirdi. O, şəriətlə həqiqəti bir yerdə cəm etmişdir. Onun vəfatı həcdən qayıdarkən baş vermişdi. Rakibu-misri yolunda Əqəbətu Əylə yaxınlığında dəfn edilmişdir. Bax; Mucəmul-mətbuaatil-ərəbiyyəti, c. 2, s. 1592

[446] Şərhu əqidətit-tovhid, s. 104

Şeyx Məri bin Yusif Müqəddəsi belə deyir:

"Təvil sözün zahirinə müxalif mənanın nəzərdə tutulması və ya sözü zahiri mənasından başqa mənaya nəql etməkdir. Quranda belə təvillər çoxdur. Müqəddəs sifətlər barədə olan ayələr bu qəbildəndir. Həmin ayələr mütəşabih ayələrdir".[447]

Əllamə Seyid Cəfər Murtəza Amili belə deyir:

Təvil sözdəki xüsusiyyətlər və söz birləşmələləri nəzərə alınmaqla, başqa mənalarla müqayisə edilməsilə və həmin mənanın danışan şəxsin prinsipləri və hədəflərinə münasib olmasını mülahizə etməklə sözün işarə etdiyi məram, məqsəd və mənaların ortaya çıxarılmasıdır".[448]

Deməli, bu tərifərə əsasən təvilin terminoloji mənası Allah-taalanı nöqsan sifətlərdən münəzzəh bilmək üçün vasitədir. Çünki Allah-taalaya nisbət verilməsi mümkün olmayan mütəşəbih kəlamın zahiri mənasını Quran baxışına münasib tərzdə yozmaqdır. Quran bəlağətin ən dəqiq və gözəl üslubundadır. Sələf və xələfin üslubu və metodu budur.

Sələf və xələfin təvilinə aid nümunələr

1. Səhabələrdən İbn Abbas, tabeinlərdən Mücahid, Qətadə və Siddinin təvili

İbn Cövzi təfsirində belə deyir: "İkrimə İbn Abbasın belə dediyini nəql edir: ***"(Yada sal) o gün ki, baldır açılar..."***[449] ayəsində həmin günün çətinliyindən (baldır) açılar. Çünki həmin gün qorxulu gündür. Belə

[447] Əqavilus-siqat fi təvilil-əsmai vəs-sifat, c. 1, s. 48

[448] əs-Səhih min siyrətir-rəsul, c. 2, s. 274

[449] Qələm, 42

demişlər: “Döyüş bizim baldırlarımızı açdı”. Mücahidin və Qətadənin rəyi belədir”.[450]

Nəvəvi Səhih Müslimin şərhində belə deyir: “İbn Abbas və dilçilərin əksəriyyəti burada baldır barədəki söhbəti çətinlik mənasında təfsir etmişlər. Yəni, həmin günün çətinliyindən və qorxulu olması səbəbinə baldır açılar. Bu, işin çətinliyini bildirmək üçün ərəblərin dediyi zərbəl-məsəldir. Buna görə belə deyirlər: “Döyüş baldırın açılmasına səbəb oldu”. Bu məsələnin kökü budur ki, insan çətin bir işlə qarşılaşdıqda əhəmiyyət verdiyi üçün qollarını çırmalayar və baldırını açar”.[451]

Həmçinin İbn Əbu Hatəm təfsirində belə deyir: “İbn Abbasın – Allah onların hər ikisindən razı olsun – “(Yada sal) o gün ki, baldır açılar...” ayəsi barədə belə deyir: “Güc və qüvvət (mənasındadır)”.[452]

Təbəri Camiul-bəyan təfsirində belə deyir: “İbn Abbasın ***“Və göyü əlimizlə ucaltdıq”***[453] ayəsi barədə “ciddiliklə (güc-qüvvətlə ucaltdıq)” dediyi nəql olunur”.[454]

Təbəri həmçinin belə nəql edir: “İbn Abbasın ***“...var gücünlə onu götür...”***[455] ayəsi barədə belə dediyi nəql olunur: “Onlar görüşəcəkləri bu gün üçün əməl etməyi tərk etdiklərinə görə biz də onları rəhmətdən uzaq tuturuq”.[456]

İbn Əbu Hatəm Razi belə deyir: ***“Beləliklə, onlar bu günki görüşlərini yaddan çıxartdıqları və ayələrimizi inkar etdikləri kimi, Biz də bu gün***

---

[450] Zadul-məsir, c. 8, s. 75

[451] Şərhu Müslim, c. 3, s. 27, 28

[452] Təfsir İbn Əbu Hatəm, c. 10, s. 3313

[453] Zariyat, 47

[454] Camiul-bəyan, c. 9, s. 78

[455] Əraf, 145

[456] Həmin mənbə, c. 8, s. 264

onları yaddan çıxaracağıq"[457] yəni onlar tərk etdikləri kimi onları tərk edəcəyik. Unutmağı tərk etmək mənasında yozmağın məcazi məna olması aşkardır. Çünki unudulan tərk edilmiş olandır. Tərk etmək unutmağın tələb etdiyi xüsusiyyətlərdən olduğu üçün onu unutmaq sözü ilə ifadə etmişlər".[458]

O, həmçinin belə deyir: Unutmaq tərk etməkdir. Məna budur: Onlar görüşəcəkləri bu gün üçün əməl etməyi tərk etdikləri üçün biz də onları əzabın içərisində tərk etdik. Bu, Həsənin, Mücahidin, Siddinin və əksəriyyətin rəyidir".[459]

Deməli, səhabələrdən İbn Abbas, tabeinlərdən Həsən, Mucahid, Qətadə, Siddi bir çox ayələri təvil etmişlər. Baldırın açılmasını çətinliklə, əlləri güc qüvvət, unutmağı tərk etmək mənasında təfsir etmişlər. Bütün bunlar sözü zahiri mənasında başqa mənaya, yəni məcazi mənaya yozmaqdır. Həmçinin İbn Hatəmin dediyi "Unutmağı tərk etmək mənasında yozmağın məcazi məna olması aşkardır" sözlərində də buna rast gəlirik.

Qeyd etdiklərimizdən sonra İbn Teymiyyənin məcazi məna sözünün səhabələrin dilindən nəql olunmadığı və bu sözün hicri üçüncü əsrdən sonra meydana çıxdığı iddiasının puç olduğu aydın olur. Məlumdur ki, biz bu rəvayətləri İbn Teymiyyənin doğruluğuna inandığı və etibarlı hesab etdiyi iki mənbədən qeyd etdik. Həmin mənbələr İbn Cərir Təbəri və İbn Əbu Hatəm Razinin təfsirləridir. Əvvəlki səhifələrdə qeyd etdiyimiz kimi İbn Teymiyyə hər iki mənbəyə etimad edirdi.

2. Sufyan Sovrinin (vəfat tarixi 161 h.) təvili

[457] Əraf, 51

[458] Təfsiri İbn Əbu Hatəm, c. 3, s. 227

[459] Həmin mənbə, c. 14, s. 93

Zəhəbi deyir: “Mədan – İbn Mübarək onun əbdallardan olduğunu deyirdi – belə deyir: “Sovridən ***“...Harda olsanız, O, sizinlədir...”***[460] ayəsi barədə soruşdum. Belə dedi: “Yəni elmi”.[461]

Aydındır ki, Sovri bu ayənin təfsirində təvil edərək sözü zahiri mənasından çıxardaraq məcazi mənaya aid etmişdir.

3. Tirmizinin (vəfat tarixi 279 h.) təvili

Hədis alimi Tirmizi (Allahı) görmək hədisini təvil edərək belə demişdir: “Hədisdə “Özünü onlara tanıtdıracaq” sözünün mənası onlara təcəlli etməsidir”.[462]

Bu, aşkarcasına təvildir, sözü zahiri mənasından fərqli başqa mənaya yozmaqdır. O, Allah-taalanın maddi anlamda özünü onlara tanıtdırmaqla, onlara təcəlli olunmağı fərqləndirmişdir.

4. Nəvəvinin (vəfat tarixi 676 h) təvili

Nəvəvi Səhih Müslimə şərhində belə deyir: Allah-taalanın buyurduğu ***“(Xızırla Musa) orada uçmaq istəyən bir divar gördülər”***[463] ayə məcazi mənadadır. Çünki divarın həqiqi mənada iradəsi yoxdur. Mənası, uçmaq üzrə olan divardır. Üsul alimləri bu ayəyə əsasən Quranda məcazi mənanın olduğuna dəlil gətirmişlər. Buna (bu ayəyə) bənzər ayələr də var”.[464]

5. İbn Teymiyyə Hərraninin (vəfat tarixi 728 h.) təvili

---

[460] Hədid, 4

[461] Siyəru əlamin-nubəla, c. 7, s. 274

[462] Sünəni Tirmizi, c. 4, s. 97

[463] Kəhf, 77

[464] Şərhu Səhihi Müslim, c. 15, s. 141

İbn Teymiyyənin təvil və məcazi mənanı inkar etməsinə baxmayaraq, o, öz fikirlərinə qarşı çıxaraq məcazi mənanın olmasından danışmışdır. Məsələn, o, Məcmu əl-fətəva kitabında belə deyir: "Şübhəsiz ki, kim məxluqların sifətlərindən, sonradan yaranmışların vəsflərindən olan mənalar ayələrdə və hədislərdə nəzərdə tutulmayıb deyərsə, doğru və olduqca yaxşı söz demişdir. Çünki əhli-sünnə nə zatında, nə sifətlərində, nə də ki, fellərində Allah-taalaya bənzər bir varlığın olmaması məsələsində fərqli fikirdə deyil. Hətta bizim tərəfdaşlarımızdan olan əhli-sünnə alimlərinin əksəriyyəti müşəbbihəni (Allahı məxluqa bənzədənləri) və mücəssiməni (Allaha cisimlilik nisbət verənləri) təkfir edirlər. Lakin bu sözü (yuxarıdakı sözü) deyən xətaya yol vermişdir. Belə güman etmişdir ki, bu ayələr və hədislərdəki mənalar zahiri məna olmalıdır. Bununla da sələfdən demədikləri bir şeyi nəql etmişdir. Kəlamın zahiri mənası həmin dildə danışan sağlam ağıl sahibinin anladığıdır. Həmçinin sözün zahiri mənası onun təyin etdiyi lüğəti məna, yaxud cümlənin gedişatına əsasən də ola bilər".[465]

O, həmçinin belə deyir: "Bil ki, sözün dəlalət etdiyi mənalara hökm etməyən sözün hansı mənasının aşkar olduğunu bilməz. Sözün lüğət və ya ürf yaxud da şəriət baxımından mənaları olur. Burada məna ya sözün özündə, ya da söz birləşməsi və ya cümlədə olur. Bəzən söz cümlə tərkibində özlüyündə dəlalət etdiyi məna daşıyır, bəzən də onunla birgə olan əlamətlər onu məcazi mənaya dəyişir".[466]

İbn Teymiyyənin bu sözləri iki məsələni bəyan edir:

Birinci: İlahi sifətlərin təfsirində çaşqınlığı. O, bəzən sözü öz zahiri mənasında saxlayır və onu təvil etmir. Necə ki, əvvəlki sözlərində bunun şahidi olduq. Bəzən sələfin dilindən danışaraq onların müşəbbihə

[465] Məcmu əl-fətava, c. 6, s. 356

[466] Həmin mənbə, c. 33, s. 181

olmadıqlarını deyir. Çünki zahiri məna zehnə gələn ilk mənadır. Lakin ola bilər ki, həmin zahiri məna sözün lüğəti mənasıdır. Bu halda həmin məna ilə sifətləri başa düşmək təşbih əqidəsidir. Bəzən də ola bilər ki, zahiri məna ümumi konteksdən çıxarılan mənadır. Bu isə təvil və məcazdır.

İkinici: O, öz məsləkinə sadiq qalaraq heç bir dəyişiklik etmədən zahiri mənanı saxlamaq, ya sözün lüğəti mənası ya da cümlə tərkibində və əlamətlərlə olur. Lakin onun bu sözlər məsləkinə uyğun deyil. Çünki, məsələn, əl və ya üz sözü lüğəti mənada maddi bədən üzvünə dəlalət edir. Nəticədə sözü təyin olunmuş mənasında qəbul etmək həmin sifətə dəlalət etmir.

Həmçinin, əgər ümumi konteksə və cümləyə əsasən sözün mənasını təyin etsək, bu, təvil və məcazi mənanın məhz özüdür.

Buna əsasən də, İbn Teymiyyənin Allahla birgə olmağın həqiqətini şərh edərkən belə deyir: ***"...O həm yerə girəni (suları, ölüləri, dəfinələri, kökləri və heyvanları), həm yerdən çıxanı (heyvanları, bitkiləri, bulaqları və mədənləri)... bilir. Harda olsanız, O, sizinlədir. Allah etdiklərinizi görəndir".***[467] Bu xitabın zahiri dəlalət edir ki, bu birgəliyin hökmü və nəticəsi budur ki, O, sizdən xəbərdardır, sizi müşahidə edir, sizə hakimdir və sizdən xəbərdardır. Sələfin: O, elmi ilə onlarladır (insanlarladır)" demələrinin mənası budur. Bu, xitabın zahiri və həqiqətidir. Peyğəmbər (s) mağarada yoldaşına "Hüzünlənmə, Allah bizimlədir" deməsi də həqiqətilə zahiri mənasındadır. Vəziyyət buna dəlalət edir ki, bu birgəliyin hökmü müşahidə etmək, yardım göstərmək və dəstəkləməkdir".[468]

Bu sözlər həqiqətdə İbn Teymiyyənin təvil və məcazi mənanı qəbul etməsi deməkdir. Yoxsa onun: "bu birgəliyin hökmü və nəticəsi budur ki,

[467] Hədid, ayə, 4

[468] Məcmu əl-fətava, c. 5, s. 103, 104

O, sizdən xəbərdardır, sizi müşahidə edir, sizə hakimdir və sizdən xəbərdardır" deməsini necə izah edə bilərik?! Məgər bu, sözün mənasını zahiri mənadan başqa mənaya yozulmasına dəlalət edən təvil deyilmi? Sadəcə olaraq İbn Teymiyyə bunu təfsir adlandırır, biz isə, təvil adlandırırıq. Deməli, bu, terminin necə adlanmasında ixtilafdır, termin özü barəsində ixtilaf deyil.

Sələfi məsləyinin müasir alimlərinin sifətlərin təvili məsələsində çaşqınlıqları

Məhz bu baxımından İbn Teymiyyəyə təqlid edənlər sifətlərin təvili məsələsində aşkarcasına çaşqınlığa düşmüşlər. Bu həqiqəti bəyan etmək üçün Vəhhabi sələfi təfəkkürünün alimlərindən üçündən nümunələr qeyd edəcəyik.

1. Nasiruddin Albani

Albaninin təvil barədə dediklərindən biri də İbn Əbulizz Hənəfinin Əqidətut-Tahaviyyə kitabına yazdığı şərhə aid qeydləridir. Müəllif belə deyir: "Allah həmişə hər şeyi əhatə etmişdir"[469] Onun yaratdıqlarını əhatə etməsi fələk kimi deyil (yəni göy ulduzları ehtiva etdiyi kimi deyil). Məqsəd Onun əzəməti, elminin genişliyi və qüdrətidir". Bu sözlərdən sonra Albani belə deyir: "Bu, şərhçinin eyb tutduğu təvildəndir. Baxmayaraq ki, hərdən bunun olması lazımdır".[470] Burada Albaninin nəzərində təvilin labüdlüyü öz təsdiqdini tapır. Bu isə İbn Teymiyyənin məsləyinə müxalifdir.

2. İbn Useymin

[469] Nisa, 126

[470] Şərhul-əqidətit-Tahaviyyə, s. 314

İbn Useymin “əl-Muhaziratus-səniyyə fi şərhil-əqidətil-vasitiyyə” kitabında “uluvv” (yüksəklik) sifətinin mənası barədə belə deyir: “Mənanın zahirinə əsasən O, yüksəkdir... batindir. Bu, Onun hər şeyi əhatə etməsinə işarədir. Lakin məna onun yüksək olması ilə yanaşı batin olmasıdır. Onun yüksəkdə olması yaxın olması ilə ziddiyyət yaratmır. Batin yaxının mənasından da yaxındır”.[471] Şeyx İbn Useyminin şərhinin anlaşılmaz olduğu tamamilə aşkardır. O, əvvəlcə “uluvv” sifətini maddi yüksəklik mənasında izah edir. Necə ki, sözün zahiri mənası bunu bildirir. Sonra yenidən həmin sözü hər şeyi əhatə edən mənasında izah edərək məcazi mənanın nəzərdə tutulduğunu, Onun yüksəkdə olması yaxın olması ilə ziddiyyət yaratmadığını deyir. Bu isə təvildir.

3. İbn Cubreyn

İbn Cubreyn ***“Rəbbinin hökmünə səbr et. Çünki sən bizim gözümüzün önündəsən”.***[472] ayəsinin təfsirində belə deyir: “Məna budur ki, sən bizim müşahidəmizdəsən və bizdən yayınmırsan. Məqsəd sən bizim gözümüzün içindəsən deyil. Sünnə (hədislər) Allah-taala üçün gözlərinin olmasını və onlarla gördüyünü bildirir. Necə ki, səhih hədisdə deyilir: Peyəmbər (s) buyurdu: “Sizin Rəbbiniz kor deyil”. Yəni onu iki sağlam gözü var... “Bizim gözlərimizlə hərəkət edirdi”.[473] Məna budur ki, onu (gəmini) və orada olanları qoruyacaq və hifz edəcək.

Bu sözün (göz sözünün) Quranda tək və cəm formalarında işlədilməsi onu qorumaq və himayə etmək mənasına yozan təhrif əhli üçün dəlil deyil”.[474]

---

[471] əl-Muhaziratus-səniyyə fi şərhil-əqidətil-vasitiyyə, c. 1,s. 142

[472] Tur, 48

[473] Qəmər, 14

[474] ət-Təliqatuz-zəkiyyətu alәl-əqidətil-vasitiyyə, c. 1, s. 177, 178

Bu sitatda görürük ki, İbn Cubreyn “gözlərimizdə” sözünü təvil edərək “sən bizim müşahidəmizdəsən və bizdən yayınmırsan” deyir. Sonra isə sözünün əvvəli ilə sonu arasında ziddiyyət yaradır. Belə ki, göz sözünü qorumaq, himayə və sağlam qalmaq kimi izah edir. Çünki Allah-taala kor deyil. Onları görür və qoruyacaq. Bu isə, təvildir. Lakin sözünün sonunda təvil əhlini nəzərdə tutaraq təhrif əhlinə irad tutur. Görəsən bu iki izah arasında hansı fərq var?!

Doğru təvilin qaydaları və şərtləri

Haqqında danışdığımız təvil Quranın ruhu ilə tamamilə uyğun olmalıdır. Belə ki, Quran, sünnə və ağılın qəti dəlillərinə və sübutlarına zidd olmamalıdır. Buna görə də təvil müəyyən qaydalara və şərtlərə tabe olmalıdır. Həmin qayda və şərtlər Quran ayələrinin və peyğəmbər hədislərinin təfsirində təvilin qəbulu üçün meyar olmalıdır. Həmin şərtlərdən bəzilərini aşağıda qeyd edirik:

Birinci: Mütəşabih olanı möhkəm olana aid etmək

Təvilin qəbul olunması üçün ən əsas şərtlərdən biri mütəşabih olanı möhkəm olana əsasən izah etməkdir. Məsələn, qeyb aləmi barədə söhbət açan çoxlu ayələr və rəvayətlər var. Həmin ayə və hədislərdə əl, üz, mizan (tərəzi), qəzəb, gülmək, ərş və kürsi kimi sözlər Allah-taalaya nisbət verilmişdir. Allahın zatını həqiqətində məxluqa bənzəyən sifətlərlə vəsf edən bu ayə və hədisləri anlamaq istəyiriksə, mütəşabih olanı möhkəm olanla izah etməliyik. Möhkəm olan isə Allah-taalanın bu sözüdür: “Heç nə Onun kimi deyil və eşidən, görən Odur!”[475]

Bununla da Allah-taalanı bənzərlik, oxşarlıq, şirk və ziddən münəzzəh, pak və uca tutmuş oluruq.

[475] Şura, 11

İkinci: Zahiri mənanı qəbul etməyin ağıl və şəriət baxımında qeyri-mümkün olduğu hallarda

Əgər qəti dəlillər zahiri mənanı qəbul etməyin ağıl və şəriət baxımından qeyri-mümkün olduğunu bildirirsə, belə halda söz zahiri mənasında götürülməməli, yozulmalı və təvil edilməlidir.

Qəzali İhyau ulumid-din kitabında belə deyir: "Əgər "Möminin qəlbi Rəhmanın iki barmağı arasındadır" hədisi kimi zahiri mənada yozulması qeyri-mümkündürsə – çünki möminin qəlbini araşdırsaq orada heç bir barmağa rast gəlməyəcəyik – məlum olur ki, barmaqların sirri və gizli məğzi qüdrətə işarə olunur. Barmaqlarla qüdrətə işarə olunmuşdur. Çünki bu (barmaqlarla qüdrətə işarə etmək), qüdrətin kamilliyini anlamaq üçün ən böyük eyhamdır".[476]

Həmçinin belə deyir: "Haqq əhli bu təvili etməyə məcbur olmuşlar. Necə ki, batin əhli "Harda olsanız O, sizinlədir" ayəsini təvil etməyə məcbur olmuşlar. (Bütün alimlərin) ittifaqına əsasən bu, əhatə etmək və xəbərdar olmaq mənasına yozulmuşdur. Peyğəmbərin (s) "Möminin qəlbi Rəhmanın iki barmağı arasındadır", sözü güc və qüdrət mənasına, "Həcərul-əsvəd (Kəbənin küncündə olan qara daş) Allahın yerdəki sağ əlidir" sözü şərəf və hörmət mənasına yozulmuşdur. Çünki zahiri mənasında saxlanılsa qeyri-mümkünlüyə gətirib çıxarar. Həmçinin taxtda qərar tutmaq da belədir. (Əgər zahiri məna saxlanılarsa) taxtda qərar tutanın onunla təmas edən, onun mislində və ya ondan böyük və yaxud da ondan kiçik bir cisim olması deməkdir. Bütün bunlar isə qeyri-mümkündür. Qeyri-mümkünə gətirib çıxaran hər bir şey qeyri-mümkündür".[477]

[476] İhyau ulumid-din, c. 1, s. 102

[477] Həmin mənbə, c. 1, s. 108

Üçüncü: Quranın sabit həqiqətlərilə ziddiyyət olduqda

Əgər mənalar müəyyən bir həqiqətə dəlalət edərsə və həmin həqiqət Quranın bəyan etdiyi mənaya zidd olarsa, məsələn, həmin söz əl və ayaq kimi sözlər olarsa, həmin sözlər lüğəti mənalarına baxmayaraq təvil edilməlidir. Məsələn, Allah-taala buyurur: "Rəbbinin gəlib və mələklərin səf-səf duracağı" burada gəlmək sözünü lüğəti mənada anlamaq düzgün deyil. Buna görə də gəlmək sözünü izah və təfsir etməliyik. Görəsən burada məqsəd Rəbbin ayaq və ya əl kimi bədən üzvləri ilə gəlməsi nəzərdə tutulur?! Yoxsa məqsəd Rəbbin əmridir, yəni əmrinin gəlməsidir?! Bu isə Allah-taalanın qüdrətinə işarədir. Deməli, bu məna nəzərə alınaraq təvil edilməsi labüddür.

Dördüncü: Təvil dil və ürfə münasib olmalıdır

Təvilin qəbul olunmasının qaydalarından və meyarlarından biri də dilin üslublarına və ürfün anlayışına münasib və müvafiq olmasıdır. Belə ki, ərəb dilinin məcaz, istiarə və kinayə kimi üslublarından xaric olmamalıdır. Cuveyni belə deyir: "Bizlərdən heç kim (ərşdə) qərar tutmağın qüdrət və güc mənasında olmasına qarşı deyil. Bu, ərəb dilində qəbul edilmiş bir məsələdir".[478]

Sonda bu mövzunu iki hərəmin imamı Cuveyninin[479] sözləri ilə tamamlayıram: "Diqqət edilməsi vacib olan məsələlərdən biri də

[478] əl-İrşad ilə qəvatil-ədilləti fi usulil-etiqad, c. 1, s. 536

[479] İbn Nəccar Tarixu Bağdad kitbının ardı adlı kiabında onun tərcümeyi-halını yazaraq belə deyir: "Əbdülməlik bin Abdullah bin Yusif bin Heyəviyyə Cuveyni, Əbulməali bin Əbu Muhəmməd. Şafei məzhəbli fəqih. Ləqəbi iki hərəmin imamı. Nişapur əhalisindəndir. Şərq və qərbdə fəqihlərin imamıdır. Gözlər onun kimi fəzilətli birini görməmiş, qulaqlar onun tarixi kimi bir həyat hekayəsi eşitməmişdir. İctihad dərəcəsinə çatmışdır. Görkəmli insanlar onun fəziləti barədə müttəfiq olmuşdur. Ona müxalif və müvafiq olanlar onun öndə olduğunu etiraf etmişlər. Həsəd aparan da,

Həşəviyyə təriqətinin təvil edilməsinə müvafiq olduqları ayələrdir. Onlar təvil metodu ilə getdikdə mübahisəli olan məsələlərlə qarşılaşırlar. Onlara qaşı dəlil olan ayələrdən biri də bu ayədir: ***"Harada olsanız, O, sizinlədir".***[480] Əgər bu ayəni zahiri mənada anlasalar Onun (Allahın) ərşin üzərində qərar tutmasını yozmaqda israr etmələrinin düyününü açmış olurlar. Elə biabırçılıqlar söyləməyə məcbur olarlar ki, ağıl sahibi olan biri onu dilinə belə gətirməz. Əgər "Harda olsanız, O, sizinlədir" ayəsini gizili məsələlərdən xəbərdar olması mənasına yozsalar, bununla da təvilin icazəli olduğunu qəbul etmiş olurlar".[481]

İki hərəmin imamı bəyan edir ki, zahiri mənanı saxlamaq ağıl sahibinin dilinə belə gətirməyəcəyi biabırçılıqlarla nəticələnir. Bundan xilas olmağın yolu isə təvildir. Lakin biz İbn Teymiyyə və Vəhhabi məsləyinin bu biabırçılıqlarla razılaşdığını və təvildən uzaq durduğunu görürürük. Hətta onlar təvilə qarşı çıxmaqda israfa belə yol vermişlər. Bu isə qeyd etdiyimiz kimi onların Allaha cisimlilik nisbəti verən hədislərin təfsirində çaşqınlığa düşmələrinə gətirib çıxartmışdır. Bu problemdən xilas olmağın yolunu və yeganə məntiqi həllini qeyd etdiyimiz şətrlər – düzgün təvilin qaydaları və şərtləri əsasında – təvilə əməl etməkdə görürük. Bununla da təcsim və təşbihi dəf etmiş olarıq.

Seyid Muhəmməd Baqir Sədrin təvil barədə nəzəriyyəsi

---

bəyənən də fəzilətlərinə şahid olmuşdur. Onun əsərləri ölkənin hər yerində dəqiqlik, tədqiqat və möhtəşəmliklə ad qazanmışdır. Əsərləri fəsahətin kamillik zinətləri, bəlağətin məlahəti və gözəllikləri ilə bəzənmişdir. Nihayətul-mətalib fi dirayətil-məzahib, əş-Şamil, əl-Əsalib fil-xilaf, ət-Tuhfə, əl-İrşad, əl-Burhan fi usulil-fiqh kimi çoxlu kitablar yazmışdır. Tarixu Bağdad kitabının ardı c. 1, s. 44

[480] Hədid, 4

[481] əl-İrşad ilə qəvatil-ədilləti fi usulil-etiqad, c. 1, s. 161

İslam mütəfəkkiri Şəhid Seyid Muhəmməd Baqir Sədrin – Allah ona rəhmət eləsin – təvil barədə fərqli bir nəzəriyyəsi var. Onun rəyinə əsasən təvil sözün deyil mənanın təfsiridir. Başqa sözlə desək mütəşabih ayənin təfsiri bəzən sözün, bəzən isə mənanın təfsiri ilə baş verir. Birincisindən məqsədimiz sözün lüğəti məfhumu, sözün sırf onun üçün təyin olunmuş mənasınıdır. İkincisindən məqsədimiz isə həmin mənanın zehindəki müəyyən təsviri və zehindən kənarda real aləmdəki həqiqətə aid olmasıdır.

Seyid Muhəmməd Baqir Sədr deyir: "Sözün məfhum dəlaləti var. Həmin məfhum onu eşidən dil aliminin zehninə ilk gələn mənadan ibarətdir. Yəni sözün nitq olunan mənası müqabilində anlaşılan məna deyil, söz üçün işlədilən mənadan ibarətdir.

Sözün misdaq baxımından da mənası ola bilər. Həmin məna məfhumu aşkar edən misdaqdan ibarətdir. Məsələn, "siratəl-mustəqim" məfhum baxımından onun yol olması aydındır. Lakin misdaq siratın həqiqətidir. Bunu Allah-taaladan başqa heç kim bilmir. Həmçinin "Onun kürsüsü göyləri və yeri əhatə etmişdir" ayəsi də belədir. Kürsünün məfhum baxımından dəlalətini hər bir ərəb anlayır. Lakin onun dəlalət etdiyi və bu məfhumun real aləmdəki misdaqını yalnız Allah-taala bilir. Yaxud ***"Əksinə Onun hər iki əli açıqdır"***[482] və ya ***"Ərşdə qərar tutdu"***[483] ayələri də belədir. Çünki bunlar məfhum baxımından aydındır. Lakin qeybə bağlı olduğu üçün misdaq baxımından aydın deyil. Bundan əlavə bəşər zehni maddi məfhumlarla dolu olduğu və bulaşdığı üçün yalnız maddi mənaları təsəvvür edə bilir. Deməli, bu ayələr misdaq baxımından qaranlıqdır. Bidət və zəlalət əhlinin işi məfhum baxımından aydın, misdaq baxımından isə qaranlıq olan ayələri əsas götürməkdir. Fitnə və yozum məqsədilə bu

[482] Maidə, 64

[483] Əraf, 54

ayələri daha çox diqqətdə saxlayırdılar. Mütəşabih olanı müxtəsər mənaya yozsaq, yəni məna aləminə görə mütəşabih olana yozsaq təvilin terminoloji mənası sözü ürf baxımından anlaşılmayan mənaya yozmaq olacaqdır. Amma mütəşabihin ikinci mənası kimi izah etsək, yəni misdaq baxımından mütəşabih olan məna kimi yozsaq, təvil qayıtmaq və aid etmək mənasında olacaqdır. Yəni məfhumun aid olduğu, gedib çıxdığı məna. Çünki hər bir məfhum hər hansı bir həqiqətə aid olur və ona qayıdır. Burada təvil aid olmaq və qayıtmaq mənasına münasib izah olunur. Yəni məfhumun misdaqına qayıtması".[484]

Nəzərdə tutulan mütəşabih xüsusi növdür. Ona tabe olmaq üçün qabiliyyətinin olması labüddür. Bu qabiliyyət sözün müəyyən lüğəti məfhumunun olmasından yaranır. Həmin sözə əməl etmək ona tabe olmaqdır. Mütəşabihlik sözün mənasındakı və lüğəti məfhumundakı qarışıqlıq, tərəddüd cəhətindən formalaşmır, tamamilə başqa cəhətdən meydana çıxır. Həmin cəhət müəyyən lüğəti məfhumun real aləmdəki surətinin formalaşdırılmasındakı qarışıqlıq, tərəddüd və onun zehindəki misdaqının real aləmdəki varlığını təyin etməkdir. Buna əsasən də mütəşabih olanı ilahi zata tətbiq edə bilmərik. Çünki qeyri-mümkünlüklə nəticələnir. Burada "istiva" (qərar tutmaq, oturmaq) ola bilər ki, öz lüğəti mənasında işlədilmişdir. Lakin biz onun tətbiqində tərəddüd edirik. Ağıl baxımından qadağa ilə qarşılaşdığımız üçün bundan imtina edirik. Çünki bu, cisimliliklə nəticələnir. Bu batil nəticələrdən Allah-taalanı münəzzəh və pak tutmaq üçün bu sözü başqa mənaya yozmalıyıq.

Qeyd olnan nəzəriyyənin izahı

[484] Buhusun el ilmil-usul, c. 9, s. 351, 352

Seyid Şəhid Sədrin – Allahın rəhməti ona olsun – təvil barədə nəzəriyyəsi təvil barəsində bəhs edən Quran ayələrinə, həmin ayələrin tədqiqi, araşdırılması və həmin ayələrdən nəticə çıxarılmasına əsaslanır.

Seyid Şəhid Sədr belə deyir: "Əgər biz təvil sözünə və onun Quranda işlədilmə yerlərinə diqqət yetirsək, onu təfsir mənasında izah edən terminoloji mənaya müvafiq olmayan başqa bir mənada olduğunu görərik. (Həmin terminoloji məna) onu təfsirdən yalnız hüdud və təfsilatda fərqləndirir. Təvil sözünü başa düşməyimiz üçün onun terminoloji mənası ilə yanaşı Qurani-kərimdə qeyd olunan mənasını da araşdırmalıyıq. Təvil kəlməsi Qurani-kərimdə yeddi surədə qeyd olunmuşdur:

Brinci: ***"(Ya Rəsulum!) Sənə Kitabı (Quranı) nazil edən Odur. Onun (Kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar)…"***[485]

İkinci: ***"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və <u>nəticə etibarilə</u> (təvil baxımından) daha yaxşıdır".***[486]

Üçüncü: ***"Həqiqətən, Biz onlara (Məkkə müşriklərinə və kafirlərinə) elmlə müfəssəl izah etdiyimiz, inanan bir qövm üçün hidayət və mərhəmət olan (dini vəzifələrini öyrətmək üçün mükəmməl) bir Kitab (Quran) gətirdik. Onlar (kafirlər) ancaq onun təvilinimi gözləyirlər?***

[485] Ali-İmran, 7

[486] Nisa, 59

Onun təvili gəlib çatdığı gün əvvəllər onu unutmuş olanlar deyəcəklər: "Doğrudan da, Rəbbimizin elçiləri (bizə) haqqı gətirmişdilər..."[487]

Dördüncü: ***"Xeyir, o kafirlər elmini qavraya bilmədikləri və hələ təvili onlara gəlib çatmamış Quranı yalan hesab etdilər..."***[488]

Beşinci: ***"Rəbbin səni (başqalarından) seçib üstün tutacaq, sənə yuxu təvilini (yozmağı) öyrədəcək..."***[489]

Təvil ayələrinin araşdırılması

Bu ayələri araşdırdıqda məlum olur ki, təvil kəlməsi təfsir və sözün dəlalət etdiyi məna deyil. Yalnız birinci ayədə bu mənada olması mümkündür. Çünki birinci ayədə təvil mütəşabih ayələrə əlavə edilmişdir. Buna əsasən də təfsir alimlərinin çoxu bu rəydədir ki, mütəşabih ayənin təvili onu təfsir etmək və dəlalət etdiyi mənanı bəyan etməkdir. Belə olduqda məhz bu ayəyə əsasən mütəşabih ayəni təfsir etmək icazəli deyil. Nəticədə Quranın müəyyən hissəsini dərk etmək mümkünsüz olur. Yalnız Allah-taala və elmdə güclü olanlar onu dərk edir. Adi insanların Qurandan təfsir etdikləri və mənasını dərk etdiklərinə gəlincə, bu, yalnız möhkəm ayələrdən ibarət olacaqdır. Seyid Şəhid Sədr bununla razılaşmır. Çünki mütəşabih ayənin təfsiri mümkündür. Məhz buna görə o, belə deyir: "Həmin ayələrə münasib olan məna təvildən məqsədin real aləmdə və həqiqətdə aid olduğu mənaya qayıtmaq və aid olmaqdır. Necə ki, təvil sözünün mənası buna dəlalət edir". Sonra o, belə deyir: "Mütəşabih ayələrin təvili onun dəlalət etdiyi mənanı və lüğəti mənasını bəyan etmək deyil, əksinə həmin mənaların qayıtdığı və aid olduğu həqiqətin təyin olunmasıdır. Çünki ağıl hər bir ümumi mənanı təsəvvür edib onu zehnində

[487] Əraf, 52, 53

[488] Yunis, 39

[489] Yusif, 6

canlandıranda və ona müəyyən surət verdikdə həmin müəyyən surət nəzərdə tutulan ümumi mənanın təvili olur. Buna əsasən də təvilin mənası bizim mənanın təfsiri adlandırdığımız olur. Çünki qəlblərində azğınlıq olanlar fitnə yaratmaq üçün mütəşabih ayələrin məfhumlarına müəyyən surət formalaşdırırlar. Buna səbəb mütəşabih ayələrin çoxunun qeyb aləmilə bağlı olmasıdır. Buna görə də həmin mənaların zehndə xüsusi surətlə canlandırılması – istər maddi, istərsə də təvil edənin həvayi-nəfsinə uyğun tərzdə olsun –təhlükə və fitnəyə gətirib çıxarır".[490]

Seyid Şəhid Muhəmməd Baqir Sədrin (r) nəzəriyyəsinin əsasları

Qeyd etdiklərimizdən görürük ki, Seyid Şəhid Sədr təvil barədə olan bu nəzəriyyədə aşağıdakı üç başlıca əsasa etimad etmişdir:

Birinci əsas: Təvilin mənasını Qurani-kərimdən anlamalıyıq. Quranda təvil təfsir (sözün dəlalət etdiyi məna) deyil, bir şeyə qayıdan və aid olan mənasındadır. Təvil bu mənada (bir şeyə qayıtmaq və aid olmaq) sözün təfsiri deyil, mənanın təfsiri kimi işlədilmişdir. Mənanın təfsiri dedikdə məqsədimiz sözün lüğəti mənasını bildikdən sonra həmin məna zehndə müəyyən surət formasında canlanmasıdır. Bu müəyyən surət həmin ümumi mənanın təvilidir.

İkinci əsas: Mütəşabih ayələrin müəyyən bir məfhumu və xüsusi mənası var. Buna dəlil Quranın qəlbərində xəstəlik olanların mütəşabih ayələrə tabe olmalarından bəhs etməsidir. Quranda belə buyurulur: ***"...Amma qəlblərində (haqdan) dönüklük olan kəslər, fitnəkarlıq və təvil etmək (düzgün olmayan məna vermək) üçün bu kitabın mütəşabihinə tabe olarlar".***[491] Əgər mütəşabih ayənin məfhum mənası

[490] Ulumul-Quran, s. 230

[491] Ali-İmran, 7

olmasaydı bu ayədə “tabe olmaq” sözünün onların barəsində işlədilməsi düzgün olmazdı.

Üçüncü əsas: Mütəşabih ayələrin həqiqi mənasını Allah-taalanın və elmdə güclü olan şəxslərin bilməsi. Yəni mütəşabih ayələrin müəyyən bir məfhum mənası var və yalnız Allah-taala sözün mənasını və təfsirini bilir. Bəli Allah-taalanın elmi həmin mənalara işarə edən həqiqəti əhatə etmişdir. Yalnız O, həmin həqiqətin hüdudlarını və mahiyyətini bilir. Mütəşabih ayədəki sözün mənasına gəlincə, o, qeyd etdiyimiz kimi məlum məfhumdur.

Qeyd etdiyimiz bütün bunlardan sonra İbn Teymiyyənin: “Deyildiyi kimi öz mənasında saxlayın və ya digər bir rəvayətdə: “Keyfiyyət olmadan deyildiyi kimi öz mənasında saxlayın” deyiblər”[492] - deyə söylədiyi sözün heç bir əsası yoxdur. Bu nəzəriyyəyə əsasən onun rəyi tamamilə puç olur. Beləliklə qeyd etdiklərimizə əsasən təvil sözünün terminoloji mənasına Qurani-kərimdən istinbat olunan digər çalarlar da əlavə edə bilərik. Yəni sözün təfsiri ümumi məfhumun aid olduğu misdaq və surətlə canlandırılmış həqiqətin araşdırılması.

Buna əsasən də belə düşünürük ki, bu nəzəriyyə tətbiq olunarsa bizim üçün bir çox təcsim və təşbih məsələlərini həll edər. Bununla da bir çox hədis alimlərinin, xüsusilə də, İbn Teymiyyəyə təqlid edən vəhhabi məsləyinin bulaşdıqları təcsim məsələsində Allah-taalanın cisimlilikdən münəzzəh olması tamamilə aydın olar.

[492] Məcmu əl-fətəva, c. 5, s. 39

İkinci fəsil: Hişam bin Həkəmin təcsim əqidəsində olması şübhəsi

Müqəddimə

İbn Teymiyyənin araşdırmadan və tədqiq etmədən yaratdığı şübhələrdən biri də şiə məzhəbində nəhəng bir şəxsiyyəti ittiham etməsidir. Həmin böyük şəxsiyyət Hişam bin Həkəmdir. Nəticədə İbn Teymiyyəyə təqlid edən Şeyx Əbdülqahir Bağdadi, Doktor Qəffari və bəzləri də şiəliyə bu böhtanı atmışlar.[493]

Bu məsələnin aydınlaşması, həqiqətin bütün çılpaqlığı ilə üzə çıxması üçün hədislərin tədqiq və təhlili metodu ilə bu mövzunu elmi surətdə tədqiq etməyi özümüzə borc bildik. Bu məsələni hədis elminin meyarlarına əsasən araşdırıb, sənəd və dəlalət baxımından müzakirə edib sonda əldə etdiyimiz nəticəni mövzunun tələblərinə müvafiq surətdə təqdim edəcəyik.

İbn Teymiyyə Hişam bin Həkəmi təcsim əqidəsinə inanmaqda ittiham edir

İbn Teymiyyə Məcmu əl-fətəva kitabında Hişam bin Həkəmi təcsim şübhəsində ittiham edərək belə deyir: "İslamda ilk dəfə: "Qədim (Allah) cismdir" deyən şəxs Hişam bin Həkəm olmuşdur".[494]

Ondan sonra isə Doktor Qəffari bu ittihamda ona təqlid etmişdir. O, Usulu məzhəbiş-şiə kitabında şeyxi İbn Teymiyyədən nəql edərək belə deyir: "İslamın şeyxi İbn Teymiyyə bu böhtanı edən ilk şəxsin onlardan

[493] Doktor Nasir Qəffari Səudiyə Ərəbistanında Ummul-qura universitetinin professorudur və həmçinin, yazıçıdır.

[494] Məcmu əl-fətəva, c. 13, s. 154

(şiələrdən) olmasını bəyan etmişdir. O, belə demişdir: “İslamda ilk dəfə Allah cisimdir deyən şəxs Hişam bin Həkəm olmuşdur”. [495]

Sonra başqa bir söz nəql edərək belə deyir: “Əbdülqahir Bağdadi belə deyir: “Hişam bin Həkəm məbudunun (ibadət etdiyi ilahın) həddi, uzunluğu, eni və dərinliyi olan cisim olduğunu, həmçinin, uzunluğunun eni mislində olduğunu iddia edir...”[496]

Şübhənin cavabı

Şiəliyin belə bir xüsusiyyətlə vəsf olunması ədalət və insafdan deyil. Şiələr onlara yapışdırılan təcsim və təşbih əqidəsindən tamamilə uzaqdırlar. Araşdırdığımız bu mövzu İbn Teymiyyənin təcsim və təşbih məfhumlarını əks etdirən rəylərini ehtiva edir. Bu mövzu barədə onun bəzi rəylərini və onunla eyni dövrdə və sonrakı dövrlərdə yaşamış alimlərin onu tənqid etməsini də qeyd etmişik. Qəribədir ki, Doktor Qəffari İbn Teymiyyənin sözü ilə dəlil gətirir, lakin şeyxinin bu məsələ ilə dolub daşan kitablarını nəzərə almamışdır. Sanki o, ağuşunda böyüyüb ərsəyə gəldiyi, dırnaqlarının bərkidiyi və tərbiyə aldığı bu fikirdən uzaqdır. Halbuki təcsim məsələsi onun inandığı və müdafiə etdiyi məsələlərdəndir. Bütün bunlarla yanaşı Qəffari doğruluqdan heç bir nəsibi olmayan bu böhtanla şiyəliyi ittiham edir.

---

[495] Usulu məzhəbiş-şiə, c. 2, s. 640. Nəzər diqqəti çəkən məsələ budur ki, Doktor Qəffari kitabının müqəddiməsində bu məsələ barəsində bizim əqidə və hədis prinsiplərimizə əsasən bizimlə müzakirə apardığını iddia edir. Buna əsasən də bu məsələ barədə bizim mənbələrimizdə mövcud olan hədislərə müraciət edəcəyik və həmin rəvayətləri müzakirə edəcəyik. Bunu da qeyd edim ki, bu məsələni müzakirə etmək üçün şiə irsində qeyd olunan rəvayətlərin müzakirə etməkdən başqa doğru yolun olmadığı qənaətindəyik.

[496] Usulu məzhəbiş-şiə, c. 2, s. 640

Hişam bin Həkəmin təcsim ittihamından bəraəti

Hişam bin Həkəmin ittiham olunduğu bu böhtanın heç bir əsası yoxdur. Növbəti səhifələrdə bu məsələni müzakirə masasının üzərinə qoyacağıq və elmi və obyektiv meyarlarla onu dəyərləndirəcəyik. Bu baxımından araşdırmamız dörd mövzunu ehtiva edəcək:

Birinci mövzu: Tarix və tərcümeyi-hal alimlərinin kitablarında Hişam bin Həkəmin barəsində mövcud olan məlumatlar.

İkinci mövzu: Hişam bin Həkəmin ittihama məruz qaldığı təcsim və təşbih barəsində olduğu güman edilən rəvayətlərin araşdırılması, sənəd və mətninin dəlalətinin müzakirəsi.

Üçüncü mövzu: Hişam bin Həkəmin təcsim məsələsində bəraətinin dəlilləri və nişanələri.

Dördüncü mövzu: Bu şübhə barəsində obyektiv hökm və nəticənin çıxarılması.

Birinci mövzu: Tarix və tərcümeyi-hal alimlərinin kitablarında Hişam bin Həkəmin barəsində mövcud olan məlumatlar

Tarix bizə onun şiə kəlam alimlərindən, imamiyyə şiəsinin böyük şəxsiyyətlərindən, İmam Sadiqin (ə) tərəfdarlarından, imamiyyə məzhəbinin kəlam elmində dahi bir alim və şiə məzhəbinin formalaşmasında rol oynayan və bu məzhəbdə diskussiya yolunu açan şəxs olduğunu bildirir. O, şiə tarixində böyük və görkəmli şəxsiyyətlərdən hesab olunur. Əhməd Əmin buna şahidlik edərək belə deyir: “Kəlam elmində diskussiya baxımından ən böyük şəxsiyyətdir. Mötəzilə ilə diskussiyalar aparmış və onlarla müzakirələr etmişdir. Kitablarda onun

yüksək elminə və güclü höccətinə dəlalət edən çoxlu müxtəlif diskussiyalar qeyd edilmişdir...”[497]

O, diskussiyalarda bənzəri olmayan bir alim idi. Həqiqətən də o, kəlam elmində çox bilikli, diskussiyalarda çox məharətli və hazırcavab idi.

Şəhristani belə deyir: “Onun mötəziləni öz əqidələri xüsusunda dəfələrlə susdurması göz ardına vururmamalıdır. Bu şəxs təşbih izhar etmədən rəqibini sudurmaqla tanınmışdır. O, həmçinin, Əllafla diskussiya edərək onu susdurmuşdur. O, belə demişdir: “Sən deyirsən ki, Allah-taala elm vasitəsilə bilir. Elmi onun zatıdır. Bununla da O, elm vasitəsilə bilməkdə məxluqlarla müştərək olur. Yalnız bununla fərqlənir ki, O, zatı ilə bilir. Bununla da başqa bilənlərdən fərqli olur. Belə olan halda: “O, başqa cisimlər kimi olmayan cisimdir, başqa surətlər kimi olmayan surətdir, Onun başqa ölçülərdən fərqli ölçüsü var və bu kimi şeylər niyə demirsən?!”[498]

Burada Hişam mötəzilə alimlərinin biri olan Əllafa qarşı iyham və işarə üslubundan istifadə etmişdir. Ona belə demişdir: “Nə üçün: “Allah başqa cisimlər kimi olmayan cisimdir. Başqa surətlər kimi olmayan surətdir” demirsən? O, bu rəyi dəstəkləmir, əksinə onu susdurmaq üçün belə deyirdi. O, əslində demək istəyirdi ki; “Allaha bənzər bir şey yoxdur”. Məhz bu sözlərlə ona bu məsələni yaxınlaşdırmaq istəyirdi. Güman edirik ki, təcsim şübhəsi məhz onun mötəzilə alimini dəlil qarşısında susdurmaq məqsədilə söylədiyi bu sözdən yaranmışdır.

Bu şəxsin tarixi barədə fərqli sözlər deyilmişdi. Bəziləri onun əvvəlcə Şakir Deysaninin tərəfdaşlarından olan bir deysani olduğunu iddia etmişdir. İbn Teymiyyə Minhaus-sunnə kitabında məhz bu rəyi qeyd edərək demişdi: “Hişam bin Həkəm Kəndə qəbiləsinin azad etdiyi qul idi.

[497] Zuhal-İslam, c. 3, s. 268

[498] əl-Miləl vən-nihəl, c. 1, s. 185

Zindiq (dinsiz) Əbu Şakir Deysaninin ağuşunda böyümüşdür. Onun nökərlərindən biri idi. O, Əbu Şakirin mühitindən küfr, dinsizlik və təcsimi mənimsəmişdir".[499]

Lakin bu iddia qəti olaraq batildir. Tarix bizə bu iki şəxs arasında hər hansı bir əlaqənin olmasından danışmamışdır. Hətta belə bir əlaqə olsa belə, Hişam bin Həkəm belə bir əlaqədən təsirlənməzdi. Bu barədə əqidə və fiqhə dair rəvayətlərini müzakirə edərkən danışacayaıq.

Bundan sonra İbn Teymiyyə onun cəhəmiyyə təriqətinə mənsub olduğunu və başçılarının da Cəhəm bin Səfvan olduğunu iddia etmişdir. Lakin belə məlum olur ki, Cəhəmin rəyləri Hişam bin Həkəmin təfəkküründə dərin izlər buraxmamışdır. Bu rəylərin onun fikrində böyük təsir buraxdığını görmürük. O, Cəhəmin Cənnət və Cəhənnəmin və oradakı sakinlərin sukunəti barədəki rəyinə müxalif çıxmışdır. Cəhəm insanların daimi sükunətə qərq olacaqlarını, Hişam isə əbədi olacaqları rəyindədir. Tarix onun Cəhəmə nisbət verilməsi və bunun necə mümkün ola biləcəyi barədə heç nə ehtiva etmir.[500]

Həmçinin onun İmam Sadiqin (ə) fikirlərindən təsirlənərək imamiyyə məzhəbinə etiqad bəslədiyini iddia etmişdir. Bu, o vaxt baş vermişdir ki, İmam Sadiq (ə) ondan bir sual soruşduqda Hişam məəttəl qalaraq cavab verə bilməmiş və sükut etmişdir. Hişam İmam Sadiqdən (ə) möhlət istəmiş və imam da ona möhlət vermişdir. Hişam getdikdən sonra günlərlə fikirləşir, lakin suala cavab tapa bilmir. İmam Sadiqin (ə) yanına gəlir və imam ona cavabı deyir. Sonra ondan məzhəbinin əsası və prinsiplərinin batilliyini əks etdirən bəzi məsələlər barədə suallar soruşur. Hişam qəm-qüssə içində imamın yanından ayrılır. Hişam özü belə demişdi: "Günlərlə çaşqınlığımdan ayıla bilmirdim". Ömər bin Yəzid belə deyir: "Məndən tələb

[499] Muntəqa minhacul-itidal, s. 24

[500] Bax; Abdullah Nemət, "Hişam bin Həkəm, s. 60

etdi ki, İmamın hüzuruna gəlmək üçün icazə alım. Mən da onun üçün icazə aldım. İmam Sadiq (ə) dedi: "Məni - Hiyrədə bir yerin adını dedi- gözləsin. Sabah orada onunla görüşəcəm". (Hişam deyir:) "Onu orada gördükdə mənə yaxınlaşdı. Onun mənzəri içimə qorxu saldı. Mənə elə qorxu gəldi ki, hətta bir kəlmə belə deyə bilmədim. Bir söz demək istədikdə dilim söz tutmadı. İmam Sadiq (ə) qarşımda dayanıb mənə baxır və mənim nə deyəcəyimi gözləyirdi. Onun qarşımda dayanması məni daha da çox heyrətləndirir və içimə qorxu doldururdu. Əmin oldum ki, məni bürüyən bu vahimə yalnız Allah-taala tərəfindən, uca Allah yanında onun əzəmətli məqamı və dərəcəsindəndir". Ömər dedi: "Hişam məzhəbini tərk edərək Əbu Abdullaha (İmam Sadiqə) qoşuldu və haqq dinə etiqad etdi. O, Əbu Abdullahın bütün səhabələrindən üstün oldu".[501]

Onun tarixi barədə nə deyilirsə deyilsin, o, Peyğəmbər əhli-beytini dili və qəlbi ilə müdafiə edən şəxs olmuşdur. Tarix onu atılmış ləkələrdən pak edəcək bu həqiqətin üstünə pərdə çəkə bilməz. İmam Baqir (ə), İmam Sadiq (ə) və İmam Kazim (ə) onu paklıqla, etiqadında və məzhəbində möhkəmlik vəsfləri ilə dəyərləndirmişdirlər. Bu barədə sonra danışacayıq.

Hişam bin Həkəm tərcümeyi-hal kitablarında

İndi tərcümeyi-hal mütəxəssisləri Hişam bin Həkəmin barəsində dediklərini qeyd edəcəyik. Sonra isə bu şəxs barədə deyilənlərdən nəticə cıxardacayıq.

Nəcaşi onun barəsində belə deyir: "Rəvayətlərin nəqlində etibarlı, bu sahədə gözəl surətdə tədqiqat aparan şəxs idi".[502]

[501] İxtiyaru mərifətir-rical, c. 2, s. 529

[502] Ricalu Nəcaşi, s. 434

Şeyx Tusi belə deyir: "Ağamız və mövlamız Musa bin Cəfərin (ə) ən yaxın səhabələrindən idi. Onun əqidə və digər məsələlərində müxaliflərlə çoxlu mübahisələri olmuşdu. Onun çoxlu əsərləri vardı. Kitabul-imamə, Kitabud-dəlalət alə hudusil-əşya, Kitabur-rəddu aləz-zənadiqət, Kitabur-rəddi alə əshabil-isneyn və Kitabut-tovhid onun əsərlərindəndir".[503]

Şeyx Tusi Rical kitabında onu İmam Sadiqin (ə) səhabələrindən hesab etmişdir.[504]

İbn Nədim belə deyir: "Əbu Abdullah Cəfər bin Muhəmməd Sadiqin (ə) ən üstün səhabələrindən və imamiyyə şiəsinin kəlam alimlərindən biri idi. O, İmam Sadiqin (ə) barəsində dua etdiyi şəxslərdən idi. Onun barəsində belə buyurmuşdur: "Sənə Rəsulullahın (s) buyurduğu sözü deyirəm: "Sən dilinlə bizə kömək etdikcə Ruhul-qüdslə dəstəklənəcəksən". O, ümmət içərisində kəlam elmini üzə çıxartmış, məzhəbi tənzimləmiş və məzhəbin dəlil gətirmə yollarını asanlaşdırmışdı".[505]

Əllamə Hilli belə deyir: "Əbu Abdullah və Əbulhəsəndən rəvayətlər nəql etmişdir. Rəvayət nəql etməkdə etibarlı və bu sahədə gözəl tədqiqat edənlərdən idi. İmam Sadiq (ə) və İmam Kazimdən (ə) onun barəsində gözəl mədhlər nəql olunmuşdur. İmamət barəsində kəlam elmini açmış, fikir və düşüncə ilə məzhəbi tənzimləmişdir. Kəlam elmində məharətli və hazırcavab idi". Sonra belə deyir: "Onun mədhi barədə başqa rəvayətlər də nəql olunmuşdur. Ona qarşı hədislər də nəql olunmuşdur. "əl-Kəbir" kitabımızda həmin hədisləri qeyd etmiş və cavablandırmışıq. Mənim nəzərimdə bu şəxsin əzəmətli şəni və uca məqamı var".[506]

---

[503] əl-Fihrist, s. 157

[504] Ricalu Tusi, s. 318

[505] əl-Fihrist, s. 224

[506] Xuləsətul-əqval, s. 288, 289

İbn Davud Hilli Hişamı müdafiə edərək belə deyir: "Burqinin onun barəsində dediyi tənələrin isbatını tələb etmirəm. Çünki onun əqidəsinin vəziyyəti və səhabələrin onun barədə tərifləri mütəvatir həddədir. Onun bir zindiqin tələbəsi olması onun ardıcıllarından olması demək deyil. Hikmət harda olsa oradan götürülər. (Burqinin) "O, cismə inanan pis biri idi" sözləri ona deyil, Əbu Şakirə aid olması ehtimal olunur".[507]

Seyid Xoyi belə deyir: "Mən Hişamın təcsimə inanmasına dəlalət edən bütün rəvayətlərin qondarma olduğunu zənn edirəm. Bu nisbət ona qarşı olan həsəddən qaynaqlanmışdır. Necə ki, Kəşşinin Süleyman bin Cəfər Cəfəridən nəql etdiyi rəvayət buna dəlalət edir. (Süleyman) belə deyir: "Əbulhəsən Rzadan (ə) Hişam bin Həkəm barədə soruşdum. (İmam) dedi: "Allah ona rəhm eləsin. İxlaslı bir qul idi. Yoldaşlar tərəfindən ona olan həsəd üzündən əziyyət çəkmişdir".[508]

Hişamın tərcümeyi-halını yazan alimlərin rəylərinin xülasəsi

Tərcümeyi-hal və rical elmində mütəxəssislərin yuxarıda qeyd etdiyimiz rəylərindən belə nəticə çıxarırıq.

1. Nəcaşinin onun barəsində gözəl tədqiqatçı deməsi

Nəcaşi onun barəsində belə demişdi: "Rəvayətlərin nəqlində etibarlı və bu sahədə gözəl tədqiqatçı idi". Onun gözəl tədqiqatçı olmasını dedikdə nəql etdiyi rəvayətlərin məzhəbin rəyinə müvafiq olmasını bildirir. Kitablarında Əhli-beytin (ə) təsdiqlədiyi əqidə əsaslarına və ümumi qaydalara müxalif heç şeyin olmamasını nəzərdə tuturdu. Əvvəlki mövzuların araşdırılmasında qeyd etdiklərimizdən məlum olduğu kimi

[507] Rical ibn Davud, s. 200

[508] Mucəmu ricalil-həbis, c. 20, s. 321

əhli-beyt məzhəbi Allah-taalanı təşbih məsələsində mütləq surətdə münəzzəh və pak olması rəyindədir.

Deməli, Nəcaşi gözəl tədqiqatçı deməklə Hişam bin Həkəmin təşbih və təcsim əqidəsindən uzaq olduğuna şəhadət vermişdir.

2. O, İmam Musa bin Cəfərin (ə) xüsusi səhabələrindəndir

O, İmama ən yaxın olan səhabələrdən olmuşdur. Əgər İmam Kazim (ə) Hişamda azacıq da olsa təcsim əqidəsinə aid bir şey görsəydi, onu danlayardı. Lakin əksinə olaraq biz İmam Sadiq (ə) və İmam Kazim (ə) tərəfindən Hişamın tərifləndiyini görürük.

3. İmam Sadiq (ə) onun Ruhul-qüdslə dəstəklənəsi üçün dua etmişdir

Hişam İmam Sadiqin (ə) sayılıb-seçilən səhabələrindən olmuşdur. İmam (ə) ona: "Sən dilinlə bizə kömək etdikcə Ruhul-qüdslə dəstəklənəcəksən" -deyə dua etmişdir. Bu, yalnız təcsim və təşbih əqidəsinə bulaşmayan ilahi elmlərdə uca, yüksək və ali mərtəbəyə çatan ixlaslı şəxslərin yetişə biləcəyi əzəmətli mərtəbədir.

4. Kəlam elmini aşkar etdi, məzhəbi islah etdi; Əllamə Hilli "əl-Kəbir" kitabında Hişamı müdafiə edir

Hişam İmamət mövzusunu geniş surətdə izah etmiş, əqli nəticə və dəlil ilə məzhəbi formalaşdırmışdır... İbn Nədim və Əllamə Hilli onun barəsində bu sözləri demişlər. O, kəlam elmi sahəsində məzhəbi inkişaf etdirmişdir. Onun barəsində heç bir vəchlə təcsim əqidəsinə inanmışdır deyilməməlidir. Əksinə o, məzhəbə qarşı yönəlmiş şübhələri o cümlədən təcsim şübhəsini dəf etmişdir. Buna əsasən də Əllamə Hillinin belə dediyini görürük: "Onun mədhi barədə başqa rəvayətlər də nəql

olunmuşdur. Ona qarşı hədislər də nəql olunmuşdur. “əl-Kəbir” kitabımızda həmin hədisləri qeyd etmiş və cavablandırmışıq. Mənim nəzərimdə bu şəxsin əzəmətli şəni və uca məqamı var” Əllamə “əl-Kəbir” adlandırdığı kitabda onu müdafiə etmiş və Hişama atılmış əsassız böhtanların cavabını vermişdir.

Bundan sonra isə onun şəninin əzəmətli və məqamının yüksək olmasını hesab etmişdir.

Bu, Əllamə Hilli tərəfindən Hişam bin Həkəmin əqidəsinin düzgün olması, onun şəninin əzəmətli və məqamının yüksək olması barədə ikinci şəhadətdir.

5. Burqi onu ittiham edir, İbn Davud isə onu müdafiə edir

Burqi Hişamın zindiq Deysaninin səhabələrindən olduğunu iddia etmişdir. Lakin İbn Davud bu böhtanı dəf edərək belə demişdir: “Onun əqidəsinin vəziyyəti və səhabələrin onun barədə tərifləri mütəvatir həddədir. Onun bir zindiqin tələbəsi olması onun ardıcıllarından olması demək deyil. Hikmət harda olsa oradan götürülər. (Burqinin) “O, cismə inanan pis biri idi” sözləri ona deyil, Əbu Şakirə aid olması ehtimal olunur”.

Əqidəsi şiə məzhəbində məlum olan, əqidəsinin və rəylərinin düzgünlüyü barədə alimlərin tərifləri mütəvatir həddə çatan birinin barəsində Burqinin söylədiyinin heç bir əsası yoxdur. Çünki onun Əbu Şakirin şagirdi olması və onun rəylərinə etiqad etməsi arasında heç bir bağlılıq yoxdur. Hikmət harada olarsa oradan da götürülər.

Burqinin təcsim şübhəsi barədə dediyi sözlər bəlkə də, bu sözləri deyən Əbu Şakirə aiddir. Buna görə də İbn Davud belə deyir: “Hişam bin Həkəmin yüksəkliyində heç bir mübahisə yoxdur. Lakin Burqi onun sırf zindiq Əbu Şakir Deysaninin şagirdi olmasına görə onun barəsində

qaranlıq sözlər danışmışdır. Onun sözlərinin heç bir əsası yoxdur. Baxmayaraq ki, onun sözündə yozulacaq və onun bu şübhədən uzaq olmasına görə bu tənədən uzaq tutacaq şeylər var".[509] Bu, onun təcsim şübhəsindən bəraət qazandığına dair üçüncü şəhadətdir.

6. Seyid Xoyi də, həmçinin, Hişamı pisləyən rəvayətlərin doğru olmamasını zənn etdiyini deməklə ona təcsim böhtanından bəraət qazandıracaq dördüncü şəhadəti qeyd etmişdir. O, həmin rəvayətlərin hamısının qondarma olduğunu demişdir. Hədislərin qondarma olmasının səbəbi Hişama qarşı yönəlmiş həsəd olmuşdur. Buna dəlil isə İmam Rzanın (ə) onun barəsində soruşanlara belə buyurmasıdır: "Allah ona rəhm eləsin. İxlaslı bir qul idi. Yoldaşları tərəfindən ona olan həsəd üzündən əziyyət çəkmişdir"[510]

İmam Rza (ə) ona qarşı mərhəmətli olmuş və ona bu şübhədən bəraət qazandırmışdır.

Nəticə: Bu şahidliklər həsəd və nifrətdən dolayı Hişam bin Həkəmə qarşı yönəlmiş təcsim böhtanından ona bəraət qazandırır. İndi isə Hişamın təcsimə inanmasını iddia edən rəvayətləri qeyd edək və obyektiv olaraq rical və hədis elminin meyarlarına əsasən onları dəyərləndirək, sonra isə araşdırmalarımızın nəticəsini aşkar surətdə qeyd edək.

İkinci mövzu: Hişam bin Həkəmi təcsim əqidəsində olduğunu iddia edən rəvayətlər və onların müzakirəsi

1. Əli bin Əbu Həmzənin rəvayəti

[509] Ricalu İbn Davud, s. 284

[510] İxtiyaru mərifətir-rical, c. 2, s. 547; Camiur-ruvat, c. 2, s. 313

Şeyx Kuleyni sənədlə belə nəql edir: “Əli bin Həmzənin belə dediyi nəql edilir: “Əbu Abdullaha (ə) dedim: “Hişam bin Həkəmin sizdən Allah cisimdir, ehtiyacsızdır, nuranidir... deyə nəql etdiyini eşitmişəm. (İmam) belə dedi: “Onun necə olmasını Ondan başqa heç kim bilməz. Ona bənzər heç bir şey yoxdur. Hiss üzvləri onu dərk etməz və heç bir şey onu əhatə edə bilməz. O, nə cisim, nə də surətdir”.[511]

Hədisin dəyərləndirilməsi

Bu rəvayətin mötəbər olmaması və etibardan düşməməsi üçün sənədində Əli bin Əbu Həmzə Bitaininin olması yetərlidir. O, vaqifiyyə təriqətinin sütunlarından biridir. Şeyx Tusi bir neçə yerdə belə demişdir: “O, vaqifidir. Müttəhim və məlundur. Ondan çoxlu rəvayətlər nəql olunmuş, Quranın təfsiri başdan ayağa qədər ondan nəql olunan rəvayətlərlə yazılmışdır. Lakin mən ondan bir hədis belə nəql etməyi halal etmirəm”.[512]

İbn Ğəzairi belə deyir: “Əli bin Əbu Həmzə - Allah ona lənət etsin – vaqifiliyin köküdür. Əbu İbrahimdən sonra vəliyə qarşı ən şiddətli düşmənçilik edəndir”.[513] Buna əsasən də Əli bin Əbu Həmzənin nəqli zəifdir, qəbuledilməzdir, imamların (ə) onu mədh etməsinə və etibarlı hesab etməsinə əsasən alimlərin şahidliklərini oxuduqdan sonra Hişam bin Həkəmin məqamına xələl gətirməz.

2. Muhəmməd bin Fərəc Rəxcinin rəvayəti

Əli bin Muhəmməd Muhəmməd bin Fərəc Rəxcinin belə dediyini nəql edir: “Əbulhəsənə (ə) belə yazıb Hişam bin Həkəmin təcsim, Hişam bin

[511] əl-Kafi, c. 1, s. 104

[512] İxtiyaru mərifətir-rical, c. 2, s. 706; Xuləsətul-əqval, s. 234

[513] Xuləsətul-əqval, s. 363

Salimin isə surət barəsində dediyini soruşdum. O (ə), belə cavab yazdı: “Caşqınların çaşqınlığını bir tərəfə at. Şeytandan Allaha pənah aparıram. Doğru Hişamların dediyi kimi deyil”.[514]

Hədisin dəyərləndirilməsi

Bu rəvayət də zəifdir və mötəbər deyil. Çünki rəvayət mərfudur (ravi silsiləsi ardıcıl deyil). Ortada məchul vasitə var. Bunu da əlavə qeyd edim ki, Şeyx Məclisi bu rəvayətin dəlalətini araşdıraraq belə demişdir: “Onların (Allah) cisimdir başqa cisimlər kimi yox, surətdir başqa surətlər kimi yox” söylədikləri deyilmişdir. Bəlkə də onların cisim dedikdə məqsədləri öz zatı ilə var olan, surət dedikdə isə məqsədləri mahiyyətdir. Baxmayaraq ki, bu sözləri Allah-taalaya aid etməkdə xəta etmişlər”.[515]

Bəlkə də “Doğru Hişamların dediyi kimi deyil” sözündən məqsəd “ey ravi, məsələ sənin nəql etdiyin kimi Hişamların sözü bu deyil”. Hər bir halda rəvayətə etimad edilməz və bu rəvayət zəifdir.

3. Muhəmməd bin Həkimin rəvayəti

Muhəmməd bin Abdullah qeyd etdiyi bəzi insanlardan, onlar da Əli bin Abbasdan, o da Əhməd bin Muhəmməd bin Əbu Nəsrdən, o da Muhəmməd bin Həkimdən belə nəql edir: “Atam İbrahimə (ə) Hişam bin Salim Cəvaliqinin və Hişam bin Həkəmin “Allah cisimdir” sözlərini nəql etdim. Belə dedi: “Həqiqətən də heç bir şey Allaha bənzəməz. Xaliqi cisim və ya surətlə vəsf edənin sözlərindən də böyük pislik və xəyanət olarmı?”[516]

Hədisin dəyərləndirilməsi

Bu rəvayət də zəifdir və heç bir dəyəri yoxdur. Çünki bu rəvayət də mərfudur. Həmçinin bu hədisin sənədində Əli bin Abbas Cərazini Razi var.

---

[514] əl-Kafi, c. 1, s. 105

[515] Biharul-ənvar, c. 3, s. 288

[516] əl-Kafi, c. 1, s. 105

Nəcaşi onun barəsində belə demişdir: “Ğüluvv etməkdə ittiham edilmişdir. Barəsində qaranlıq sözlər deyilmişdir. Olduqca zəifdir”.[517]

İbn Ğəzairi belə deyir: “Əli bin Abbas Cərazini Əbulhəsən Razi məşhurdur. Onun xəbisliyinə və fikirlərində həlaka düşməsinə dəlalət edən tərifl ənənlər və pislənənlər barəsində bir kitabı var. Ona fikir verilməməli, rəvayət etdiyi nəzərə alınmaz”.[518]

4. Muhəmməd bin Ziyadın rəvayəti

Muhəmməd bin Əbu Abdullah Muhəmməd bin İsmaildən, o da Həsən bin Həsəndən, o da Bikr bin Salehdən, o da Həsən bin Səiddən, o da Abdullah bin Muğirədən, o da Muhəmməd bin Ziyadın belə dediyini nəql edir: “Yunis bin Zəbyanın belə dediyini eşitdim: “Əbu Abdullahın (ə) (İmam Sadiqin) hüzuruna daxil oldum və ona dedim: “Hişam bin Həkəm çox ağır bir söz deyir. Mən onun dediyini sənə qısaca olaraq deyirəm. O, iddia edir ki, Allah cisimdir...” Əbu Abdullah (ə) elə dedi: “Vay olsun ona! Bilmir ki, cisim məhdud və sonludur”.[519]

Hədisin dəyərləndirilməsi

Bu rəvayət də həmçinin zəifdir. Çünki bu rəvayətin sənədində Bikr bin Saleh Razi var. Bəni Zəbbənin azad etdiyi qul. Əbulhəsən Musadan (İmam Kazimdən) zəif rəvayət nəql etmişdir.[520] İbn Ğəzairi və Əllamə belə deyirlər: “Olduqca zəifdir. Yalnız öz yolu ilə çoxlu qəribə hədislər nəql edəndir”.[521]

---

[517] Ricalu Nəcaşi, s. 255

[518] Mucəmu ricalil-hədis, c. 13, s. 72

[519] əl-Kafi, c. 1, s. 106

[520] Ricalu Nəcaşi, s. 109

[521] Ricalu Ğəzairi, s. 44; Xulasətul-əqval, s. 32

5. Əbdurrəhman Həmaninin rəvayəti

Muhəmməd bin Əbu Abdullahdan, o da Muhəmməd bin İsmaildən, o da Əli bin Abbasdan, o da Həsən bin Əbdurrəhman Həmanidən belə nəql edir: "Əbulhəsən Musa bin Cəfərə (ə) belə dedim: "Hişam bin Həkəm Allahın heç nəyə bənzəməyən cisim olduğunu iddia edir". (İmam) belə dedi: "Allah onu öldürsün! Məgər bilmir ki, cisim məhduddur".[522]

Hədisin dəyərləndirilməsi

Bu rəvayət zəifdir. Çünki rəvayətin sənədində olan Əli bin Abbas zəifdir və fikirlərində həlaka uğrayandır. Yuxarıda deyildiyi kimi ona diqqət edilməz və dedikləri nəzərə alınmaz. İmamın onu pisləməsi barədə deyilən sözünə gəlincə, bəzi rəvayətlərdə İmamın onu tərifləməsi ilə ziddiyyət yaradır. Bu sözləri təqiyyəyə yozmaq labüddür. Yaxud da "Allah onu öldürsün" sözünü tərif mənasında yozmalıyıq. Həmin dövrdə ərəblər və ürf bu sözü başqa mənaya işarə etmək üçün istifadə edirmişlər. Necə ki, "Allah onu öldürsün, necə də hörmətlidir" deyildiyi kimi. Bu söz dildə deyilər və daşıdığı məna nəzərdə tutulmaz. Ərəblərin "Anası ölsün!, atası ölsün! əlləri qurusun! Allah onu öldürsün! Necə də şücaətlidir! və bu kimi sözlər işlətməsi qeyd etdiyimizi dəstəkləyir.[523]

6. Saqar bin Əbu Dilfin rəvayəti

Saqar bin Əbu Dilfdən belə nəql olunur: "Əbulhəsən Əli bin Muhəmməd bin Əli bin Musa Rzadan (ə) tövhid barədə soruşdum. Ona belə dedim:"Mən Hişam bin Həkəmin sözünü deyirəm. (İmam) qəzəbləndi. Sonra belə dedi: "Sizə nə Hişamın sözündən. O, bizdən deyil. Kim Allahın cisim olduğunu deyərsə, biz dünya və axirətdə ondan uzağıq. Ey Əbu Dilfin

[522] əl-Kafi, c. 1, s. 106

[523] Bax; Nəvəvi, "Şərhu Səhih Müslim", c. 9, s. 74

oğlu, cisim sonradan yaranıb. Allah onu yaratmış və ona cisimlilik vermişdir".[524]

Hədisin dəyərləndirilməsi

Bu rəvayət zəifdir. Çünki Saqar bin Əbu Dilf Kərxinin vəziyyəti etibarlılıq baxımından məchuldur.

7. İbrahim bin Muhəmməd Xəzzazın rəvayəti

Əli bin Əhməd bin Muhəmməd bin İmran Dəqqaqdən belə nəql olunur: "Muhəmməd bin Əbu Abdullah Kufi Muhəmməd bin İsmail Bərməkidən, o da Hüseyn bin Həsəndən, o da Bikr bin Salehdən, o da Hüseyn bin Səiddən, o da İbrahim bin Muhəmməd Xəzzaz və Muhəmməd bin Hüseynin belə dediklərini nəql edirlər: "Əbulhəsən Rzanın (ə) hüzuruna daxil olduq. Ona Muhəmmədin (s) Rəbbini otuz yaşında gənc bir oğlan surətində ayaqları yaşıllıq içində görməsi barədə nəql olunan hədisdən danışdıq. Mən dedim: "Hişam bin Salim, Sahibu Taq və Meysəmi belə deyirlər: "Göbəyə kimi içi boş, qalan isə doldur". (İmam) səcdə etdi. Sonra belə dedi: "Subhanəkə (Sən münəzzəh)! Səni tanımamışlar! Səni tək və vahid bilməmişlər! Buna görə də Səni vəsf etmişlər. Subhanəkə! Əgər Səni tanısaydılar və Özünü vəsf etdiyin kimi Səni vəsf etsəydilər..."[525]

Hədisin dəyərləndirilməsi

Bu hədisin sənədində onu etibardan salacaq sayda zəif və məchul ravilər var. Qeyd etdiyimiz kimi Bikr bin Saleh olduqca zəifdir. Yalnız öz yolu ilə çoxlu qəribə hədislər nəql etmişdir.[526]

Həmçinin Əli bin Əhməd bin Muhəmməd bin İmran Dəqqaq məchuldur. Hüseyn bin Həsən Dəynuri adlanır. O da məchuldur.

---

[524] Tovhidi Səduq, s. 104

[525] Tohidi Səduq, s. 113-114

[526] Xulasətul-əqval, s. 327

Qeyd etdiklərimizin xülasəsi

Qeyd etdiklərimiz Hişam bin Həkəmin barəsində deyilmiş rəvayətlərin təqribən hamısıdır. Həmin rəvayətlərin sənədlərindəki nöqsanlar artıq bizə məlumdur. Buna əsasən də həmin rəvayətlərə etimad etmək və ya həmin rəvayətlərə əsasən Hişam bin Həkəmi pisləmək və bu şübhə ilə ittiham etmək olmaz.

Üçüncü mövzu: Hişam bin Həkəmin təcsim məsələsində bəraətinin dəlilləri və nişanələri

1. Hişamın nəzərində cisimlilik məfhumu "şey" anlamındadır, tərəfləri olan məhdud varlıq anlamında deyil

Cisimlilik məfhumu Hişamın nəzərində uzunluq, en və dərinlik kimi xüsusiyyətləri olan məfhumdan fərqli məna kəsb edir. Burada məqsəd maddi cisim mənasında deyil.

Allah-taala barəsində "cisimdir başqa cisimlər kimi yox" tezisini deməklə Hişam Allah-taalanın buyurduğu "Ona bənzər bir şey yoxdur" ayəsindən götürülmüş "şeylərdən fərqli bir şeydir" tezisinin mənasını təsvir etmək istəyir. "Şey" bir məfhum olaraq Allah-taala ilə başqa varlıqlar arasında ruzi verən, alim və başqa sifətlərinin müştərəkliyi kimi müştərək bir məfhumdur. Lakin Allah-taala bu məsələdə başqa şeylərdən varlığı özündən olan vücud xüsusiyyəti ilə fərqlənir. Bu xüsusiyyət başqa şeylərdə yoxdur. O, başqa şeylərə bənzəməz, başqa şeylər də Ona bənzəməz. Allah-taala üçün "şey" məfhumunun sübutu Onu tətil həddindən (sifətin inkar olunması nəticəsində Onun yoxluqla vəsf olunması), bənzərinin inkar olunması isə Onu başqa şeylərə bənzətmə, oxşatma həddindən çıxardır. Bununla da bu iki tezisin arasında heç bir ziddiyyət olmadan Allah-taalanı kamil surətdə münəzzəh və pak olması

sübuta yetirilir. Buna əsasən də görürük ki, Seyid Xoyi Hişamın termin və ifadə olaraq xəta etdiyi, əqidəsinin heç bir şübhə olmadan doğru olması rəyindədir. Seyid Xoyi belə deyir: " Əgər Hişamın Allah-taala barəsində cisim sözünü işlətdiyini qəbul eləsək, o, bu ifadəni işlətməkdə və sözü öz mənasından fəqrli mənada işlətməklə xəta etmişdir. Bu, onun etiqadında xətaya yol verməsi deyil. Buna dəlil Muhəmməd bin Yəqubun sənədlə Əbdürrəhman Həmanidən nəql etdiyi yuxarıdakı rəvayətdir: "Hişam bin Həkəm iddia edir ki, Allah-taalanın cisimdir, heç bir şey Ona bənzəməz". Bənzərliyin, oxşarlığın inkar olunması onun məqsədinin anlaşılan cisim mənası olmadığına dəlalət edir. Əks təqdirdə bənzərliyin və oxşarlığın inkarının heç bir mənası olmazdı. O, başqa bir mənanı nəzərdə tuturdu. Baxmayaraq ki, o, ifadə etməkdə və bu sözü işlətməkdə xəta etmişir".[527]

Bu məfhumu (yəni O, öz zatı ilə var olan bir şeydir), həmçinin, Əşəri, İbn Əbulhədid də demişdir. Əbulhəsən Əşəri "əl-Məqalat" kitabında belə deyir: "Hişam bin Həkəm belə deyib: "Cismin mənası O, mövcuddur deməkdir". O, belə deyərdi: "Mən cisim deməklə Onun mövcud və şey olduğunu, həmçinin, öz zatı ilə var olandır demək istəyirəm".[528]

İbn Əbulhədid belə deyir: "Kim: "O, cisimdir. Başqa cisimlər kimi yox" deyərsə, məqsədi Onun hər hansı bir feli icra etməsinin qeyri-mümkün olduğunu bildirən cəsəd mənası deyilsə və Onda cisimlilik mənasının olmasını inkar edərsə, deməli, bu sözü Onun heç bir şeyə bənzəməyən bir şey, başqa zatlara bənzəməyən bir zat mənasında demişdir. Onların məsələsi asandır. Çünki onların ixtilafı sözdədir. Bu sözü deyənlər Əli bin Mənsur, Səkkak, Yunis bin Əbdürrəhman, Fəzl bin Şazandır. Bunlar hamısı şiənin qədim alimlərindəndir. İbn Kərram və tərəfdarları da bu sözü demişlər. Onlar belə demişlər: "Onun subhənəhu və təala barəsində o,

[527] Mucəmu ricalil-hədisi, c. 20, s. 320-321

[528] Məqalatul-islamiyyin, s. 304

cisimdir deməyimizin mənası Onun başqasının deyil öz zatı ilə var olmasıdır".[529]

Deməli, Hişam bin Həkəmin və bəzi şagirdlərinin nəzərində ilahi zata cisim sözünün deyilməsi xüsusi terminoloji mənadadır. Onu təcsim əqidəsinə inanmaqda ittiham edə bilmərik. Çünki bu, əqli və şəri prinsiplərə müxalifdir. Bəli, ola bilər ki, belə deyilsin: "Cisim Allahın adıdır. Bu isə Allah-taalanın adlarının dini mətnlər əsasında olması məsələsinə bağlıdır". Lakin bu başqa bir mövzudur. Bəziləri bu mənanın caiz olduğunu demişlər".[530]

İbn Həzm belə deyir: "Əgər Allah-taalanın cisim adlanması barədə dini mətn olsaydı, bu cür demək bizə vacib olardı. O zaman biz: "Onun bilən, qüdrətli və diri olduğunu dediyimiz kimi O, cisimlər kimi deyil" deməliyik".[531]

2. Hişam qarşı tərəfin etiqadı əsasında onunla diskussiya edər və onun əqidəsinə etiqad bəsləməzdi

Hişam bin Həkəm mötəzilə və ya başqaları ilə diskussiya edərkən onun metodlarından biri də qarşı tərəfin etiqadı əsasında onunla danışardı. Bu o demək deyildi ki, o, həmin əqidələrə iman gətirmişdi. Məsələn, o, Əllafla diskussiya edərkən ona belə deyir: "Nə üçün "O, cisimdir, başqa cisimlər

[529] Şərhu-nəhcil-bəlağə, c. 3, s. 228

[530] Cubainin sözlərində də buna rast gəlirik. O, belə deyir: "Əgər ağıl Allah-təalanın alim olmasına dəlalət edirsə, hətta O, özünü alim adlandırmasa belə , Onu alim adlandırmağımız vacibdir. Əgər bu mənaya dəlalət edirsə. Həmçinin başqa adlar barəsində də bu cürdür. Mötəzilədən yalnız bağdadlılar bu məsələdə bizə müxalif çıxmışlar. Onlar belə iddia edirlər ki, ağılın mənasının düzgün olmasına dəlalət etdiyi hər hansı bir adla Allah Özünü adlandırmadıqca bizim bu adla Onu adlandırmağımız caiz deyil..." Bax; Məqalatul-islamiyyin, c. 1, s. 525

[531] əl-Fəslu fil-miləli vəl-həvai vən-nihəl, c. 2, s. 93

kimi yox. O, surətdir, başqa surətlər kimi yox" demirsən?" Bu, qarşı tərəfin etiqadına əsasən dəlil gətirib onu susdurmaq məqsədilə deyilmişdir. Məhz onun da bu əqidədə olması zərurətini yaratmır. Bu metod diskussiya edən alimlərin nəzərində aydın məsələdir. Tərcümeyi-hal alimlərinin şahidliyinə əsasən Hişam ən bariz diskussiya aparan şəxslərdən idi.

Seyid Murtəza əş-Şafi kitabında belə deyir: "O, mötəziləyə etiraz məqsədilə bu sözləri demişdir: "Əgər siz: "Qədim olan Allah başqa şeylərdən fərqli şeydir" deyirsinizsə, onda onun başqa cisimlər kimi olmayan cisim olduğunu da deyin. Hər hansı bir şeyə əsaslanaraq etiraz bildirən və onun barəsində soruşan hər şəxs həmin şeyə etiqad etmiş sayılmır. Ola bilər ki, həmin məsələ barədə qarşı tərəfin cavabını, fikirlərini üzə çıxarıb onların cavablarının qane edici olmadığını bildirmək və ya bu kimi bir şey istəyir".[532]

Şəhristani belə deyir: "Onun mötəziləni öz əqidələri xüsusunda dəfələrlə susdurması göz ardına vurulmamalıdır. Bu şəxs təşbih izhar etmədən rəqibini susdurmaqla tanınmışdır. O, həmçinin, Əllafla diskussiya edərək onu susdurmuşdur. O, belə demişdir: "Sən deyirsən ki, Allah-taala elm vasitəsilə bilir. Elmi onun zatıdır. Bununla da O, elm vasitəsilə bilməkdə məxluqlarla müştərək olur. Yalnız bununla fərqlənir ki, O, zatı ilə bilir. Bununla da başqa bilənlərdən fərqli olur. Belə olan halda: "O, başqa cisimlər kimi olmayan cisimdir, başqa surətlər kimi olmayan surətdir, Onun başqa ölçülərdən fərqli ölçüsü var və bu kimi şeylər niyə demirsən?!"[533]

Qəribədir ki, Şəhristani bu məsələni etiraf etməsilə yanaşı onun elmi məqamına yaraşmayacaq səviyyədə Hişamı ittiham etdiyini görürük. Bunu da bilməliyik ki, bu ittihamların əksəriyyəti Cahizin və Şəhristaninin dili

[532] əş-Şafi fil-imaməti, c. 1, s. 84

[533] əl-Miləl vən-nihəl, c. 1, s. 185

ilə deyilmişdir. Həmin ittihamlara cavab verməyə isə heç bir lüzum yoxdur.

3. Hişamın İmam Sadiqdən (ə) təcsimin inkarı olunması barədə nəql etdiyi rəvayət

"Əgər Hişamın təcsim əqidəsinə inandığını fərz etsək, necə ola bilər ki, imamlarından (ə) təcsim və təşbihi inkar edən rəvayətlər nəql etmişdir? Kuleyni Əli bin İbrahimdən, o da atasından, o da Abbas bin Əmrdən, o da Hişam bin Həkəmdən Əbu Abdullah (ə) barəsində belə nəql edir: "Bir zindiq imamdan "Onun eşidən və görən olduğunu deyirsən?" sualına belə cavab verdi: "O, eşidən və görəndir. Bədən üzvü olmadan eşidir, heç bir alət olmadan görür. O, zatı ilə eşidir və zatı ilə görür".[534]

Bu, dəlalət edir ki, o, təcsim məsələsinə inanmırdı. Əks təqdirdə İmam Sadiqdən (ə) bu kəlamı nəql etməzdi.

4. Haqq carçısı və batili dəf edən təcsim əqidəsinə inana bilməz

Haqqı müdafiə edən, haqqa yardım edən birinin təcsim və təşbihə etiqad bəsləməklə ittiham olunması ağıla sığmaz məsələdir. Bəzi rəvayətlərdə İmam Sadiqin (ə) onun barəsində belə buyurduğu nəql olunur: "Hişam bin Həkəm bizim haqqımızın carçısı, sözümüzü çatdıran, doğru olduğumuzu təsdiqləyən, düşmənlərimizin batilini dəf edən bir şəxsdir. Kim onu və onun əmrinə tabe olarsa bizə tabe olmuşdur". Həmçinin onun barəsində: "Bu, qəlbi, əli və dili ilə bizim yardımçımızdır".[535]

Həmçinin Hişam İmam Sadiqdən (ə) Allahın adları və adlara aid sözlər barədə soruşduqda İmam belə demişdir: "...Allah-taala ilə yanaşı başqasını

[534] əl-Kafi, c. 1, s. 109

[535] Bax; əş-Şafi fil-imaməti, c. 1, s. 85

da ilah seçən düşmənlərimizi dəf edəcək və onlarla mübahisə edəcək səviyyədə başa düşdünmü, ey Hişam?" Mən: "Bəli" dedim. İmam belə dedi: "Ey Hişam, Allah bununla sənə fayda versin və səni (əqidəni) sabit etsin".[536]

(Əgər Hişam barədə deyilənlər doğru olsaydı) Onun təcsim və təşbihə inanmasını bildiyi halda İmamın (ə) onu mübahisəyə və diskussiyaya göndərməsi ağıla sığmaz və qeyri məntiqi olardı.

5. Əmini Şəhristaninin Hişama nisbət verdiyi təcsim iddiasını dəf edir

Şeyx Əmini Hişamın təcsim əqidəsinə inanmasını iddia edən Şəhristaniniyə cavab verərək belə deyir: "İmamlarının ardınca gedən şiə şəxsiyyətlərinə nisbət verdiyi bu batil əqidələr kölgə sahibinə bir şey edə bilməyib kölgədən qisas almaq kimidir. Halbuki onlar dəlil, bəyan, fətva və göstəriş olmadan hər hansı əqidəyə etiqad bəsləmir, hər hansı təlimatları yaymır, hər hansı hökm vermir və hər hansı rəy söyləmirdilər.

Onların əqidə, şəriət hökmləri və islam elmlərinə dair nəql etdikləri hədislər hamının əlinin çatdığı şiə kitablarında mövcuddur. Gözlər bu hədislər qarşısında bərəli qalır və ürəklər sevinc hissi duyur. Həmin hədislərlə onlara nisbət verilən dedi-qodular bir-birilərilə əks qütbdədirlər. Budur onların kitabları və əbədi yaşayacaq elmi irsləri, bu dedi-qodularla heç bir bağlılığı yoxdur. Əksinə onlara nisbət verilən bu dedi-qoduları kəskin dil ilə rədd edir. İmamların (ə) onları tərifləmələri barədə nəql olunanlar saysız-hesabsızdır. Əgər imamlar iddia edilən bu şeylərin onların birində olduğunu görsəydilər onlara qarşı çıxardılar ki, ətraflarında olan insanlar onlara uyub aldanmasınlar. Necə ki, bidət və zəlalət əhlinə qarşı belə etmişlər.

[536] əl-Kafi, c. 1, s. 87

Şiənin rical alimləri onların tərcümeyi-halını yazarkən geniş surətdə söhbət açmışlar. Alimlər hamısı onların iddia olunan bütün nöqsanlardan münəzzəh və pak olmalarında yekdildirlər. Bu alimlər onlardan uzaq olan, tərcümeyi-hallarını bilməyən, onlarla oturub durmayan müxaliflərdən onları daha yaxşı tanıyırlar. Qədim zamanlardan bəri şiə içərisində kimsə Şəhristaninin şiəliyə nisbət verdiyi hişamiyyə, zürariyyə, yunisiyyə və bu kimi bir çox təriqətlərin olmasını nə təsdiqləyib, nə də tanıyıb".[537]

Əmini – Allah ona rəhmət eləsin – Hişamı təcsim əqidəsində ittiham edənlərin sözlərini inkar edir və ona bəraət qazandırır. Deməli, Əmini də Hişamın əgər termin olaraq təcsim sözünü deyibsə, bundan məqsədinin çəkisi, eni, uzunluğu, dərinliyi, məkanı olan maddi cisim olmadığına inanmır. Əksinə əvvəlki səhifələrdə dediyimiz kimi o, Hişamın "Cisimdir başqa cisimlər kimi yox" sözündən məqsədi "Şeydir, başqa şeylər kimi yox" sözü mənasında olmasını deyir. O, cisim sözünü termin olaraq "şey" anlamında təsəvvür etmişdir. Yəni Allah-taalanı fəlsəfi məna baxımından "şey" olmasını sübuta yetirir. Bununla da Allah-taalanı tətil (sifətlərin inkarı, yoxluqdan ibarət məfhum) həddindən çıxarır, "cisimlər kimi yox" və "əşyalar kimi yox" deməklə də Onu təşbih (bənzətmə) həddindən çıxarır, Onunla cismlər arasında oxşarlığı inkar edir. Necə ki, mübarək ayə də buna dəlalət edir: "Heç bir şey Ona bənzəmir".[538]

Bu ayə hər hansı bir şeyin Allah-taalaya bənzəməsini inkar edir. Bu, Allahın təcsim qarışığı olmayan kamil surətdə münəzzəh olmasıdır.

6. İmam Rza (ə) surət barəsində olan hədisdə cisimliliyi inkar edir

Hişama nisbət verilən surət hədisinə gəlincə, İmam Rza (ə) həmin hədisi təcsim məsələsindən fərqli mənada yozur. Səduq Uyunu-əxbari-Rza

[537] əl-Ğədir, c. 1, s. 143

[538] Şura, 11

kitabında belə nəql edir: “Hüseyn bin Xalid belə nəql edir: “Rzaya (ə) dedim: “Ey Peyğəmbərin övladı! İnsanlar nəql edirlər ki, Rəsulullah (s) belə buyurub: “Allah-taala Adəmi öz (və ya onun) surətində yaratmışdır”. İmam dedi: “Allah onları öldürsün! Hədisin əvvəlini pozublar. Rəsulullah (s) bir-birini söyən iki şəxsin yanından keçirdi. Onlardan birinin digərinə: “Allah sənin və sənə bənzəyənlərin üzünü qəbih eləsin!” dediyini eşitdi. (Rəsulullah) ona belə dedi: “Ey Allahın qulu, qardaşına belə demə. Həqiqətən də Allah-taala Adəmi onun surətində xəlq etmişdir”.[539]

Bu hədis qeyd olunan hədisdən bəzi sözlərin düşdüyünü bəyan edir. Burada (صورته) sözündəki bitişən əvəzlik Adəmə bənzəyən şəxsə aid olmalıdır. Məqsəd Allah-taala deyil.

Bu məsələ barədə Şeyx Mufidin rəyi

Yeganə məsələ Şeyx Müfidin – Allah ona rəhmət eləsin – bu barədə rəyini qeyd etmək qaldı. Ola bilər ki. Bəziləri bu rəyə əsasən Hişamın təcsim əqidəsinə inandığını iddia etsinlər. Şeyx Müfid belə deyir: “Bizim sələflərimizdən heç kim məna baxımından təşbih (oxşatmaq) əqidəsində olmamışdır. Yalnız təcsim sözü ilə Hişam və tərəfdarları Əbu Abdullahın (ə) səhabələrinə müxalif olmuşlar. O, Allah-taalanın heç bir cismə bənzəməyən cisim olduğunu iddia etmişdir”.[540]

Cavab:

Bu barədə Hişamı təşbih əqidəsindən uzaq olduğunu ehtiva edən rəyimizi qeyd etmişdik. Şeyx Müfidin müxalif olması deməsində bir az ciddilik yoxdur. Bəlkə də biz onun “təcsim deməklə müxalif olmuşdur”, deyil, “təcsim sözü ilə Hişamın müxalif olması” deməsindən bunu anlayırıq. Bu məfhumda Hişam termin olaraq bütün şiələrə müxalif

[539] Uyunu-əxbari-Rza, c. 2, s. 110

[540] əl-Hikayat, s. 77-78

çıxmışdır. Bu, ona məxsus təfsirdir. Onun rəqibləri ilə çoxlu sayda diskussiyalar aparması nəticəsində onun əqidəsini ifadə etməsi zəruri olmayan bəzi terminləri anlamaq çox çətindir. Onun təcsim sözündən həqiq mənada cisimlilik anlaşılmamalıdır.

Dördüncü mövzu: Nəticə və hökm

Qeyd edilənlərdən sonra aşağıdakı nəticələrə gəlirik:

1. Tarix Hişamın təcsim əqidəsinə inanmasını sübuta yetirə bilmir. Çünki onun barəsindəki məlumatlar ziddiyyətlidir. Lakin tarix bizə onun elmi çəkisi olan böyük şəxsiyyət olmasını deyir. O, İslam tarixində bənzəri olmayan, xüsusilə də, əqidə və kəlam elmi sahəsində diskussiya gücünə malik insanlardan idi. Onun mötəzilə təriqətinin ardıcılları və başqaları ilə debatları var. O, təcsim və təşbih əqidəsilə mütləq şəkildə əlaqəsi olmayan Əhli-beytin (ə) məzhəbini müdafiə etmişdir.

2. Tərcümeyi-hal müəllifləri bu şəxsin ona qarşı yönəlmiş ittihamların hamısından tamamilə uzaq olduğunu demişlər. O, şiənin kəlam alimlərindən hesab olunur. O, rəvayətlərin nəql olunmasında etibarlı hesab olunur. İmam Sadiq (ə) və İmam Kazim (ə) kimi şiə imamları dəfələrlə onu mədh etmişlər. İmam Rza (ə) ona qarşı mərhəmətli davranmış, onu ittiham edənlərin bunu həsəd üzündən etdiklərini demişdir.

3. Onun təcsim böhtanından uzaq olmasına dair şahid sözlərini qeyd etdik. Dedik ki, onun barəsində deyilən xoş sözlər Hişamın iman gətirdiyi, etiqad etdiyi məzhəbə və hər cəhətdən tənzihə əsaslan prinsiplərinə tamamilə müvafiqdir. Həmçinin Əllamə Hilli "əl-Kəbir" kitabında onu müdafiə etmiş, ona qarşı yönəlmiş ittihamlara cavab vermiş və onu yüksək məqam sahibi, böyük şəxsiyyət kimi vəsf etmişdir.

İbn Davud onu müdafiə edərək belə demişdir: “Onun əqidəsinin vəziyyəti məlumdur. Səhabələrin (alimlərin) onun tərifləməsi mütəvatirdir”.

Seyid Xoyi onun bu böhtandan uzaq olmasına şahidlik etmiş, Hişama təcsim nisbəti verən rəvayətlərin qondarma və uydurma olduğunu zənn etdiyini və bunun səbəbinin Hişama qarşı olan həsəd və nifrət olduğunu demişdir.

4. Ona ittiham edən bütün rəvayətləri müzakirə etdik. Həmin rəvayətlərin zəif və etibarlılıq səviyyəsinə çatmadığı aşkar oldu.

5. Sonra bu böhtanı inkar edən dəlilləri və əlamətləri qeyd etdik. Qeyd etdik ki, Hişam bu məfhumu, yəni cisim məfhumunu “şey” mənasında işlətmişdir. Həmçinin o, bu termini etiqad etmədən qarşı tərəfə dəlil olaraq qeyd etmişdir. Bundan başqa digər dəlillər də var.

Deməli, bu araşdırmadan sonra belə hökm verə bilərik: Hişam məzhəbi müdafiə edən böyük alimlərdən hesab olunur. Bu məzhəb təcsim və təşbih əqidəsini qəti surətdə inkar edir. Əvvəlki səhifələrdəki araşdırmalarda şiə imamlarının və alimlərinin bu barədə sözlərini qeyd etmişdik. Bütün bunlardan sonra atılmış bu böhtanların Hişama ləkə salması qeyri-mümkündür.

Üçüncü fəsil: Hişam bin Salimin təcsim əqidəsinə inanması böhtanı

İbn Teymiyyənin surət hədisinə görə Hişam bin Salimi ittiham etməsi

Hişam bin Həkəmə atılan böhtanlar xatırlandıqda həmişə Hişam bin Salimin ittiham olunduğu surət hədisi də qeyd olunur. Bu məsələnin də aydınlaşması və araşdırmanın tamamlanması üçün İbn Teymiyyənin Minhacus-sunnə kitabında dediklərini qeyd edirik: "Rafizilərin dördüncü firqəsi Hişamiyə firqəsidir. Hişam bin Salim Cəvaliqinin tərəfdaşları. Onlar iddia edirlər ki, Rəbbləri insan surətindədir. Onun ət və qandan olmasını inkar edirlər. Daim belə deyirlər: "O, ağappaq parlayan bir nur kimidir. Onun insan kimi beş hissi var. Onun əli, ayağı, burnu, qulağı, ağzı və gözü var. O, gördüyündən başqa bir şeylə eşidir..."[541]

Cavab:

Bu böhtan da əvvəlkilər kimi üç səbəbə görə rədd edilir.

Birinci: Bu rəvayətin zəif olması.

İkinci: Tərcümeyi-hal kitablarının müəlliflərinin Hişam bin Salimə bəraət qazandırması.

Üçüncü: Surət hədisinin əhli-sünnə mənbələrində qeyd olunması.

Birinci məsələ: Bu hədisin sənədinin zəif olması

Bu hədisə gəlincə, Kəşşi sənədlə bu hədisi nəql etmişdir:

Muhəmməd bin Məsud Əli bin Muhəmməd Qummidən, o da Əhməd bin Muhəmməd bin Xalid Burqidən, o da Əbu Abdullah bin Muhəmməd bin Musa bin İsadan, o da Həmədan əhalisindən, o da Uşkeyb bin Əhməd Kisaidən, o da Əbdülməlik bin Hişam Hənnatdan belə nəql edir:

[541] Minhacus-sunnə, c. 2, s. 219

“Əbulhəsən Rzaya (ə) dedim: “Fəda olum sənə! Bir şey soruşmaq istəyirəm”. (İmam) dedi: “Soruş, ey Cəbəli. Nə soruşmaq istəyirsən?” (Mən) dedim: “Fəda olum sənə! Hişam bin Salim Allahın surət olduğunu və Adəmin Rəbbin misalında xəlq edildiyini iddia edir. Bunu və bunu vəsf edir”. Qollarıma və saçıma işarə etdim. (İmam) dedi: “Bu xüsusiyyətlərin olduğunu nəzərdə tutmuşdur. Bu, Rəbbini məxluqa bənzətmişdir. Allah-taala ucadır. Onun oxşarı, tayı-bərabəri və bənzəri yoxdur. Nə də ki, O, məxluqların sifətində deyil. Hişam bin Salimin dediyi kimi demə”.[542]

Rəvayətin sənədinin müzakirəsi

Bu rəvayət zəifdir və etimad edilməz. Çünki hədisin sənədində çoxlu məchul və zəif ravilər var. Muhəmməd bin Musa Əbu Cəfər Simnan Həmdani barəsində Nəcaşi belə deyir: “Qummilər onu ğüluvv etməsinə görə zəif hesab etmişlər. İbn Vəlid belə deyirdi: “O, hədis uydururdu”. [543]

Uşkeyb Kisainin rical kitablarında adı belə qeyd olunmamışdır. Həmçinin Hənnatında adı qeyd edilməmişdir. Rəvayətin sənədi bu zəiflərin arasında dövr edir. Belə olan halda bu rəvayətin doğruluğuna necə inanmaq və əmin olmaq necə ola bilər? Əgər hədisin sənədinin doğru olduğunu qəbul etsək belə, bəlkə də İmam (ə) onların sözünü cisim ləfzinin (sözünün) Allah-taalaya deyilməsini deyil, məna baxımından təshih etmək istəyirdi. Onların bir şeyin isbatı üçün cisimdir demək lazımdır iddialarına əsasən cisim dedikdə məqsədləri terminoloji mənadan daha geniş və əhatəli mənadır[544].

Əlavə olaraq qeyd edim ki, İmamdan sual soruşan “Hişam bin Salim belə iddia etmişdir..” deyir. İmam (ə) iddia olunan bu suala ümumi olaraq

[542] İxtiyaru mərifətir-rical, c. 2, s. 568

[543] Ricalu Nəcaşi, s. 238

[544] Biharul-ənvar, c. 3, s. 305

cavab verir. Bu məsələdə şiənin rəyini qeyd edir. Sonra onlara Hişamın sözündən uzaq durmağı tövsiyə edir. Çünki onun məqsəd və məramını dərk etmirlər. Çünki bu, Hişam bin Həkəmin məsələsində qeyd etdiyimiz kimi xüsusi termindir. Burada məqsəd Hişam bin Salimi pisləmək deyil. Bu, necə ola bilər ki, halbuki o, şiənin böyük alimlərindən və İmama (ə) yaxın olanlardan hesab olunur. Şeyx Müfidin Ədədiyyə risaləsində onun halal və haramın, fətva və hökmlərin öyrənilməsi üçün soruşulacaq başçılardan və görkəmli şəxslərdən olmasını deməsi bizim üçün yetərlidir. Onların heç birinə tənə vurulmaz və heç birinə nöqsan tutulmaz.

İbn Tavus belə deyir: "Zahirə əsasən Hişam bin Salimin əqidəsi səhihdir. O, vilayətilə tanınır. Dəf olunmaz".[545]

Bəzi alimlər belə demişdir: "Kəşşinin rəvayət etdiyi "Hişam bin Salim Allahın surətinin olduğunu və Adəmin Rəbbin misalında xəlq edildiyini iddia edir" hədisin sənədində Məhəməd bin İsa Həmdani var. O, zəifdir. Bəzi səhabələrimiz (alimlərimiz) belə demişlər: "Müxaliflər iki Hişamın (Hişam bin Həkəm və Hişam bin Salim) qüdrətini gördükdən sonra öz batil rəylərinə rəvac vermək üçün onlara bu kimi şeyləri nisbət vermişlər".[546]

Bəlkə də (صورته) sözündəki bitişən əvəzlik Allah-taalaya deyil. Adəmə qayıdır. Bu mənada ki, Allah-taala onu icad etdiyi surətdə yaratmışdır. Onu yaradılışın mərhələlərindən, yəni nütfə (sperma), ələqə (ana bətninə yapışmış), mudğə (çeynənilmiş ət parçasına oxşayan), sonra da ana bətnindəki döl mərhələlərdən keçirməmişdir. Əvvəlki səhifələrdə İmam Rzadan (ə) nəql olunan rəvayətdə bu barədə danışılmışdır.

[545] Bax; Şərhu Uslil-kafi, c. 3, s. 230

[546] Həmin mənbə

İkinci məsələ: Tərcümeyi-hal kitablarının müəlliflərinin Hişam bin Salimə bəraət qazandırması

Nəcaşi belə deyir:“Əbu Abdullah (ə) və Əbulhəsəndən (ə) belə nəql olunur: “Etibarlıdır! Etibarlıdır!” Onun bir kitabı vardı. Camaat həmin kitabdan nəql edir”.

Şeyx Tusi rical elmində onu İmam Sadiqin (ə) səhabələrindən hesab etmişdir.

Həmçinn Burqi (bəzən) onu İmam Sadiqin (ə) səhabələrindən hesab edərək belə demişdir: “Hişam bin Salim Bişr bin Mərvanın azad etdiyi kölə idi. Cuzcan əsirlərindən idi. Kufəlidir. Ona Cəvaliqi deyərdilər. Onun kitabları vardı. Onu Əbu Muhəmməd künyəsi ilə çağırırdılar. Bəzən isə onu İmam Kazimin (ə) səhabələrindən hesab etmişdir.

Qeyd etdiyimiz kimi Şeyx Müfid də onu etibarlı hesab etmiş və belə demişdi: “O, halal və haramın, fətva və hökmlərin öyrənilməsi üçün soruşulacaq başçılardan və görkəmli şəxslərdəndir. Onların heç birinə tənə vurulmaz və heç birinə nöqsan tutulmaz”.

İbn Davud belə deyir: “Nəcaşi birinci qism təbəqəni qeyd etdikdən sonra onların hamısı barədə iki dəfə: “Etibarlıdır! Etibarlıdır!” demişdir”.

İbn Ğəzairi Xəmsətu rical kitabında Nəcaşinin dediyindən əlavə olaraq onların hər birinin barəsində iki dəfə:“Etibarlıdır! Etibarlıdır!”demişdir. [547]

Hişam bin Salimin Tövhid barəsində rəyi

Hişam bin Salimin tövhid əqidəsi müəllimi və ustadı İmam Sadiqdən (ə) öyrəndikləri ilə qəlbində sabitləşmiş və qərar tapmışdır. İmam Sadiq (ə) ondan belə soruşmuşdur: “Allahı vəsf edirsənmi?” Hişam: “Bəli” deyə cavab verdi. (İmam) dedi: “Başla (vəsf etməyə)”. Hişam dedi: “O, görən və

[547] Bax; Mucəmu ricalil-hədisi, c. 20, s. 324-325

eşidəndir". (İmam) dedi: "Bu elə vəsfdir ki, məxluqlar da bu vəsflə müştərəkdirlər". Mən (Hişam) dedim: "Bəs necə vəsf edim?" (İmam) belə buyurdu: "O, elə bir nurdur ki, onda zülmət yoxdur. O, elə həyatdır ki, onda ölüm yoxdur. O, elə elmdir ki, onda cəhalət yoxdur. O, elə haqdır ki, onda batil yoxdur". Onun yanından çıxdım və mən insanlar içərisində tövhidi ən çox bilən şəxs idim".[548]

Hişamın tövhidi bütün insanlardan ən yaxşı bilməsini deməsi ona qarşı yönəlmiş ittihamların yalan olmasına dəlildir. Çünki onun tövhid elmini İmam Sadiqdən (ə)öyrənməsi təşbih, təcsim və bu kimi məsələlərlə ziddiyyət yaradır. İmamın (ə) dilindən Allah-taalanın cisim, bənzər, oxşar kimi məsələlərdən pak olması barədə bir çox rəvayətləri əvvəlki səhifələrdə qeyd etmişdik.

Üçüncü məsələ: Surət hədisi əhli-sünnə mənbələrində

Hişam bin Həkəm və Hişam bin Salimə nisbət verilən surət hədisinin zəifliyi və qondarma olduğu aşkar oldu. Əvvəlcə Doktor Qəffari və onun metodu ilə gedənlər öz əqidə irslərini diqqətlə nəzərdən keçirməlidirlər. Həmin mənbələrdə bu hədis onların prinsiplərinə əsasən səhih sənədlərlə nəql olunmuşdur. Əgər bu hədisi qəbul edərlərsə, şiəyə qarşı irad aradan qalxar. Xüsusilə də şiə məzhəbinə əsasən bu hədis batildir. Qəbul edib səhih hesab etdikləri bu hədisi şiələr batil hesab edirlər. Bir sözlə irad yenidən bu cür hədislərə göz yuman Doktor Qəffariyə qayıdır.

Bu hədisin məzmununda olan hədisləri əhli-sünnənin mötəbər kitablardan qeyd edirik:

1. Əbu Hüreyrənin rəvayəti

[548] ət-Tovhid, s. 146

Buxari Səhihində belə nəql edir: “Yəhya bin Cəfər Əbdürrəzzaqdan, o da Muəmmərdən, o da Həmmamdan, o da Əbu Hüreyrədən, o da Peyğəmbərin (s) belə dediyini nəql edir: “Allah-taala Adəmi öz surətində altmış dirsək uzunluğunda yaratmışdır...”[549]

Buxaridə həmçinin Əbu Hüreyrədən belə nəql edilir: “Camaat: “Ya Rəsulullah, qiyamət günü Rəbbimizi görəcəyikmi?” dedilər. (Rəsulullah dedi) “...elə ki, Rəbbimiz bizə tərəf gələcək onu tanıyacağıq. Allah onların yanına tanıdıqları surətdə gələcək və belə deyəcək: “Mən sizin Rəbbinizəm”. Onlar belə deyəcəklər: “Sən bizim Rəbbimizsən”. Sonra isə Ona tabe olacaqlar”.[550]

Bu rəvayətdə aşkarcasına Allahın onların tanıyacaqları surətdə olması bildirilir. Sual isə budur: Bəs onu necə tanıyıblar? Bəlkə də cavabı elə Buxari özü nəql edir. Belə ki, onların tanıdıqları bir əlamət vardı. Həmin əlamət isə baldırdır.

2. Əbu Səid Xudrinin rəvayəti

Əbu Səid Xudri Rəsulullahdan (s) belə nəql edir: “Ya Rəsulullah, qiyamət günü Rəbbimizi görəcəyikmi?” -deyə soruşduq. (Peyğəmbər) dedi: “Açıq havada günəşi və ayı gördükdə əziyət çəkirmisinizmi?” Biz: “Yox” –deyə cavab verdik. (Peyğəmbər) buyurdu: “Siz həmin günü günəşi və ayı görməkdə zərər çəkmədiyiniz kimi Rəbbinizi də görməkdə əziyyət çəkməyəcəksiniz”. Sonra belə dedi: “Biz Rəbbimizi gözləyirik”. Cəbbar olan Allah birinci dəfə gördükləri surətdə onların yanına gələcək və deyəcək: “Mən sizin Rəbbinizəm”. Onlar deyəcəklər: “Sən bizim Rəbbimizsən”. Onunla (Allahla) yalnız peyğəmbərlər danışacaq. O, deyəcək: “Sizinlə Onun arasında tanıyacağınız bir əlamət varmı?” (Oradakılar) “Baldır”

[549] Səhih Buxari, c. 7, s. 125

[550] Həmin mənbə, c. 7, s. 205

deyəcəkələr. (Allah) baldırını açacaq. Bütün möminlər ona səcdə edəcəklər”.[551]

3. Abdullah bin Abbasın rəvayəti

Əhməd bin Hənbəl Müsnədində yazır ki, İbn Abbas Peyğəmbərin belə buyurduğunu nəql edir: “Bu gecə Rəbbim ən gözəl surətdə yanıma gəlmişdi”.[552]

Əhməd Muhəmməd Şakir Müsnədə izah yazarkən bu hədis barəsində belə deyir: “Sənədi səhihdir”.[553] Həmçinin Albani də bu hədisi səhih hesab etmişdir.[554]

Bu rəvayətdə aşkarcasına Allah-taalaya surət nisbət verilir.

4. Abdullah bin Ömərin rəvayəti

Təbərani Abdullah bin Ömərin belə nəql etdiyini yazmışdır: “Rəsulullah (s) “Üzə söyməyin! Adəm Rəhman-təbərakə və təalanın surətində xəlq olunmuşdur”.[555] Heysəminin şahidliyinə əsasən bu hədis səhih hədisdir. Heysəmi belə deyir: “Təbərani bu hədisi nəql etmişdir. İshaq bin İsmail Taliqanidən başqa rəvayətin rəviləri səhih ravilərdir. O isə, etibarlıdır”.[556]

Fətva Komitəsinin surət hədisinin səhih olması barədə fətvası

Dediklərimizə əlavə olaraq qeyd edim ki, Doktor Qəffarinin şeyxləri bu hədisi zahiri mənasında anlamağın vacibliyi barədə fətva vermişlər. Bu hədisdə (صورته) sözündəki bitişən əvəzlik Allah-taalaya qayıdır. Səudiyyə

---

[551] Səhih Buxari, c. 8, s. 180-181

[552] Müsnədi Əhməd bin Hənbəl, c. 3, s. 457

[553] Həmin mənbə

[554] əs-Silsiləs-səhihə, c. 8, s. 176

[555] əl-Mucəmul-kəbir, c. 12, s. 430

[556] Məcməuz-zəvaid, c. 8, s. 198

Ərəbistanında Elmi Araşdırmalar və Fətva Komitəsinin fətvası məhz belədir. Aşağıda fətvanın mətnini qeyd edirik:

2331 №-li fətva

Sual: Əbu Hüreyrədən – Allah ondan razı olsun – Peyğəmbərin belə buyurduğu nəql olunur: "Allah Adəmi öz surətində altmış dirsək uzunluğunda yaratmışdır". Bu hədis səhihdirmi?

Cavab: Bu hədis səhihdir. Onun mətnində qəribə heç nə yoxdur. Bu hədisin iki mənası var:

Birinci: Allah Adəmi züriyyətindən olan uşaqlar kimi qısaboy yaratmamışdır ki, böyüyüb altmış dirsəyə qədər çatsın. Onu elə yaratdığı gündə son surətində altmış dirsək uzunluğunda yaratmışdır.

İkinci: Burada (صورته) sözündəki bitişən əvəzlik Allaha qayıdır. Buna dəlil digər səhih rəvayətdə "Rəhmanın surətində" -deyə nəql olumasıdır. Mətndən anlaşılan da məhz budur. Bu təşbih lüzumu yaratmır. Allah yaratdıqlarını özünü adlandırdığı adlarla adlandırmışdır. Özünü vəsf etdiyi sifətlərlə yaratdıqlarını vəsf etmişdir. Bu təşbihi vacib etmir. Həmçinin surət də belədir. Allah üçün belə deyilməsi Onu yaratdıqlarına bənzətmək deyil. Ad və ümumi mənada müştərək olma səbəbinə təşbih vacib olmur. Hər birinin özünəməxsus mənası var. Çünki Allah-taala buyurur: ***"Onu heç bir bənzəri yoxdur. O, (hər şeyi) eşidən və (hər şeyi) görəndir".***[557]

Elmi Araşdırmalar və Fətva Komitəsi.

Müdir: Əbdüləziz bin Abdullah bin Baz.

Müdir müavini: Əbdürrəzzaq Əfifi.

Komitə üzvü: Abdullah bin Ğədyan.

Komitə üzvü: Abdullah bin Qəud.[558]

---

[557] Şura, 11

[558] Elmi Araşdırmalar və Fətva Komitəsinin fətvası, c. 5, s. 316-317

Surət hədisinin isbatı üçün kitablar yazılmışdır. Bəlkə də bu kitabların içərisində ən əhəmiyyətlisi sələfi müəllifi Həmmud bin Abdullah Tuveycirinin "Əqidətu əhlil-iman fi xəlai Adəm alə surətir-Rəhman" kitabıdır. Səudiyə Ərəbistanın müftisi Əbdüləziz bin Baz müəllifin gəldiyi nəticələrə görə bu kitaba mədhiyə yazmışdır.

Həmin mədhiyənin mətni belədir: "Bu kitabın çox faydalı bir kitab olduğunu gördüm. Adəmin Onun surətində yaratması, qiyamət günü Rəhmanın öz surətində gəlməsi barədə nəql olunan səhih hədislər qeyd etmişdir. Bu məsələdə haqq olanı çox gözəl və faydalı izahlar təqdim etmişdir. Həmin məsələ budur ki, Adəmi onun surətində yaratmışdır səhih hədisindəki bitişən əvəzlik Allah-taalaya qayıtmasıdır..."[559]

İbn Teymiyyə surət hədisini səhih hesab edir və (صورته) sözündəki bitişən əvəzliyin Allah-taalaya aid olmasını deyir

Tuveyciri yuxarıda adı çəkilən kitabında belə deyir: "Bir çox yollarla Peyğəmbərdən (s) belə dediyi nəql olunur: "Allah-taala Adəmi surətində yaratmışdır". İslamın Şeyxi İbn Teymiyyə Raziyə cavab olaraq belə demişdir: "Bu hədis çoxlu sayda səhabələrdən – Allah onlardan razı olsun – müxtəlif yollarla çoxlu sayda nəql edilmişdir. Sələflər arasında üç əsr boyu buradakı bitişən əvəzliyin Allah-taalaya aid olması barədə mübahisə olmamışdır. Bütün hədislər buna dəlalət edir". Həmçinin belə demişdir: "Ümmət bu mənanın təbliği və təsdiqində müttəfiqdir. Lakin üçüncü yüz illikdə cəhəmiyyə intişar tapdıqda bəzi tayfalar bitişən əvəzliyin Allah-taaladan qeyrisinə qayıtdığını demişlər".[560]

Tuveyciri şeyxi İbn Teymiyyənin bu hədisin səhih hesab etməsini və bitişən əvəzliyin Allah-taalaya qayıtmasını dediyini nəql edir.

---

[559] Əqidətu əhlil-iman fi xəlqi Adəm alə surətir-Rəhman, s. 3

[560] Həmin mənbə, s. 3

Bundan sonra bu təfəkkürdə olan şəxsin təcsimə inanmadığını demək mümkündürmü? Doktor Qəffari və Əbdülqahir Bağdadi bizim mənbələrdə yazılan zəif hədislər nəticəsində Hişam bin Həkəmi və Hişam bin Salimi təcsim əqidəsində ittiham edərkən görəsən bu məsələdən (öz mənbələrində səhih olan və şeyxlərinin də səhih hesab etdiyi hədisdən) xəbərsiz idilərmi?

Bəlkə də Doktor Qəffarinin şeyxi İbn Teymiyyənin kitablarından xəbərsiz olmasını nəzərə alaraq onun üzrlü olduğunu deyə bilərik. Lakin bu ehtimal çox uzaqdır. Çünki onun Bin Baz, Tuveyciri, İbn Useymin kimi şeyxləri İbn Teymiyyəyə tabe olaraq bu hədisi nəql edib təsdiqləmişlər. Yaxud da deyə bilərik ki, bunun səbəbi onun təəssübkeşliyi, şiəliyə qarşı yönəlmiş nifrətdir. Məhz buna görə də Allah-taalanı cisimləşdirən bu hədislərə göz yummuşdur.

Onun bu hədisləri təvil etmədiyini də bilirik. Bu barədə məcazi məna və təvil mövzusundakı araşdırmalarda əvvəlki səhifələrdə qeyd etmişik. İbn Teymiyyənin prinsipləri bu idi. Məhz bu, onu təcsim toruna düşdüyünə dəlalət edir. Bu təfəkkürdən azad ola bilmədikcə təcsim dairəsindən çıxa bilməz.

İbn Useymin Allah-taalanın maddi surətinin olduğunu isbat edir

Bu mövzunun əhəmiyyətinə görə Şeyx İbn Useyminin İbn Teymiyyənin "əl-Əqidəl-vasitiyyə" kitabına yazdığı şərhdə "Allah Adəmi surətində və ya heyətində yaratmışdır" hədisini şərh edərkən, surət və ya heyət sözündəki bitişən əvəzlik kimə qayıdır və necə təfsir olunur? Deyə bu barədə danışmışdır. O, belə deyir: "Buxari və Müslim belə rəvayət edirlər: "Əbu Hüreyrə Peyğəmbərin (s) belə dediyini nəql edir: "Allah Adəmi surətində altmış dirsək uzunluğunda yaratmışdır". İbn Asim əs-Sünnədə belə nəql edir: "İbn Ömər belə nəql edir: "Rəsulullah (s) belə buyurdu: "Üzə söyməyin! Adəm Rəhman-təbərakə və təalanın surətində xəlq

olunmuşdur". Şeyx Abdullah Ğəniman – Allah onu hifz etsin – belə deyir: "Bu hədis səhihdir. İmam Əhməd, İshaq bin Rahəveyh kimi imamlar bu hədisi səhih hesab etmişlər. Bu hədisi zəif hesab edənin heç bir dəlili yoxdur. Yalnız İbn Xuzeymədən başqa. Ondan daha böyük olan ona müxalif olmuşdur.

İbn Asim, həmçinin, Əbu Hüreyrənin belə nəql etdiyini qeyd edir: "Rəsulullah (s) buyurub: "Sizlərdən biri savaşarsa üzü söyməkdən çəkinsin. Allah Adəmi surətində və çöhrəsində yaratmışdır". Şeyx Albani belə deyir: "Sənədi səhihdir".

Bu iki hədis (صورته) sözündəki bitişən əvəzliyin Allah-taalaya qayıtmasına dəlalət edir.

Şeyx Bin Bazdan "Peyğəmbərin (s) üzü söyməyi qadağan etməsi, Allahın Adəmi surətində yaratması barədə nəql olunan hədis barədə soruşdular. Bu hədisdən anlaşılan düzgün etiqad necə olmalıdır?

O, belə cavab vermişdir: "Peyğəmbərdən (s) nəql olunan bu hədis sabitdir. O (s) belə buyurmuşdur: "Biriniz digərinin vurduqda üzünə vurmaqdan çəkinsin. Allah Adəmi surətində yaratmışdır". Başqa hədisdə isə "Rəhmanın surətində" deyilir. Bu, bənzətmə və oxşatmanı zəruri etmir.

Peyğəmbərin (s) "Adəmi surətində yaratmışdır", yəni Allah-taala Adəmi öz surətində yaratmışdır. Onun üzü, gözü, əli və ayağı var. Lakin bu şeylərin insanın bədən üzvlərinə oxşar olması zərurəti yoxdur. Bəzi oxşarlıqlar var, lakin bənzəmək misalında deyil...".[561]

Hişam bin Salimin ittiham olunması barədə sözün xülasəsi

İndi isə Hişam bin Salimin ittiham olunduğu bu məsələ barədə nəticə olaraq aşağıdakıları qeyd edirik:

[561] Bax; Şərhul-əqidətil-vasitiyyə, c. 1, s. 107 və 293

1. Əbdülqahir Bağdadinin və ona tabe olan Qəffarinin Hişam bin Salimin təcsim və təşbih əqidəsində ifrata varması barədə sözünün diqqət və obyektivliyə ehtiyacı var. Bu söz obyektivlikdən uzaqdır. Aydın oldu ki, bu böhtanda əsaslandıqları rəvayət zəifdir. Çünki həmin rəvayətin sənədində bir neçə zəif və məchul ravi var.

2. Əgər bu rəvayətin səhihliyini qəbul etsək də, Hişam bin Salimin nəzərində surətdən məqsəd maddi surət deyil. Əksinə o, Allah-taalanın münəzzəh olması əqidəsindədir. Necə ki, "O, başqa şeylər kimi olmayan şeydir" demişdir.

3. Bundan sonra Hişam bin Salimin təcsim və təşbihdən xali olan tövhid barədə əqidəsini qeyd etdik. Sonda isə şiə alimlərinin rical kitablarında ona bəraət qazandırmaları barədə məlumatları qeyd etdik. Belə ki, bu şəxs imamiyə şiəsinin böyük alimlərindən hesab olunur. O, tənə vurulmayacaq başçılardan və görkəmli şəxslərdəndir. Bu, onun bu şübhədən uzaq olmasına dəlildir. Əks təqdirdə ona nöqsan və eyb tutardılar.Nəcaşi və qeyrisinin onun barəsində dediyi kimi: "Etibarlıdır! Etibarlıdır!"

4. Bundan əlavə qeyd edim ki, əhli-sünnə mənbələri, xüsusilə də, vəhhabi təfəkkürü surət hədisini səhih hesab etmişlər. İbn Teymiyyə, Bin Baz, Tuveyciri və İbn Useymin kimiləri təcsim əqidəsini qəbul edirlər.

5. Bundan başqa Bağdadi və Qəffari mütləq tənzih prinsipləri üzərində qurulan şiəyə tənqid oxu tuşlamadan əvvəl öz hədis mənbələrini araşdırmalı idilər. Bu hədisin məzmununu Buxari və Müslim nəql edərək səhih hesab etmişlər. Həmçinin Əhməd Müsnədində, Təbərani Möcəmində və İbn Teymiyyə də nəql etmişlər. Onların ardınca gələn xələflərdən bəziləri bu rəvayətin səhihliyini və çoxlu sayda nəql olunmasını demişlər. Qəffari və qeyriləri dəqiqləşdirmədən və düşünmədən başqalarını ittiham etmədən öncə bu xələli izah etməli idilər. Çünki onların əsaslandığı

rəvayət zəifdir və şiə rical elmi meyarlarına və inandığımız prinsiplərə əsasən heç bir dəyəri yoxdur.

Deməli, bu böhtan əsassızdır, obyektivcəsinə və insafla baxdıqda heç bir dəyəri yoxdur.

Dördüncü bab: Şiə əqidə əsaslarında tövhid

Birinci fəsil: İlahi sifətlər barəsində islami təsəvvürə qısa baxış

Müqəddimə

İbn Teymiyyənin tövhid barəsində əqidəsini və yaratdıqları şübhələri dəf etdikdən sonra mövzunun tələbinə uyğun olaraq Əhli-beyti (ə) təmsil edən şiə məzhəbinin tövhid əqidəsini təqdim edib iki məktəbin tövhid anlayışını müqayisə edək. Bunun iki səbəbi var:

Birinci: Bu müqayisə nəticəsində İbn Teymiyyə məktəbinin metodundakı xəta aşkar olacaqdır.

İkinci: Bu araşdırmadan sonra, xüsusilə də, ilahi sifətlər barədə şiə fikrinin təqdim edilməsi nəticəsində Allah-taalanın tövhidi barədə doğru əqidə aşkar olacaqdır.

Şiə əqidə əsaslarında tövhid əqidəsi onların imamlardan öyrəndikləri və bu əqidəni ehtiva edən çoxlu sayda rəvayətlər əsasında formalaşmışdır. Bu əqidənin formalaşmasında məhz İmam Əli (ə) müəllim və ustad hesab olunur. Məhz o, Rəsulullahdan (s) sonra tövhid prinsiplərini izah edəndir. Nəhcül-bəlağə kitabı az və bənzəri tapılmayan çoxlu sayda prinsipləri ehtiva edir. O həzrətin xüsusilə də, bu əhəmiyyətli məsələ barədə olan kəlamlarını düşünən hər kəs onun ağıl və məntiqin Quranla sintezini, Xaliqin yaratdıqlarının sifətində olmasını tələb edən, təcsim və təşbih kimi başa düşülən dini mətnlərin təvilinin əsas qaydalarını təsis etdiyini görər.

İlahi sifətlər məfhumu barədə ideoloji məktəblərin rəyləri

İmam Əlinin (ə) kəlamlarını qeyd etmədən öncə ilahi sifətlər barədə fərqli rəylər təqdim edən ideoloji cərəyanlar, xüsusilə də, mötəzilə, əşərilər, İbn Teymiyyə ardıcıllar, vəhhabilər və şiə kimi məşhur olan

ideoloji məktəblərinin bu mövzu barədə dediklərini qeyd etməyin daha münasib olduğunu düşünürəm.

Allah-taalanın sifətləri barədə danışmaq doğrudurmu? Həmin sifətlər Allahın zatınadan ayrıdır, yoxsa zatın özüdür? Bu mənada ki, elm, qüdrət və həyat kimi zati sifətlərə nəzər saldıqda zat və elm, zat və qüdrət, zat və həyat deyə ikiliyə rast gəlməyəcəyik. Sifət zata əlavə olunmamışdır.

1. İlahi sifətlər barədə mötəzilənin təsəvvürü.[562]

Mötəzilənin Cubai kimi bəzi kəlam alimləri Allah-taalanın sifətləri ilə zatının ayrı olması rəyindədirlər. O, sifətlərə hal deyərdi. Allahın alim olması onların nəzərində hal hesab olunur. Bu, onun zatından ayrı sifətdir. Bu halların (sifətlər) varlığı, yoxluğu, qədimliyi, sonradan yaranması, məlum və ya məchul olması barədə isə heç bir şey deməmişdir.[563]

---

[562] Şeyx Müfid mötəzilə barəsində belə deyir: "Mötəziləyə və onların bu adla adlandırılmasına gəlincə, bu ləqəb Vasil bin Əta, tərəfdaşı Əmr bin Ubeyd və onlarla müvafiq olanların ağıla etiqad bəsləmələri və öz rəylərinə israr etmələri nəticəsində Həsən Bəsri və tərəfdaşları onlardan ayrılmışlar, özlərinə aid məclis yaratmışlar. Belə olduqda insanlar onları mötəzilə (ayrılmaq mənasını verən itizal sözündən götürülmüşdür) adlandırdı. Çünki onlar vaxtı ilə tərəfdaşı olduqları ustadlarının məclisindən ayrılmışdılar. Bundan əvvəl etizal və mötəzililik adında insanlar içərisində hər hansı bir firqə tanınmamışdır. Əvailul-məqalat, s. 35

Məlumdur ki, mötəzilə on iki firqəyə bölünüb: Kəlam və fəlsəfə məsələlərində onların arasında müəyyən ixtilaflar olmuşdur. Bu firqələrdən biri Vasiliyyə firqəsidir. Vasil bin Əta və onun tələbəsi Həsən Bəsriyə nisbət verilir. Əmr bin Ubeydə nisbət verilən Əmriyyə firqəsi, İbrahim bin Səyyar Nəzzama nisbət verilən Nəzzamiyyə firqəsi, Əsvariyyə, İskafiyyə, Cubaiyyə və başqaları. Buna əsasən də onlar sifətlər barəsində fərqli rəydə olmuşlar. Bəziləri imamiyyə məzhəbinin rəyi ilə müvafiq, bəzilər isə müxalif olmuşlar.

[563] Bax; əl-Fərqu beynəl-firəq, c. 1, s. 182

Bu əqidənin batil olması aşkar bir məsələdir. Bu sifətlərin eyni vaxtda mövcud və məchul olmasını necə anlaya bilərik?

Bu məsələ barəsində mötəzilənin imamiyyə məzhəbinin əqidəsinə uyğun başqa rəyi də var. Həmin rəy sifətlərlə zatın eyni olmasıdır.[564]

Allah-taala vahiddir, Onun heç bir bənzəri yoxdur, O eşidəndir, görəndir, cisim, xəyal, cəsəd, surət, ət, qan, şəxs, cövhər, ərəz, rəngli, dadı və qoxusu olan, istiliyi və soyuqluğu olan, rütubətli, quru, uzun, enli, dərin, birləşmiş, ayrılmış... deyil. Sonradan yaranmasına dəlalət edən məxluqatın sifətlərindən hər hansı bir sifətlə vəsf olunmaz. O, sonunun olması və ya hər hansı məsafədə qərar tutması kimi vəsf olunmaz. Bu cümlələr onların (imamların) tövhid barəsindəki sözlərindəndir.[565]

---

[564] Bəziləri belə şübhə yaradırlar ki, şiələr əqidə əsaslarında mötəzilə ardıcıllarındandırlar. Təəssüflər olsun ki, yazarlardan, seçilmiş alimlərdən bəzilər şiə əqidəsini dəqiqliklə araşdırmadan bu şübhənin ticarətini edirlər. Şiələr, kitabları və əqidə prinsipləri bir çox məsələlərdə bütün firqələrdən fərqlidir. İstər mötəzilə, istərsə də əşəri firqəsi kimi bəzi firqələrlə bəzi məsələlərdə fikirlər üst-üstə düşə bilər. Lakin etiraf ediləcək məsələ budur ki, şiələrin böyük elmi irsə sahib olmaları onların imamlarına, xüsusilə də, şiələrin ilk imamı İmam Əliyə (ə) qayıdır. Məhz onun (İmam Əlinin) elmi irsi şiə əqidə əsaslarını formalaşdırmışdır. Onun kəlamları sifətlər, ədalət, qəzavu-qədr və başqa məsələlər barəsində fəlsəfi izahları ehtiva edir. Məlumdur ki, bu kəlamlar mötəzilənin, hətta bütün ideoloji firqələrin yaranmasından əvvəl olmuşdur.

Məhz buna əsasən də Seyid Murtəza – Allah ona rəhmət eləsin – belə deyir: “Bil ki, Tövhidin və ədlin (ədalət sifətinin) əsaslarıƏmirəlmöminin Əlinin (ə) kəlamlarından və xütbələrindən götürülmüşdür. Bu kəlamlar əlavə edilməsinə heç bir ehtiyac olmayan və ehtiva etdiyi məqsəddən başqa məqsəd olmayacaq dərəcədədir. Onun sözlərini diqqətlə araşdıran şəxs bütün kəlam alimlərinin yazdıqlarının və topladıqlarının həmin cümlələrin izahı (onun qeyd etdiyi) əsasların şərhidir”. Əmali Seyid Murtəza ,c. 1, s. 103. Möhtərəm oxucu araşdırmamızda hidayət imamlarının zatda tövhid və sifətlərdə tövhid barədə buyurduğu kəlamlara rast gələcəkdir.

[565] əl-Məqalatul-islamiyyə, c. 1, s. 155

2. İlahi sifətlər barədə əşəri təsəvvürü[566]

Əşərilərin ilahi sifətlər barədə təsəvvürünə gəlincə , onların rəyinə əsasən sifətlər qədimdir və Allahın zatına əlavə olunmuşdur. O, elmlə bilir, qüdrətlə qadirdi, iradə ilə istəyəndir. Buna əsasən də, O, eşitmək vasitəsilə eşidən, görmə vasitəsilə görən, həyatla diri olandır. Buna bir neçə dəlilləri var. Həmin dəlillərin əhəmiyyətlisi budur: Əgər bu sifətlər zat ilə eyni olsa və məfhum olaraq onunla müttəhid olsa, o zat barəsində onunla xəbər vermək mümkün olmazdı. Çünki bu, bir şey barəsində onun özü ilə xəbər verməkdir.

Əgər bu sifətlər zatı ilə eyni olsa, onların hamısının mənası eyni olmalıdır. Halbuki onların mənalarının müxtəlif olmasını görürük.

Həmçinin belə deyirlər: Qaib olan hazır olanla müqayisə olunar. Hazır olana, məsələn, insana elmi vasitəsilə alim deyilər. Ona görən və eşidənə qulağının və gözünün vasitəsilə görən və eşidən deyilər. Allah-taalaya nisbətdə də belə deyilməlidir.

Cavab: Bu sifətlərin bir-birinə nisbəti və müqəddəs zata olan nisbətinə gəlincə, əgər hər bir sifətin məfhumuna və Allahın zatının məfhumuna nəzər salsaq, fərqlilik yalnız bu baxımdandır. Çünki hər bir sifətin məfhumu digərinə nisbətdə və ilahi zata nisbətdə bir-birindən fərqlidir.

---

[566] Əşərilik Əbulhəsən Əşəri adı ilə tanınan Əli bin İsmailə nisbət verilir. O, təqribən hicri 300–ci ildə ustadı Muhəmməd bin Əbdülvəhhab Cubaidən ayrıldıqdan sonra bu məzhəbin əsaslarını yaratmışdır. O, əqidə məsələlərində mühəddislərin rəylərini dəstəkləmişdir. Bu firqə ona nisbət verilir. Çünki o, dini mətnlərə (ayə və hədislərə) əsaslanan, bu mətnlərin müqabilində ağılın heç bir hökmünün olmadığını görməyən, ayələrin və hədislərin zahirinə etimad edən mühəddislərlə ağıla etimad edən, vəhyin ağılın hökmlərini təsdiqləmək üçün nazil olduğunu deyən mötəzilə arasında orta yol tutmuşdur. Əşəri müstəqil surətdə ağıla etimad etməmiş, ağıla müxalif olduğu təqdirdə dini mətnləri əsas hesab etməmişdir. O, bu iki məsələ arasında ortaq məxrəcə gəlmək istəyirdi. Bax; əş-Şiə beynəl-əşairəti vəl-mutəzilə", s. 130

Bu sifətlərin hər birinin Allahın zatına aid edilməsi və hər birinin digərindən fərqli olması bu cəhətdəndir. Amma həqiqət və reallıq baxımından hamısı bir şeydir. Lakin bu cür fərqlilik ilahi zatın həmin sifətlərlə vəsf olunmasının şərti deyil. Amma bir şeyin digəri ilə müqayisə olunmasına gəlincə, müqayisə olunanlar arasında ortaq cəhət olduqda müqayisə olunması doğrudur. Allah-taalaya bənzər heç bir şey yoxdur. O, heç bir şeydə məxluqlarla müştərək deyil ki, Onun başqa biri ilə müqayisə edilməsi doğru hesab olunsun. Bundan başqa bu sifətlərin aşkarda olan üçün sabit olması, gizlində sabit olması ilə fərqlidir.[567]

3. İlahi sifətlər barədə sələfi təsəvvürü

İbn Teymiyyəyə təqlid edən vəhhabi əqidəsinin barəsində əvvəlki səhifələrdə müfəssəl surətdə bəhs etmişik. Bu əqidə zahiri mənanın götürülməsinə, təvil edilmədən sözləri olduğu kimi saxlamaq fikrinə əsaslanır. Bu əqidənin əsaslarını izah etmişik. Bu əqidəni daşıyanlar təvili və məcazi mənanı inkar etdikləri üçün təcsim bataqlığına düşmüşlər.

İbn Teymiyyə belə demişdir: "Sifətlər barədə nəql olunan hədislərə gəlincə, "öz mənasında saxlayın" və digər bir rəvayətdə: "keyfiyyət olmadan deyildiyi kimi öz mənasında saxlayın" deyiblər".

Həmçinin belə demişdir: "Onların (sələfin) – Allah onlardan razı olsun – bu sözü: "Olduğu kimi saxlayın" muəttiləyə (sifətləri inkar edənlərə) bir cavabdır. Onların: "Keyfiyyət olmadan" sözləri isə muməssiləyə (məxluqların sifətlərinə bənzədənlərə) cavabdır"[568]

Bəğəvi Şərhus-sunnədə "mənasını olduğu kimi saxlayın" barəsində belə deyir: "Yəni Kitab (Quran) və sünnədə nəfs, üz, göz, əl, qıç, gəlmək, getmək, səmaya enmək, ərşdə (taxtda) qərar tutmaq, gülmək, fərəh və bu qəbildən

[567] Bax; əl-Məvaqif, c. 3, s. 69, 70; əş-Şiə beynəl-əşairəti vəl-mutəzilə, s. 166

[568] Məcmu əl-fətəva, c. 5, s. 39

olan sifətləri (olduğu kimi başa düşmək lazımdır). Bu və bu kimi sifətlər Allah-taalanın sifətləridir. Bu barədə nəql olunmuşdur. Buna iman gətirmək, zahiri mənasında saxlamaq, təvildən üz çevirmək, təşbihdən çəkinmək vacibdir".[569]

Buna görə də onlar enmək, gülmək, cəhət kimi sifətləri Allaha nisbət vermişlər. Qurani-kərimdə qeyd olunan hər bir sifəti öz zahiri mənasında izah edilməsinin zəruri olduğunu demişlər. Lakin bu təsəvvür iki səbəbə görə batildir:

Birinci səbəb: Zahiri mənaya əsaslanan bu təsəvvür Allah-taalanın cisim olması fərziyyəsini inkar edən ağıl ilə ziddiyyət yaradır.

İkinci səbəb: Onların əsaslandığı ayələr mütəşabih ayələrdir. Bu ayələri Qurandakı möhkəm ayələrə qaytarmaq lazımdır. Yəni "Heç nə Onun kimi deyil" və "Gözlər Onu dərk etməz və O, gözləri dərk edər" bənzətmə və oxşatmanı inkar edən möhkəm ayələrə əsasən izah edilməlidir. Deməli, bu ayələri zahiri mənasından ayrı mənaya izah etmək lazımdır. Yəni ağıl və Quran ayələrində qeyd olunan nəql məntiqinə uyğun tərzdə təvil edilməlidir. Əvvəlki səhifələrdə bu barədə müfəssəl şəkildə qeyd etmişik.

4. İlahi sifətlər barədə imamiyyənin təsəvvürü: sifətlərlə Zatın eyni olması

On iki imamçı imamiyyənin Allah-taalanın kamal və camal adlanan sübuti kamal sifətləri barədə əqidəsi belədir: Elm, qüdrət, zənginlik, iradə, həyat kimi bütün sifətlər Allahın zatı ilə eynidir. Bu sifətlər zata əlavə olunmamışdır. Bu sifətlərin varlığı Zatın varlığıdır. Qüdrəti varlıq baxımından həyatıdır, həyatı qüdrətidir. Hətta O, həyy (diri) olduğu baxımından, qadirdir (qüdrətlidir), qadir olduğu baxımdan da həydir.

[569] Şərhus-sunnə, c. 1, s. 168, 170

Sifətlərində və varlığında ikilik yoxdur. Digər kamil sifətlərində də vəziyyət bu cürdür. Bəli, bu sifətlər həqiqətləri və varlıqları baxımından deyil, məna və məfhum etibarı ilə müxtəlifdir. Əgər varlıq baxımından müxtəlif olarsa – qeyd edildiyi kimi sifətlər də Zat kimi qədimdir - , vücudu vacib olanın sayı çox olar və həqiqi vəhdətə xələl gələr. Bu isə, tövhid əqidəsinə ziddir. Yaratmaq, ruzi vermək, səbəb olmaq kimi feli sifətlərə gəlincə, hamısı bir sifətə – yaratdıqlarına qəyyum (hakim) olmaq sifətinə qayıdır. Bütün bu sifətlər müxtəlif cəhətlərdən fərqli olsalar da vahid sifətə qayıdır. Cəlal adlanan səlbi (olmayan) sifətlərə gəlincə, bütün bu sifətlər Allah-taalanın mümkünül-vucud olmasının inkarına qayıdır. Allah-taalada mümkünlük ola bilməz. Bunun mənası Allah-taalada cisimlilik, surət, hərəkət, sükunət, ağırlıq, yüngünlük və bu kimi bütün naqisliklərin inkar edilməsidir.

Allah-taalada mümkünlüyün olmasının inkarı Onun vacibul-vücud olmasına görədir. Onun vücudunun vacib olması sübuti kamal sifətlərdəndir. Cəlal (səlbi) sifətlər də sonda sübuti sifətlərə qayıdır.[570] Allah-taala bütün cəhətlərdən vahiddir. Onun müqəddəs zatında çoxluq yoxdur. Vahid olanın həqiqətində heç cür mürəkkəblik ola bilməz.[571]

[570] Bax; Əqaidul-imamiyyə, s. 39

[571] Yəni Allah-təala ölüm, acizlik, cəhl kimi sifətlərlə vəsf olunmaz. Həmçinin onun həyat, elm və qüdrətdən xali olması deyilməz. Bu sifətlər sübuti və kəmal sifətləridir. Deməli, səlbi sifətlər kəmal sifətlərinə qayıdır.

İkinci fəsil: Peyğəmbər (s) və əhli-beyt (ə) həqiqi tövhidi izah etmişdir

Sifətlər barədə deyilənlərdən aydın olur ki, məhz imamiyyənin tövhid barəsində etiqadı doğrudur. Çünki onlar bu əqidəni Peyğəmbər (s) və imamlardan (ə) irs almışlar. Elm şəhəri olan Rəsulullahdan (s) başlayıb bu şəhərin qapıları olan ilahi mərifətlə aşıb-daşan imamlara keçərək onların elm feyzindən iqtibaslar qeyd edək.

Rəsulullah (s) Allahı tanımağın təşbih və təmsili rədd etməklə olduğunu bəyan edir.

Bədəvi ərəb Rəsulullaha (s) xitab edərək elmin başı barədə ondan soruşduqda cavab belə olmuşdur: "Elmin başı Allahın mərifətidir (Onu tanımaqdır). Mərifət (tanıma) təşbih və təmsili Ondan uzaq tutmaqdır".

Səduq sənədilə İbn Abbasdan belə nəql edir: "Bir bədəvi ərəb Peyğəmbərin (s) yanına gəlib dedi: "Ya Rəsulullah, elmin başı nədir?" (Peyğəmbər) belə buyurdu: "Allahı haqqı ilə tanımaqdır". Bədəvi ərəb dedi: "Allahı haqqı ilə tanımaq nədir?" (Peyğəmbər) buyurdu: "Onu bənzətmədən, oxşatmadan və tayı olmadığına (inanaraq) tanımaqdır. Həqiqətən də, O, tək, vahid, zahir, batin, əvvəl, bənzəri və oxşarı olmayandır. Bu, Onu haqqı ilə tanımaqdır".[572]

Deməli, Allahı haqqı ilə tanımaq oxşarı, bənzəri və tayı olmayan kimi tanımaqdır. O, təkdir, ehtiyacsızdır, bənzəri və oxşarı olmayandır. Məhz bu baxımdan da tövhid əqidəsi daha çox əhəmiyyətlidir. Bu bilgiləri diqqətlə araşdırıb təmizləmək lazımdır. Çünki bu bilgilər Rəsulullahın (s) dediyi kimi elmin başıdır. Bu ifadə tövhid elminin nə qədər əhəmiyyətli olmasına dəlalət edir. Çünki baş mərkəzdir, bədənə hökm edən, onu istədiyi kimi idarə edən məhz odur.

[572] ət-Tovhid, s. 285

İlahi sifətlərin tənzihi barədə İmam Əlinin (ə) buyurduqları

Allahı görməyin inkarı

Həmçinin Peyğəmbərin şagirdinin "Gözlər Onu dərk etməz. O, gözləri dərk edər" və "Heç vaxt məni görməyəcəksən" ayələrini gözəl bir xütbə ilə şərh etmişdir.

İmam Əli (ə) buyurur: "Həmd olsun Allaha ki, hiss və duyğular Onu (Onun zat və həqiqətini) dərk etməz, məkanlar Onu əhatə etməz, gözlər Onu görməz və pərdələr Onu örtməz... O, bir və təkdir, amma ədəd və say əsasında olan birlik və təklik yox! Həmişə olub və var, amma müddət və zaman hesabı ilə yox! (Çünki zamanın yaradıcısı Odur.) Var olandır, amma sütun və hamilərlə (onu saxlayan şeylə) yox! (Çünki hər bir şey Ona söykənir və arxalanır). Zehinlər Onu qəbul edər, amma (hisslərlə) dərk etmədən. (Çünki O, zehinlərdə sığışmaqdan pak və uzaqdır.) Görünənlər Onun vücudunun varlığına şəhadət verirlər, amma bir şeyi görüb varlığına şəhadət vermək kimi yox. Ağılllar Onu əhatə etməyib (Onun zatını və həqiqətini dərk etməyib), ağıl vasitəsi ilə ağıla təcəlli edib (aşkar olub). Həmçinin ağıl Onun ağılla dərk olunmasını inkar edir. (Onu dərk etmək iddiasında olan ağıl) məhz elə ağılla mühakimə olunmuşdur. Onun böyüklüyü, sonu olanların Ona çatıb Onun böyük cisim olmasını demələri kimi deyil. Həmçinin Onun əzəməti sonluqların Onda sona çatmaları və Onu bədənə malik böyük olduğunu demələri kimi deyil. Əksinə Onun şəni böyük və səltənəti əzəmətlidir".[573]

Deməli, gözlər Onu dərk etməz, heç bir məkan Onu əhatə etməz. O, birdir, amma ədəd baxımından deyil. Daimidir, amma zaman baxımından deyil. O, həzrətin sözləri dəqiq mənaları ehtiva edir.

[573] Şərhu nəhcil-bəlağə, c. 13, s. 44

Həmçinin Ziləb ondan Allahı görmək barədə soruşduqda ona qəti dəlillə cavab verərək belə demişdir: “Məgər görmədiyimə ibadət edərəmmi?(Ziləb) dedi: “Onu necə görürsən?”(İmam) buyurdu: “Gözlər Onu aşkar görməz, lakin qəlblər imanın həqiqətləri vasitəsi ilə Onu dərk edər. Hər şeyə yaxındır (əhatə edib), amma yapışmayıb. Hər şeydən uzaqdır, amma ayrı deyil. Danışır (söz yaradır, amma) təfəkkür və düşüncəsiz. İstəyəndir, amma qərara gəlmədən və hazırlaşmadan. Yaradandır (amma əl, ayaq və bu kimi), hər hansı bir üzvün köməyi olmadan. Gizliliklə vəsf edilməyən lətifdir. Görəndir, amma heç bir hiss üzvü ilə vəsf edilməz. Mərhəmətlidir, amma riqqətə gəlmədən (ürəyiyananlıq və acıma ilə yox). Yaranmışlar Onun əzəmət və böyüklüyü qarşısında mütidirlər, qəlblər (Onun izzət və əzəməti qarşısında) Onun (əzabının) qorxusundan iztirablı və nigarandır”.[574]

Allah-taalanın şərikinin inkarı

Həmçinin Əmirəlmöminin Əli (ə) Allah-taalanın vəhdaniyyətini və şərikinin olmamasını ən gözəl tərzdə bəyan edərək İmam Həsənə (ə) vəsiyyət edərək buyurur: “Oğlum, bil ki, əgər Rəbbinin şəriki olsaydı, sənin (hidayət edilməyin) üçün onun da peyğəmbərləri gələr, onun səltənət və hökmdarlıq nişanələrini görər, iş və sifətlərini tanıyardın. Amma Allah, Özünü vəsf etdiyi kimi təkdir. Səltənətində heç kəs Ona qarşı çıxmaz. O heç vaxt zavala uğramır və həmişə olub (əbədi və əzəlidir). O hər şeydən əvvəldir, amma əvvəl olmaqdan, axırdır son olmadan. (yəni yaradılışın əvvəli və axırı odur)”.[575]

[574] Nəhcül-bəlağə, c. 2, s. 99, 100

[575] Həmin mənbə, c. 3, s. 44

İmam Əli (ə) məşhur olan Sabah duasında belə buyurur: “Ey dan yerini sökməklə sabahın dilini çıxaran, gecənin zülmət qaranlığını aradan aparan, dövr edən ulduzları bürclərində hərəkət etdirən, nuru ilə yandıraraq günəşin ziyasını şüalandıran! Ey Zatı ilə zatına dəlalət edən! Yaratdıqlarına oxşamaqdan münəzzəh və pak olan! Ey qəlbə dammaqla yaxın olan və gözlərin görməsindən uzaq olan, olanın olmasından öncə necə olacağını bilən!...”[576]

Allah-taalanı bütün sifətlərdən münəzzəh olduğunu bildirən “Əşbah” xütbəsi

İbn Əbulhədid Nəhcil-bəlağənin şərhində nəql edərək belə deyir: “O həzrətin xütbələrindən biri də Əşbah adlanır. Bu xütbə onun ən böyük xütbələrindəndir. Cəfər bin Muhəmməd Sadiq (ə) belə nəql edir: “Əmirəlmöminin bu xütbəni Kufə minbərindən söyləmişdir. Bu o vaxt olmuşdu ki, bir kişi onun yanına gəlib belə soruşmuşdur: “Ey Əmirəlmöminin, Rəbbimizi bizə aşkar görəcəyimiz kimi elə vəsf et ki, Ona olan məhəbbətimiz və mərifətimiz artsın”. (İmam) qəzəblənmiş və insanları camat namazına çağırmışdır. İnsanlar onun ətrafına cəm olmuş, hətta məscid insanlarla dolub daşmışdır. Sonra o (ə), qəzəbli və rəngi dəyişmiş halda mənbərə çıxmış, Allaha həmd və sənalar, Peyğəmbərə (s) salam və salavat dedikdən sonra belə buyurmuşdur: “Həmd olsun Allaha ki, əta etməyi kəsməsi və bəxş etməməsi malını, dövlətini artırmaz, səxavət və bəxşişi sərvətini azaltmaz. Allahdan başqa hər bir bəxşiş edənin (yığıb topladığından verdiyi üçün) malı azalar. Ondan (Allah-taaladan) başqa bəxşişi kəsən hər kəs məzəmmət olunmalıdır. (Çünki Allah-taala hikmət əsasında əsirgəyər). Odur faydalı nemətləri, bol gəlirləri və payları (Öz bəndələrinə) ehsan edən. Yaradılmışlar Onun böldüyü payı

[576] Biharul-ənvar, c. 84. S. 339

yeyənlərdir, (Allah) onların ruzilərinə zamindir və ruzilərini bölmüşdür. İstəklərini Ona bildirmək istəyənlər və Onda olanı (nemətləri) diləyənlər üçün yolu açıq etmişdir. Ondan bir şey diləmədikdə səxavəti bir şey diləmədikdə etdiyi ehsanından çox deyil. İlk olan (mövcud olan hər bir şeyin başlanğıcı) Odur. Onun üçün bir başlanğıc olmayıb ki, Ondan öncə nəsə olsun. Son olan (fani olan hər şeyin qayıdış yeri) Odur. Onun üçün bir son yoxdur ki, Ondan sonra bir şey olsun. (İnsanların onun vasitəsilə əşyanı gördüyü) gözlərin bəbəklərinin Ona çatmasına (Onu zahiri gözlə görmələrinə) və Onu dərk etməsinə mane olan Odur. Onun üçün ruzigar dəyişməz (əmrinə zidd rəftar etməz) ki, halında (qüdrət və gücsüzlük, yoxsulluq və varlılıq, sağlamlıq və xəstəlik və bu kimi) dəyişikliklər olsun. Bir yerdə deyil ki, köçmə və (bir yerdən başqa yerə) hərəkət Ona rəva olsun...

Ey sual verən, Quranın sənə göstərdiyi (öyrətdiyi) yolla Onun sifətlərini tanı və onun (Quranın) ardınca get. (Allah-taalanı həmin sifətlə vəsf et). Quranın hidayət nuru ilə aydınlığa (səadətə, qurtuluşa) çıx. Kitabda (Qurani-Kərimdə) onu bilmək sənə vacib olmadığı, Həzrət Peyğəmbər və doğru yol göstərən İmamların sünnəsində izi-tozu olmayan (bəyan edilməyən) sifətlər barədə Şeytanın səni öyrətməyə çalışdığı elm və biliyi Allahın öhdəsinə burax. Bu, Allah-taalanın sənin öhdənə qoyduğu haqqın son həddidir. Bunu bil ki, elm və bilikdə qüvvətli və möhkəm olanlar o kəslərdir ki, örtülü, pərdəli olan və təfsirlərini bilmədikləri şeylər barəsində etirafları onları qeyb qarşısından asılmış qapılara girməkdən ehtiyacsız etmişdir. Allah-taala da onların elm və biliklərinin əhatə etmədiyi şeylərə çatmaqda acizlik və gücsüzlüklərini etiraf etmələrini mədh etmişdir. Onların həqiqət və zatı barədə araşdırıb düşünməyə mükəlləf etmədiyi bir şey haqda düşünməmələrini elmdə mətanətlilik adlandırmışdır. Belə isə sən də Quranın göstərdiyi yolla kifayətlən

(qavrayışına uyğun gəlməyən, bilməli olmadığın şeylər haqqında düşünmə). Pak və nöqsansız Allahın əzəmətini və böyüklüyünü öz ağlınla ölçmə ki, həlak və puç olarsan".[577]

İbn Əbulhədid təşbihi rədd edən bu xütbənin bəzi sözlərini şərh edərək demişdir: "Sonra Allah-taalanın vücudunun zamana məhkum olmamasını qeyd edir. Zamana məhkum olanlarda olduğu kimi Onun üçün sonra və əvvəl deyilməz. Onun vücudunun zamana məhkum olmamasının səbəbi hərəkət etməməsinə görədir. Çünki zaman hərəkətdən doğur. Bir şey barəsində: "o, filan şeydən sonradır" dedikdə məqsədimiz həmin şeyin vücudunun digərinin vücudunun olmadığı bir zamanda olmasıdır. Zamana məhkum olmayan bir şey üçün zaman baxımından əvvəl və sonra deyilməz. Buna əsasən də Allahın əvvəl adlandırılması bu mənadadır: Əvvəldir, lakin zaman baxımından əvvəl deyil ki, Ondan əvvəl bir şey olsun. Axırdır, lakin zaman baxımından axır olan mənada deyil ki, Ondan sonra bir şey olsun...

Əgər desən ki, Allahın gözlərin dərk etməsi mümkün olan nurlarının olduğunu deyirsinizmi? Bu, təcsim deyilmi?!

Mən deyirəm: Əsla yox! Burada təcsim yoxdur. Necə ki, onun cisim olmayan ərş və kürsisi var, eləcə də Onun ərş üzərində cisim olmayan əzəmətli nurları var. Nurun olmasını necə inkar edə bilərsən, halbuki Quranda bu barədə buyurulmuşdur: ***"Yer (üzü) öz Rəbbinin nuru ilə işıqlanacaq..."[578] "Onun nurunun (din və kitabının) məsəli içində çox işıqlı bir çıraq olan çıraqqabı kimidir".[579].[580]***

[577] Şərhu nəhcil-bəlağə, c. 6, s. 397, 400

[578] Zümər, 69

[579] Nur, 35

[580] Şərhu nəhcil-bəlağə, c. 6, s. 401

Tövhidin kamilliyi (nöqsanlı) sifətlərin inkar edilməsidir

Həmçinin tövhidin kamilliyinin nöqsanlı sifətlərin inkar olunması ilə izah edən dəyərli kəlamlarından biri də gözəl dodaqlarından çıxan həddindən ziyadə bəlağət və fəsahətli olan bu kəlamıdır. O həzrət buyurur: “Dinin əsası Onu tanımaqdır. Allahı tanımağın kamalı Onu təsdiqləyib Ona tərəf yönəlməkdir. Təsdiq etməyin kamalı tövhid və Onu tək bilməkdir. Tövhidin kamalı əməlləri Onun üçün xalis etməkdir. İxlasın kamalı Onun zatına əlavə olunmuş sifətin təsəvvür edilməməsidir. Çünki hər bir sifət vəsf olunandan ayrı olduğunu göstərir. Hər vəsf olunan isə sifətdən ayrı olduğuna dəlalət edir. (Buna görə də) Allahı vəsf edən (Onun zatına əlavə olunmuş sifətlə vəsf edərsə) Onun üçün hər hansı bir bənzər və tay bilmiş, vacibul-vücud olmaqda başqa mövcudu Ona tay tutmuş olar). Başqasını Ona tay bilən ikiliyə düşmüş olar. İkiliyə düşən isə Onun bölünüb-parçalana biləcəyinə inanmış olar. Onun bölünə biləcəyinə inanan hər kəs Onu tanımır. Onu tanımayan Ona doğru işarə edər. Ona işarə edən Onu məhdudlaşdıraraq çevrələyər. (Onun üçün həddvə nəhayət yaradar.) Onu məhdud hesab edən Onu sayar. (Onu özündən xaricdə say vahidinə çevirər.) «Nədədir?» sualını verən isə Onu nəyinsə daxilində yerləşdirər. (Onun üçün yer və məkan seçər.) «Nəyin üstündədir?» deyə soruşan bəzi yerləri Ondan boş hesab edər.

Allah-taala həmişə olmuşdur, sonradan əmələ gəlmiş və yeni yaranmış deyil. Yoxdan var olmayan bir varlıq və mövcuddur. Hər şeylə yanaşı olmadan onlarladır. (Beləliklə, O, hər bir şeylədir. Yəni, hər bir şey Onunla dirçəlib, mövcud olub.) Hər bir şeydən fərqlidir, amma onlardan kənar, ayrı deyil. İş görəndir, Ondan iş hasil olur, amma bu, nə haldan-hala keçmə, nə hərəkət və nə də alət mənasında deyil. (Əgər alət vasitəsilə iş görərsə, demək Onun Özündən başqasına ehtiyacı var. Ehtiyac isə

nöqsandır. Vücudu vacib olanın nöqsanlı olması qeyri-mümkündür. Buna görə də zatən gözü olmadan) görəndir.

Yaratdıqlarından heç biri olmayarkən də görən idi. Onunla üns tutmaq (aramlıq tapmaq üçün) və yoxluğundan dəhşətə gəlməmək üçün üns tutulan və aramlaşdıran (əminlik əldə olunacaq bir şey) olmadığı halda da tək və vahid idi. (Allah) fikir və düşüncədən istifadə etmədən, heç bir təcrübə və sınaqdan faydalanmadan, Özündə heç bir hərəkət yaratmadan və iztirablı, narahat nəfsin səyləri olmadan məxluqatı yaratdı. Hər bir şeyi yoxdan və heçlikdən öz vaxtında varlığa çevirdi (məsləhət olan anda onlara varlıq libası geydirdi) və onların müxtəlifliklərі arasında uyğunluq yaratdı... (Mələklər) Allahı xəyallarında canlandırmaz, məxluqatın sifətlərini Ona aid etməzlər, Onu məkanla məhdudlaşdırmazlar, bənzər və misli olanlarla Ona işarə etməzlər".[581]

İmam Sadiqin (ə) Allah-taalanın münəzzəh olması barədə kəlamları

Qeyd etdiyimiz sözlərin oxşarını, təcsim əqidəsində olanların Allah-taalaya nisbət verdikləri sifətlərіdən Onu pak və uca tutaraq İmam Sadiqin (ə) də buyurduğunu görürük. Çünki təcsim əqidəsində olanlar yaşadıqları maddi reallığı ilahi zata şamil etmişlər.

İmam Sadiq (ə) buyurub: "Cisim məhdud və sonu olandır. Surət məhdud və sonu olandır. Əgər məhdudluq ehtimal olunarsa, artıqlıq və naqislik ehtimal olunar. Əgər artıqlıq və naqislik ehtimal olunarsa, məxluq olar. O, nə cisim, nə də surətdir. O, cismə cisimlilik, surətə isə surət verəndir. Parçalanmaz, sonu olmaz, artmaz, azalmaz. Əgər onlar dediyi kimi olsaydı xaliqlə məxluq, inşa edənlə inşa olunan arasında fəqr olmazdı. Halbuki inşa edən Odur. Onunla cisimləşdirdiyi, surət verdiyi və inşa

[581] Nəhcül-bəlağə, c. 1, s. 81

etdiyi arasında fərq var. Deməli, heç bir şey ona bənzəməz və O, heç bir şeyə bənzəməz".[582]

Həmçinin o həzrətə İraqda bəzi insanların Allahı surətlə və tədbir tökməklə vəsf etdiklərini yazıb xəbər verdikdə cavab yazaraq belə buyurmuşdu: "Allah sənə rəhm etsin, tövhid və səndən əvvəlkilərin rəyi barədə soruşmusan. Uca Allahın heç bir bənzəri yoxdur. O, (hər şeyi) eşidəndir və (hər şeyi) görəndir. Allah Onu yaratdıqlarına bənzədənlərin və Ona iftira atanların vəsfindən uca və pakdır. Bil ki, Allah sənə rəhm eləsin, Tövhid barəsində doğru rəy Quranda Allahın sifətləri barədə nazil olanlardır. Batil və təşbihi Allahdan uzaq tut. Sifətlər nə inkar olunar, nə də bənzədilər. O, dəyişməz, mövcud olan Allahdır. Allah (Onu şəninə uyğun olmayan tərzdə) vəsf edənlərin vəsfindən uca və pakdır. Qurandan yan keçməyin ki, bəyandan sonra yolunuzu azarsınız".[583]

Həmçinin buyrub: "Allah-taala zaman, məkan, hərəkət, yerdəyişmə və sükunətlə vəsf olunmaz. Allah-taala onların (təcsimə etiqad bəsləyənlərin) dediklərindən böyük və ucadır".[584]

İmam Kazimin (ə) Allah-taalanın münəzzəh olması barədə kəlamları

İmam Musa bin Cəfər Kazimin (ə) Allah-taalanın dünyanın səmasına enməsini iddia edən qövm barəsində belə dediyi nəql edilir: "Allah-taala enməz və enməyə də ehtiyacı yoxdur. Onun üçün yaxınlıq və uzaqlıq bərabərdir. Yaxın Ondan uzaqlaşmamış, uzaq Ona yaxınlaşmamışdır. Buna ehtiyacı da yoxdur. O, güc-qüdrət sahibidir. Ondan başqa ilah yoxdur. O, yenilməz qüdrət və hikmət sahibidir. Bunu (Allahın enməsini) yalnız Ona naqislik və artıqlıq nisbət verən kəs deyər. Hər bir hərəkət edən onu

[582] əl-Kafi, c. 1, s. 81

[583] Usulul-kafi, c. 1, s. 100

[584] ət-Tovhid, s. 184; Rovzətul-vaizin, s. 36

hərəkət etdirənə və ya hərəkətinə səbəb olacaq vasitəyə möhtacdır.(Bu sözü deyən) Allah barəsində gümana qapılmış və həlak olmuşdur. Allahın sifətləri barədə ehtiyatlı olun. Ona naqislik, artıqlıq, hərəkət, aradan getmə, qalxma və oturma kimi məudlandıracaq həddi nisbət verməkdən çəkinin. Allah-taala vəsf edənlərin vəsfindən, təsəvvür edənlərin təsəvvüründən ucadır".[585]

Həmçinin buyurub: "Allah-taala əl, ayaq, hərəkət və sükunətlə tanınmaqdan, yaxud uzunluq və ya qısalıqla vəsf olunmaqdan yaxud da təsəvvürlərin Ona çatmasından və ya ağılların Onu əhatə etməsindən uca və pakdır".[586]

İmam Rzanın (ə) tövhid barədə rəyi

İmam Rza (ə) Allahı inkar edən şəxslə dialoqunda Allah-taalanın pak və ucalığını bəyan edir:

İmam Rzanın (ə) xidmətçisi Muhəmməd bin Abdullah Xorasani belə nəql edir: "Zindiqlərdən (dinsizlərdən) biri İmam Rzanın (ə) hüzuruna daxil oldu. Onun yanında bir dəstə adam vardı.

Həmin adam belə dedi: "Allah sənə rəhm eləsin! Mənə de görüm O, necədi? O, hardadı?

İmam Rza dedi: "Vay olsun sənə! Sənin düşündüyün səhvdir. Haranı yaradan odur. O, vardı, amma hara yox idi. Necəliyə (keyfiyyətə) necəlik verən odur. O, vardı, amma necəlik (keyfiyyət) yox idi. O, keyfiyyətlə və haralıqla tanınmaz. Hissiyyatla dərk edilməz və heç nə ilə müqayisə olunmaz".

[585] ət-Tovhid, s. 183; əl-İhticac, c. 2, s. 156; Biharul-ənvar, c. 3, s. 311-312

[586] ət-Tovhid, s. 76

Həmin adam dedi: “Deməli, O, heç nədir! Çünki heç bir hissiyyatla dərk olunmur”.

Əbulhəsən (ə) (İmam Rza) dedi: “Vay olsun sənə! Sən hissiyyat üzvlərinlə Onu dərk edə bilməyib aciz olduqda Onun rübubiyyətini (Rəbb və yaradan olmasını) inkar etdin. Biz isə, hissiyyatımız Onu dərk etmədikdə əmin olduq ki, Rəbbimiz bütün şeylərdən fərqlidir”.

Həmin adam dedi: “De görüm O, nə vaxt olub?”.

Əbulhəsən (ə) dedi: “Sən mənə Onun nə vaxt olmadığını de ki, mən də sənə nə vaxt olduğunu deyim...”

Həmin adam dedi: “Nə üçün göz onu dərk edə bilməz?”

İmam (ə) dedi: “Onunla gözlərin dərk etdiyi yaratdıqları arasındakı fərqə görə”. Bundan başqa O, gözlə dərk olunmaqdan, düçüncə ilə əhatə olunmaqdan və ağıl ilə qavranılmaqdan ucadır”.

Həmin adam dedi: “Onun həd-hüdudunu mənə de!”

İmam (ə) dedi: “Onun həd-hüdudu yoxdur”.

Həmin adam dedi: “Nə üçün?”

İmam (ə) dedi: “Çünki hər bir məhdud bir həddə bitər. Əgər həd ehtimal olunarsa, artıqlıq ehtimal olunar. Əgər artıqlıq ehtimal olunarsa, naqislik ehtimal olunar. O, məhdud, artan, azalan, məkana sığan və təsəvvür olunan deyil”.

Həmin adam dedi: “Mənə “O, lətifdir, eşidəndir, görəndir, biləndir və hikmət sahibidir” sözünüz barədə danış. Məgər qulaq olmadan eşidə bilər? Göz olmadan görə bilər? Əlləri ilə düzəltmədən lətif ola bilər? Düzəltmədən hikmətli ola bilər?”

Əbulhəsən (ə) dedi: “Bizdən olan lətif (burada incə və dəqiq işlər görən mənasındadır) düzəltdiyi həddindədir. Görmürsənmi insan bir şeyi seçəndə və seçimində dəqiq olduqda ona: “Filankəs necə də lətifdir (dəqiqdir)? deyilir. Necə ola bilər ki, Xaliqə lətif deyilməsin? Halbuki O,

əzəmətlidir və incə yaradılış xəlq etmişdir. Canlılara ruh vermişdir. Hər bir cinsi digərindən bir-birinə bənzəməyən surətdə ayrı yaratmışdır. Hər bir şeyin surətindəki incəlik və dəqiqlik lətif və xəbərdar olan Xaliq tərəfindəndir. Sonra yeyilən gözəl bəhərləri olan və bəhəri yeyilməyən ağaclara baxıb belə deyirik: Xaliqimiz lətifdir. Məxluqların düzəltdiklərinə nisbətdə lətif olması kimi yox. Deyirik: O, eşidəndir. Ərşdən yerə, zərrədən, çöllərdə və dənizlərdə onlardan daha böyük olana qədər var olan xəlqinin səsləri ona gizli qalmaz. Onların dillərini (danışdıqlarını) qarışdırmaz. Belə olduqda isə Onun qulaq olmadan eşitdiyini deyirik. Deyirik ki, O, göz olmadan görür. Çünki O, qaranlıq gecədə qara daşın üstündəki qara zərrəni görür. O, zülmət gecədə qarışqanın addımlarını belə görür. Ona zərər və fayda verəni, mayalanmasını, yumurta qoymasını və nəslinin artmasını da görür. Buna görə də Onun görən olduğunu deyirik, amma yaratdıqlarının gördüyü kimi yox". (Ravi) dedi: "Bir az keçmədi ki, o, müsəlman oldu"[587]

Deməli, qeyd etdiklərimizdən belə aydın oldu ki, Əhli-beyt imamlarının (ə) rəyinə əsasən Allah-taala təcsim, təşbih və təmsildən uca və pakdır.

[587] ət-Tovhid ,s. 250-251

Üçüncü fəsil: Şiə alimlərinin tövhid əqidəsi barədə rəyləri

Şiə alimlərinə gəlincə, onların rəyləri imamlarının (ə) bu əqidə barəsində öyrətdikləri təlimlərə müvafiqdir. Nümunə olaraq bəzi şiə fəqihlərinin rəylərini qeyd edirik.

1. Şeyx Tusi (vəfat tarixi 460 h.)

Şeyx Tusi Rəsail kitabında deyir: "Allah-taalanın cisim olmamasına dəlil budur; cisim hər hansı cəhətdən bölgünü qəbul edən mürəkkəb varlıqdır. Mürəkkəb olan mümkünül-vücuddur (səbəb-nəticə vasitəsilə var olandır). Çünki onun var olması üçün tərkib tapdığı hissələrə ehtiyac var. Allah-taala vacibul-vücuddur (varlığı heç bir səbəbə dayanmır, varlığı zatındandır). Deməli, O, cisim deyil".[588]

2. Seyid Murtəza (vəfat tarixi 463 h.)

"Qiblə əhlinin (müsəlmanların) ixtilaf etdikləri əqidə əsaslarını şərh və bəyan edirik: Birincisi, Rəbbimizin tövhididir. Şəhadət veririk ki, Allah təkdir, heç bir şey Ona bənzəməz. O, hər şeydən əvvəldir. Hər şey fənaya uğradıqdan sonra baqi olandır (qalandır). Alimdir, heç bir şey Ondan gizli qalmaz... hüdudlardan, məkandan, bədən üzvləri kimi üzvlərdən, hər hansı şeyə bənzəməkdən, hər hansı cinsə uyğun olmaqdan, hər hansı bir şəxsə oxşamaqdan uca və pakdır. O, ağılların dərk etmədiyi, düşüncələrin təsəvvür etmədiyi, gözlərin dərk etmədiyi, gözləri dərk edən lətif və xəbərdar olan tək ilahdır. Allah-taala Onu qalxmaq, enmək, durmaq, oturmaq kimi yalnız cisimlərə aid olan xüsusiyyətlərlə vəsf edən cahillərin vəsfindən, Ona forma nisbət verənlərin və Onu yaratdıqlarına bənzədənlərin etiqadından uca və pakdır. Cahillər Onu gördükləri varlıqlar kimi təsəvvür etmiş sonra da Onun dişləri, barmaqları, əlləri,

[588] ər-Rəsailul-əşr, "əl-İtiqadat", s. 105

gənc yaşındakı oğlan surətində, saçının qıvrım olmasını, Onun zatı ilə alim olmamasını, zatı ilə qüdrətli olmamasını, danışmağa qüdrətinin çatmamasını, bəndələrindən heç kimlə danışmadığını demişlər. Allah onların dediklərindən uca və pakdır. Allah onların sadaladıqları sifətlərdən pak və uzaqdır. O, heç bir bənzəri və oxşarı olmayan vahid ilahdır. O, görən və eşidəndir".[589]

3. Şeyx Səduq (vəfat tarixi 481 h.)

Şeyx Səduq "əl-İtiqadat" kitabında belə deyir: "Bil ki, bizim tövhid barəsində etiqadımız belədir: Allah-taala vahiddir, təkdir. Heç bir şey Ona bənzəməz. Qədimdir, əzəlidir, eşidəndir, görəndir, alimdir, hikmət sahibidir, diridir, hər bir eyb və nöqsandan pakdır, yenilməz qüdrət sahibidir, zəngindir. Cövhər (zatı maddə), cisim, surət, ərəz (sonradan əldə olunmuş əlamət), xət, səth, ağırlıq, yüngüllük, sükunət, hərəkət, məkan və zamanla vəsf olunmaz. O, yaratdıqlarının bu cür bütün sifətlərindən uca və pakdır. İki həddən xaricdir: Sifətlərin inkar olunması (heç bir sifətlə vəsf olunmamaq) və təşbih (bənzətmək, oxşatmaq) həddindən kənardır.

O, heç bir şeyə bənzəməyən varlıqdır, təkdir, ehtiyacsızdır. Övladı yoxdur ki, varisi olsun. Özü doğulmayıb ki, kimdənsə miras aparsın. Onun tayı, oxşarı, rəqibi, bənzəri, yoldaşı (zövcəsi), misli, bərabəri və şəriki yoxdur. Gözlər və düşüncələr Onu dərk etməz, O isə dərk edər. O, nə mürgüləyər, nə də yuxu bilər. O, lətif və hər şeydən xəbərdardır. Ondan başqa ilah yoxdur. Yaradılış və əmr Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah ucadır".[590]

Həmçinin "ət-Tovhid" kitabında belə deyir: "Ey sual soruşan, Onun necə olmasını necə güman edirsən? O, münəzzəhdir, həmd olunandır. Sonradan

[589] Rəsailu Murtəza, c. 2, s. 187-188

[590] əl-İtiqadat fi dinil-imamiyyə, s. 22-23

var olmayıb ki, Onda dəyişiklik və hərəkət olsun. Zatında hallar dəyişilməz. Gecələr və gündüzlərin zamanı onun üçün fərqlilik gətirməz. Halların dəyişməsi onun zatında dəyişiklik törətməz. O, varlıq aləmini təcrübə olmadan, başqa bir yaradılışa bənzətmədən yaratmışdır. Nə də ondan öncə məbud olmuşdur ki, onun yolu ilə getmiş olsun. Onun sifətlərini əhatə etmək mümkün deyil ki, sifətləri dərk etməklə məhdud olsun. Əzəldən – heç bir şey Ona bənzəməz – məxluqların sifətlərindən uzaqdır, pakdır. Gözlər Onu görə bilməz ki, görünərək vəsf olunsun, Ondan başqa heç kəsin bilmədiyi Zatı yaratdıqlarına tanınsın. Uca olduğu üçün düşünənlərin xəyalından uzaqdır. Fikirləşənlərin təfəkkürü Onun əzəmətinin həqiqətini dərk edə bilməz. Onun heç bir bənzəri yoxdur ki, yaratdıqlarında Ona oxşar olsun. Mərifət əhlinin nəzərində oxşarlardan, rəqiblərdən münəzzəh və pakdır. Allahı özlərinə bənzədənlər, Ona məxluqların libasını geydirənlər yalan deyənlərdir...”[591]

4. Əllamə Hilli (vəfat tarixi 726 h.)

Əllamə Hili deyir: “Üçüncü mövzu: Allah-taala cisim deyil”.

Davud, bütün hənbəlilər kimi zahir əhlindən (dini mətnləri zahiri mənada qəbul edənlərdən) başqa ağıl sahiblərinin hamısı bu məsələdə müvafiqdirlər. Onlar (zahir əhli) belə deyirlər: “Allah-taala cisimdir, ərşin üzərində oturur, ərşin hər tərəfindən Onun qarışları ilə altı qarış artıq qalır. O, hər cümə gecəsi ulağın üstündə enir və səhərə kimi belə səsləyir: “Tövbə edən varmı? Bağışlanmaq diləyən varmı? Onlar mütəşabih ayələri zahiri mənada izah etmişlər”.[592]

5. Şeyx Mazandarani (vəfat tarixi 1081 h.)

[591] ət-Tovhid, s. 50-51

[592] Nəhcul-həqq və kəşfus-sidq, s. 55

Şeyx Mazandarani Kafi kitabının şərhində deyir: “Allah-taala cisimlilik, miqdar, məhdudluq, məkan, ərəz, hal kimi sifətlərlə vəsf olunmaz. Vəsf olunduğu bütün sifətlərin ayrıca mövcud mənası yoxdur. Onun ayrıca varlığı olan elmi yoxdur. Ayrıca varlığı olan qüdrəti yoxdur. Əksinə Onun müqəddəs zatı elmdir, yəni bilməmək yoxdur, zatı qüdrətdir, yəni Onda acizlik yoxdur. Bütün kamil sifətləri bucürdür. Heç bir şey Ona bənzəməz. Bu mübarək sözdən mütləq surətdə naqisliklərdən pak olma başa düşülməlidir. Buna inanmaq və bunu təsdiqləmək vacibdir. Allaha kamil iman və insanın Onu tanıya biləcəyi hədd budur. Onun bir şeyə bənzəməsini iddia edən Ona şərik qoşmuşdur. Hətta Onun vücudunu inkar etmiş və başqa ilahın olduğunu qəbul etmişdir. Bütün bunlar nəfsani istəklərinə və şeytani vəsvəsələrə uymasından irəli gəlir. “O, (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir. Eşidilən hər şeyi ləvazimat olmadan eşidir, görünənləri alət olmadan görür”.[593]

6. Şeyx Muhəmməd Rza (vəfat tarixi 1381 h.)

Şeyx Muhəmməd Rza Tövhid barəsində əqidəmiz fəslində belə deyir: “Etiqad edirik ki, Allahın vəhdaniyyəti hər cəhətdən vacibdir. Onun Zat baxımından tövhidi vacib olduğu kimi, etiqad edirik ki, O zatında, vücudunun vacibliyində və sifətləri baxımından da tövhidi vacibdir. Bu, (sifətlərdə tövhid) zati sifətlərində Onun bənzərinin olmamasına etiqad etməklə mümkündür. Elm və qüdrətdə Onun heç bir bənzəri yoxdur. Yaratmaqda və ruzi verməkdə Onun şəriki yoxdur. Hər bir kamillikdə Onun tayı bərabəri yoxdur”.[594]

Deməli, şiə imamlarının kəlamları, alimlərin və fəqihlərin rəylərini qeyd etdikdən sonra aydın oldu ki, onların hamısı təcsimi inkar etdilər.

[593] Şərhu usulil-kafi, c. 3, s. 211-212

[594] Əqaidul-imamiyyə, s. 37

İlahi zatı hər bir naqislikdən, bənzətmədən, oxşatmadan münəzzəh, uzaq və pak olduğuna etiqad edirlər. Hər bir şeyin varlığı Onunla var olur. Çünki O, vahid, tək olan ilahdır. Ağıllar onu dərk, düşüncələr Onu təsəvvür edə bilməz. Gözlər Onu dərk etməz, O isə gözləri dərk edər. O, lətif, xəbərdar, eşidən və görəndir.

Şiələrin sübuti və səlbi sifətlər barədə etiqadı

Şiələr Allah-taalanın bütün kamal sifətlərlə vəsf olunduğuna, eyni zamanda bütün naqisliklərdən münəzzəh və pak olmasına etiqad bəsləyir. Buna əsasən də ilahi sifətləri iki qismə bölürlər: sübuti sifətlər və səlbi sifətlər.

Sübuti sifətlər Allah-taalanın vəsf olunduğu sifətlərdir. Həmin sifətlər bunlardır: Allah-taala qüdrətlidir, ixtiyar sahibidir, alimdir, həyydir (diridir), iradə sahibidir, dərk edəndir, qədimdir, əzəlidir, baqidir (həmişə olandır), əbədidir, sadiqdir (doğru danışandır). Yaratmaq, ruzi vermək, diriltmək, öldürmək və bu kimi sifətlərə gəlincə, bu sifətlə feli sifətlərdir.

Səlbi sifətlər Allah-taalanın vəsf olunmadığı sifətlərdir. Səlbi sifətlər bunlardır: Allah-taala mürəkkəb deyil, cisim deyil, Onda dəyişikliklər baş verməz, dünya və axirətdə gözlə görsənməz, Onun şəriki yoxdur, möhtac deyil, sifətlər Onun zatından ayrı deyil.

Allahın həyatının mənası, Allahın cansız varlıqlar kimi olmaması mənasındadır. Onun ruhunun olması mənasında deyil.

Allahın dərk etməsinin mənası Onun qulaq olmadan eşitməsi, göz olmadan görməsidir. Yəni O, bütün görünənləri və eşidilənləri dərk edir.

Allahın danışan olmasının mənası Onun dil olmadan danışmasıdır. Belə ki, bəzi yaratdıqlarında səsi icad edir. Məsələn, Allah-taala Musa peyğəmbərlə danışdıqda ağacda səs yaratmışdır.

Allahda dəyişikliklərin baş verməməsinin mənası Onda sonradan sifətlərin baş verməməsi, olmamasıdır.

Sifətlər Allahın zatı ilə eynidir dedikdə, sifətlərin ilahi zatdan ayrı olmaması nəzərdə tutulur.

Həmçinin şiələr etiqad edirlər ki, Allah-taala məkan, cəhət, bədən üzvü kimi üzvlərdən, qoxulamaq, dadmaq, rəng, cisimlilik yaradacaq hər bir xüsusiyyətlərdən, ləzzət və acı çəkməkdən münəzzəh, pak və uzaqdır.

Həmçinin etdiqad edirlər ki, qeyd edilənlərə müxalif nəql olunan "Rəhman olan Allah ərşdə qərar tutdu", "Rəbbinə baxacaq". Rəbbin gələcək", "Allahın əli onların əllərinin üstündədir", "Onlar hiylə etdilər, Allah da hiylə etdi", "Əgər Rəbbin istəsə yerdə olan hər kəs iman gətirər", "Əgər Allah istəsə onlar bir-birilə vuruşmazdılar" və bu kimi dini mətnlərin təvil olunması və ağılın hökmünə verilməsi, yaxud elmini Allah-taalaya həvalə etmək vacibdir. Bu ən doğru sözdür. Şiələr, onların imamları və alimləri Allah-taalanı mütləq mənada cisimlilikdən münəzzəh, pak və uzaq bilirlər.

İxlas surəsi və Allah-taalanın mütləq mənada münəzzəh olması

Qurani-kərim bu həqiqəti təkid edir. Bəlkə də Allah-taalanı münəzzəh olmasını ən çox təkid edən surə məhz İxlas surəsidir. Belə ki, bu surənin sözləri və məfhumları çoxluğun olmaması, təcsim şübhəsindən uzaqlığı özündə ehtiva edir. Allah-taalaya məxluqların sifətlərinə bənzəyən hər hansı sifəti nisbət vermək olmaz. Çünki Allah-taala qədimdir, əzəlidir, əbədidir məxluqlar isə sonradan yaranıb. Sonradan yarananlar möhtacdır. Buna əsasən də O, yaratdıqlarına bənzəməz. Çünki varlıq aləmində olan hər bir şey Ona möhtacdır. Eyni zamanda O, heç bir şeyə möhtac deyil. O,

mütləq kamillik, məxluqat isə mütləq ehtiyacdır. Həmçinin İxlas surəsi Allah-taaladan bir şeyin ayrılmasını və ya bir şeyin Ona birləşməsini inkar edir.

İxlas surəsi həqiqi vəhdaniyyəti çoxluq anlamından arındıran bir surədir. Əmirəlmöminin Əli (ə) buyurub: "İxlasın kamalı Onun zatına əlavə olunmuş sifətin təsəvvür edilməməsidir. Çünki hər bir sifət vəsf olunandan ayrı olduğunu göstərir. Hər vəsf olunan isə sifətdən ayrı olduğuna dəlalət edir".[595]

İmam Rzadan (ə) tövhid barəsində soruşulduqda belə buyurduğu nəql edilir: "Kim ***"De: "Həqiqətən, Allah əhəddir"*** ayəsini oxuyub iman gətirərsə, tövhidi bilmişdir".[596]

Bu surə Allah-taalanın zatının vahid və tək olmasını bəyan edir. Ondan başqa hər şey zatında, sifətlərində və fellərində Ona şərik olmadan bütün cəhətlərdən Ona möhtacdır. Bu, Qurana məxsus olan Quran tövhididir. İslamın bütün etiqad əsasları ona bağlıdır.

Seyid Muhəmməd Hüseyn Təbatəbai bu mübarək surənin təfsirində belə deyir: "Əhəd" vahid kimi vəhdət sözündən götürülmüş vəsfdir. Lakin əhəd nə reallıqda, nə də zehin müstəvisində çoxluq qəbul etməyən bir şeyə deyilir. Buna əsasən də saya daxil deyil və vahidin əksinə olaraq ədəddən hesab olunmur. Çünki hər vahidin (birin) təsəvvür və ya fərziyyə olaraq ya reallıqda, ya da zehin səviyyəsində ikincisi və üçüncüsü var. Vahid onunla birlikdə çoxluq olur. Əhədə gəlincə, onun üçün hər hansı ikinci təsəvvür olunarsa, məhz elə onun özü olacaq. Ona heç bir artıqlıq və ya çoxluq gətirməz.

"De: "Həqiqətən, Allah əhəddir. Allah (heç kəsə, heç nəyə) möhtac deyil!" Bu iki ayə Allah-taalanı zati və feli sifətlərlə vəsf edir. "Allah

[595] İbn Ərəbinin təfsiri, c. 2, s. 438

[596] ət-Tovhid, s. 284

əhəddir” ayəsi Onu məhz zatın özü olan əhədiyyətlə (hər cəhətdən təklik, ikiliyə yer olmayan) vəsf edir. ***“Allah (heç kəsə, heç nəyə) möhtac deyil”*** ayəsi hər bir şeyin Ona qayıtdığını (möhtac olduğunu) bəyan edir. Bu isə feli sifətlərdəndir.

“O, nə doğmuş, nə də doğulmuşdur!Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!” ayələri xristianların İsa (ə) və bütpərəstlərin bəzi bütlərinin barəsində Allahın övladı dedikləri kimi Ondan hər hansı mənada bir şeyin ayrılmasını, hissələrə bölünməni inkar edir.

Allah-taalanın doğmamasına gəlincə, doğmaq hər hansı mənada təfsir olunsa da hissələrə ayrılma və bölünmənin bir növüdür. Doğan tərkibdən xaric deyil. Mürəkkəb olanın tərkib hissələrinə möhtac olması zəruridir. Allah-taala ehtiyacsızdır. Bütün möhtac olanlar hər şeydə Ona möhtacdır. Onun heç bir ehtiyacı yoxdur. Onun doğulmadığına gəlincə isə, bir şeyin bir şeydən doğulması doğulanın varlığının onu doğanın varlığına möhtac olması ilə baş verir.

Onun heç bir tayı-bərabərinin olmamasına gəlincə, istər zatında, istərsə də fellərində Onun hər hansı bir tayı-bərabərin fərz olunması həmin tayın müstəqil və ehtiyacsız olduğu halda mümkündür. Allah-taala mütləq mənada ehtiyacsızdır. Ondan savayı hər bir şey fərz oluna biləcək hər cəhətdən Ona möhtacdır. Belə ki, O, vahiddir, təkdir, heç bir şey Ona bənzəməz. Onun vücudu heç bir şeyə istinad etmədən, möhtac olmadan Öz zatı ilə var. Həmçinin sifətləri və felləri də belədir. Ondan başqasının vücudu, sifətləri və felləri Onun böyüklük və əzəmətinə layiq tərzdə olan lütf və feyz sayəsindədir. Surənin anlamı Allah-taalanın əhəd, vahid və bir olmasıdır.[597]

Allah-taalanın tövhidi barəsində şiənin əqidəsi budur. Bu əqidə Allah-taalanı cisimlilikdən, bənzətmədən, oxşatmadan, məkandan, zamandan,

[597] Təfsirul-mizan, c. 20, s. 387-389

cəhətdən, maddə və hissdən tamamilə münəzzəh, pak və uzaq olduğunu ehtiva edir. Allah-taala vahiddir, ehtiyacsızdır, doğmayıb, doğulmayıb və Onun heç bir tayı-bərabəri yoxdur.

Mövzunun sonu

Bu elmi-tənqidi araşdırmamızdan belə məlum oldu ki, İbn Teymiyyənin tövhid əqidəsi barədə məsləyi islam məzhəbləri ilə heç bir vəchlə uyğun gəlmir. Çünki onun məsləyinə əsasən sözlər öz zahiri mənasında saxlanılır, ağılın hökmü inkar edilir və Allah-taala məkan və zamana məhkumdur. O, bəzi məsələlərdə bunu aşkarcasına bəyan edir. Həmçinin o, məcazi məna və təvili inkar edir. Nəticədə zahiri təcsim, təşbih olan ayə və rəvayətləri təvil etmir.

Subki, Zəhəbi, İbn Həcər Heytəmi, Əsqəlani kimi onunla eyni dövrdə yaşamış fəqihlər saleh sələfin məqsədindən, şəriətin hədəflərindən uzaq olan qarışıq etiqadları və fətvalarına görə ona nəsihət etmiş və çəkindirmişlər. Xüsusilə də, müsəlmanlar içərisində ona tabe olan və təqlid edənlər vardı. Lakin Zəhəbi məktubunda qeyd etdiyi kimi nəsihətin heç bir faydası yox idi. Məhz buna görə də bu məslək hal-hazırkı dövrümüzdə onu əvəz edən yeni fikrə - Vəhhabi təfəkürünə çevrildi. Vəhhabi təfəkkürü İbn Teymiyyəni fikirlərindən çəkindirmək istəyən alimlərin öyüd-nəsihətlərini nəzərə almadan hər bir böyük və kiçik məsələdə ona təqlid edir.

Bəlkə də həcmcə az olan bu yazıda qeyd etdiklərimiz bu fikrə etiqad bəsləmək istəyən insan üçün bir dəlil ola bilər. Bəlkə bundan sonra öz tövhidlərinin kamil olduğunu iddia edərək müsəlmanları şirk, bidət və küfrlə ittiham etməyəcəklər. Artıq bu əqidənin batil və puç olması aşkar oldu.

Qeyd

İbn Teymiyyənin tövhid əqidəsi və məsləyi barədə araşdırmamızda gördük ki, onun düşdüyü azğınlıqlara dövrünün və müasir dövrümüzə kimi yaşayıb yaratmış alimlər cavab vermişlər. Lakin bu gün müxtəlif media vasitələri ilə bu məsləyi müdafiə edənləri görürük. Lakin bundan dəhşətlisi budur ki, onlar nümunəvi islam məsləyi olduğunu iddia etdikləri bu məsləyə tabe olmayan başqa məzhəbləri İslamdan uzaq düşməkdə ittiham edirlər. Halbuki təqdim etdiyimiz araşdırma sayəsində bu məsləyin İslamın onurğa sütununu təşkil edən tövhid əqidəsini necə anladığını, müsəlmanların əqidə əsaslarından necə fərqli olduğunu gördük. Bu, o demək deyil ki, biz onları təkfir edirik. Bu, təkcə şiə məzhəbinin deyil, bütün müsəlman məzhəblərinin əqidəsidir. Lakin biz belə deyirik: "Bu məsləyə nüfuz etmiş xəta və şübhələr var. Onları öz məsləklərini tədqiq etməyə və müsəlmanları ittiham etməkdən əl çəkməyə çağırırıq. Əmirəlmöminin Əli (ə) belə buyurur: "Haqqı axtarıb xəta edən batili məqsəddə tutub haqqı bulan kimi deyil". Şiənin mötədil və insaflı rəyi budur.

Buna əsasən də təqdim etdiyim araşdırmanı hazırlayarkən mütaliələrim və yazdığım kitablar sayəsində bu məsləyi təmsil edənlərlə necə rəftar etmək, onlarla debat və diskussiyalarda Allahın izni ilə faydalı olacaq bəzi nəsihətləri qeyd etmək istəyirəm. Həmin nəsihətlər aşağıdakılardan ibarətdir:

1. Tövhid əqidəsi məsələləsini qabartmaq, diskussiyalarda və debatlarda bu əhəmiyyətli mövzunu unutmamaq. Bu məsələ birincilik məziyyətinə sahib olduğu üçün hər hansı əqidə məsələsindən öncə izah olunmalıdır. Bu məsələ barədə səlәf və xəlәf alimlərin rəylərini, xüsusilə də, təcsim əqidəsini aşkarcasına müdafiə edən sonrakı dövrün alimlərinin, Tüveycərinin (Adəmin Rəhmanın surətində yaradılmasına iman gətirmək

kitabı), İbn Useyminin, İbn Cubreynin və başqalarının rəylərini araşdırıb tənqid etmək lazımdır. Həmçinin bu məsləyə müxalif olan Doktor Əbdülmuhsin Əskər, Şeyx Həsən bin Fərhan Maliki, Muşari Zaydi, Abdullah bin Bicad Uteybi, Xalid Ğanimi, Muhəmməd Əli Mahmud, Əbdülmöhsin Əvaici və başqa mötədil təfəkkür sahibi olan alimlərin rəylərini də nəzəzrə almaq lazımdır.

2. İmam Subkinin kitablarına, xüsusilə də "əs-Seyfus-səqil" və "Təbəqatuş-şafeiyyə" kitablarına daha çox əhəmiyyət vermək lazımdır. Həmçinin Fəxri Razinin, Əllamə Kəvsərinin "Təbdiduz-zəlam" və başqa kitablarına, Şeyx Səid Fovdənin kitablarına, xüsusilə də "əl-Kaşifus-səğir" kitabına önəm verilməlidir. Bundan başqa Əbu Zöhrənin "İbn Teymiyyə" və başqa kitabları eləcə də Şeyx Muhəmməd Ğəzalinin kitabları da nəzərdan qaçmamalıdır. Qeyd etdiyim kitablarda bu təfəkkür tərzinin tənqidi barədə tutarlı mülahizələr var.

3. İbn Teymiyyə "Təlbisul-cəhəmiyyə" kitabında Allah-taalanın münəzzəh olması barədə Fəxri Razinin qeyd etdiyi dəlilləri müzakirə etmişdir. Tədqiqatçılar həmin kitaba müraciət edib, onu elmi-tənqidi araşdırıb, əşəri ideologiyasını təmsil edən Fəxri Razinin etiqadı ilə sələfi etiqadını müqayisə edib Əhli-beyti (ə) təmsil edən şiə əqidəsinin əsaslarını və dəlillərini nəzərə alaraq İbn Teymiyyənin metodundakı xələl və nöqsanları üzə çıxara bilərlər.

4. Beyhəqinin "əl-Əsma vəs-sifat" kitabını mütaliə etmək zəruridir. Bu kitabı mütaliə edən şəxs onun hənbəli məzhəbinə, xüsusilə də, ilahi adlar və sifətlər barədə nəql olunan hədislərdə fərqli mövqe nümayiş etdirdiyini görəcək. Həmçinin İbn Fovrəkin (vəfat tarixi 406 h.) Muşkilul-hədis kitabını mütaliə etmək zəruridir. O, təcsim toruna düşməmək üçün təvil üslubundan istifadə etmiş və bu üslubu ilahi sifətlər barədə olan bir çox

hədislərə tətbiq etmişdir. Bu kitabı Vəhhabi əqidəsi ilə müqayisəli surətdə tədqiq etmək olar.

Sonda Allah-taaladan bu kitabı yazan və oxuyanlara fayda və mənfəət bəxş etməsini, bu kitabı bizdən səmimi olaraq qəbul etməsini və qiyamət günü mənəvi azuqə qərar verməsini diləyirəm. Muhəmməd və onun Əhli-beytinə Allahın salamı və salavatı olsun!

Yəhya Əbdülhəsən Haşim
Müqəddəs Qum şəhəri
yahya11968@yahoo.com

İstifadə olunmuş ədəbiyyat

Qurani-kərim.

Nəhcül-bəlağə.

1. Muhəmməd Əbu Zöhrə, “İbn Teymiyyə həyatuhu, əsruhu, arauhu və fiqhuhu”, Qahirə.

2. Cəlaluddin Siyuti, “əl-İtqan fi ulumil-Quran”, Beyrut.

3. Əbu Mənsur Əhməd bin Əli Təbərsi, “əl-İhticac”, Nəcəf.

4. Əhməd bin Əli Razi Cəssas, “Əhkamul-Quran”, Əbdüssəlam Muhəmməd Əli Şahinin tədqiqi ilə. Beyrut.

5. Məhmməd bin Muhəmməd Ğəzali, “İhyau ulumid-din”, Beyrut.

6. Əbu Cəfər Muhəmməd bin Həsən Tusi, “İxtiyaru mərifətir-rical”, Qum.

7. İmamul-hərəmeyn Cuveyni, “əl-İrşadu ilə qəvatiul-ədilləti fi usulil-itiqad”, Muhəmməd Yusif Musanın tədqiqi ilə. Qahirə.

8. Xalid Əbdürrəhman Şaii, “İstidraku və təqibu alәl-Arnaut”, Əbdüləziz bin Bazın qeydləri ilə, ər-Riyad.

9. Əbulabbas Əhməd bin Əbdülhəlim bin Teymiyyə Hərrani, “əl-İstiqamə”. Mədinətul-münəvvərə.

10. Muhəmməd Əbdəh, “əl-İslam vən-nəsraniyyə”.

11. Əbu Cəfər Muhəmməd bin Yəqub Kuleyni Bağdadi, “Usulul-kafi”. Tehran.

12. Nasir bin Abdullah Qəffari, “Usulu məzhəbiş-şiə”.

13. Əbdülvahid bin Əbdüləziz bin Haris Təmimi. “İtiqadul-İmam bin Hənbəl”. Beyrut.

14. Muhəmməd bin Əli bin Hüseyn Babaveyh Qummi Səduq, “əl-İtiqadad fi dinil-imamiyyə”, İsam Əbdüsseyidin tədqiqi ilə. Beyrut.

15. Xeyruddin bin Mahmud bin Muhəmməd Dəməşqi Zərkəli, “əl-Əlam”. Beyrut.

16. Muhəmməd bin Əbdürrəhman Səxəvi, “əl-İlanu bit-tovbixi limən zəmmət-tarix”, Frans Ronşal tərəfindən ingilis dilində tədqiq edilmişdir. Beyrut.

17. Muhsin Əmin, ”Əyanuş-şiə”, Həsən Əminin tədqiqi ilə. Beyrut.

18. Səlahəddin Səfdi, “Əyanul-əsri və əvanun-nəsr”.

19. Məri bin Yusif Muqəddəsi, “Əqavilus-siqati fi təvilil-əsmai vəs-sifat”, Şueyb Arnautun tədqiqi ilə. Beyrut.

20. Muhəmməd bin Muhəmməd Ğəzali, “əl-İqtisadu fil-itiqad”. Beyrut.

21. Əbu Cəfər Muhəmməd bin Həsən Tusi, ”əl-İqtisad”. Tehran.

22. Cəfər Subhani, “əl-İlahiyyat”. Beyrut.

23. Əbdülkərim bin Muhəmməd bin Mənsur Səmani, “əl-Ənsab”. Beyrut.

24. Əbu Abdullah Muhəmməd bin Muhəmməd bin Numan Əkbəri Bağdadi Mufid, “Əvailul-məqalat”. Beyrut.

25. Muhəmməd Baqir Məclisi, “Biharul-ənvar”. Beyrut.

26. Əbu Abdullah Muhəmməd bin Abdullah Zərkəşli, “əl-Bəhrul-muhit fi usulil-fiqh”, Muhəmməd Tamirin tədqiqi ilə. Beyrut.

27. Əbu Bəkr Kaşani. “Bədaius-sənai”. Pakistan.

28. Əbul-fida İsmail bin Kəsir Dəməşqi, “əl-Bidayətu vən-nihayə”, Əli Şirinin tədqiqi ilə. Beyrut.

29. Həsən bin Əli Səqqaf, “əl-Bəşarətu vəl-ithaf bima beynə İbn Teymiyyə vəl-Albani fil-əqidəti minəl-ixtilaf”. Əmman.

30. Əbdürrəhman Həsən Meydani, “əl-Bəlağətul-ərəbiyyətu ususuha və ulumuha və fununuha”.

31. Ömər Abdullah Kamil, “Bəyanu xətais-təqsimis-sülasi lit-tövhid”.

32. Abdullah bin Müslim bin Quteybə, “Təvilu muxtələfil-hədis”. Beyrut.

33. Abdullah bin Müslim bin Quteybə, “Təvilu muşkilil-Quran”, Əhməd Saqrin tədqiqi ilə.

34. Tahir bin Muhəmməd İsfirayini, “ət-Təbsiru fid-din”. Beyrut.

35. Əbu Cəfər Muhəmməd bin Həsən Tusi, “Təcridul-itiqad”. Beyrut.

36. Şəmsəddin Əbu Abdullah Muhəmməd bin Əhməd Zəhəbi, “Təzkirətul-huffaz”.

37. Əbu Abdullah Muhəmməd bin Əhməd Qurtubi , “Təzkirətu əhvalil-movta və umuril-axirə”.

38. Əbulabbas Əhməd bin Əbdülhəlim bin Teymiyyə Hərrani, “ət-Tisiniyyətu”, Doktor Muhəmməd bin İbrahim Əcəlanın tədqiqi ilə. ər-Riyad.

39. Saleh Fovzan, “Təqibatun alə kitabis-sələfiyyə libuti”. Qahirə.

40. Abdullah bin Cubreyn, “ət-Təliqatuz-zəkiyyətu alәl-əqidətil-vasitiyyə”. Əbu Nəvas Əli bin Hüseynin rəhbərliyi ilə çap olunmuşdur. ər-Riyad.

41. Əbu Bəkr Muhəmməd bin Abdullah Hatimi, “Təfsiru İbn Ərəbi”, Əbdülvaris Muhəmməd Əlinin tədiqi ilə.

42. Əbu Muhəmməd Əbdürrəhman bin Əbu Hatəm Razi, “Təfsiru Razi”, Əsəd Muhəmməd Teybin tədqiqi ilə. Beyrut.

43. Əbulfida İsmail bin Kəsir Dəməşqi, “Təfsirul-Quranil-azim”, Yusif Əbdürrəhman Mərəşlinin tədqiqi ilə.

44. Əbu Abdullah Muhəmməd bin Ömər bin Hüseyn Şafei Fəxri Razi ,”ət-Təfsirul-kəbir”. Beyrut.

45. Muhəmməd Hüseyn Təbatəbai, “əl-Mizanu fi təfsiril-Quran”. Qum.

46. Həsən Həmd Məşşat, “ət-Təqriratus-səniyyətu fi şərhil-mənzumaətil-bəyquniyyə”. Beyrut.

47. Əbulabbas Əhməd bin Əbdülhəlim bin Teymiyyə Hərrani, “Təlbisul-cəhəmiyyə fi təsisi bidəihimil-kəlamiyyə”, Doktor Muhəmməd Bəridinin tədqiqi ilə. Məkkə.

48. Muhəmməd bin Teyb Baqilani, “Təmhidul-əvaili və təlxisid-dəlail”. Beyrut.

49. Yusif bin Abdullah bin Muhəmməd bin Əbdülbirr, “ət-Təmhid”, Mustafa bin Əhməd Ələvi və Muhəmməd Əbdülkəbir Bəkrinin tədqiqi ilə.

50. Həsən bin Əli Səqqaf, “ət-Təndid bimən əddədt-tovhid”, Əmman.

51. Muhəmməd bin Əli bin Hüseyn bin Babaveyh Qummi Səduq, “ət-Tovhid”. Qum.

52. Əbu Hamid bin Mərzuq, “ət-Təvəssulu bin-nəbiyyi və cəhələtul-vəhhabiyyin”, İstanbul.

53. Bir qrup alimlər tərəfindən ,”ət-Tofiqur-rəbbani”.

54. Həmd Əmin Bad Şah, “Teysirut-təhrir”. Beyrut.

55. Muhəmməd bin Cərir Təbəri, “Camiul-bəyan ən təvili ayil-Quran”. Beyrut.

56. Muhəmməd bin Əli Ğərəvi Ərdəbili, “Camiur-ruvat”. Qum.

57. Əbulabbas Əhməd bin Əbdülhəlim bin Teymiyyə Hərrani ,”əl-Cəvabus-səhih limən bəddələ dinəl-məsih”, Doktor Əli Həsən Nasir və Doktor Əbdüləziz İbrahim Əskərin tədqiqi ilə. ər-Riyad.

58. Qazi ibn Bərrac, “Cəvahirul-fiqh”. Qum.

59. Əhməd bin Muhəmməd bin Əli bin Həcər Məkki Heytəmi, “əl-Cəvahirul-munəzzəm”.

60. Əbdüləziz bin Baz, “Haşiyətu fəthul-bari”.

61. Əbulqasim İsfəhani, “əl-Huccətu fi bəyanil-muhəccə”.

62. Əbulabbas Əhməd bin Əbdülhəlim bin Teymiyyə Hərrani , “ən-Nubuvvat”. Qahirə.

63. Əbu Abdullah Muhəmməd bin Muhəmməd bin Numan Əkbəri Bağdadi Mufid, “əl-Hikayat”. Beyrut.

64. Əbulfəth Osman bin Cuney. “əl-Xəsais”, Muhəmməd Əli Nəccarın tədqiqi ilə. Beyrut.

65. Əbu Mənsur Həsən bin Yusif bin Mutəhhər Əsədi Hilli, “Xuləsətul-əqval”, Şeyx Cavad Qəyuminin tədqiqi ilə.

66. Əbulabbas Əhməd bin Əbdülhəlim bin Teymiyyə Hərrani , “Dirut-təaruz”. ər-Riyad.

67. Əli Milani, “Dirasatun fi minhacus-sunnə”.

68. Təqiyyuddin Əli bin Əbdülkafi Subki, “əd-Durrətul-muziyyə vi rəddi alə İbn Teymiyyə”.

69. Şihabuddin Əbulfəzl Əhməd bin Əli Əsqəlani (İbn Həcər), əd-Durərul-kaminə fi əyanil-miətus-saminə”. Heydərabad.

70. Muhəmməd bin Əbdülmömin Hisni Dəməşqi, “Dəəfuş-şubəhu ənir-rəsul”. Qahirə.

71. Əbulfərəc Əbdürrəhman Hənbəli (İbn Cövzi), “Dəfu şubəhit-təşbih bi əkuffit-tənzih”. Əmman.

72. Muhəmməd bin Əbdülmömin Təqiyuddin Hisni Dəməşqi, “Dəfu şubəhi mən təşəbbəhə və təmərrədə”. Qahirə.

73. Əbulabbas Əhməd bin Əbdülhəlim bin Teymiyyə Hərrani , “Dəqiqut-təfsir”.

74. Muhibbiddin bin Hibətullah bin Nəccar, “Zeylu tarixi Bağdad”. Beyrut.

75. İbn Davud Hilli, “Ricalu İbn Davud”, Nəcəf.

76. Əbu Cəfər Muhəmməd bin Həsən tusi, “Ricalu Tusi”, Cavad Qəyumi İsfəhaninin tədqiqi ilə. Qum.

77. Əhməd bin Həsən Ğəzairi, “Ricalu Ğəzairi”.

78. Əbulabbas Əhməd bin Əli din Əhməd Nəcaşi, “Ricalu Nəcaşi”. Qum.

79. Muhəqqiq Hilli, “ər-Rəsailut-tisi”. Qum.

80. Əbu Cəfər Muhəmməd bin Həsən Tusi, “ər-Rəsailul-əşr,. (əl-İtiqadad”. Qum.

81. Şərif Murtəza, “Rəsailu Murtəza”. Qum.

82. Əbulabbas Əhməd bin Əbdülhəlim bin Teymiyyə Hərrani , “ər-Rəsailus-səfdi”. ər-Riyad.

83. Muhəmməd bin İdris Şafei, “ər-Risalə”, Əhməd Muhəmməd Şakirin tədqiqi ilə. Beyrut.

84. Əbulfəzl Şihabuddin Mahmud Alusi Bağdadi, “Ruhul-məani”. Beyrut.

85. Muhyiddin Nəvəvi, “Rovzətut-talibin”. Beyrut.

86. əl-Fəttal Nişapuri, ”Rovzətul-vaizin”. Qum.

87. Əbulfərəc Əbdürrəhman bin Əli bin Muhəmməd (İbn Cövzi), “Zadul-məsir fi ilmit-təfsiri”. Beyrut.

88. Şəmsuddin Əbu Abdullah Muhəmməd bin Əhməd Zəhəbi, “Zəğlul-ilmi”, Muhəmməd bin Nasir Əcminin tədqiqi ilə.

89. Muhəmməd Nasiruddin Albani, “Silsilətul-əhadisi-səhihə”. ər-Riyad.

90. Muhəmməd Kuseyri, “əs-Sələfiyyə beynə əhlis-sunnəti vəl-imamiyyə”. Beyrut.

91. Əbu İsa Muhəmməd bin İsa bin Surə Tirmizi, “Sünəni Tirmizi”. Beyrut.

92. Şəmsuddin Əbu Abdullah Muhəmməd bin Əhməd Zəhəbi, “Siyəru əlamin-nubəla”, Şueyb Arnautun tədqiqi ilə.

93. Təqiyuddin Əli bin Əbdülkafi Subki. “əs-Seyfus-səqil”.

94. Şərif Murtəza, “əş-Şafi fil-imamə”. Qum.

95. İbn İmad Əbdülhəyy bin Əhməd Hənbəli, “Şəzəratuz-zəhəbi fi əxbarin mən zəhəb”. Beyrut.

96. Muhəmməd Saleh Mazandarani, “Şərhu usulil-kafi”, Mirza Əbulhəsən Şəraninin tədqiqi ilə. Beyrut.

97. Həsən bin Məsud Şafei, “Şərhus-sunnə”, Şueyb Arnautun tədqiqi ilə. Beyrut.

98. Muhəmməd Saleh bin Useymin, “Şərhul-əqidətul-vasitiyə”.

99. Əli Qari, “Şərhul-fiqhil-əkbər”. İstanbul.

100. Muhəmməd Nasiruddin Albani, “Şərhul-muxtəsəru liləqidətit-tahaviyyə”.

101. Burhanuddin Luqani Maliki, “Şərhu Covhərətit-tovhid”, Abdullah Muhəmməd Xəlilinin təshihi ilə.

102. Əbu Zəkəriya Muhyiddin bin Şərəf Nəvəvi, “Şərhu Səhihi Muslim”. Beyrut.

103. Şərhu Qəsidəti Əhməd bin İbrahim bin İsa bin Qəyyim. Beyrut.

104. İzzuddin Əbu Hamid bin Hibətullah bin Muhəmməd bin Muhəmməd bin Hüseyn bin Əbulhədid Mədaini Mötəzili, “Şərhu nəhcil-bəlağə”, Muhəmməd Əbulfəzl İbrahimin tədqiqi ilə.

105. Səlahəddin Muncid, “Şeyxul-islam İbn Teymiyyə siyrətuhu və əxbaruhu indəl-muərrixin”.

106. Haşim Məruf Həsəni, “əş-Şiyətu beynəl-əşairəti vəl-mutəzilə”. Beyrut.

107. Əbulhüseyn Əhməd bin Zəkəriya bin Faris, “əs-Sahibi fi fiqhil-luğəti”.

108. Muhəmməd bin İsmail bin Muğirə Buxari, “Səhih Buxari”. Beyrut.

109. Həsən bin Əli Səqqaf, “Səhihu şərhil-əqidətit-tahaviyyə”. Əmman.

110. Cəfər Murtəza Amili, “əs-Səhih minəs-siyrəti”. Beyrut.

111. Əbdülqadir bin Muhəmməd Ğamidi, “Sifətun-nuzul”.

112. İbn Qəyyim əl-Cövziyyə, “əs-Səvaiqul-mursilə”, doktor Əli Muhəmməd Dəxilin tədqiqi ilə.

113. Əhməd Əmin, “Zuhal-İslam”. Qahirə.

114. Tacuddin bin Əli Subki, “Təbaqatuş-şafeiyyə”.

115. Muhəmməd Rza Muzəffər, “Əqaidul-imamiyyə”, Doktor Hamid Hufni Davudun tədqiqi ilə.

116. Əbulabbas Əhməd bin Əbdülhəlim bin Teymiyyə Hərrani, “əl-Əqidətul-vasitiyyə”. ər-Riyad.

117. Əbulabbas Əhməd bin Əbdülhəlim bin Teymiyyə Hərrani, “əl-Əqidətul-İsfahaniyyə”. ər-Riyad.

118. Həmud bin Abdullah Tuveyciri, “Əqidətu əhlil-imani fi xəlqi Adəm alə surətir-rəhman”. ər-Riyad.

119. Muhəmməd Baqir Həkim, “Ulumul-Quran”.

120. Xəlil Dəryan Misri, “Ğayətul-bəyan fi tənzihil-lahi ənil-cihəti vəl-məkan”.

121. Seyfuddin Amidi, ”Ğayətul-məram fi ilmil-kəlam”, Həsən Mahmud Əbdüllətifin tədqiqi ilə. Qahirə.

122. Əbdülhüseyn Əhməd Əmini, “əl-Ğədir”. Beyrut.

123. Əhməd bin Muhəmməd bin Əli bin Həcər Məkki Heytəmi, “əl-Fətaval-hədisiyyə”.

124. Təquyiddin Əli bin Əbdülkafi Subki, “Fətava əs-Subki”. Beyrut.

125. Əhməd bin Əbdürrəzzaq duveyş, “Fətaval-ləcinətid-daiməti lilbuhusil-ilmiyyəti vəl-ifta”. ər-Riyad.

126. Şihabuddin Əbulfəzl Əhməd bin Əli Əsqəlani (İbn Həcər), “Fəthul-bari şərhu səhihil-Buxari”. Beyrut.

127. Əbdülqahir bin Tahir Bağdadi, “əl-Fərq beynəl-firəq”. Beyrut.

128. Əbu Muhəmməd Əhməd bin Səid bin Həzm Zahiri, “əl-Fəslu fil-miləli vəl-əhvai vən-nihəl”. Qahirə.

129. Zəki Milad, “əl-Fikrul-islami fil-əsril-vəsit”.

130. Əbulfərəc bin Əbu Yəqub Bağdadi (İbn Nədim), “Fihrist İbn Nədim”. Beyrut.

131. Əbu Cəfər Muhəmməd Həsən Tusi, “əl-Fihrist”, Şeyx Cavad Qəyuminin tədqiqi ilə.

132. Haris bin Əsəd Muhasibi, “Fəhmul-Quran və məanihi”, Hüseyn Quvvətlinin tədqiqi ilə.

133. Abdullah bin Siddiq Məğribi, “əl-Qavlul-muqnii fir-rəddi aləl-Albani əl-mubtədi”.

134. Səid Əbdüllətif, “əl-Kaşifus-səğir ən əqaidi İbn Teymiyyə”. Əmman.

135. Əmr bin Osman Sibəveyh, “Kitabu Sibəveyh”, Əbdüssəlam Muhəmməd Harunun tədqiqi ilə. Beyrut.

136. İsmail bin Muhəmməd Əcluni, “Kəşful-xifa və muzilul-ilbas”. Beyrut.

137. Muhəmməd bin Əbdülvəhhab, “Kəşfuş-şubuhat”.

138. Əbu Mənsur Həsən bin Yusif bin Mutəhhər Əsədi Hilli, “Kəşful-murad fi şərhi təcridil-itiqad”. Qum.

139. Əlauddin Əli bin Hisamuddin Muttəqi Hindi, “Kənzul-ummal fi sunənil-əqvali vəl-əfal”. Beyrut.

140. Cəmaluddin Əbulfəzl Muhəmməd bin Mukərrəm bin Mənzur, “Lisanul-ərəb”.

141. Şihabuddin Əbulfəzl Əhməd bin Əli Əsqəlani (İbn Həcər), “Lisanul-ərəb”. Beyrut.

142. Muhəmməd bin Əbu Səhl Səraxsi, “əl-Məbsut”. Beyrut.

143. Əbu Cəfər Tahavi, “Mətnu Əqidətit-Tahaviyyə”, Albaninin tədqiqi ilə. Beyrut.

144. Əbu Ubeydə, “Məcazul-Quran”, Muhəmməd Fuad Sərkinin tədqiqi ilə. Qahirə.

145. Muhəmməd Hüseyn Əli Səğir, “Məcazul-Quran”.

146. “Məcəllətul İslam və vətən”.

147. “Məcəllətu Turasuna”.

148. Nuruddin Əli bin Əbu Bəkr Heysəmi, “Məcməuz-zəvaid və mənbəul-fəvaid”. Beyrtu.

149. Əbulabbas Əhməd bin Əbdülhəlim bin Teymiyyə Hərrani, Məcmul-fətava”, Əbdürrəhman bin Muhəmməd Asiminin tədqiqi ilə.

150. Muhəmməd Saleh bin Useymin, “əl-Muhaziratus-səniyyə”, Əşrəf Əbdelməqsudun tədqiqi ilə. ər-Riyad.

151. Səid Fovdə ,”əs-Sələfiyyətul-muasirə və əsəruha fi təştitil-muslimin” http/www.aslein.ne

152. Əbdülmuhsin bin Əbdüləziz Əskər, “Muhazirat: “əl-məcaz fil-luğəti vəl-Quran”.

153. Şəmsuddin Əbuabdullah Muhəmməd bin Əhməd Zəhəbi, “Muxtəsəru əl-Uluvv liləliyyil-ğəffar”.

154. Əbu Abdullah Əhməd bin Hənbəl Şeybani, “Musnəd”. Qahirə.

155. əl-Əxfəş, “Məanil-Quran”, Doktor Huda Mahmud Qaraənin tədqiqi ilə. Qahirə.

156. Əbu Cəfər Nəhhas, Məanil-Quran”, Muhəmməd Əli Sabuninin tədqiqi ilə. Məkkə.

157. Əbulqasim Süleyman bin Əhməd Təbərani, “əl-Mucəmul-kəbir”. Mosul.

158. Ömər Kəhalə, “Mucəmul-muəllifin”. Beyrut.

159. İlyan Serkis, “Mucəmul-mətbuatil-ərəbiyyə”. Qum.

160. Əbulqasim bin Əli Əkbər Musəvi Xoyi, “Mucəmu ricalul-hədis”.

161. Şəmsuddin Əbuabdullah Muhəmməd bin Əhməd Zəhəbi, “Mucəmu muhəddisi Zəhəbi”. Doktor Ruhiyyə Əbdürrəhman Suveyfinin tədqiqi ilə. Beyrut.

162. Rağib İsfəhani, “Mufrədatu Ğəribil-Quran”.

163. Əbulhəsən Əşəri, “Məqalarul-islamiyyin”. Beyrut.

164. Muhəmməd bin Zahid Kəvsəri, “Muqəddimətu kitabi əs-Seyfis-səqil”.

165. Əbulfəth Muhəmməd bin Əbdülkərim Şəhristani, “əl-Miləl vən-nihəl”, Muhəmməd Seyid Kilainin tədqiqi ilə. Beyrut.

166. Əbulabbas Əhməd bin Əbdülhəlim bin Teymiyyə Hərrani, “Minhacus-sunnətin-nəbəviyyə”, Doktor Muhəmməd Rəşad Salimin tədqiqi ilə.

167. İbrahim bin Musa Luxmi Ğərnati Şatibi, “əl-Muvafiqat”, Abdullah Dirazın tədqiqi ilə. Beyrut.

168. Əzududdin Əbdürrəhman İyci, “əl-Məvaqif”. Beyrut.

169. Ləmi əl-Mutiyi, “Movsuətu həzər-rəcul”. Qahirə.

170. İbn Muəllim Qurəşi, “Nəcmul-muhtədi və rəcmul-mutədi”. (əlyazma).

171. Əbulməhasin Cəmaluddin Atabəki, “ən-Nucumuz-zahirə”.

172. Əllamə Hilli, “Nəhcul-həqq və kəşful-sidq”. Qum.

173. Abdullah Nemət, “Hişam bin Həkəm”. Beyrut.

174. İsmail Paşa Bağdadi. “Hədiyyətul-arifin”. Beyrut.

175. Səlahuddin Xəlil Səfdi, “əl-Vafi bil-vəfiyyat”, Şueyb Arnautun tədqiqi ilə.

176. Əbulabbas Şəmsuddin Əhməd bin Muhəmməd bin Əbu bəkr bin Xalkan, “Vəfiyyatul-əyan”. Beyrut.